

Fərid Hüseynli / Nömrə Birlər

Fərid Hüseynli **NÖMRƏ BİRLƏR**
Bakı, Qanun Nəşriyyatı, 2013
408 səhifə. 1000 tiraj

Redaktorlar: Zaur Mustafayev
Günel Abdiyeva
Korrektorlar: Cəlal Səfərli
Ramilə Ələsgərova

ISBN 978-9952-26-

© Qanun Nəşriyyatı, 2013
© Fərid Hüseynli, 2013

Bu kitabın yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

Los Anceles şəhərində ard-arda müəmmalı qətillər baş verir. İki polis detektivi cinayətlərin üstünü açmaq tapşırığı alır. Dəlillər şəhərin istedadlı gənc detektivlərini bənzəri görülməmiş bir fanatizmlə üz üzə qoyur. Yaxud da ideal bir planla...

# Müəllifdən

2011-ci il, oktyabrın sonunda "Zamanın Göz Yaşları"nı yazmağa başladım. On dörd mayda isə ilk romanın son nöqtəsi qoyuldu. Çətin anların geridə qaldığını düşünsəm də, sonradan yanıldığımı başa düşdüm. Noyabrda kitab çap olunanda "budur, mən bacardım!" – dedim. Nəşriyyatdan götürdüyüm ilk nüsxəni dostum və ilk kitabda ən az mənim qədər pay sahibi olan Hüseynə hədiyyə etdim. Üzündəki sevinci gördükdə isə bir daha: "budur, mən bacardım!" – deyə öz-özümə təkrar etdim. "Zamanın Göz Yaşları" uzun əziyyətlərdən sonra işıq üzü görürdü.

Açığı, kitaba münasibətlər fərqli idi. Bəzilərindən həddən artıq müsbət rəy söylədi, bəziləri isə tənqid atəşinə tutdu. Heç birinə qarşı deyiləm. İnanın ki, istənilən fikri eşitmək mənə çox xoşdur. Bir neçə oxucu tərəfindən "Azərbaycanın Den Braunu" adlandırılmaq, digərləri tərəfindən isə fantastika janrında yazdığım üçün boş ədəbiyyat nümayəndəsi hesab olunmaq... Düşünürəm ki, ən azından, irad və fikir bildirən varsa, deməli, əsərə maraq var. Yeri gəlmişkən, dilimdən, yazı üslubumdan gileylənənlər də az olmadı. Dil imkanlarım bir o qədər də yüksək deyil, etiraf etməliyəm. Ancaq...

Ancaq dilimdə ədəbiyyat, bədiilik axtaran oxucuların fikrinə hörmət edərək deyirəm ki, "Zamanın Göz Yaşları" elmi-fantastik texno-triller janrında qələmə alınıb. Burada ön planda süjet xətti durur və əsərin axıcı olması üçün yazıda daha konkret dil imkanlarından istifadə etmişəm. Ölkə miqyasında məşhur kitab mükafatlarından birində isə jüri heyəti bunu bəhanə edərək məni növbəti tura keçirmədi. Təəssüf, onlar heç romanın iyirmi faizini oxumamışdılar. Nə isə! Bunların hamısı düzələcək. Sadəcə, vaxt və inam gərəkdir.

"Zamanın Göz Yaşları"nı daha bitirmədən "Nömrə Birlər"in ideyası, süjet xəttini qurmuşdum. Bu roman üçün

mənə ilham verən əsas faktor isə Maykl Ceksona qarşı sonsuz rəğbətim oldu. İncəsənət aləmində beş şəxsə vurğunam: Maykl Cekson, Eddi Mörfi, Maykl Krayton, Stiven Kinq və idealım Stiven Spielberq. Yəqin ki, bu insanlar olmasa, mən indi bu fikirləri sizlərlə bölüşməzdim. Yazdıqca mövzudan, deyəsən, kənarlaşıram, amma niyəsə çox həyəcanlıyam indi. Bu ön söz üzərində, redaktor və korrektor bir xeyli işləməli olacaq, deyəsən ☺.

Demək, özülünü avqusta qoyduğum "Nömrə Birlər"i 8000 söz işlədikdən sonra müəyyən səbəblərdən dekabrın 17-sinə qədər təxirə salmalı oldum. Aprelin 25-də isə romanı bitirdim, amma bu dəfə – ilk romandan fərqli olaraq – üz qabığı artıq ayın 19-u hazır idi. Fürsətdən istifadə edib, Devid Linç sevər dizaynerimə buradan təşəkkürlərimi çatdırıram. Roman bitdikdən sonra isə yenidən bəzi problemlər, redaktədəki gecikmələr və başqa səbəblər ucbatından iş uzansa da, romanın texniki və bədii göstəricilərinin ilk kitabdan daha yaxşı olacağına əminəm.

Nəhayət: bu abzasda "Nömrə Birlər"dən danışacayıq! Bilirsiniz, insan təxəyyülünün limitləri yoxdur. Bəs bu limitsiz imkanlara bir maniak sahibdirsə, necə olsun? Romanın mənfi qəhramanı Maykl Ceksona məxsus Nömrə Bir(!) mahnılardan istifadə edərək unikal bir sxem qurur və bu sxemə əsasən qurbanlarını növbə ilə aradan götürür. İki Los-Anceles detektivi isə onun axtarışına başlayır. Sonra işə şəhərin merindən tutmuş ən xırda sakinlərə qədər hər kəs qarışmalı olur. Süjet ilk romana nisbətən daha ağırdır. Burada da kifayət qədər dinamika var. Hətta, bir neçə döyüş səhnəsi masştab və həcm baxımından "Zamanın Göz Yaşları"nı üstələyir, amma janrlar kifayət qədər fərqlidir. Bu dəfə real həyata çox daha yaxınıq.

Romanın süjet xəttinə bir neçə mənbə kifayət qədər təsir göstərə bilib. Məsələn, Volfqanq Petersen tərəfindən çəkilmiş

baş rolunda dahi Klint İstvudun oynadığı Atəş Xəttində (İn the line of fire) filmi, Li Çayldın Xətasız (Without Fail) romanı, xüsusən, Edqar Alan Ponun həyatı və s. O ki qaldı, romanın süjet xəttinin orijinallığına... Bitirdikdən sonra özünüz görəcəksiniz! Sizə xoş mütaliələr diləyib süjetlə bağlı söhbətimizi burada başa çatdırıram.

Hazırda ingilis dilində "İntersection" adlı roman üzərində çalışıram. Roman sürreal dram janrındadır. Çox açıqlama verməyim, əsər qəza nəticəsində dörd nəfərin həyatını dəyişməsindən bəhs edir. Çalışacağam onu da tezliklə sizlərə təqdim edim. Daha sonra isə "Zamanın Göz Yaşları"nın davamı gələcək. Fred və Harri hələ öz sözlərini tam deməyiblər axı.

İndi isə ən son məqam: Mənim yazıçı kimi fəaliyyət göstərməyimdə rol oynayan bütün şəxslərə, başda Şahbaz bəy olmaqla "Qanun Nəşrlər Evi"nin, mehriban kollektivinə (Günel Abdiyevaya xüsusi minnətdarlıq), romanın özülünün atılmasında mənim yanımda olmuş və sonra da bir saniyə belə mənə olan inamlarını itirməmiş valideynlərim və dayıma, Hüseyn Abdulla, Cəlal Səfərli və Ramilə Ələsgərovaya, redaktə işlərində kömək etmiş Zaur Mustafayevə, İT sahəsində mənə kifayət qədər məlumat vermiş, adının çəkilməsini istəməyən dostuma və məni öz yaradıcılığımı genişləndirməyə, sözün yaxşı mənasında, vadar etmiş hər bir oxucuya, yəni SƏNƏ minnətdarlığımı bildirirəm! Təşəkkürlər, əziz dost(lar)!

**Gələn ön sözədək!!!**

*Hörmətlə, Fərid Hüseynli*
Bakı. 09.09.2013
05.23

# Proloq

Payızın sərin havası... Oktyabrda Los-Ancelesə xas bir gecə... Artıq yavaş-yavaş gecə növbəsini səhərə təhvil verməyə hazırlaşır. Bir neçə saatdan sonra ətrafa işıq saçan lampalar sönəcək, gecənin nisbi sakitliyi sıradan bir iş gününün izdihamı ilə əvəz olunacaq. Onun mənzilində isə qaranlıq hökm sürür, çünki mənzilin pəncərələri pərdələrlə örtülüdür. İçəridə isə yalnız stolüstü lampa közərir. Bu məkan hal-hazırda qaranlığın əsirinə çevrilib. Lampa nə qədər çalışsa da, bu əsarətin altından çıxa bilmir.

O, dizləri üstə dayanaraq gözlərini qarşısındakı şəxsə zilləmişdi. Lampanın qarşısında dayanan şəxsin görüntüsü daha da qorxulu, tükürpərdici mənzərə yaradırdı. Dizləri üstə donub qalan qara dərili zavallı başının üstündəki şəxsə baxanda Tayler Gibson artıq ölümün onu gözlədiyini dərk etdi. Buna heç vaxt olmadığı qədər əmin oldu.

Evinə bu şəxslə gələrkən sərxoşluqdan ayaq üstündə güclə dayanırdı. Nəyi isə düşünməyə cəhd belə etmirdi, çünki içkinin əsirinə çevrilmişdi. Onun əsiri olmaq Gibsona fərqli bir həzz verirdi.

Lakin indi isə yenidən real və qəddar həyata geri döndü. Onu reallığa qaytaran qüvvənin adı qorxu idi. Qarşısındakı şəxs tərəfindən bədəninə endirilən zərbələrin ağrısından meydana çıxan qorxu. Üstəlik bir neçə saniyədən sonra onunla görüşəcək olan ölümün qorxusu.

– Mən səni heç tanımıram da. Məndən nə istəyirsən? – Gibson cəsarət toplayaraq soruşdu. Onun ağzı son beş-altı dəqiqədə lentlə bağlı idi. Bir neçə saniyə əvvəl lent bıçaqla kəsilmiş, qara dərilinin dodağını da zədələmişdi.

– Səndən? – o, gülümsədi, – sualı düz verməlisən. Bax belə. Sənin doğum tarixindən nə istəyirəm? Bəlkə, başqa vaxt dünyaya gəlsən, bu sualı verməzdin.

– Heç nə anlamıram. Ancaq yalvarıram. Məni öldürmə. Mənim heç kimə ziyanım dəyməz.

– Yox, Tayler. Səni öldürməsəm, bu işin mahiyyəti olmaz axı.

– Mən niyə? – Gibson artıq ağlayırdı. Barmaqları ilə üzündəki təri silib yenidən ona dedi, – yalvarıram. Məndən heç kəsə pislik gəlməyib.

– Bu insan təbiətidir. Dara düşəndə yalvarırsan. Hamı belə edir. Bəs, səncə, hər yalvaran bağışlansa, insanlar niyə əziyyət çəkib yalvarardılar ki? Hamının günahları silinsə, dünyanın balansı pozulmuş olardı. Haqlıyam?

– Bilmirəm, – bu sual Gibsonu belə bir halda belə düşünməyə vadar etdi, – yəqin, problem bizim özümüzdədir.

– Əlbəttə! Gözlədiyimdən daha kreativ çıxdın. Əhsən!

O güldü. Ardınca isə qarşısında diz çökmüş Gibsonun sinəsinə bir təpik vurdu. Zərbənin təsirindən mənzilin sahibi beli üstə döşəməyə yıxıldı. Lampanın işığı söndü. Görünür, Gibsonun cavabı onu qane etmişdi. İçəri tamam səssizliyə qərq oldu. Möhkəm

baş ağrısı səbəbindən yerindən qalxa bilməyən mənzil sakini sakitcə ətrafa nəzər saldı. İçəridə zülmət qaranlıq hökm sürürdü. O, gözü ilə ətrafı çətinliklə müşahidə etdikdən sonra həmin şəxsin buranı tərk etdiyini düşündü. Əlinə keçən fürsəti dəyərləndirərək cibindən telefonunu çıxardı. Ekranı görmürdü. Başını tərpətmək üçün isə özündə qüvvə tapa bilmirdi. Barmağını düymələr üzərində hərəkət etdirərək əvvəlcə doqquz, sonra isə iki dəfə bir düyməsini sıxdı. Əlini YES düyməsinə gətirərkən istəməsə də, telefonu əlindən atmalı oldu.

– Əzizim, mən sadəcə sobanı söndürməyə getmişdim. Sən isə həmin andaca dəcəllik etdin. Məni niyə məyus edirsən axı, Tayler?

O, əvvəlcə qurbanın ağzını yenidən lentlə bağladı, sonra əlində tutduğu əşyanı onun üzünə yaxınlaşdırdı. Başını dayanmadan silkələsə də, Gibsonun səyləri bir nəticə vermədi.

# 1



## 14 oktyabr

**– Yooox!**

**O, yerindən atılaraq yuxudan oyandı. Yenə də həmin kabus. Artıq bir neçə aydır ki, onu rahat buraxmayan kabus. Üstünü örtdüyü mavi adyalı dartaraq alnının tərini sildi. Sürətlə nəfəs alırdı. Başını sağa döndərib saata baxdı. 03:47. Son vaxtlar bu kabus onun həyatını alt-üst etməyə nail olmuşdu. Yuxusu dağılmış, gündəlik rejimi pozulmuşdu. Buna səbəbkar isə yalnız özü idi.**

Çarpayıdan qalxaraq yavaşca dartındı. Əsnəyib güzgüyə baxdı. Gözlərinin altındakı şişlər böyüməkdə davam edirdi. Son üç gün, ümumiyyətlə, çox ağır keçmişdi. Kabus onu tədricən məhv edirdi. Bir stəkan soyuq su götürmək üçün mətbəxə üz tutdu. Suyunu içə-içə yenidən yataq otağına qayıtdı. Bir neçə dəqiqə sakitcə özünü seyr etdi.

Frenk Teylor. 29 yaşında, subay LAPD[1] detektivi. O, artıq 6 yaşında ikən polis olmaq qərarına gəlmişdi.

[1] Los-Angeles Police Department – Los-Anceles Polis Departamenti

Bu qərarının səbəbi isə ona dəqiq məlum deyildi. Sadəcə ekstrim və həyəcanı sevirdi. Baxmayaraq ki, o, yeddi ildən artıq karyerasında insanlara istədiyi qədər yardım edə bilməmişdi. Cəhdlərinin bəzilərində isə günahsız insanlara ziyanı dəymişdi. Polis olmaq uşaqlığında düşündüyündən daha maraqsız və yorucu iş idi. Monoton iş qrafiki isə onu təngə gətirirdi. Üstəlik tək yaşaması həyatını daha da sıxıcı etmişdi. Yaşının ötməsinə baxmayaraq, o, hələ də özü üçün ideal qadın axtarıb tapa bilmirdi. Bəlkə də, buna maneə işinə və özünə çox qapanması idi.

İşini bütün qəlbi ilə sevməsə belə.

Boyu 1.84, çəkisi isə 95 kilodan azca çox idi. Lakin bunu artıq çəki saymaq olmazdı. Ümumi bədən əzələləri kifayət qədər yaxşı işlənilmişdi. Fiziki olaraq 10 baldan 9-a yaxın vəziyyətdə idi. Siqaret, içki və sairə kimi vərdişlərdən uzaq olan Frenk hər səhər idmanla məşğul olur, öz formasını itirməməyə çalışırdı. Arabir içki embarqosunu qaldırdığı vaxtlar da olurdu. Onun avropasayağı açıq rəngli dərisi, tünd qəhvəyi saçları vardı. Kömür rəngində qara gözləri nadir göz növləri sırasına rahatlıqla daxil ola bilərdi. Uşaqlıqda aldığı zədədən sonra burnu üst hissədən nahamar forma almışdı. Yanağındakı almacıq sümükləri qulaqlarına tərəf meyllənmişdi. Sivri çənəsi tünd xarakterli olduğundan xəbər verirdi. Bundan başqa o, dörd il qabaq sol çiynindən güllə yarası almışdı.

O, daha bir neçə dəqiqə güzgü qarşısında dayanıb sonra yenidən yerinə uzandı. Gözlərini yumaraq son bir dəfə yuxuya getməyə çalışdı. Ümid edirdi ki, bu

gecə daha həmin kabusu görməz. Yuxuya ehtiyacı var idi. Sabah onu daha bir darıxdırıcı gün gözləyirdi. Ofisdə və yollarda keçirəcəyi daha bir darıxdırıcı gün.

Elektron saatın səsi eşidildi. Onun üzərindəki LED lampalar 06:30 vaxtını göstərirdi. Frenk bir saat əvvəl zorla yuxuya gedə bilmişdi. İndi isə artıq oyanmağın, yeni günə başlamağın vaxtı gəlib çatmışdı. "Los-Angeles Lakers" emblemli gödəkcəsini əyninə keçirib bayıra çıxdı.

Hava sərin idi. Hər səhər iyirmi dəqiqəsini kvartal boyu qaçmağa sərf edirdi. Həmən vaxtda özünü həm fiziki, həm də mənəvi cəhətdən tənzimləməyə çalışırdı. Doqquzda onun işi başlayırdı. Bu vaxta qədər isə Frenk özünü tam işinə fokuslamaq üçün gündəlik idman normativlərini yerinə yetirir və on beş dəqiqə kitab oxuyurdu. Hal-hazırda o, ingilis detektivlərini araşdırmaqla məşğul idi. Bu gün də digərlərindən çox fərqlənmədi. Qaçışdan qayıtdıqdan sonra soyuq duş qəbul etdi. Səhər yeməyini bitirib, kreslosunun başına keçdi. İndi Dik Frensisin[2] "Proof" romanını oxuyurdu. Bundan əvvəl bir neçə dəfə Frensislə görüşmüşdü. Müəllifin "Dead Cert" romanı isə Frenkin ən yaxşıları siyahısında dururdu. Mütaliə onun üçün istirahətin ən gözəl növü idi. O, qəhvəsindən qurtumlayaraq beləcə gözəl və əvəzolunmaz on beş dəqiqəni başa vurdu. Daha sonra isə hazırlaşmağa başladı. Mülki polis olduğundan forma geyinmirdi. Bu gün Teylor qara şalvar, tünd-göy köynək və qara qalstukla işə

---

[2] Francis Dick (1920-2010) məşhur britaniyalı detektiv yazar. Məşhur Edgar Award mükafatının üç qat qalibi.

getmək qərarına gəldi. Saçlarını daramağı sevməzdi. Sadəcə güzgüdə onların normal halda olduğundan əmin olub ayaqlarına ağ rəngli "Nike" ketlərini keçirdi və evdən çıxdı.

Teylor artıq beş ilə yaxın idi ki, 1970-ci il istehsalı olan qara rəngli "Dodge Challenger" sürürdü. O, sükan başına keçib mühərriki işə saldı. Bu maşın ona atasından yadigar qalmışdı. Teylor maşını formada saxlamaq üçün bir neçə dəfə onu təmir etmiş, müxtəlif hissə və detallarını daha yeniləri ilə əvəzləmişdi. Üstəlik, müntəzəm olaraq nasazlıq olub-olmadığını yoxlatdırırdı. Bu maşın ona əziz idi. Mühərrikin qızmasını gözləyərkən CD-playerdə nə dinləyəcəyini düşündü. Səhərlər, əsasən, ritmik mahnıları dinləməyi sevərdi. Qərarını verməmiş telefonuna zəng gəldi:

– Teylor eşidir, – deyə o, həmişəki soyuqqanlı tərziylə zəngə cavab verdi.

– Frenk, vəziyyət ağırdır. Evdən çıxmısan? – bu səs həmkarı detektiv Hovard Endiyə məxsus idi.

– Maşını qızdırıram. Nə olub ki?

– Glaidz Park tərəfdə problem var. Qətl hadisəsi...

Teylor Dauntaun ərazisində yaşayırdı. Glaidz Park isə oradan bir kilometr qədər məsafədə yerləşirdi.

– Gəlirəm.

# 2



**Teylor ağır addımlarla cinayət baş vermiş binanın üçüncü mərtəbəsinə qalxırdı. O, buraya çatanda artıq binanın qarşısında bir yanğınsöndürən, bir təcili yardım və üç polis maşını dayanmışdı. Binanın qarşısında bir qrup insan həyəcan içində dayanmışdı. Yanğınsöndürənin burada olma səbəbi Frenkə qəribə gəldi. O, cinayətin baş verdiyi mənzilin içərisinə keçdi.**

Ev çox səliqəsiz idi. Köhnə və təmizlənməmiş mebel. Çirkli döşəmə. Evin içində səyahət edən spesifik qoxu. Döşəmənin üzərində sınıq stəkan qalıqları və stəkanın qalıqlarından bir neçə addım kənarda qara dərili bir cəsəd.

– Yaxşı ki, gəldin. Necəsən? – deyə Hovard Teylora tərəf yaxınlaşdı. Onun sualına cavab olaraq Teylor azca başını yellədi. Gözlərini cəsədə zilləmişdi. Səhnə dəhşətli idi. Ortağı Teylorun bu vəziyyətdə nələr düşünə biləcəyini təxmin etdiyindən sözünə davam etdi, – Tayler Gibson. İyirmi iki yaşlı memar olmağa hazırlaşan tələbədir. Üstəlik özəl tikinti şirkətlərindən

birində işləyir. Hər iki ayağından güllə yarası. Boğaz ətrafında yanıq izləri və ən əsası da bu, – o, qurbanın alnına damğalanmış işarəni göstərdi, – gilizlərdə nə bir barmaq izi, nə də DNT əldə edə biləcək bir şey. Professional bir qətldir.

– Yaxşı, bəs onun alnına vurulmuş damğa barədə əlimizdə nə var?

– Konkret heç nə, Frenk. Amma çavuş Nikolz bunu yunan hərfi omeqaya bənzədir.

– Omeqa? – Teylor əyilərək qurbanın alnındakı yaraya baxdı. Damğanın toxunduğu hissələr dəri qatını yandırmışdı. Əmələ gəlmiş ləkə isə müəyyən bir simvolu əks etdirirdi.

ω

– Hə, Frenk, kiçik omeqa.

– Ölümün vaxtını müəyyən edə bilmisiniz, Endi?

– Təqribi olaraq beş-altı saat qabaq. Lakin yekun cavab üçün ekspertizaya ehtiyac var. Maklavskidən artıq görüş almışam.

– Hmmm... Yaxşı, bəs polisə xəbər verən şəxslə danışmısınız? Əlimizdə əsas var?

– Burada vəziyyət bir az qarışıqdır, – Hovardın üzündəki ifadə dəyişdi.

– Necə ki?

– Bizə LAFD[3] xəbər verib. Onlara isə Gibsonun qapı qonşusu.

– Başa düşmədim, – Teylor ortağına təəccüblü bir baxış ünvanladı.

---

[3] **Los-Angeles Fire Department** – Los-Anceles Yanğın Departamenti.

– Bu mənzilin sobasında bir neçə həftədir, qaz sızması problemi var. Bina sakinləri bir neçə dəfə mənzil sahibinə şikayət etsələr də, Gibson bu problemin həllinə fikir verməyib. Bu səhər də onun üzbəüz qonşusu xanım Marqaret təhlükə hiss edən kimi yanğınsöndürənlərə xəbər göndərib. Görünür, bizim professional sobadakı problemlə tanış olmayıb. O, istifadədən qabaq damğanı sobada qızdırıb. Nəticə olaraq qaz sızması baş verib və yanğınsöndürənlər bura çağırılıb. Onlar da gördüklərindən sonra bizlə əlaqə saxlayıblar. Yəni cəsədin bu qədər tez tapılmasında bəxtimiz yaman gətirib.

– Qətlə yetirilmiş şəxs haqqında əlimizdə nə məlumat var?

– Hələlik çox az. Amma qətl səbəbi olaraq onun borcları olduğunu güman etmək olar.

– Borc? – Teylor yenidən ayağa qalxdı.

– Aha. Ferrell artıq onun barəsində ətraflı araşdırma aparır.

Teylor bir daha vəhşicəsinə öldürülmüş Gibsonun cəsədinə nəzər saldı. Mənzərə getdikcə daha da iyrəncləşirdi. Sonra isə o, Hovard ilə bərabər bayıra çıxaraq binanın ətrafına göz gəzdirdilər. Yanğınsöndürənlərin hadisə yerində olması səbəbindən hələ də sakinlərin bir qismi bayırda gözləyir və evlərinə qayıtmağa tələsmirdilər. Teylor ətrafı tədqiq etməyə başladı.

– İzləmə kameralarındakı yazıları yoxlamaq lazımdır, – o dedi.

– Artıq idarədəkilər bu işlə məşğul olurlar. Nikolz qonşulardan müəmmalı bir şəxs görüb-görmədiklərini soruşub. Gibson evə çox gec gəldiyindən çoxları onun evə nə vaxt gəldiyini belə bilmirlər.

– Bəs o özü necə qonşu olub?

– Heç şikayət edənlər yoxdur. Normal, zərərsiz biri imiş. İş, ev, universitet. Sadəcə bir az laqeyd gənc amerikalı tipi təsiri bağışlayıb. Çoxluq bu fikirdədir.

– Valideynlər barədə bəs necə?

– Onlar əslən Nyu Yorkdandırlar. Səkkiz il əvvəl boşanıblar. Anası Suzan Oneil yenidən ailə həyatı qurur, lakin sonra uşaq atalıqla yola getmir. Nəticə olaraq isə tək yaşamağa qərar verir. Klassik sosial problem sindromu. Biz onun anasını artıq idarəyə çağırmışıq.

– Endi, səncə, bu qədər sıradan bir insan nə səbəbdən professional bir cinayətin obyektinə çevrilib?

– Bəlkə, biz onun haqqında hər şeyi bilmirik? Axı borcları olduğunu demişdim. Bəlkə, professionallardan borc alıb?!

– Hər halda, yenə də iş bununla məhdudlaşmır. Valideyn övladı ilə vidalaşdıqdan sonra cəsədin yarılmasını istəyirəm. Saat ikidə hamı idarədə olsun. Ferrell və Nikolzdan iclasa qədər izahatları hazır etmələrini xahiş elə. Braun isə kamera yazılarına baxsın. Ölünün yarılması ilə özüm məşğul olaram.

– Yaxşı, bəs mən? – Hovard qaşlarını qaldıraraq ondan soruşdu, – mənə heç nə tapşırmırsan?

– Saat neçədə yatmısan?

– Gecə yuxu tutmadı. Mən də şəhəri dolaşmaq qərarına gəldim. Patrulluq etdim bir növ.

– Onda saat ikiyə qədər bir az dincəlin. Qarşıda yorucu iş rejimi olacaq.

– Mən yaxşıyam.

– Detektiv! – deyə Teylor səsini azca yüksəldərək kəskin bir baxışla həmkarına tərəf döndü.

– Yaxşı, təkid edirsinizsə, mən gedirəm. Əgər bir şey lazım olsa, xəbər edin.

– Ok, xoş getdiniz. Amma ikidə idarədə olmaq şərtilə....

Teylor və Hovard üç ilə yaxın idi ki, bir yerdə işləyirdilər. Onun köhnə ortağı atışma zamanı həlak olduqdan sonra perspektivli Endi Hovard və o, birgə çalışmağa başlamışdılar. Əvvəllər təcrübəsiz olmasına baxmayaraq, bu uzunboy qaraşın gənc bir neçə ay sonra Teylorla ayaqlaşa bilmişdi. İndi isə Frenk Teylorun ən yaxın adamlarından biri və yaxın dostuna çevrilmişdi. Ortaq olsalar da, Hovard ondan üç yaş kiçik idi. Məhz bu səbəbdən də Teylor onu danlaya bilirdi. Həm də ki gözəl münasibətləri var idi. Bir neçə sərt söz bu münasibətin özülünü sarsıda bilməzdi.

Teylor Hovardın öz gümüşü rəngli “Chevrolet Malibu”suna minərək oradan ayrılmasını seyr etsə də, fikri təcili yardım maşınına qaldırılan qətl qurbanı Tayler Gibsonda idi. Çoxdan idi ki, belə bir professional cinayət şahidi olmamışdı. Bu isə onu düşündürürdü. Bundan sonra nə olacağını və nə edəcəklərini düşünürdü. Bu gün, deyəsən, gözlədiyi qədər də monoton keçməyəcəkdi.



# 3

## 13:32

**LAPD həmişəki kimi insanlarla dolubdaşırdı. Yenə də şikayətçilər, öz hüquqlarını müdafiə edənlər, müxtəlif şöbələrdə çalışan polislərin operativ əməliyyatları və sairə. İlkin olaraq qarışıq görsənsə də, bir müddət keçdikdən sonra ab-havaya alışırsan. Hətta bəzən burada olmaqdan ötrü darıxırsan. Nə də olsa, əgər yaxşı polissənsə, ikinci evini sevməyi öyrənməlisən.**

Teylor tibbi ekspertiza otağının qarşısındakı stullardan birində əyləşib Suzan Oneilin oğlu Tayler Gibson ilə vidalaşmasını gözləyirdi. Onunla üzbəüz isə qadının ikinci həyat yoldaşı Cac Oneil əyləşmişdi. Xanımı ilə birlikdə içəri daxil olsa da, bir neçə dəqiqə sonra oradan çıxmışdı. Görünür, atalıqla mərhumun münasibətləri o qədər də yaxşı olmayıb. O, Teylorun baxdığını hiss edib dedi:

– Artıq iyirmi beş dəqiqə keçib. Detektiv, bəlkə, bir az onları tələsdirəsiniz?

O, cənab Oneilin sözlərini qulaqardına verib başını sakitcə aşağı saldı. Beynində qarşısındakı insanın necə də nəzakətsiz biri olduğunu düşünürdü. Axı içəridəki cəsəd onun baş üzərində ağlayan ananın tək övladıdır. Ananın çəkdiyi dərdin sərhədləri indi yalnız özünə məlum idi. Teylor bu tip insanları hər gün görürdü. Fəqət hələ də onların özlərini belə aparması ilə barışa bilmirdi.

Qəfildən qapı açıldı. Suzan Oneil dikdabanlarda bayıra çıxdı. Qırx beş yaşlarında ortaboylu, qara dərili xanımın gözlərində hələ də yaş damlaları görünürdü. Göz yaşları qara dəri üzərində parlayırdı. Teylor onu görən kimi ayağa qalxdı. Xanım həyat yoldaşının boynundan yapışaraq üzünü onun sinəsinə dayadı. Cac əli ilə bir neçə saniyə onun saçlarını tumarladı. Sakitləşdikdən sonra isə qadın üzünü çevirdi, burnunu çəkərək dedi:

– Detektiv, siz onu tapacaqsınız? – onun tonu çox sərt idi.

– Bizim qüvvələr əllərindən gələni edir, Ms.Oneil.

– Yox! Mənə söz verin ki, onu tapacaqsınız! – deyə qadın daha sərt və yüksək bir tonla ifadəsini kəskinləşdirdi.

Bu tip zəmanət tələb edənlərin sayı az deyildi. Xanım Oneil isə nə bir ilk, nə də bir son olacaqdı. Teylor məcbur da olsa, söz verməli idi. Əsas problem verilən sözə əməl etməkdir. O isə öz işində uğursuzluqlara da düçar olmuşdu. Sözünü pozmağa nifrət etsə də, cinayət qurbanlarının yaxınlarını ruhlandırmaq

üçün həmişə onlara söz verərdi. Sadəcə formal bir məsuliyyət.

– Söz verirəm, xanım Oneil. Söz verirəm, – bu sözləri deyərkən o, qadının gözlərinə baxmamağa çalışdı.

Bundan sonra Oneillərlə sağollaşdı. Qəhvə avtomatına yaxınlaşıb espresso sifariş etdi. Gecə yaxşı yatmadığından yüngül baş ağrıları hiss edirdi. Tələsmədən içkisini içirdi. Çünki atopsia[4] şöbəsinin aparıcı işçisi olan Maklavski tələsməyi sevmirdi. Oneil isə onun yanından təzəcə çıxmışdı. Maklavskiyə fasilə verilmədikdə, özünü azğın bir it kimi aparır. Məhz bu səbəbdən Teylor bir neçə dəqiqə gözləmək qərarına gəldi. Ölüm səbəbini öyrənməkdən ötrü onlar birlikdə dəfələrlə meyit yarmışdılar. Buna görə də bir-birlərinin xasiyyətinə yaxşı bələd idilər.

Bir neçə dəqiqəni başa vurduqdan sonra o, Gibsonun bədəni saxlanılan otağa daxil oldu. Qapını açan kimi cəsədin qara ayaqları görsəndi. Ardınca isə Teylor bütünlüklə bu dəhşətli səhnəni seyr etdi. Güllələrin yeri dizində iyrənc bir səhnə yaradırdı. Onun hər iki dizi sıradan çıxmışdı. Alnı isə, ümumiyyətlə, ürək bulandırırdı. Cəsədin saxlanıldığı masanın başında isə bir cüt çəkmə hərəkət edirdi. Maklavskiyə məxsus çəkmələr. O, ayaqlarını ölü saxlanılan masanın üzərinə qoyub öz təkərli kreslosunda oturmuşdu. Üzərində sarışın çılpaq bir qız şəkli olan jurnal vərəqləyir, ayaqlarını atopsia masasının üstündə tərpədərək kreslonu sürürdü.

---

[4] Meyit yarma üsülu ilə ölən şəxsin ölüm səbəbinin öyrənilməsi və dəqiqləşdirilməsi.

– Sən onu burada necə oxuyursan, Leks? – o, Maklavskidən soruşdu.

– Bu gözəlçələrə baxmasam, ölülərin əlindən dəli olaram. Niyə belə tez gəldin?

– İkidə uşaqlarla iclasımız var.

– Hə, – qısa fasilə, – məndən nə istəyirsən? Niyə vaxtımı alırsan, Teylor?

– Birincisi, ayaqlarını oradan rədd elə. İkincisi də, gəl başlayaq...

Maklavski üzünü turşudaraq ayaqlarını masadan götürdü. Dirçəlib jurnalı kənara atdı. İndi onun üzü görünürdü. Həmişə olduğu kimi burnunun ucunda dayanan təmizlənməmiş eynəklər. Səliqəsiz saç və saqqal. İlk baxışdan əqli xəstələri xatırladan arıq, cılız, 40 yaşlarında bir insan vücudu....

– Frenk, mən sənin iyrənc cəsədinlə nə vaxt təcrübə aparacağam?

– İşə başlamasan, indi səni Gibsonun üzərinə uzadacağam.

– Hmmm, – o, eynəyini düzəldib ani anda mövzunu tamamilə dəyişdi, – hər ayağında dizlərə iç cinahdan güllə. Qatil təcrübəli olub. Diz əzələlərinə atəş açaraq ayaqları sıradan çıxarıb. Silah “Beretta 96”. Pis seçim deyil. Məncə, tapança 2002-ci il istehsalıdır. Güllələrin kalibri ABŞ istehsalı olan 40 S&W(10×22mm Smith & Wesson). Atəş açıldıqdan sonra Tayler ən azı 12-14 dəqiqə dizləri üstə saxlanılıb, – o, diz ətrafı damarların üzərindəki cızıqları göstərdi, – görünür, qatilə qarşı dirənib. Lakin ayağa qalxa bilmədiyindən cəhdləri heç bir fayda verməyib. Fikir ver, – onlar ayaq

tərəflərdən yuxarı qalxdılar. Maklavskinin işarə etdiyi boğaz ətrafındakı qızartılara göz atdılar, – görünür, o, müqavimət göstərərkən qatil onun boğazından yapışıb. Fəqət orada barmaq izləri tapa bilmədim. O, özünü yaxşı gizlədir, Frenk. Təcrübəm deyir ki, bu, son olmayacaq.

– Haqlısan. Bəs damğa haqqında nə deyə bilərsən, Leks?

– Bu omeqaya oxşayır, bir az.

– Bunu keç. Sonra?

– Kiçik omeqa hərfinə.

– Leks, – Teylor üz-gözünü əydi.

– Damğa kimi istifadə edilən metalın temperaturu 300-350 dərəcədən çox deyil. Böyük ehtimal, ev sobası və yaxud da ütünün köməyi ilə qızdırılıb, – o, fasilə verdi. Teylor isə cəsədin alnındakı yaranı seyr edirdi. Damğa o qədər də dərin kök salmamışdı. Səbəb isə Maklavskinin dediyi kimi temperaturun çox yüksək olmaması idi, – dərinin üst qatı olan epidermis sıradan çıxsa da, alt hissə dermisə o qədər də xələl gəlməyib. Ölüm səbəbi qan itkisidir, Frenk. Onu deyə bilərəm ki, bədbəxt ölməzdən əvvəl çox əziyyət çəkib. Amma içkili olduğunu nəzərə alsaq, bu hadisələrdən qabaq kefi kök olub.

– Başqa maraqlı nə fakt var?

– Yaxşı yadıma saldın. Damğanın materialı misdən olub.

– Mis? – Teylor qaşlarını qaldıraraq soruşdu.

– Hə. Onun ərimə temperaturu çox yüksək olmadığından alın üzərində mikroskopik mis qırıntıları tapmışam.

– Niyə məhz mis?

– Daşınması, soyudulması rahatdır. İstiliyi o qədər də yaxşı saxlamır. Üstəlik daha kövrəkdir.

– Hmmm, – detektiv bir anlığına fikrə getdi. Qətl hadisəsini beynində canlandırmağa çalışdı. Xırda kadrlarla cinayəti beynində bir daha canlandırmağa çalışdı. Bu fikirlərdən isə reallığa alqış səsləri altında qayıtdı. Əl çalan Maklavski idi, – nəyə əl çalırsan?

– Cinayətkarın ustalığına. Belə biri alqışa layiqdir, ya yox?

– Leks, boşboğazlığı burax. Mən gedirəm. Amma son bir dəfə onu yenidən yoxla. Bəlkə, nə isə tapdıq.

– Yaxşı, Frenki. İndi isə buradan cəhənnəm ol. Gedim, bir az jurnal vərəqləyim. Kifayət qədər mane olmusan artıq.

# 4

## 13:56

**Teylor və daha iki həmkarı kiçik iclas otağında oturmuşdu. O, sakitcə gözlərini yumub Nikolz və Hovardın gəlişini gözləyirdi. Punktuallığı xoşlayan Teylor və adamları heç vaxt iclas və sairə kimi tədbirlərə gecikməzdilər. Əksər işlərdə birlikdə çalışan bu beşlik kifayət qədər uğurlu komanda idi. Aralarında ən gənc polis olan Qebriel Braun iyirmi iki yaşını təzə qeyd etmişdi. Təcrübəsiz işçilərlə öz praktikasını bölüşməyi sevən Teylor onu bir neçə ay əvvəl aralarına götürmüşdü. Sarısaç əslən kanadalı Stiv Ferrell isə iki il idi ki, onlarla birgə fəaliyyət göstərirdi. Bu komanda özünü dəfələrlə yaxşı mənada sübut etməyə nail olmuşdu. İndi onlar aralarında Beyzbol haqqında danışırdılar.**

Dörd dəqiqə keçdikdən sonra artıq onların beşi də iclas otağında yerlərini almışdılar: dairəvi masa və onun ətrafındakı stullar. Həmişəki kimi qarşılarında tünd qəhvə və əldə etdikləri məlumatlar toplusu. İzahatlar, dəlillər və sairə.

– Tayler Con Gibson, – Ferrell məlumat verməyə başladı, – doğum tarixi 1991.08.12-dir. Nyu-Yorkda anadan olub. Ailənin tək övladı. Valideynləri boşanandan sonra anası ilə buraya köçüb. Sonra isə ana evlənir. Atalıqla problemləri yarandıqdan sonra gənc ayrı yaşamağa başlayıb. Xərclərini ödəməkdən ötrü isə AFSF tikinti şirkətində işə düzəlib. Normal həyat tərzi. Dərslərində stabil ortalama. Sakit və zərərsiz bir vətəndaş. Xolli Brenson adlı qrup yoldaşı ilə eşq macərası yaşayırmış. Mən bu gün saat dördə onunla görüş təyin etmişəm. Ancaq inanmıram, bu, bizə nəsə versin.

– Stiv, Gibsonun çalışdığı şirkətlə də görüşsən, yaxşı olar, – Teylor onun izahatına öz fikrini bildirdi.

– Buna ehtiyac yoxdur, – Hovarda məxsus səs eşidildi, – mən oradan gəlirəm, – hamı Hovardı bu sözlərindən sonra qəribə baxışla süzdü. Bunu görən detektiv isə başını qaldıraraq gözlərini tavana zillədi. Bir neçə saniyə sonra isə o, ortağının öskürəyini eşitdi. Bu işarənin mənasını başa düşən Hovard başını aşağı salıb yenidən dilə gəldi, – Frenk, yuxum gəlmirdi. Fikirləşdim ki, vaxtımı boş keçirməyim. Ona görə də ora gedib oradakılarla bu barədə danışdım. AFSF təmizdir. Gibson səliqəli işçi olub. Müdiriyyət tərəfindən şikayət və narazıçılıq yoxdur. Mərhumun düşmənləri varsa, onlar, güman ki, onun iş yerindən deyillər. Ən azından, ilkin baxış bu nəticələri verir.

– Nə isə. Qeb, kamera yazılarını yoxladın? – Teylor Brauna müraciət etdi.

– Yoxladım. Gecə saat ikidən səhər yeddiyə kimi yazılarda şübhə çəkən bir şey yoxdur. Gibson saat

02:46-da binaya daxil olub. Ondan başqa binaya daxil olanların hamısı bina sakinləridir. Həmçinin binadan çıxanlar da.

– Deməli, cinayətkar binadan biridir? – Nikolzun səsi eşidildi.

– Ola bilər, Liz. Çünki binaya kənar şəxs daxil olmayıb.

– Yox, – deyə qadın zabit etiraz etdi.

Elizabeth Nikolzun mütənasib bədən ölçüləri polis formasını bəzəyirdi. 1.70 boyu, iyirmi dörd yaşında olan cazibədar bir qanun keşikçisi. Açıq qəhvəyi saçlar. Parıltılı çəhrayı dodaqlar. Mərkəzi boz, ətrafı qəhvəyi olan iti baxışlı gözlər. Xırda və incə burun. Burnu əhatə edən ağ rəngli, qüsursuz dəri. Sol yanaqda burunla dodaq arasında xırda bir xal. Üstəlik də subay. Məhz buna görə də o, bir çox həmkarlarının şəxsi maraq dairəsində idi. Lakin Nikolzun qəlbindəki şəxs artıq iki ilə yaxın idi ki, onu görmədən gəzirdi. Bu cür cazibədar bir xanımın arzuladığı şəxsi əldə edə bilməməsi təəssüf olunası bir hal idi.

– Niyə yox, Liz? – Hovard qaşlarını qaldıraraq soruşdu.

– Özünüz düşünün, uşaqlar. Binadan bir qatil. Yəni binanın daimi sakini. Məncə, bu şəxs bizə lazım olan şəxsdirsə, Gibsonun sobasındakı qaz sızması problemindən xəbərdar olmalı idi. Axı o, gördüyü işlə professional olduğunu sübut edib, – kiçik bir fasilə. Teatral pauzanı xatırladan bir fasilə. Diqqətləri üzərinə toplamış Nikolz gözünün qarşısını örtən telini düzəldib sözünə davam etdi, – buradan belə bir

nəticə çıxır ki, qatil binadan biri deyil. Çünki o, belə bir səhvə yol verməzdi.

– Bəlkə, o, bilərəkdən qazı açıq saxlayıb? – Ferrell öz boğuq səsi ilə dilləndi.

– Ola bilər, fəqət birdən bina partlasaydı, necə? – Teylor razılıq əlaməti olaraq başını yellədi, – uşaqlar, o, binadan biri deyil. Qeb, bəlkə, yazılara bir də göz atasan?

– Mən sənə kömək edərəm, Qebi, – Hovard bu dəfə gülümsədi.

– Onda axşam yenidən yazılara göz ataq, Endi, – Teylor başını yelləyərək Nikolza əyləşməsi üçün işarə etdi. – Qebriel, Stiv, siz isə bir də bina sakinlərini sorğu-sual edin. Amma ölənin rəfiqəsi ilə danışdıqdan sonra, – Teylor həmişə belə edərdi. Komandasında hər hansı bir məsələ ilə bağlı problem və yaxud da ki müxtəlif fikirlər yarandıqda o, həmkarlarının paylarına düşən işləri dəyişərək əməliyyatı bir daha təkrarlayardı. Bu hərəkətlə onlar problemi daha tez həll edərdilər və aralarındakı müxtəlif fikirlər aradan qalxardı.

– İndi isə sən, Frenk. Axmaq Maklavski nə dedi?

– Deməli, uşaqlar, cinayətin silahı “Beretta 96”-dır. Gibson ölməmişdən qabaq içkili olub. Ona görə də, Liz, onun getdiyi məkanlar barədə məlumat topla. Bir də ki, damğa misdən hazırlanıb. Məndən bu qədər. Yerdə qalanları, onsuz da, bilirsiniz.

– Damğa demişkən, omeqanı nə edək? – Hovard yenidən diqqətləri üzərinə çəkdi, bir də ki mis söhbətini anlamadım, – o çiyinlərini tərpətdi.

– Endi, haqlıdır. Stiv Xolli Brensonu sorğu-sual edərkən mən bu barədə ətraflı araşdırma apararam, – deyə Braun işi boynuna götürdü.

– Ok, Qeb. Araşdır. Omeqa, bəlkə, hansısa lokal dəstənin, qurumun simvoludur. Bacardığın qədər məlumat topla. Bəlkə, bu hansısa dini məna daşıyır və yaxud da ki kiminsə özünə məxsus simvoludur? Edqar Allan Po barəsində də mütləq araşdır, – bu sözündən sonra hamı Hovarda diqqətlə baxdı. Buna təəccüblənən detektivin isə cavabı kifayət qədər maraqlı oldu, – nə? Konnellinin[5] "The Poet" romanını oxumamısınız? Devid Finçerin[6] "Yeddi" filminə baxmamısınız bəs? Bizim dostumuz isə şübhəsiz belə bir tərzdə hərəkət edir. Onun psixologiyasında, əminəm ki, ciddi problemlər var.

– Məntiqlidir. Yaxşı, sən deyən kimi edərəm.

– Liz, sən isə oxşar hadisələr haqqında məlumat topla. Bəlkə, bir əlaqə var? Qatilin ilk aktı olmaya da bilər. Bəlkə, buna oxşar vəhşilikləri artıq o, dəfələrlə həyata keçirib.

– Nə isə. Bu günlük bu bəs edər, mis barədə də çox düşünməyin, – Teylor yerindən qalxdı. Həmkarları da onun hərəkətini təkrar etdilər, – sabah saat onda yenidən yığışırıq. Əgər problem yoxdursa, gedə bilərsiniz, – bundan sonra o, adamlarının qarşılarındakı kağız-kuğuzu toplayaraq oradan ayrılmalarını

[5] Michael Connely (1956) – məşhur amerikalı triller və detektiv yazıçısı.

[6] David Fincher (1962) – Yeddi, Döyüşçü klubu, Oyun, Sosial şəbəkə kimi filmlərin rejissoru. 1991-ci ildə Maykl Ceksonun Who is it mahnısına klip çəkib.

seyr etdi. Onlar isə sıra ilə tələsmədən otaqdan çıxdılar, – Endi, sən bir iki dəqiqə burada qala bilərsən.

Ortağının səsini eşidən Hovard ağzını büzüb yenidən yerinə qayıtdı. Çünki indi nəyin baş verəcəyini bilirdi. Teyloru əla tanıyırdı. Hal-hazırda da o, baş verəcəklərin tək səbəbkarı idi. Yenidən masa başında üz-üzə əyləşmişdilər. Teylor sakitcə ona baxırdı. Səssizliyi isə barmaqları ilə masanı taqqıldatması pozurdu.

– Bilirəm, deyəcəksən ki, – Hovard vəziyyəti düzəltmə cəhdi etsə də, Teylor onun sözünü yarıda kəsdi.

– Haçana qədər belə olacaq? Sən xəstəsən?

– Frenk.

– Nə Frenk? – Teylor yerindən qalxaraq qəzəblə yumruğunu masaya çırpdı, – bunun səbəbi nədir, hə?

– Frenk, işləyirəm də.

– İşləyirsən? Endi, axırıncı dəfə nə vaxt hansısa məkana bir qədəh bir şey içməyə getmisən?

– Keçən....

– Keçən nə? Keçən əsrdə? – Hovard başını aşağı saldı. Söz demək indi mənasız olardı. Teylor isə daha ağır şəkildə sözünü davam etdirdi, – sən xəstəsən? Axı niyə belə edirsən? Sən insansan. Bədəninə istirahət vermək barədə düşünmürsən? Valideynlərinlə son dəfə nə vaxt görüşmüsən?

– Hər on gündən bir anam məni şam yeməyinə çağırır.

– Çağırır! Bəs sən gedirsən? Hə?

– Mmmm

– Endi, sən mənə ən yaxın insanlardan birisən. Axı niyə belə edirsən? Niyə yatmırsan? Niyə? Problemin nədir?

– Bilmirəm! – Hovard da səsini yüksəltdi, – Frenk, baş verənləri görmürsən? Biz necə polisik axı? Tayler Gibson kimi onlarla günahsız insanı niyə qurban verməliyik axı?

– Burada bizim günahımız yoxdur! Həm onun kim olduğundan hələ əmin deyilik.

– O halda, nəyə görə iki ildir ki, həyatın alt-üst olub? Orada da sənin günahın yox idi, Frenk! Sən mənim üçün ideal polissən. Lakin özünü məhv edirsən və mənim bu yolda səni tək qoyacağımı düşünürsən? Düzəlməyimi istəyirsənsə, ilk növbədə sən düzəl! Hə, qızlarla filan görüşmürəm, təkəm! Bəs sənin məndən bir fərqin var? Sən axırıncı dəfə haçan yatmısan? Hə? Ona görə də, dostum, mən dəyişməyə hazırlaşmıram. Əgər bunu istəyirsənsə, nə etməli olduğunu bilirsən! – Hovard üst-başını səliqəyə salıb heç nə demədən qapıdan bayıra çıxdı.

Acı da olsa, dediklərində həqiqət var idi. Teylor qəbul etmək istəməsə də, ortağı ilə onun həyat tərzi çox oxşar idi. O, bunları düşünərək başını masaya dayayıb özünü necə də zəif apardığını qəbul etdi. Günahkar o idi. Yalnız o.

# 5



## 21:13

Teylor öz kreslosunda əyləşib gündəlik xəbərləri izləyirdi. Bir azdan ortağı cinayət baş vermiş Glaidz Park ərazisindəki izləmə kameralarının yazılarını gətirəcəkdi. Mübahisə etdikdən sonra saat altıda Teylor zəng vuraraq axşam onun evində yazıları yoxlamağı təklif etmişdi. Onlar ortaq məxrəcə gəldikdən sonra saat doqquzda görüş vaxtı təyin etdilər. Fəqət Hovard artıq gecikirdi. Buna görə də o, xəbərləri dinləmək qərarına gəldi. Son zamanlar isə ən çox eşitdiyi xəbər şəhər merinin Los-Anceles qarşısındakı xidmətlərə görə gələn ayın əvvəli – üç noyabr tarixində baş tutacaq mükafatlandırma mərasimi idi. Tədbirdə şəxsən Kaliforniya qubernatoru və bir neçə daha yuxarı rütbəli rəsmilər də iştirak edəcəkdi. Bu mərasimin hazırlığına üç ay əvvəldən başlanılmışdı. Bəzi şayiələr hətta Birləşmiş Ştatlar Prezidentinin də mükafatlandırmada iştirak edəcəyini deyirdi. Belə hadisələr baş verdikdə şayiələrin yayılması qaçılmazdı. Mətbuat belə şeyləri gündəmdə saxlamaq üçün əlindən gələni əsirgəmirdi.

Teylor bir neçə digər xəbərləri də dinlədi, sonra oradan ayrılıb, mətbəxə tərəf yollandı. Onun evinin divarları açıq-yaşıl boyanmışdı. Döşəmə isə tünd-qəhvəyi taxtadan idi. Bəzi yerlərdə gəzəndə ayaq altındakı döşəmə xırçıldayırdı. Təmirə ehtiyac duyan döşəmə hal-hazırda Teyloru narahat etmirdi. İndi daha vacib məsələlər gündəmdə dururdu. O, özü üçün yaşıl çay dəmləmək qərarına gəldi. Mətbəxdəki uğurları karyerası ilə müqayisədə dəfələrlə çox idi. Bir qurman kimi öz ailəsində və həmkarları arasında kifayət qədər şöhrət qazanmışdı. Bu əl qabiliyyəti isə ona anasından keçmişdi.

O, iki stəkan çay süzdü. Çay və bir neçə müxtəlif şirniyyat təamlarını qırmızı rəngli dördkünc məcməyiyə qoyub mətbəxdən çıxdı. Otağa qayıdarkən zəngin səsi eşidildi. Cəld məcməyini iki kreslo arasındakı masanın üzərinə qoyub qapıya tərəf meylləndi. Əllərini dizlərinə sürtərək sildi. Qapını açaraq qonağını soyuq bir tonla qarşıladı.

– Xoş gəldin. Keç əyləş, Endi, – deyə bir kənara keçərək onun içəri daxil olması üçün yolu açdı.

– Xoş gördük, – sakitcə içəri keçib gödəkcəsini əynindən çıxardı, səliqə ilə asılqanın üzərinə keçirdi. Ev şəraitində rəsmiyyətdən uzaq şəkildə danışmaq hər iksi üçün rahat idi. Xüsusilə, bayaqkı insidentdən sonra...

Hər ikisi otağa keçdilər. Hovard DVD-ni cibindən çıxarıb Teylora uzatdı, – burada səkkiz müxtəlif kameranın yazıları var.

– Yaxşı, amma fleş kartlardan niyə istifadə etmirsən, hələ də aydın deyil, – o, diski LED tv ilə əlaqələnmiş prosessora taxdı. Eyni anda bütün kameraları izləmək üçün səkkiz ədəd eyni ölçülü pəncərə açdı. Bütün kameralarda gecə saat on ikidən sonrakı yazıları işə saldı. Daha sonra öz kreslosuna keçib əyləşdi.

Onlar sakitcə yazıları müşahidə edirdilər. Gibsonun yaşadığı binanın sakinləri isə binaya daxil olur və ya onu tərk edirdilər. Sakit bir Los-Anceles küçəsi. Normal bina sakinləri. Vaxt ötdükcə küçə boyu parlayan pəncərələrdən gələn işıqlar sönür, tədricən küçə yeni günə hazırlıq görür. Yatır.

– Bu gördüyün sarışın isə ikinci mərtəbə sakinidir, – Hovard binaya daxil olan şəxslərin kimliklərini Teylora çatdırırdı, – bu isə Gibsonun dördüncü mərtəbə qonşusu, – Hovard tünd-qara gödəkcəli, saçı ortadan seyrək olan orta yaşlı kişini işarə etdi. Dərisi ağ, yanaqları isə büzülmüşdü, – saat on ikidən sonra on doqquz nəfər içəri girib, altı nəfər isə binadan ayrılıb. Onların hamısı bina sakinləridir. Frenk?

– Eşidirəm, – o, gözlərini ekrandan çəkməyərək Hovarda cavab verdi.

– Bu günə görə təəssüf edirəm.

– Endi, sən haqlı idin. Problem məndədir. İndi isə kameraları izlə. Mənim səkkiz gözüm yoxdur.

Onlar danışmadan yazıları izləməyə davam etdilər. Beləcə dəqiqələr davam etdi. Üç saata yaxın idi ki, detektivlər yazıları izləyirdilər. Bəzi anları saxlayaraq yenidən gözdən keçirmişdilər. İndi ən vacib anlardan biri gəlib çatmışdı. Tayler Gibson binaya daxil olurdu.

Bu anda isə binaya bir saat əvvəl daxil olmuş seyrək saçlı sakin oranı tərk edirdi. Onlar üzbəüz salamlaşaraq bir-birlərinin yanından ötdülər. İlk baxışdan hər şey normal görünürdü. Lakin əslində maraqlı bir faktı yoxlamadan bu anın üzərindən keçmək olmazdı.

– Endi, gördün?

– Deyəsən, hə.

– O adamın adı nədir? – Teylor yerindən qalxaraq klaviaturanın başına keçdi. Qapını çəkən kameranı yenidən işə saldı. Pəncərələri sıra ilə bağlayaraq ekranda yalnız iki pəncərəni açıq saxladı. Hər iki pəncərədəki yazıları seyrək saçlı insanın binaya daxil olduğu və oradan çıxdığı yerləri taparaq yazıların hər ikisini pauzaladı.

– Huqo Oliviera. Səncə, bu mümkündür? – yazıların hər ikisində həmin şəxsin siması yaxın plana alındı.

– Bəlkə, burada da Edqar Po fanatının barmağı var.

– Frenk, bu adam əsl bir dahidir. İnanılmaz!

– Amma necə?

– Böyük ehtimalla o, hansısa bir qurumda işləyir. Ya da ki yüksək səviyyəli xaker. Burada Braunu qınamaq olmaz.

– Əlbəttə. Səhər onda hamı hazır olsun. Deyəsən, bu yeni dostumuz elə bircə bununla kifayətlənməyəcək.

– "Deyəsən" sözü artıqdır.

– Çay süzüm?

– Yox demərəm. Amma limon iki dilim olsa, yaxşı olar.

– Oldu, – o, ortağının stəkanını götürüb mətbəxə yollandı. Uzun zamandır ki, ortağı ilə birlikdə iş ba-

şında olanda bu qədər səssiz vaxt keçirməmişdilər. Lakin bu sükut içində belə cütlük kamera yazılarında gizlənən sirrin üstünü aça bilmişdilər.

Yazılar saxta idi.

O, yenidən çayları doldurub otağa qayıtmağa hazırlaşarkən Hovard mətbəxə tələsik daxil oldu. Əlində tutduğu "Galaxy"nin ekranının parlamasından ortağının ondan istifadə etdiyi başa düşülürdü. O, içində iki dilim limon olan çayı Teylorun əlindən alıb başına çəkdi. Sonra isə dərindən nəfəs alıb udqundu.

– Gedirik.

– Nə yaxşı? – Teylor gülümsədi. Normal biri nə baş verdiyini soruşardı, ancaq bu cütlük öz enerjilərini belə boş faktorlara xərcləməyi xoşlamırdı. Çünki onsuz da onlar həmin yerə gedərkən bu barədə ətraflı danışacaqdılar. Burada isə mövzunu açmaq vaxt itkisindən başqa bir şey deyildi, – aclığın var? – deyə o, soyuducunun ağzını açdı. Əyilərək içərisinə göz gəzdirdi.

– Deyəsən.

– Bir gün üçün həddən artıq deyəsən olmadı ki?

– Deyəsən, – Hovard gülümsədi.

O, soyuducudan iki ədəd hazır sendviç çıxarıb onları mikrodalğalı sobaya qoydu. Sobanı işə salıb otuz saniyəlik geri sayımın bitməsini gözlədi. Hovard səbirsiz bir şəkildə irəli-geri addımlayırdı. Teylor isə yavaş-yavaş öz çayını içirdi. Daha sonra yumru sendviçləri oradan çıxardı. Sol əlində tutduğu tayı ortağına atdı.

– Auç! İstidir. Brokoli var bunun içində?

– Hə. Sağlam qidadır.

– Hiff ovunul...

– Nə? – o, marçıldadığından nə dediyi anlaşılmırdı, – ağzında boş yer qalıb?

– Deyirəm ki, hiss olunur, sağlam qidadır. İyrənc dadı var.

– Ona görə artıq onu yoxa çıxarmısan?

Hər ikisi güldülər. Yeməklərini bitirib evdən çıxdılar. Hadisə yerinə Hovardın maşını ilə yollanmağı qərara aldılar.

# 6



## 01:27

**Sürət 40 mili ötmüşdü. Hovard sükan arxasında əyləşərək gözlərini yola zilləmişdi. Onlar 14-cü Olive küçəsinə yollanırdılar. Teylor mətbəxə yollandıqdan sonra gecə növbəsində olan Stiv Ferrell onun həmkarına mesaj yazaraq cinayət yerində maraqlı vəziyyətin olduğunu vurğulamışdı. Bunu oxuyan kimi detektivlər oraya yollandılar.**

– Stiv, səncə, bizi nəyə görə çağırır?

– Bilmirəm, Frenki. Onsuz da yatmağa hazırlaşmırsan.

– İstəsəm də, alınmır. Son günlər ən yaxşı halda dörd saat yata bilirəm.

– Deməli, mən sağlamam. Beş-altı saat olur. Hərdən isə daha çox yatıram.

– Yaxşısan. Qulaq as. Böyük ehtimal ki, Stiv bizi yeni dostumuzun əli olduğu cinayət üzündən çağırır. Yoxsa elementar qətl üzündən gecənin yarısı bizi evdən çıxarmazdı. Üstəlik növbədə də deyilik.

– Ola bilər, amma, bəlkə də, yox. Axı Ferrell bizim yazıları yoxladığımızı bilirdi. Ona görə də bizə kömək üçün müraciət edib.

– Sürəti artır. Tezbazar suallarımıza cavab tapaq.

14-cü Olive küçəsində dörd polis maşını və təcili yardım furqonu dayanmışdı. Binanın qarşısı bağlanmış, sakinlər oradan çıxarılmışdı. Hava tutqun və sərin idi. Ehtimal ki, bir azdan yağış yağacaqdı. İnsanlar isə xaos içərisində bayırda hay-küy salmışdılar. Buna oxşar hadisə ilə Frenk səhər üzləşmişdi. O və ortağı öz nişanlarını göstərib içəri daxil oldular. Pilləkənlərdə bir neçə polis məmuru söhbət edirdilər. Üzlərindəki ifadədən ikinci mərtəbədə onları gözləyən sürprizin xoş olmadığını anlamaq olurdu. Bir gündə iki dəfə oxşar hadisə. Bu da Frenkin monoton deyə başladığı günün sonu.

Onlar açıq qapıdan içəriyə keçib Ferrell ilə görüşdülər. O və başqa bir nəfər əllərində ultrabənövşəyi darayıcıların köməyi ilə barmaq izləri və digər faydalı dəlillər axtarırdılar. Ferrell onları görüb işini saxladı.

– Hə, Stiv, nə baş verib? – deyə soruşan Hovard söhbətin özülünü qoydu.

– Yataq otağına keçin, uşaqlar.

– Okey. Amma ümid edirəm ki, bizi bura boşboşuna gətirməmisən.

– Oradan çıxanda görüşərik, Endi.

Teylor içəriyə ilk addım atan oldu. Gözünün önündə tükürpərdən bir səhnə açıldı. Ağ divar üzərində ovuclarından mismara çəkilmiş qar kimi ağ dərili bir qadın uzanmışdı. Onun əynində heç nə yox idi. Daha bir mismar isə onun sol döşünün – ürəyinin üzərinə vurulmuşdu. Mismarın üzərinə isə iplə bağ-

lanmış bir parça güzgü keçirilmişdi. Qadının ağzı lentlə bağlı olsa da, solğun dodaqlarında quruyub qalmış qan izləri insanda dəhşət yaradırdı. Bədənin müxtəlif yerlərində kəsik izləri gözə çarpırdı. Üzündə isə, demək olar ki, salamat yer qalmamışdı. Qaraciyər ətrafı hissələr isə deşilmişdi. Belə bir cinayəti həyata yalnız bir yırtıcı keçirə bilərdi. Qətl qurbanının ayağı altına güzgü qırıntıları səpələnmişdi. Qırıntıların üzərində isə tünd-qırmızı qan yayılırdı.

– Vooov. Stiv, sözlərimi geri götürürəm.

– Yaxşı, – deyə mızıldanan Ferrell də içəri daxil oldu, – sizcə, bu xanımla Gibson arasında oxşarlıq var?

– Deyəsən. Lənət! Yenə "deyəsən", Frenk! Sən nə düşünürsən?

– Hmmm...

– Nə hmmm?

– Endi, səncə biz bir nəfərlə üz-üzəyik?

– Həqiqətən də, hmmm.

– Məncə, bunu bilmək olmaz, Frenk, – Stiv dilləndi, – əlimizdə onların qrup olduğunu sübut edəcək dəlil yoxdur.

– Praktiki olaraq yoxdur.

– Nə mənada?

– Bilirsən, Stiv, biz yazıları yoxladıq. Onlar üzərində bir "Super Mario" həvəskarı köklü dəyişikliklər həyata keçirib, – Hovard əyilib güzgü qalıqlarına göz atdı. Cinayətkar iti qırıntılardan cinayət obyekti kimi istifadə etmişdi. Onların kənarlarında qan izləri gözə çarpırdı.

– Yəni montaj? Bəs onda o kimdir axı?

– Li Smit[7].

– Siz onun kimliyini müəyyən etmisiniz? – Ferrell təəccübləndi.

– Yox, Stiv, – Teylor son beş dəqiqə ərzində ilk dəfə gözlərini qadından çəkdi, – Li Smit məşhur kino montajçısıdır.

– Gülməli deyil, Endi.

– Sən elə düşünürsən. İndi isə danış. Nə məlumat var?

– On iyul, min doqquz yüz səksən yeddinci il. Rebekka Bil. Kanadalı. Yerli butiklərdən birində modelyer olaraq işləyirdi. Ailənin üç uşağından böyüyü idi. Orta maaşlı iş, aylıq boyfriendlər. Normal, soyuq Kanada həyatı. Bəzi qonşular onun qədim peşə sahibi olduğunu deyirlər. Bəziləri isə, əksinə, özünə qapalı məsum bir qadının qurbana çevrildiyini təsdiqləyir. Bu gün işə çıxmadığından narahat olanlar əlaqə saxlamaq istəyiblər. Lakin uğursuz cəhdlərdən sonra yaxın dostlarından biri onun bacısı ilə danışıb. Bacı isə iki saat qabaq burada Rebekkanı ölü tapıb. Mən də mərkəz tərəfdən buraya istiqamətləndirildim. Hadisə yerinə çatdıqdan sonra sizə xəbər vermək qərarına gəldim.

– Əhsən, Stiv. Bəs bu güzgülər barədə nə düşünürsən?

– Omeqa kimi bu dəfə də güzgünün xüsusi məna daşıdığını düşünmək olar. Güzgü Rebekkanın dəhlizindən götürülüb. Bədəndə əllidən artıq müxtəlif

---

[7] Lee Smith – məşhur film montajçısı. Başlanğıc, Qara Cəngavər kimi filmlərdə Kristofer Nolanla çalışıb.

ölçülü kəsiklər var. Sıfır barmaq izi. Sıfır DNT. Gibson cinayətindəki kimi.

– Onun bacısı buradadır? – Frenk otağın içərisinə göz gəzdirirdi.

– Hə, onun halı pisləşdiyindən indi aşağıda təcili yardım maşınındadır.

– Okey. Endi, mən aşağı düşüb Rebekkanın bacısı ilə danışacağam. Sonra aşağı düş. Unutma, mən maşınsızam.

– Oldu, işində ol.

– Hə, Medelin Bil. Yadında saxla, Rebekkanın bacısının adıdır. Səhv salma.

– Sağ ol, Stiv.

Frenk heç vaxt ağ xalatlı insanları çox sevməmişdi. Maklavski istisna olsa da. Son iki il ərzində tibbə olan inamı, ümumiyyətlə, yox olmuşdu. İndi isə bu ağ geyimli Hipokrata and vermiş şəxslər, öldürülən şəxsin bacısına yardım edirdilər. Lakin onlar Frenkə ən lazım olan vaxtda kömək göstərməmişdilər. Bu səbəbdən də o, həkimləri hələ də bağışlaya bilmirdi.

– Detektiv Frenk Teylor. Cənablar, zəhmət olmasa, bizi bir neçə dəqiqəliyinə tək buraxa bilərsiniz? – o, özünü təqdim edib tibbi heyətin onları tək buraxmasını gözlədi. Heyət çıxdıqdan sonra o, xəstə çarpayısında uzanan rəngi solmuş Medelin Bilə baxdı. Onun qollarında kitaba və yaxud da dəftərə bənzər bir şey bərk-bərk sıxılmışdı. Gözlərini tavana zilləmiş Bil Teylorun burada olduğuna diqqət yetirməmişdi. Buna görə də Frenk tonunu bir qədər yüksəltdi, – xanım Bil.

– Hə. Mənimləsiniz? – o, başını qaldırdı. Gözlərinin altı şişmişdi. Yəqin, çox ağlamışdır.

– Bəli, xanım Bil. İlk növbədə başınız sağ olsun.

– Çox sağ olun. Detektiv. . .

– Teylor. Frenk Teylor.

– Aydındır. Detektiv, siz bir şey tapa bildiniz? Cinayətkarın izinə düşmək mümkündür?

– Yox. Əslində bura gəlməyimin səbəbi də budur. Bizə nə ilə isə yardım edə bilərsiniz?

– Mən? – o, qollarında sıxdığı əşyanı çıxarıb Teylora göstərdi, – bu, bacımın gündəliyi idi, – onun gözləri doldu. Fəqət özünü ağlamamaq üçün saxlaya bildi, – biz uşaqlıqdan gündəlikdən istifadə edirik. Bacım burada biri ilə tanış olduğunu yazıb.

– Xanım Bil, mən bu gündəliyə göz ata bilərəm? – o, gözləri ilə tünd-narıncı dəftəri işarə etdi.

– Əlbəttə, əgər bu sizə cinayətkarı tapmağa kömək edəcəksə.

– İnanıram ki, edəcək. Bəs o, özü sizə nə isə deyib?

– Bilirsiniz, Rebekka hər həftə biri ilə tanış olur. Yəni mənə, – qadın sözlərini davam etdirmək üçün bir neçə dəfə dərindən nəfəs aldı, – o, həmişə yeni biri haqqında məlumat verir.

– Aydındır. Bəs Medelin, onun heç kimlə problemi yox idi ki?

– Əslində, o, çoxlarının qəlbini qırıb. Onun köhnə sevgililərinin sayı isə onlarladır. Bəlkə, onlardan biridir. Əmin deyiləm. Rebekkanın qəribə həyat tərzi var idi.

– Hmmm, – Frenk dodağını dişləyib bir neçə saniyəliyinə düşündü, – məncə, bu qədər kifayət edər. Təşəkkürlər, xanım Bil.

– Rica edirəm, detektiv. Siz sağ olun.

Teylor sadəcə başını xəfifcə əyib təcili yardım maşınından ayrıldı. Bayıra çıxaraq belini Hovardın maşınına söykədi. Özünü sərin mehin əllərinə buraxıb gündəliyi açdı. Yüngülvari dəftərçəni vərəqlədi. Sonra isə onu maşının pəncərəsindən oturacağın üstünə atdı. Özü isə yenidən binaya qayıtdı. Pilləkənlərdən iş yoldaşlarının səsləri gəlirdi.

– Li Smit! Hə? Görərsən, Endi.

– Stiv, sən əsl qatil kimi danışdın. Bəlkə, bu işlərdə sənin barmağın var?

– Deyəsən.

– Lənətə gələsən! Yenə də "deyəsən"? Axı mən bu "deyəsən"lərin əlindən nə edim?

– Li Smitə de, montaj etsin.

Sonra onlar gülüşdü və tələsmədən pilləkənləri enib Teylor tərəfə gəldilər. Üçlük bir anlığına bir-birlərinə baxdı. Hər üçünün üzündə eyni ifadə hökm sürürdü. Hər üçü cinayətkarı düşünürdü. Ən əsası, hər üçü qəlblərinin dərinliyində cinayətkarın ustalığına heyran olmuşdu. LAPD işçiləri daima təcrübəli kriminalistlərə rəğbət göstərir. Bu bir növ qumar həvəsinə bənzəyir. Sən kazinoda rəqibinə dəfələrlə məğlub olub pul itirirsən. Buna baxmayaraq yenə də uduzmaqdan bezmirsən. Ehtimal və fakt rəqibinin səndən üstün olduğunu sübut etsə də, qəlbinin dərinliyində onu üstələyə biləcəyini düşünürsən. Bunun

adı məhz qumar həvəsidir. Polislərdə də buna oxşar hal baş verir. Onlar təcrübəli qanun pozanlara qarşı simpatiya bəsləyirlər.

– Hə, deməli, bu gecə çavuş Ferrell yatmayacaq, – Hovard gülümsədi.

– Əla, artıq üç nəfər olduq. Stiv, bəlkə bizə gedək? – Teylor dedi.

– Yox, Stiv, onun sağlam qidaları iyrənc olur. Amma pizza ilə Frenkin daxmasına gedə bilərik.

– Çox sağ ol, Frenk. Amma mən evdəkilərin yanına getsəm, yaxşı olar.

– Əlbəttə, Frenk. Axı çavuş Ferrell iki idarədə çalışır, – Hovard Ferrellin çiyninə sərt bir yumruq yapışdırdı, – ondan əl çək, əzizim.

– Yaxşı. Görüşərik, uşaqlar.

– Sağ-salamat, – Frenk onun əlini sıxdı, – səhər saat onda iclasda görüşərik.

– Özünü qoru, çavuş və evdəki rəis Hanna xanıma salam de.

– Oldu, Endi. Təşəkkürlər.

Ferrell ayrılaraq maşınına tərəf ağır addımlarla hərəkət etdi. Ağır və yorğun addımlarla. Lakin Hovard onu ayaq saxlamağa məcbur etdi.

– Hey, Stiv, – onun səsinə müraciət olaraq çavuş qaşlarını qaldıraraq ona baxdı, – Hannaya de, səni südsüz yatızdırmasın. Baxma da, onsuz da. . .

– Sözünü bitirməmiş Teylor onu itələyib sükanın başına otuzdurdu, – hələlik, Stiv. Bu boşboğaza fikir vermə. Uşaqları mənim əvəzimdən öpərsən.

Stivin ardınca Hovard da hərəkət etdi. Onlar tələsmədən sakitcə Frenkin evinə tərəf gedirdilər. Yolboyu sakitlik hökm sürdü. Bu dəhşətli səhnədən sonra danışmaq çətin idi. Digər tərəfdən isə onların şəxsi problemləri səssizliyə dəstək verirdi. Bunu pozmaq üçün isə Hovard audio sistemi işə saldı. Səs gücləndiricilərdən pop kralının möhtəşəm ifası eşidildi. Onun səsinin vurğunu olan Frenk başını oturacağa dayayaraq gözlərini yumdu. Möhtəşəm ifa. Həqiqətən də, bir əfsanə! Ecazkar musiqi. Yüksək akustika. Əsl bir sənət əsəri. Heç vaxt ölməyəcək bir sənət əsəri.

– İndi niyə beləleri yoxdur? – Hovard başını zərb alətlərinin ritminə uyğun silkələyərək soruşdu.

– Sən beləsini tapmamış belələrini niyə axtarırsan?

– Haqlısan. Bu tip şəxsiyyət hər sahədə tək olur.

– Səndən gün ərzində ilk ağıllı söz, Endi. Mənə maraqlıdır, bizim zövqümüz niyə həmişə media və incəsənət istiqamətində üst-üstə düşür.

– Onu kim sənə dedi?

– Bu faktdır. Eyni filmləri bəyənirik. Eyni tərz musiqi və sairə.

– Yox, Frenk. Sən hər zibilə görə göz və qulaqlarını işə salırsan. Mən isə yalnız sənin bəyəndiyin filmləri seyr edirəm. Vaxtımı isə boş-boş filmlərə sərf etmirəm. Yəni sənin zövqün normaldır. Məndə isə mükəmməl. Sən ələyirsən, mən qiymətləndirirəm.

– Sus. İmkan ver qulaq asaq, – Hovard səhv danışmırdı. Frenk filmlərin dəlicəsinə vurğunu idi. Hər həftə ən azı beş film seyr edirdi. Yaxşı hesab etdiyini isə dostlarına məsləhət görərdi. Musiqidə də buna bənzər hal yaşanırdı.

– Nə isə. Çatdıq. Düşə bilərsən, Teylor, – o, maşını binanın qarşısında saxladı.

– Çox sağ ol, insomniak[8].

– Dəhlizdə güzgüyə baxsan, pis olmaz.

– Gecən xeyrə.

– Sənin də, günün aydın olsun.

Onun sözündən sonra Frenk qolundakı gümüşü "Tissot"a baxdı. Qaranlıq olduğundan barmağını şüşəyə sıxaraq gözlərini yığdı. Saat üçü ötmüşdü, – lənət, artıq səhərdir, həqiqətən.

– Lənət! – Hovard qışqıraraq özünü Teylor istiqamətində əydi. Onun saatından düşən detallardan iksini havada tutdu, – düzəlt də, zibilini. İki Blu-ray ya DVD az al. Bəlkə sənə borc verim?

– Bağışla. Vaxtım olanda bu məsələ ilə məşğul olacağam.

– Heç nə itmədi ki?

– Yox, deyəsən, – Frenk sonuncu detalı da götürüb maşından düşdü, – nə isə çox sağ ol bir daha, – o, qapını örtdü.

– Offf! Yenə deyəsən! Deyəsən əvəzinə saatı düzəlt, detektiv! – Hovard deyinərək qazı sıxdı. Bir neçə saniyə sonra isə gözdən itdi.

Teylor evə girən kimi ilk növbədə özünü duşun altına atdı. Son iyirmi dörd saatda olanları düşündü. Dünən təqribən bu vaxtlarda gördüyü kabus üzündən yuxudan ayılmışdı. Ondan sonra isə yeddi ilə yaxın iş təcrübəsində ən ağır günlərdən birini keçirmişdi. İndi

[8] Yuxusuzluq problemi yaşayan şəxslərə verilən tibbi ad.

onun saçlarına və çiyinlərinə deyən su damlaları psixi-terapiyanı əvəz edirdi. Soyuq suyun əvəzolunmaz masajı. Beyində isə iki fərqli qətl. Ortaq nəticə. Vəhşicəsinə hazırlanmış bir plan. Səhvsiz görülmüş iş və sonluq. Frenk bu cinayətlərin təşəbbüskarının eyni şəxs olduğuna, demək olar ki, şübhə bəsləmirdi. Əsas prioritet – onun izinə düşmək. Hələlik isə, əllərində Rebekka Bilə məxsus gündəlikdən başqa bir şey yox idi.

Duşdan çıxdıqdan sonra o, soyuducudan limon götürüb, qazlı su ilə qarışdırdı. Köpüklərinin üzərinə bir az nanə töküb yataq otağına keçdi. İçkisindən bir qurtum alıb, gündəliyi əlinə götürdü. İçərisindəki yazılar çəhrayı qələmlə yazılmışdı. Səhifələrdən müxtəlif qadın ətirlərinin iyi gəlirdi. Görünür, günlük qurbanın yastıq altı əşyası olub. Bu səbəbdən də özündə fərqli aromatları birləşdirib. Bil gözəl xəttə sahib olub. Onun gündəliyinin hər səhifəsi ayın tarixi ilə başlayır. Daha sonra isə həmin günün qısa icmalı səhifəni bəzəyir. Mərhum hər il yeni güdəlikdən istifadə edirdi. Frenkin əlindəki gündəlik də bir yanvar tarixindən başlayıb 13 oktyabrda bitirdi. O, bir neçə vərəqi gözdən keçirib Bilin məşuqları haqqında yazdıqlarını öyrəndi. Yazılardan ölmüş qadının kişiləri oyuncaq kimi istifadə etdiyini demək olardı. Bunlara diqqət yetirən Frenk oktyabrın birindən başlayaraq hər günü oxumağı qərara verdi. İlk altı gündə yeni heç bir şey baş verməsə də, 7 oktyabr diqqət yetiriləsi tarix idi.

*7 oktyabr.*

*Əzizim, gündəlik. Bu gün səhər Sasha ilə ayrıldıq. Əslində, bunu rekord saymaq olar. Birlikdə 11 gün. Lakin o, mənim yataq tələblərimi tam ödəmir. Təəssüf ki. Nə isə. Qoy, mətləbə keçim. İşdə maraqlı heç nə baş vermədi. Sıxıcı və uzun bir iş günü. Amma sonra "Streak"ə getdim. Sən bilirsən axı, ora maraqlı və pullu oğlanlarla doludur. Kolleksiya isə hər gün təzələnir, lakin marağımı heç kəs çəkmədi. Həmin gün orada nə isə boşluq var idi. Qəribədir. Oradan ayrılarkən yağış yağırdı. Maşınsız idim. Taksilərə isə rast gəlmədim. Maraqlı haldır. Su içində olmaq istəmirdim. Əsas yola keçməkdən ötrü ara küçəyə girdim. İnanmayacaqsan! Amma qoy yenə də deyim.*

*İki nəfər üstümə cumdu. Üstümə cumaraq məni yanğın çıxışı pilləkənlərinə söykəyib köynəyimi cırdılar. Bununla kifayətləndilər. Paylarını da layiqincə aldılar. Yazıqlar. İndi onlara hətta yazığım da gəlir. O gələrək onların hər ikisinin payını verdi. Mən belə şey görməmişdim. Çox çevik hərəkət edərək əvvəlcə mənim boğazımdan yapışanı vurdu. Əlində nəsə var idi, ya yox, bilmirəm. Sonra isə digərini, bu savaş filmlərinə bənzəyirdi. Ardınca isə mənə "Qaç!" dedi. Çox həyəcanlı idim. Qorxmuşdum. Adrenalin və ehtiras da artmışdı. Polis çağırdım. Bu vaxt isə artıq onların hər ikisi halsız vəziyyətdə yerdə yatırdılar. İndi isə yalnız həmin adamı düşünürəm. Gecən xeyirə, gündəliyim. Sən yat, mən isə yuxularımda onu görə bilim.*

*9 oktyabr.*

*İnanmayacaqsan! Həmin adamı bu gün "Streak"də gördüm. Görən kimi etdikləri gözümün qabağına gəldi. O da*

*məni tanıdı. Baxışlarımız üst-üstə düşdü. Bunu dediyimə görə utanıram, amma, deyəsən* ,(bu sözü oxuyandan sonra Hovard Teylorun yadına düşdü və o, gülümsədi) *eşqə düşmüşəm. Biz onunla danışıb on biri birlikdə şam etməyi qərar verdik. Təklif məndən gəldi. Təşəkkür etmək bəhanəsi ilə onu yeməyə dəvət etdim. Sənə bir şey deməliyəm. Amma hələ hazır deyiləm. Bu gün başqa şeylər yazıb səni yormuram. Hələlik, ancaq mütləq deyəcəyəm. Səbr elə.*

8 və 10 oktyabrda maraqlı hadisə baş verməmişdi. Normal günlər. Sadə və sıradan. Bu səbəbdən də Frenk 11 oktyabr səhifəsini oxudu.

*11 oktyabr.*

*Salam. Bilirsən də, mən hadisələri həmin gündəcə sənə çatdırıram. Lakin dünən gecə biz bir yerdə olduq. O, məni öz evinə apardı. Evi kifayət qədər şirin və qəşəng idi. Əsas məsələ isə bizim aramızda olanlardır. Biz dəlicəsinə öpüşməyə başladıq. Əlləri mənim köynəyimin zəncirini açdı. Belimdə bədəninin istisini hiss edirdim. Sonra isə biz yataq otağına qalxdıq. İnanılmaz idi. O, həqiqətən azğındır. Mən belə bir şey ilk dəfədir, yaşayırdım. Hamıdan fərqlidir. Hələ də belə olduğuna inana bilmirəm. Ayın 13-ü yenidən görüşürük. Hə! Sonra isə mən sənə hər şeyi deyəcəyəm. Mat qalacaqsan. Hazırlaş. Bye!*

*12 oktyabr.*

*Mən sabahı düşünmədən dayana bilmirəm. Mən onu sevirəm. Gündəlik, belə bir sevgi tapacağıma inanmır-*

*dım. Xəyallarımı bəzəyir. Mən ömrümü onun qollarında keçirməyə hazıram. İlk dəfədir ki, bu qədər əminəm. Onun möhtəşəm bədənini düşündükcə dəli oluram. Yaşadığımız, həmin gözəl hisləri sənə təsvir edə bilmirəm. Hələ də belə şey etdiyimə inanmıram. Yatım. Sabah yaxşı görünməliyəm. Mümkün olsa, sənlə tanış edəcəyəm. Ona heyran olacaqsan. Əminəm! Sevincimin həddi-hüdudu yoxdur. Şirin yuxular.*

Bu Rebekkanın gündəliyində qeydə alınmış son tarix idi. Teylor dəftərçəni bağlayıb, yanındakı rəfə qoydu. Gözlərini yumdu. Yorulmuşdu. Özünü işə getməmişdən qabaq bir neçə saat yatmağa məcbur etdi. Bir xeyli səy göstərdikdən sonra isə buna nail oldu.

# 7



## 15 oktyabr. 10:00

**Onların hamısı artıq iclas otağında öz yerlərini almışdılar. Görünür, ötən gecə yuxusuzluq təkcə Hovard və onu yox, bütün dəstə üzvlərini öz əsirinə çevirib. Atmosfer bu gün kifayət qədər ağır idi. Son iki gündə baş vermiş cinayətlər komandanı silkələməyi bacarmışdı. İndi hamı gözlərini Hovardın noutbukuna zilləmişdi. Ekranda onun hazırladığı prezentasiya əks olunurdu. Özü isə ayaqüstə masanın başına dolanaraq həmkarlarına iki günlük araşdırmanın nəticəsini nəql edirdi.**

– İlk qurban Tayler Gibson. Damğalanmış alın. Omeqa. Tələbə. Part taym işçi. Zərərsiz bir vətəndaş. Öldürülmə səbəbi – naməlum. İkinci qurban – Rebekka Bil. Gündüzləri modelyer. Gecələri isə yataqda kişi dəyişmək üzrə mütəxəssis. Əllidən artıq güzgü qırıntıları və sairə ilə kəsilmiş müxtəlif bədən hissələri. Ovuclarından divara mismarlanma və döşündən asılmış güzgü. Ölüm səbəbi – naməlum. Qurbanlar arasındakı oxşarlıq hər ikisinin subay olması. Fikri olan var?

– Ferrell öskürərək boğazını arıtladı. Baş barmağını azca qaldırdı.

– Dayan, Stiv. Xətdə gözlə, indi sənə gəlirik, – Hovard gülümsədi. Yenidən hamıya ekrana baxmaqlarını işarə etdi, – üçüncü cinayət! – Teylor və digərləri təəccüblənərək detektivə baxdılar, – hə, nə oldu? Liz dünən oxşar bir cinayətin baş verdiyini aşkar edib. Qərb idarəsindəkilər artıq bu işlə məşğul olurlar.

– Üçüncü? İnanılmaz.

– Hə, Qeb. Üstəlik də Gibson ilə təqribi eyni anda ölüm saatı. Ya dostumuz yüngül atletika üzrə olimpiya çempionudur, ya da ki dostumuzun dostları var.

– Məncə, ikinci.

– Nə danışırsan, Stiv? Bu qərara necə gəldin? – Hovardın sözündən sonra əyləşənlər güldülər. Sonra isə o, yenidən masa ətrafında dövr vurmağa davam etdi, – Sebastian Smit. Basketbolçu, tələbə. İşləmir. Aylığını valideynləri göndərirlər, – ekranda uzun boylu sarışın bir gəncin şəkli göründü. Şəkil cinayət yerindən çəkilmişdi. Gibsondan fərqlənən tək cəhəti onun ağ və daha uzun olması idi. Eyni yerlərdən güllə yarası. Alında damğa izi.

– Deməli, iki omeqamız var artıq, – Braun cib dəsmalı ilə alnını sildi. Gördüyü səhnə ona heç yaxşı təsir etməmişdi.

– Yox, Qeb. Bir omeqamız, bir də betamız var.

– Hmmm? – Braun təəccübləndi.

– Bax, – Hovard əlindəki uzaqdan idarə pultunun düyməsini sıxdı. Manitorda iri şriftlə beta peyda oldu.

β

– Digər yunan hərfi. Misdən hazırlanmış damğa. Eyni cinayət. İdentik. Ən əsası isə eyni doğum tarixi. 1991.08.12.

– Maraqlıdır. Çox sağ ol, Endi. Əyləşə bilərsən, – Teylor yerindən ayağa qalxdı, – Liz, sənə isə əhsən, – Nikolz balaca uşaq kimi sakitcə başını aşağı salıb gülümsədi. Bir balaca yanaqları qızarmışdı, – uşaqlar, bu adamlar nə etdiklərini bilirlər. İnanmıram ki, bununla kifayətlənsinlər. Gibson və Smit arasında hər hansı bir əlaqə var, Liz?

– Yox, sadəcə doğum tarixi.

– Deyəsən, – Ferrell bu dəfə də sözünü yarımçıq saxlamalı oldu.

– Stiv, xahiş edirəm, deyəsən sözündən istifadə etməyək, – Hovard hələ də deyəsən sözünün yaxasından əl çəkməmişdi.

– Yaxşı, – Ferrell artıq yüngülvarı əsəbiləşirdi, – çox güman ki, onların şəxsi tanışlığı yoxdur. Brenson ilə danışanda belə bir mövzuya toxunmadıq. Çünki Gibson onu tanısaydı, sevgilisi heç olmasa adını eşidərdi. Üstəlik o, ağılsız deyil. Kor belə bu iki cinayət arasında əlaqə olduğunu anlayardı.

– Yeri gəlmişkən, Xolli Brensondan nə isə öyrənə bildiniz?

– Yox, Frenk. Yeni heç nə. İlk vaxtlar onu şübhəli siyahısına salmaq olardı. Amma Rebekka və Smit cinayətlərindən sonra ağla batan deyil, məncə.

– Bəlkə, Brenson qisas alır? Gibson və Bil arasında nəsə olub? – Braun öz versiyasını irəli sürdü.

– Yox. Əslində, üçüncü cinayət olmasa, elə olardı. Smit sxemi pozur. Brensonu siyahıdan çıxaraq, – Ferrell dərindən nəfəs aldı, – Lakin Xolli və Taylerin münasibətləri son zamanlar o qədər də yaxşı olmayıb.

– Hmmm. Yaxşı bəs, Qeb, omeqa barədə nə öyrənə bildin?

– Kult olaraq yox, bəzi adət-ənənələrdə yunan hərflərindən istifadə olunur. Lakin Amerika onlardan uzaqdır. Məndə hər ehtimala qarşı həmin qrupların siyahısı var, amma inanmıram ki, onların bu işdə barmaqları olsun.

– Haqlısan, Qeb. Yaxşı, Frenk, indi nə edirik? Gündəlikdə maraqlı nəsə var? – Hovard qəhvəsindən qurtum alıb noutbukunu bağladı.

– Mən dünən onun son günlərdə yazdıqlarını oxumuşam. Orada bir şəxs haqqında danışılır. Cinayətkarın həmin adam olduğuna əminəm. Təəssüf ki, günlükdə ad, xarici görünüş, nömrə – bizə yararlı heç nə yoxdur. Bir də ki, Rebekkanın həyatındakı son şəxs onun üçün fərqli, xüsusən də yataqda çox qeyri-adi biri olub.

– Nə mənada? – Hovard hiyləgərcəsinə gülümsədi.

– Çox müsbət!

Hamı güldü. Hovard xüsusi ilə fərqlənirdi. Ürəkdən güldükdən sonra o, içini çəkib səsini düzəltmək üçün yavaşca öskürdü, – Billə bağlı Lekslə görüşən olub?

– Yox, amma mən bunu nəzərimdə tutmuşdum.

– O, super sendviç hazırlayır, Frenk. Səhər məni qonaq etmişdi.

– Endi, bunun yeri deyil, – bundan sonra Hovard susdu və Teylor yenidən əsas mövzuya qayıtdı, – deməli, Liz, Qeb, siz "Streak" barına gedib məlumat toplayın. Endi, saat on birdə Maklavskinin yanına gəlirsən. Stiv, sən azadsan. Bir az, istirahət elə. Onsuz da gecə növbədə olmusan.

– Stiv, Hannanı əsəbiləşdirməməyə çalış.

– Yaxşı. Çox sağ ol, Frenk, – Ferrell Hovardın sözlərini qulaq ardına verib dedi, – amma bir şey lazım olsa, mən hazır.

– Razılaşdıq, Stiv. İndi isə dağılışa bilərsiniz, – Teylorun sözü bitən kimi digərləri yerlərindən qalxıb əşyalarını topladılar, – uşaqlar, çalışaq, bu axmaq daha böyük dəhşətlər törətməmiş cinayətlərə son verək.

Onlar söz demədən başlarını yellədilər və növbə ilə otağı tərk etdilər. Teylor sakitcə hazırlanmış izahatları gözdən keçirirdi. Axı bu sirli fərdin yaxud da qrupun məqsədi nədir? Cinayətlərin səbəbi var yoxsa sadəcə əyləncə xarakteri daşıyır? Ölüm tarixləri nədən xəbər verir? Doxsan birinci ildən iki kişi eyni anda qətlə yetirilibsə Rebekka Bilin də ölüm ortağı var? Bəlkə də, seçilmiş adamları nə isə birləşdirir. Amma nə? Teylor bu suala cavab tapmaq eşqi ilə alışıb yanırdı, lakin cavab axtardığı sualı necə verməli olduğunu belə bilmirdi. Aydın olan tək şey – buna son qoyulmasa, Los-Anceles tezliklə bu cinayət silsiləsindən danışacaq.

Frenk Teylor iclas otağından çıxaraq öz kabinetinə üz tutdu. Hovard ilə Maklavskinin yanına yollanmadan əvvəl bir az özünə gəlmək istəyirdi. Özünə şəkərsiz sərt qəhvə süzüb yolda bir neçə nəfərlə salamlaşıb bir-iki kəlmə kəsdi. Həmkarları son iki gün-

kü cinayətlərlə bağlı suallar verir və bu, onu qıcıqlandırırdı, lakin Teylor emosiyalarını heç vaxt nümayiş etdirməmək tərəfdarı olduğundan özünü son dərəcədə soyuqqanlı aparırdı. Ən azından ətrafdakıları öz hərəkətlərinə inandıra bilirdi.

Axır ki, o kabinetinin qapısını açıb içəri keçdi. Dərindən nəfəs aldı, qəhvəsini bitirib plastik stəkanı zibil qutusuna atdı. Bura Teylorun dünyada ən sevdiyi guşələrdən idi. Qara iş masası, üstünə səpələnmiş onlarla fayl, ağzına kimi cinayət izahatları və xronikaları ilə dolu rəflər, rəflərdə darıxdığı zamanlarda ona yoldaş olan bir neçə roman, üzəri müxtəlif qurbanların və üstü açılmamış cinayətlərin şəkilləri ilə örtülmüş üzbəüz açıq mavi divar – bütün bunlar Teylorun ordinar həyatının ayrılmaz hissələri idi. O, masanın üstündəki elektron saatda qırmızı rənglə 10:42 olduğuna baxıb kreslosunun başına keçdi. Noutbukun üstündən kağızları götürüb onu işə saldı. Ekranda Microsoftun loqotipi, beynində isə qurbanların dəhşətli görüntüləri əks olunurdu. Kompyuterdən açılarkən çıxan səs onu reallığa qaytardı. Elektron poçtunu və gərəksiz hesab etdiyi twitter hesabını yoxladı. O, heç nə yazmasa belə, twitterdə onu izləyənlərin sayı artmaqda idi, bunun səbəbi onun hamını geri izləməsi ola bilərdi, çünki darıxdırıcı Teylorun hesabında yeddicə tvit vardı. Baxmayaraq ki, artıq bir ilə yaxındır ondan istifadə edirdi. O, “New York Times”ın ən çox satılan kitablar siyahısına göz atdı. İlk sırada çox romantik adlı, Sci-fi[9] roman durur-

9 Science Fiction – Elmi-fantastik əsərlər ingliscə belə adlanır.

du. Yazıçının dilə yatmayan adı vardı. Əsər Teyloru cəlb etməsə də, sirli cinayətkarı tapdıqdan sonra onu oxumaq barədə düşünəcəyinə qərar verdi. Bundan sonra, ən son film xəbərlərini araşdırmaqla məşğul oldu və düz on bir tamamda qapı tappıltı ilə açıldı, Endi Hovard içəri daxil oldu.

– Hazırsan?

– Aha. Bircə, imkan ver, bu məqaləni bitirim.

Masanın digər tərəfinə keçən Hovard əyilərək gözlərini ekrana zillədi. Xəbəri oxuduqdan sonra üzündə xəfif gülüş əks olundu. Teylorun çiynindən vuraraq dedi:

– Sən hələ də onun "Oscar"a şansı olduğunu düşünürsən?

– Niyə də yox?

– Əzizim, "Oscar" və "Nobel" qəribə mükafatlardır.

– Nə mənada? – Teylor gözlərini kompyüterdən çəkərək Hovarda baxdı.

– Sadəcə elədir də. Özün fikirləş, elə olmasa, Hiçkok niyə Oskarsız qalıb ki? Ona öldükdən sonra belə xüsusi xidmətlərə görə verilən mükafatlar çox azdır, amma Vertigo[10] barəsində eşitmisən də, yəqin, – Hovard yenidən gülümsədi. Bu filmə o, Teylorun məsləhətindən sonra baxmışdı, – ya da ki Teslanı götürək. Hara daş atsan, altından Teslanın adı çıxır, hətta sevdiyin mikrodalğadan belə, ancaq nə fayda? Riyaziyyatçılara Nobel verilmir. Səbəb – kişinin ar-

[10] Vertigo – Baş gicəllənmə 1958-ci ildə A.Hiçkok tərəfindən lentə alınmış bir şah əsər. 2012-ci ildə Sight and Sound tərəfindən tarixin ən yaxşı filmi adına layiq görülüb.

vadına güc gələ bilməməsi. Əzizim Frenk, belə boş şeylərlə doldurma beynini.

– Bunu demək istəməzdim, lakin, deyəsən, haqlısınız, detektiv Hovard.

– Deyəsən yox! Sadəcə haqlıyam! – Teylor biləkdən deyəsən sözündən istifadə etmişdi, – indi isə arxanı tərpət, gedək.

Onlar yolda ağıllarına gələn bütün mövzulardan söhbət edərək tibbi ekspertiza otağına yollandılar. Qapını açıb içəri daxil oldular. Ora üfunət qoxuyurdu. Maklavski Rebekka Bilin üzərində qəssabtək araşdırma aparmışdı. Qurbanın müxtəlif bədən nahiyələri yarılmış və diqqətlə incələnmişdi. Xüsusilə də, zədələnmiş hissələr diqqətlə gözdən keçirilmişdi. Görünür, Maklavski mismarların hansı materialdan hazırlandığından əmin olmaq üçün qurbanın sinəsindən və əllərindən nümunələr götürmüşdü. Lumnisent lampanın parlaq işığı Bilin üzünə tuşlandığından onun solğun göy rəngə çalan üzü və açıq qalmış gözlərində əks olunan lampa vahiməli görüntü yaradırdı.

Bu səhnəni görən Teylorla Hovard üzlərini müxtəlif istiqamətlərə çevirib ora baxmamaq qərarına gəldilər. Nə qədər cəsəd görsələr belə, hələ də bəzi məqamlarda öz hisləri qarşısında çarəsiz qalırdılar. İnsan necə biri olursa, olsun, kim olursa, olsun, belə ölümə layiq deyil. Rebekka Bil haqqında o qədər də yaxşı söz eşitmədiklərinə baxmayaraq detektivlər onun bu hala düşməsinin səbəbkarını düşünür və məhz buna görə də qurbanın cansız gözlərinə belə baxmağa cürət etmirdilər. Bəzən tanıdığın yaxşı bir

insanın ölümünə çox normal reaksiya verirsən, sənə tamamilə yad birinin başına gələnlər isə səni incidir. Tanıdığın birinin əməllərindən xəbərdar olduğun üçün bunu çox da qeyri-adi qarşılamırsan, çünki həmin şəxsin kimliyindən xəbərdarsan. Yad birisi ilk anda insanda "kim idi?" "nələr etmişdi?" kimi suallar doğulur. Bəlkə, bu, sadəcə refleksdir və sən tanımadığın insana qarşı bir növ məyusluq empatisi duyursan, onun dərdinə şərik olursan, bəlkə də bunun səbəbi onu heç tanımamağındır, üstəlik də sənin ideologiyanda ölümdən sonra həyat varsa, sən tanımadığın şəxsi yaxşı şeylərin gözləmədiyindən şübhələnir və buna görə də özünü pis hiss edirsən. Bir gün səni də bu aqibətin gözlədiyindən qorxursan.

Hovard və Teylor bu tip dilemma yaradan fikirləri və qəribə faktorları düşünərkən qəfildən boğuq bir səs eşitdilər, reallığa geri qayıtdılar. Leks Maklavski ətrafda görünmürdü. Tualet tərəfdən isə bir nəfərin alçaq səslə ah çəkməsi eşidilirdi. Pıçıltılar ritmik şəkildə təkrarlanır, səssiz otağa yayılırdı. Deyəsən, içəridə kimisə boğurdular. Bundan şübhələnən Hovard sol İNDEX barmağını dodağının üstünə gətirərək Teylora səssiz olmasını işarə etdi və digər əlini silah kovurasına uzadaraq yarı avtomat tapançası boz rəngli "Glock"u çıxardı. Teylor da öz gümüşü "Desert Eagle"na əl atdı. Onlar tualetin qapısının hər iki tərəfində hazır vəziyyətdə dayandılar. İçəridə nələr baş verirdi, görəsən? Maklavski öz iş yerini nadir hallarda tərk edərdi, lakin bura kiminsə soxulması və tibbi ekspertə qarşı zor tətbiq etməsi ağla o qədər də

real gəlmirdi. Üstəlik, Maklavskini tabe etmək də o qədər asan iş deyildi.

Bütün bunlara baxmayaraq detektivlər bağlı qapının qarşısında bir-birləri ilə işarələrin köməyi ilə danışmağa çalışdılar. Teylor boş əlini saat əqrəbinin əksi istiqamətində əyərək iki dəfə qapı istiqamətinə işarə etdi. Hovard başını tərpədib dərindən nəfəs aldı. Hər ikisi barmaqları ilə saymağa başladılar.

Bir İki Üç!

Teylor qapıya təpik vurub qırağa çəkildi. Endi Hovard silahı hazır içəri atıldı və Leks Maklavskini çox dəhşətli vəziyyətdə yaxaladı. Gördüyünə inana bilməyən Endi Hovard gözlərini yumaraq içini çəkdi.

# 8



**– Lənət! İyrənc! İnana bilmirəm! AAAAAA!**

**– Yaxşı, sakitləşməyə çalış, Endi.**

**– Yox! Sənin üçün demək asandır. Qapını vurub qırağa çəkildin! Bu dəhşəti isə mən görməli oldum! Mən! Frenk! Bu, oradakı Rebekka Bildən dəfələrlə qorxulu idi.**

– Hətta o dərəcədə? – əməliyyat masasının üstündəki qurbana baxan Teylor soruşdu, – gələn dəfə yeməyi mən ödəyəcəyəm.

– Mənim iştahım bir müddətliyinə sönüb! Deyəsən, istefa verməli olacağam.

– Deyəsən demək sənə yaraşmır, Endi. Özünü ələ al, – Teylor onun əhvalını qaldırmağa çalışsa da, nəticə əldə edə bilmədi.

Bu an Hovardın qışqıraraq çırpdığı tualet qapısı yenidən açıldı. Leks Maklavski oradan çıxdı. Dünən oxuduğu jurnalı indi sarımtıl dişlərinin arasında saxlayırdı. O, jurnalı ağzından öz masasının üstünə tüpürdü, əllərini bir-birinə sürtdü və saçlarını sahmana saldı. Sonra isə görüşmək üçün əlini Teylora uzatdı.

– Səni axmaq! Bunu necə etmək olar axı! Dəlisən! İnana bilmirəm! – Hovard özünü idarə etməkdə çətinlik çəkir, hirsini çıxmağa çalışırdı.

– Hovard, mənim mülkimə girməmişdən qabaq bunu düşünməli idin. İndi isə imkan ver! – Maklavskinin əli hələ də Teylora tərəf uzadılmışdı. O, isə sadəcə əli seyr edir və yerindən tərpənmirdi. Tibbi ekspert sərt baxışla:

– Siz, ağlınızı itirmisiniz, uşaqlar, – çımxırdı....

– Leks, sən əlini yumağı unutdun, – bayaqdan susan Teylor dilləndi.

– Yox, sadəcə mən bundan sonra heç vaxt əlimi yumuram. İstəyirəm ki, bu gözəl hislərin təsirini bacardığım qədəri ilə gec unudum.

– Gic, sarsaq! Sən dəlisən! Axmaq!

– Hovard, danışığına fikir ver, yoxsa səni buradan iti qovan kimi qovacağam!

– Hə? Məni, Leks? Yox bir!

– Yaxşı, bəsdir! – Teylor səsini yüksəldən kimi onların hər ikisi susdular. O, üzünü Maklavskiyə çevirib soruşdu, – sən bunu tez-tez edirsən, Leks?

– Olur da. Dəhşətli ölülərdən sonra beləcə stress atmağı xoşlayıram. Məsələn bu gün artıq ikinci dəfədir.

– Hətta iki? – Hovard təəccübləndi.

– Aha. Səhər özümü pis edirdim. Elə işə gələn kimi rahatlanmaq qərarına gəldim. Sonra isə sendviç hazırladım. Doğurdan, axı sən də səhər gəlmişdin. Hətta mənim yeməyimə şərik olduğunu unutdun, Hovard?

Bunu eşidən Hovard udqunaraq əli ilə ağzını tutdu. Halının indi heç də yaxşı olmadığını demək mümkün idi.

– Nuş olsun, Endi. Sən Leksin sendviçi barəsində nə deyirdin? – Teylor gülümsədi.

– Heç. Bu gündən yemək barədə bacardığın qədər az söhbət elə, Frenk! Mən artıq burada dayanıb bu axmaq, çılğın professoru dinləmək niyyətində deyiləm! – Hovard ayaqlarını yerə möhkəm çırparaq qapıya tərəf getdi. Sonda yenidən üzünü onlara tərəf çevirdi, – bir şey lazım olsa, bayırda gözləyirəm. Gedim, bir az hava alım. Burada qalsam, ölülərin qeydiyyatına daha bir nəfəri sala bilərəm.

– Lənətə gəlmiş, özündən razı zırrama! – qapı çırpılan kimi Maklavski deyinməyə başladı. Bir neçə saniyə donquldandı, sonra isə eynəkləri taxıb sakitcə başını yellədi. İçini çəkdi və əməliyyat masasına yaxınlaşdı. Lumnisent lampanı bir az tərpədib işığı düz qurbanın sinəsinə tuşladı.

– Leks, bunu da stress üçün edirsənsə, – Teylor cümləsini tamamlamaqda çətinlik çəkdi.

– Yox, sənə maraqlı bir şey göstərmək istəyirəm, – onların hər ikisi əyilərək mismar vurulmuş yerə baxdılar, – görürsən? Bax, mismar da misdəndir.

– Leks, bunu deyə də bilərdin.

– Yox, bura bax! – o, meyitin əlini dartaraq az qala Teylorun gözünə soxdu, – ələ vurulan mismarlar misdən deyil.

– Leks, sən əlcək taxmamısan.

– Boş ver əlcəyi! Onsuz da ona məndən başqa heç kəs toxunmur. Axı sənə deyirəm, ovucları deşən mismarlar misdən deyil! Frenk, bu adam Picasso qədər səliqə ilə işləyir. Ya da ki o, OKPdir[11].

[11] OKP (obsessiv kompulziv pozuntu) və Sarışan hallar nevrozu – OCD (Obsessive Compulsive Disorder)

– Nə?

– OKP, Frenk. Obsessiv Kompulziv Pozuntu.

– Bilirəm, ancaq OKP-nin bununla nə əlaqəsi olduğunu anlamadım, – Teylor gözlərini deşilmiş əldən çəkərək Maklavskinin şüşələrində barmaq izlərindən təmiz yer qalmayan gözlüklərinə baxdı, – səncə, OKP problemi yaşayan adam belə bir şeyin öhdəsindən necə gələ bilər?

– Bəlkə də, yalnız OKP-lər bu tip qəribə şeylərlə məşğul olurlar. Bu manyakın etdiklərini görmürsən? O, insanları öldürməklə rahatlıq tapır. OKP-nin əl yumasını gözünün qabağına gətir. Əlini yuyur, ancaq masaya qayıtdıqdan sonra yenidən əlini yumaq qərarına gəlir, yaxud da ki bir neçə dəqiqə şəxsən bağladığı qapıya baxıb onun bağlı olduğundan əmin olmağa çalışır. Bax, onun insanları öldürməyinin səbəbi də budur.

– İnsanları? – Teylor ona son iki günkü cinayətlərin başında eyni adamın dayandığını düşündüyünü deməmişdi.

– Aha. Dünənki omeqabaş oğlan və bu gözəlçə eyni adamın sənət əsəridir. Mən əvvəlcə misin sadəcə nisbətən daha tez əriyən metal olduğu üçün damğanın onunla vurulduğunu düşünürdüm, lakin sonra bu gözəlçənin sinəsinə vurulan mismarın da misdən olması məni təəccübləndirdi. Bu adam misi sevir. Totem ola bilər, fəqət belə totem yalnız OKP-lərə xasdır. Siz isə buna manyak deyirsiniz. Mis isə manyakın imzası ola bilər, – o, xırda bir fasilə verib burnunun üstünə düşmüş gözlüyünü qaldırdı, – Frenk, bu adamdan

qorxmaq lazımdır. Təxminlərim düzdürsə, hələ çox şeylər bizi gözləyir.

– Ümid edək ki, yanılırsan, Leks, – Teylor boğazını arıtlayıb bir daha qurbana baxdı, – bəs cinsi əlaqə ilə bağlı bir şey tapa bildin?

– Yox, son bir neçə gündə o, fikrimcə, bir neçə dəfə cinsi əlaqəyə girsə də, bizə lazım olacaq dərəcədə detallar əldə etmək qeyri-mümkündür. Özün düşün, OKP heç əlini yumamış işə başlayar? – Maklavski lumnisent lampanı söndürüb masasının başına keçdi, – Frenk, çay, qəhvə?

– Təşəkkür edirəm, Leks, ancaq sən hələ də əlini yumamısan.

– Səncə, mən o dərəcədə pintiyəm? – Maklavski ağzını büzdü.

– Xoşbəxtlikdən görə bilmədiyimdən sonra heç bir fikrim yoxdur.

Onların hər ikisi güldülər. Maklavski öz yuxu rejimində işləyən netbukunu açdı. Bir neçə qovluğa daxil olduqdan sonra video fayl işə düşdü. O, ekranı Teylora tərəf çevirib boğuq səslə – diqqətlə bax. Bunları bikar vaxtımda quraşdırmışam, – dedi. Teylor kamera yazısında Hovardın tualeti necə girib Maklavskini gördüyünü və qışqıraraq oradan necə ayrıldığını seyr etdi. O, qapını çırpdıqdan sonra Maklavski işini bitirdi, kranı az-maz açaraq əllərini sabunlamağa başladı və bir neçə dəfə onları tələsmədən yudu.

Bunu izlədikdən sonra gülməyə başlayan Frenk Teylor sanki Maklavskinin gözlərindən nə demək istədiyini oxudu:

– Bunu Endiyə deməyəcəyəm. Əmin ol.

– Nəyi? – qəfildən qapı açıldı və Hovard içəri girdi, – Frenk, bu axmaq yenə nə sarsaqlayır?

– Heç, – arxası Hovarda tərəf dayanan Teylor son dəfə gülümsəyərək ciddi sima almağa çalışdı. Sonra geriyə döndü, – Leks nə gəldi danışır.

– Buna şübhəm yoxdur. İndi isə getməliyik. Fövqəladə vəziyyətdir.

– Nə olub? Teylorun kamera yazılarından sonrakı əhvalı yoxa çıxdı, – dünən axşam da getməli olmuşduq. Bu şəhər dəli olur? Növbəti cinayət?

– Cinayət haqqında heç nə deyə bilmərəm, amma mələklər şəhərinin başına hava gəlib. Bir nəfər özünü göydələndən atmağa hazırlaşır. Tez bir zamanda bütün sərbəst qüvvələrin asayişin qorunmasına dəstək verməsi üçün ora yollanması əmr edilib.

– Dayan, bir dəqiqə. Kim? Nə bina?

– Hansısa axmaq özünü "Los-Angeles City Hall"un iyirmi yeddinci mərtəbəsindən atmaq qərarına gəlib.

# 9



## 15 oktyabr. 13:06

**Buludlu, amma xoş payız havası. Ağır iş günündən sonra ailənlə gəzintiyə çıxıb soyuq kola içməyin, övladlarının yelləncəkdə gülməsini seyr etməyin əsl vaxtıdır. Ya da ki sevgilinlə bir yerdə gözəl bir film izləyə bilərsən. Düzdür, oktyabr film cəhətdən bir qədər durğun keçir. Yüksək büdcəli blokbasterlərə çətin rast gələsən. Qızğın yay rəqabətindən sonra, əsasən, orta büdcəli filmlər, Oskar hədəfləyən kütlələrin və yaxud kritiklərin gülüş obyekti olan B-səviyyəli Frenşayzların[12] yeni hissələri meydanın sahibinə çevrilir. Üstəlik izləyici də bir növ filmlərə meylsiz olur. Daha çox yaz və yayda ekrana çıxmış hitlərin Blu-ray və DVD buraxılışlarını gözləyir. Kinoteatr necə təchiz olunursa, olsun, filmi evdə izləməyin özünə məxsus dadı var. Üstəlik Blu-ray və super-güclü televizora sahibsənsə.**

[12] Franchise – dövlət qurumlarının və yaxud da xüsusi kompaniyaların izni ilə müxtəlif kommersial məhsulların qrum və individual şəxslər tərəfindən hüquqi idarə olunması.

Çarlz Neş isə bu gün üçün xüsusi plan hazırlayıb. O, bu günün şəhər əhalisi üçün həm gəzinti, həm də yayın əyləncəli filmlərinin varisi olmaq, özünü bütün şəhərə və dünyaya təqdim etmək qərarına gəlib. Bəs o, kimdir və məqsədi nədir?

"Los-Angeles City Hall"un texniki təchizat şöbəsində kompyuter mühəndisi olaraq çalışan Neş normal və sakit həyat sürürdü. Əslən ispaniyalı idi, Kanadada böyüməsinə baxmayaraq uşaqlıqdan xəyalı Amerika olub. İndi isə stabil maaş və parlaq karyera imkanına sahib olan Neş həyatının ən çətin anlarından biri ilə üz-üzə qalmışdı. Problemlərinin həllini isə özünü bu tarixi binadan ataraq hər şeyə son verməkdə görürdü. Ya indi, ya da heç vaxt. O, bunu edərək özünü qurban verib hər şeyi qaydasına qoya bilər. O, bunu bütün Los-Anceles əhalisinin qarşısında və şəhərin bir nömrəli hökumət binasından etməlidir.

– Lənət! Bundan yaxşısı ola bilməzdi. Artıq həyatdan bezmişlər özlərini düz şəhər merinin gözünün qarşısında öldürürlər. Bu dünyanın sonu hara gedir belə!

– Sakitləş, Endi.

– Yox, alınmır. Biz burada dayanmışıq və biri elə indicə ölə bilər. Özümü saxlaya bilmirəm. Maklavski isə orada gör nələrlə məşğuldur.

– Sənin işin bura yığışmış camaata nəzarət etməkdir, – deyə ətrafa baxıb qaşlarını çatan Ferrell dedi, – Leks və yaxud da özünü atan adamı mühakimə etmək yox.

Frenk Teylor, Endi Hovard və Teylor tərəfindən evə göndərilmiş Stiv Ferrell onlarla LAPD üzvü ilə

birlikdə "Los-Angeles City Hall" ətrafını nəzarət altına almışdılar. Şəhər merinin bu yaxınlarda mükafatla təltif olunacağı nəzərə alınarsa, bugünkü hadisələr onun adına çox böyük ləkə gətirə bilərdi. Şəhər səviyyəsində bunu fövqəladə vəziyyət də adlandırmaq olardı. Bəlkə də, merə qarşı hazırlanmış provokasiya idi. Binanın ətrafı sakinlər tərəfindən mühasirəyə alınmışdı, havadan isə müxtəlif təşkilatlara və TV kanallara məxsus helikopterlər uçurdu. Bütün sosial şəbəkələr indi bu hadisəni paylaşırdı. Ətrafdakı yüzlərlə insan öz telefonları ilə qlobal toru böyütməklə məşğul idi. Çarlz Neş isə tərpənmədən aşağıya baxırdı. O, binanın iyirmi yeddinci mərtəbəsindən gözlə seçilməyəcək qədər xırda görünürdü, lakin bu mənzərə belə dəhşət yaratmağa qadir idi.

– Con Parkison[13] buranı tikəndə zəlzələni nəzərə alıb, amma gəzən təhlükələri yox, – səs-küy üzündən Ferrell yüksək tonla dedi.

– Bəlkə, bu iş Con Ostin və Albert Martinə tapşırılıb.

– Heç yeri deyil, Endi.

– Nə? Səni eşitmirəm! Hanna deyir, evə gəl? Südün soyuyur?

– Dedim axı, bəsdir!

– Yaxşı kifayətdir. İndi xüsusi təyinatlılar içəri girəcəklər. Hazırlaşın.

Teylorun sözündən sonra onların hər ikisi susdular. Tünd göy formalı, arxalarında S.W.A.T[14] yazı-

---

[13] John B. Parkison 1895-1945 amerikalı memar. John Austin və Albert Martin'lə birlikdə Los-Angeles City Hall'un tikintisini layihələşdirib.

[14] **S**pecial **W**eapons **a**nd **T**actics – Xüsusi Silahlar və Taktikalar.

sı əks olunan dörd silahlı polis içəri daxil oldu. Bir neçə dəfə binanın daxili təhlükəsizlik işçiləri Neşi yolundan döndərməyə çalışsalar da, bir nəticə əldə edə bilməmişdilər. İndi isə iş professionalların üstünə düşmüşdü. Onlar danışıqlarla fikrini dəyişmək istəməyən şəxslə necə dil tapmaq lazım olduğunu bilirdilər. Ancaq xüsusi təyinatlıların ardınca binaya bir neçə qara kostyumlu polis də daxil oldu. Şübhəsiz bunlar FTB-dən[15] idilər. Səliqəli dəst kostyumlar, təmiz qara ayaqqabılar və özlərindən razı görkəm.

– Bunların burada nə işi var? – Hovard təəccübləndi, – eyni anda həm xüsusi təyinatlılar, həm də FTB. Siz nə düşünürsünüz, uşaqlar?

– Heç bir fikrim yoxdur, – Ferrellin sözü bitən kimi bir neçə nəfər zorla binanın içinə girməyə çalışdı. Qapının yaxınlığında olan Teylor və adamları cəld ora qaçıb, digər polislərə kömək etdilər. Suisid[16] hadisələrində hamı özünü qəhrəman kimi göstərməyə çalışır. Bu da tipik hadisələrdən daha biri. Nə də olsa hadisənin mərkəzindəki şəxs səni yox, özünü öldürməyə hazırlaşır.

İnsanların getdikcə daha da coşduğunu görən Teylor məcburi olaraq onlardan birini geriyə itələməli oldu. Bu, hündür ağdərili şəxsin xoşuna gəlməmişdi. İndi qərar verməyin əsl vaxtı idi. Yoxsa sonra gec olacaqdı. O, sağ tərəfində Ferrellin də oxşar halla

---

15 FBİ(Federal bureau of İnvestigation) – FTB(Federal Təhqiqat Bürosu)

16 Suisid(Suicide) –intihar, özünü öldürmə cəhdi.

üzləşdiyini gördü. Digər polislər də onlara yaxınlaşan adamları artıq saxlaya bilmirdilər. Və

BAM! BAM! BAM!

– Geriyə çəkil, lənətə gəlmiş, axmaq! – Teylorun havaya açdığı atəşdən sonra yaxın qırx metrə tam sakitlik çökdü. Bütün kameralar və gözlər ona istiqamətləndi. Soyuqqanlı görkəmini saxlamağa çalışsa belə, Teylor da daxilində böyük həyəcan keçirirdi. Bu, onun işinin sonu ola bilərdi, amma başqa çıxış yolu qalmamışdı. Yanında dayanan polislərə baxdı. Saçları ağarmış formalı çavuş razılıq əlaməti olaraq başını yellədi. Digər həmkarları da onun bu hərəkətini təsdiqləyirdilər. Qismən də olsa, vəziyyəti düzəldən Teylor geriyə – binanın girişinə tərəf döndü:

– Stiv, Endi hanı?

– Düz yanım... – Hovardın ortalıqda olmadığını görən Ferrellin ağzı açıq qaldı, – bu oğlan heç vaxt ağıllanmayacaq!

Teylor cəld cibindən telefonunu çıxardı, həmkarının nömrəsini yığdı. O dərəcədə əsəbiləşmişdi ki, touchscreen-i güclə idarə edirdi. Bir neçə dəfə siqnal səsi eşidildikdən sonra zəngə cavab verildi.

– Frenk, sonra izah edəcəyəm! – Hovardın səsindən təngnəfəs olduğu hiss olunurdu.

– Ay axmaq, dəli olmusan?! Bu, bizim işimiz deyil!

– İndi danışa bilmirəm. Artıq yuxarı çatıram. Hələlik!

Smartfonu əlində sıxan Teylor tez ətrafa baxdı. İndi nə etməli olduğunu bilmirdi, lakin özündən asılı olmadan dostunun yanında olmaq istəyirdi. Fer-

rell tərəfə baxıb onun da oxşar hislər yaşadığını anladı. Onsuz da bu gün artıq xəbər buraxılışlarında göstərəcəkdilər. Nə də olsa, minlərlə insanın yanında havaya üç dəfə güllə atmaq çox böyük risk idi.

– KTLA5[17] News. Bir neçə sualımıza cavab verə bilərsiniz? – qəribə saç düzümlü, gözlüklü müxbir öz operatoru ilə Teylordan soruşdu.

– Heç yeri deyil, cənablar. Xahiş edirəm, – Ferrell onun yerinə cavab verdi.

– Amma bircə sual. Güllə atmağınızın səbəbini açıqlaya bilərsiniz, leytenant?

– Detektiv, – Ferrell başını yellədi, – cənablar, axı mən xahiş etdim.

Müxbir geriyə dönərək ucadan səslə:

– Gəl yuxarı qalxaq, onsuz da buradan bir xeyir gəlmir, – deyib küçənin digər başında dayanmış helikopterlərinə tərəf getdilər.

– Hey! Dayan! – Teylor qışqıraraq onların arxasınca qaçdı, – neçə sualına istəsən cavab verəcəyəm! Dayan!

Qəribə saç düzümlü adam geriyə dönərək özündən razı şəkildə mikrofonunu ona tərəf qaldırdı.

– Bu helikopter sizindir? – Teylor ona danışmağa macal verməyib soruşdu.

– Hə, – təvazökar müxbir fərəhlə cavab verdi, – soruşmaq istədiyim ilk sual.

– Suallarına bir şərtlə cavab verərəm.

---

17 KTLA 5 News – Los-Anceles şəhərində hal-hazırda CW'nun nəzdində fəalliyyət göstərən kanal.

# 10



**Liftin qabağında xüsusi təyinatlı dəstə əməliyyat planını hazırladığından Endi Hovard iyirmi yeddinci mərtəbəyə qalxmaq üçün pilləkənlərdən istifadə etməli olmuşdur. Onlar isə qalxdıqca artır və sanki geridə qalanları yenidən özünə birləşdirirdi. Mülki polis olduğundan forma geyməyən Hovard öz gödəkcəsini çıxarıb on doqquzuncu mərtəbənin pilləkənlərinə atdı. Əslində silahını daşımaq da onu yorurdu, lakin tapançanı burada sahibsiz saxlaya bilməzdi. Onsuz da etdiyi ağılsızlıqdan sonra işində qalıb-qalmayacağı barədə heç bir təxmini yox idi, lakin nədənsə özünü öldürməyə hazırlaşan insandan fərqli enerji alırdı. Nə müsbət, nə də mənfi. Bir növ qəribə hiss. Daxili mənin pıçıltısı. Empati.**

Ona görə də xüsusi təyinatlılar əməliyyata başlamamış ağlını itirmişi texniki yolundan döndərməyə qərar vermişdi. O, nəhayət iyirmi yeddinci mərtəbəyə çatdı. Burada bir neçə nəfər mühafizə işçisi və polis Neşin tullanmağa hazırlaşdığı pəncərə olan ofisin qapısının ağzında dayanmışdı. Onlar əllərindəki dolu plastik bardaqlarla pıçıltı ilə söhbət edirdilər. Su

içində olan Hovard onlara yaxınlaşaraq öz nişanını göstərdi.

– Detektiv Hovard, – o, sözünü güclə tamamladı. Oradakı adamlar qəribə baxışlarla onu süzdülər. Bir neçə saniyə onların heç biri danışmadı. Polis və mühafizə işçiləri sadəcə tər içində qarşılarında nəfəsini tənzimləməyə çalışan detektivə baxdılar. Bunun cavabında Hovard başını yelləyərək ofisin içinə keçdi. Pəncərənin ətrafından bütün mebel və avadanlıq götürülmüşdü. Sadəcə tam açıq pəncərə və divarlar. Pəncərənin çərçivəsindən yapışmış barmaqların ucları. Hovard başını pəncərədən çıxararaq arxası ona dayanan və aşağı baxan Çarlz Neşə nəzər saldı. Dərindən nəfəs aldı və fikrini cəmləməkdən ötrü bir daha başını yellədi. Daha bir gonbul mühafizə işçisi digərlərinin yanına qatılmışdı. O, əlində gətirdiyi yeni içkiləri həmkarlarına payladı. Hovard onlara tərəf qətiyyətli addımlar atdı. Hələ də təngnəfəs olmasına baxmayaraq, az-maz özünə gəlmişdi.

Ofisin qabağındakılar ruh görmüş kimi sadəcə ona baxmağa davam edirdilər. Gonbul çavuş öz bardağının qapağını açıb içkinin qoxusunu içinə çəkdi. Yanaqlarının ölçüsü o qədər böyük idi ki, az qala bardağın içinə düşəcəkdi. Gözlərini yumaraq içkisini başına çəkəcəkdi ki...

– Ver bura, – deyən Hovard onun bardağını qapıb pəncərəyə tərəf döndü. Gonbulun donquldandığın eşidib geriyə dönmədən ucadan səslə – bir az pəhriz saxla, yoxsa nə vaxtsa istəsən belə, özünü pəncərədən ata bilməyəcəksən. Dalın çərçivədən ilişib qalacaq, –

qışqırdı və isti içkini başına çəkdi, – lənət! Bu nə zibildir içirsən?

– Qarın ağrısı dərmanı, – gonbul cavab verdi, – son vaxtlar bir az nasazam. Olsun ki, çox yağlı yeyirəm.

Hovard gülümsədi, lakin bunun səbəbi əsəb pozuntusu idi. O, yenidən pəncərəyə yaxınlaşıb bu dəfə başını tamamilə bayıra çıxardı. Neş özü-özünə nə isə pıçıldayırdı.

– Vur. Vur özünü. Vur. Özünü vur.

– Hey, salam! – Hovard pəncərədən aşağıda toplanmış camaata baxdı, onun səsini eşidən Neş diksindi, – qorxma, dayan. Yıxılarsan asta ol. Dayanmısan? Hər şey qaydasındadır?

– Aha, – birtəhər cavab verən Neşin həyəcandan bənövşəyi dodaqları qurumuşdu.

– İndi isə danış. Niyə özünü aşağı atırsan? Nədən narazısan?

– Siz kimsiniz?

– Tənha Rencer. Cavab ver, niyə özünü atırsan?

– Başqa çıxış yolum yoxdur. Sadəcə olaraq bunu etməliyəm. Sevdiklərim üçün etməliyəm.

– Övladın var?

– Hə, qızım.

– Bəs onu sevmirsən?

– Elə hər şeyi etməyimin səbəbi qızım və anasıdır, – Neş yenidən aşağı baxdı.

– O halda, bəlkə, bura enəsən ətraflı danışaq? – Hovard bacardığı qədər sakit səslə danışır, Neşin ani reaksiya verməməsi üçün çalışırdı, – gəl bura, rahat danışaq.

– Yox, bunu edə bilmərəm, deyirəm! Başa düşmürsən?

– Axı sən mənə heç nə demədin!

– Siz necə polissiniz? Bu, yeni metodlardandır? – Neş özündən çıxırdı.

– Bura düşsən, deyəcəyəm. Bu arada adım Endidir.

– Çarli.

– Bax, Çarli. Ailən indi aşağıdan sənə baxır. Qızının sənin yerə necə yapışacağını görməyini istəyirsən?

– Yox, amma məcburam axı. Başa düşmürsünüz, əgər bunu etməsəm, o, ailəmi öldürəcək.

– Kim? Bunu kim edə bilər?

– O! O, insan deyil!

– Yaxşı, sakitləş. Sakitləş, – artıq Neşin psixi problemləri olduğunu düşünməyə başlayan Hovard vəziyyəti ələ almağa çalışdı, – su istəyirsən?

– Yox. Yox! Sən məni başa düşmürsən! Çünki xəbərin yoxdur!

Dəhlizdən ayaq səsləri eşidildi, – bir dəqiqə gözlə gəlirəm, – Hovard qapıya tərəf gəldi, orada dayanan nəzarətçilərə sərt baxışlarla – siz niyə burada dayanmısınız axı? Tez onun istədiyi adamı gətirin! – çığırdı. Bayırdan isə helikopter pərlərinin səsləri artmağa başladı.

– Kimi? – başda gonbul çavuş olmaqla, hamı bir ağızdan soruşdu.

– Leks Maklavski! Tez gedin onu tapın! – detektiv ağlına gələn ilk adı səsləndirdi.

– Axı burada elə adam işləmir, – gonbul çavuş təəccübləndi.

– Sən qarın ağrısından qurtulsan, burada kimlərin işlədiyini bilərdin! İndi isə tez olun! Mən isə gedim görüm havadan gələnlər kimdir.

Gonbul çiyinlərini tərpədərək lift istiqamətində getdi. Birtəhər qapıdan içəri keçib, liftin kəmərlərini bağladı. Digər işçilərin də hərəsi bir tərəfə dağılışdı. İndi harada olsa, xüsusi təyinatlılar bura gələcəkdilər. Vaxt azalırdı. Hovard ofisin qapısını sakitcə örtüb içəridən qıfılladı. Amma bununla belə onun ən yaxşı şəraitdə cəmi beş dəqiqə vaxtı ancaq olardı.

Boz rəngli helikopter havaya yüksəlməyə başladı. Küçə dar olduğundan pilotun boynuna çox ağır yük düşürdü. O, diqqətlə və tələsmədən idarə etmə dəstəyini irəli itələdi. Qara pərlərin fışıltısı qulaqlıqların altından belə rahatlıqla eşidilirdi. Yavaşca yüksələn helikopterin qarşısında "Los-Angeles City Hall"un mərtəbələri dəyişdi və bir neçə saniyə sonra üfüqdə binanın divarına söykənərək əllərini ilə pəncərədən yapışıb tir-tir əsən Çarlz Neş göründü. Onun pambıq tək ağarmış yanaqlarından tər damlalarının axdığını izləmək mümkün idi. Helikopterlə Neş arasında yetmiş metrə qədər məsafə vardı. Bundan yaxına getmək isə Neşin idarəsini itirərək binadan düşməsinə səbəb ola bilərdi. Hətta bu məsafə belə risk daşıyırdı, lakin Frenk Teylorun israrından sonra pilot maksimum dərəcədə özünü atmağa hazırlaşan şəxsə yaxınlaşmışdı.

– Çəkirsən? – müxbir öz operatorundan soruşdu, – indi həll edici məqamlardır. Çalış kadrları buraxma. Neşin yanındakı şəxs, yəqin ki, danışıqları aparır.

– Frenk, səncə, buradan zibil iyi gəlmir? – kanal işçilərinin başının qarışdığını görən Ferrell soruşdu.

– Zibil də sözdür? – Teylor dərindən ah çəkib başını yellədi, – problem kanalizasiyası.

– Bizi işdən çıxarsalar, Endinin başını qoparacağam. Sonra da Hanna mənim kəlləmi üzəcək. Uf, Frenk! Axı bu oğlan niyə ağıllanmır?

Teylor cavab vermədi, ancaq eşitdiklərini beynində diqqətlə analiz etdi. Endinin hərəkətləri onlara, şübhəsiz ki, çox baha başa gələcəkdi. Bəlkə də, bu gün onlar polis kimi son günlərini keçirirdilər. Hovard bir dəqiqədən bir az artıq olardı ki, pəncərənin qabağından çəkilmişdi. İndi Neş bir qədər daha sakit görünür və deyəsən onunla bir neçə dəqiqə danışmış polisin geri qayıtmağını gözləyirdi. Və budur, detektiv Endi Hovard yenidən başını pəncərədən çıxardı, ilk olaraq helikopteri gözdən keçirdi. Bu məsafədən Teyloru görmək qeyri-mümkün idi. O, sadəcə helikopter tərəfə əl eliyərək yenidən başını Neşə tərəf çevirdi.

– Hə, indi danış görək, nədən qorxursan, Çarli? – Hovard yenidən nəsə pıçıldayan Neşdən soruşdu.

– Bu, mənim əlimdə deyil. Vur özünü. Vur özünü. Vur!

– Axı niyə özümü vurum ki? – Hovard dodaqlarını büzdü.

– Yox, mən. Mən gərək özümü atım. Vur özünü!

– Sən ölmək istəyirsən, əzizim?

– Yox, amma buna məcburam! Sən başa düşmürsəm, artıq çıxış yolum yoxdur, – Neş üzünü yenidən ona tərəf çevirdi.

– Çarli, maaşın azdır?

– Yox, – sualdan təəccüblənmiş Neş cavab verdi.

– Bəs nədən narazısan?

– Yox, deyə bilmərəm. O, axırıma çıxar!

– Əzizim, onsuz da özünü öldürməyə hazırlaşırsan. Məncə, deyəcəklərin heç nəyi dəyişməyəcək, – saniyəlik fasilədən sonra Endi boğazını təmizlədi, – amma inan ki, sənə özündən başqa heç kəs zərər verə bilməz.

– Axı sən onu tanımırsan.

– Axı o, kimdir? Haradadır? Adını bilmirsən onun?

– Deyə bilmərəm. Bilmərəm! – bu vaxt Neşin azmaz ayağı sürüşdü. Müvazinətini itirdi, ayaqları boşluğa düşdü.

– Tutmuşam! – Endi Hovard pəncərədən yarıya qədər çıxaraq bir ilə pəncərədən yapışan Neşin qolundan yapışdı, – qorxma, saxlamışam. Məni eşidirsən? – qulaqlarda əks olunan küləyin uğultusu və helikopterin pərlərinin səsinə görə o, səsini yüksəltdi.

Neş bir kəlmə demədən başını yellədi. İndi daha da qorxurdu.

– Onda dediklərimə diqqətlə qulaq as. Mən sadəcə LAPD-i detektiviyəm. İntihar hadisələrində necə danışmaq barədə fikrim yoxdur. Kim olduğunu da bilmirəm. Sadəcə, hislərim sənə kömək etməli olduğumu deyir və mən səni xilas etməsəm, çox güman ki, işimdən kənarlaşdırılacağam, bəlkə, səni xilas etsəm belə. Heç olmasa, imkan ver işdən çıxmağım boş yerə olmasın. İndi isə sadəcə mənə cavab ver. Hə, ya yox!

Neş bir daha başını yellədi və digər əlini də pəncərədən çəkdi, Hovarda tərəf uzatdı. Detektiv hər

iki əli ilə ondan möhkəm yapışdı, dərindən nəfəs alıb onu yuxarı qaldırmağa başladı. Aşağıdan alqış səsləri gəldi.

Amma!

– Aman Tanrım! – müxbir iki əli ilə ağzını tutdu. Aşağıdakı alqışlar təlaş nidaları ilə əvəzləndi, – çəkdin bunu? – o, özünə gələn kimi operatorundan soruşdu. Operatorun ağzı gördükləri qarşısında açıq qalmışdı.

Hovard Neşi yuxarıya dartarkən qəfildən haradansa atəş açılmış, güllə ona sağ tərəfdən dəymişdi. Xoşbəxtlikdən soyuqqanlılığı itirməyən Hovard Neşi havada saxla bilsə də, artıq Neş öz idarəsini itirmişdi. Onun ağ forması qırmızı al-qan boyandı, Hovarddan yapışan əlləri boşaldı və bir neçə santimetr aşağı sürüşdü.

– Kameranı mənə ver! – Teylor cəld operatorun cihazını əlindən aldı. İndi binokula ən yaxşı əvəz yuxarı optik yaxınlaşdırıcıya malik kamera ola bilərdi, – tez Neşin önünə keç. Atəş cənub qərb tərəfdən gəldi! Stiv, görmədin?

Helikopter havada manevr edərək özünü "City Hall"a bir qədər də yaxınlaşdırdı. Telekanalda işləməsinə baxmayaraq pilot kifayət qədər təcrübəli idi. Onlar binanın qarşısına keçərək cənub-qərb tərəfdən Neşin qarşısına keçdilər. Bu an növbəti atəş açıldı. Güllə helikopterin şüşəsinə dəydi, – Bunker Hill tərəf, Frenk! – Ferrell çığırdı, Teylor cəld kameranı həmin istiqamətə çevirib binaların başını axtardı, lakin helikopterə növbəti güllə tuş gəldi, o, yelləndi.

– Aha! – Teylor kameranı bərk tutub California Plaza ilə üzbəüz yaşayış binalarından birinin başına

baxdı. Binanın başındakı qara geyimli adam növbəti dəfə atəş açdı. Bu dəfə o, Neşi yox elə Teyloru nişan almışdı. Güllə helikopterin qapısına dəydi və korpusun metal örtüyünün səsi əks-səda verdi, – əla! Bunker Hill tərəfə! Cəld ol!

Boz rəngli helikopter yüz iyirmi dərəcə cənub qərbə tərəf döndü və hərəkətə başladı. Frenk Teylor hələ də kamera ilə qara geyimli adamı izlədi. Adam isə tələsmədən nişan alaraq növbəti dəfə atəş açdı. Bu güllə yenidən Neşə tərəf atılsa da, artıq Hovard və içəri soxulan gonbul çavuş onu pəncərədən yuxarı çəkməyə nail olmuşdular. Cəhdinin uğursuz olduğunu görən snayper silahını yerə atdı və qaçaraq binanın içinə girdi.

– Mərkəz! Bütün California Plaza ətrafındakı patrulların diqqətinə! Cəld 225 S Olive St CA 90012 adresindəki binanın qarşısına dəstək versinlər! Binadan heç kəs çıxmamalıdır! Təkrar edirəm, binadan heç kəs çıxmamalıdır. Qara geyimli, orta boylu şübhəli şəxs axtarılır! – Ferrell tez mərkəzə xəbər göndərdi.

Onlar binanın başına çatdılar, pilot helikopter üçün ayrılmış boş yerə enmək üçün tarazlığı saxladı və yavaş-yavaş aşağı endi, Binanın başına üç metrdən bir az məsafə qalmış Teylor qapını açdı və damın üstünə hoppandı. Yerə sərt düşdü, yıxılsa da, əlləri ilə tutub dikəldi. Başını qaldırıb Ferrellin də onun ardınca helikopterdən tullandığını gördü. Hər ikisi tapançalarını çıxardılar. Teylor bir gözlə snayperə və onun yanındakı qara çamadana baxdı. Bu vaxt artıq Ferrell binanın damından içinə aparan qapıya tərəf qaçırdı.

Teylor da arxasınca şığıdı. Son üç gün ərzində başlarına gələn hadisələr artıq onu təngə gətirmişdi. Bir anlığına bu dünyadan ayrıldı, lakin sonra Ferrellin onun sinəsinə vurduğu dirsək zərbəsi ilə özünə gəldi.

– Frenk, yaxınlaşma!

– Stiv, niyə içəri keçmirsən? – həmkarının etdiklərindən baş açmayan Teylor əsəbiləşdi, lakin Ferrell ayağının altını işarə etdikdən sonra Teylorun gözləri bərəldi, – tərpənmə! Dayana biləcəksən, Stiv?

– Hə, mən yaxşıyam. Get bu alçağı tut. Dayana bilərəm. Narahat olma.

– Axı sən...

– Dedim ki, get, Frenk.

Teylor Ferrellin ayağının toxunduğu sapa və sapın bitişik olduğu detonator bombaya baxdı. Ən kiçik bir ayaq tərpətməsində Stiv Ferrellin ayağından əsər-əlamət qalmazdı. Teylor diqqətlə sapın üstündən keçərək pilləkənləri enməyə başladı. Bir neçə addım atdıqdan sonra geriyə dönüb iş yoldaşına baxdı. Ferrell sadəcə başını yellədi. İndi nə isə deməyə ehtiyac yox idi. Hər şey sözsüz də başa düşülürdü. Hazırda Teylor onun yerində olmaq istəməzdi. Bütün fikrini toplayıb pilləkənləri enməyə davam etdi. Qara paltarda orta boylu və çəkili birini axtarırdılar, lakin kimi? Axı niyə son günlər belə qeyri-adi hadisələr onu tapır? Professional manyakdan sonra axı bu kimdir belə? Los-Ancelesə hansı vəziyyətə gəlib çıxıb? Hər gün A-klass cinayətkarlar peyda olur və ağlasığmaz şeyləri gerçəkləşdirirlər. Demək, Çarlz Neş məcburiyyətdən özünü atmağa hazırlaşırdı? Amma

onu belə bir hərəkət etməyə nə vadar edə bilərdi? Bəs indi cinayətkarı bu binanın içərisində necə tapmalı? Görəsən, buranın sakinidir yoxsa kənardan biri? Kim bilir, onun beynində indi nələr dönür?

Çarəsizcəsinə pilləkənləri enən Teylor qəfildən ayaq saxladı və başını yuxarı qaldırdı. Yuxarıdan gurultulu partlama səsi eşidildi. O udqunaraq gözlərini yumdu. Bədbəxt hadisə baş vermişdi. Bunun səbəbkarı isə o və Hovard idi.



# 11

## 15 oktyabr. 15:42

**– Bu, həyatımda gördüyüm ən axmaq əməliyyat idi. Siz iki gicbəsərin etdikləri bizə çox baha başa gəldi. Axı nəyə görə mən iki başdan xarabın düşüncəsiz hərəkətlərinin dərdini çəkməliyəm? Siz kim olduğunuzu düşünürsünüz? Sizin zibillərinizin ucbatından mənim telefonum od tutub yanır! Hələ mən L.A prokuroru ilə görüşməliyəm. Hələ digər tərəfdən mən Hanna ilə də danışmalıyam! Stivə görə mən ona cavab verməli olacağam! Bunun səbəbkarı isə siz ikinizsiniz! İki nəfər vəhşi qərbdən gəlmiş kovboy! Sizə akademiyada nizam-intizam anlayışlarını öyrədən olmayıb?**

Teylor və Hovard Homosid[18] şöbəsinin müdiri Cessika Murun qarşısında sakitcə başlarını aşağı əymişdilər. Artıq hardasa on beş dəqiqə olardı ki, müdiri eyni sözləri təkrar edirdi. O, otuz yeddi yaş, bir yetmiş boy, altmış beş kilodan artıq çəkidə bir xanım idi. Heç vaxt

[18] Homicide – insan qətlərini araşdıran polis şöbəsi.

ailə həyatı qurmamasına baxmayaraq üzündən kifayət qədər yorucu həyat tərzi yaşadığı aydın olurdu. Onun basıq çəhrayıya çalan yanaqları, az-maz qartal burnu, oval cəlbedici çənəsi və qızılı telinin altında gizlənmiş şabalıdı gözləri vardı. Tünd-göy dizdən azca yuxarı ətək və tünd-göy düyməli, dirsəklərdən yuxarıda yerləşən köynəyi elə bil xüsusilə onun üçün istehsal olunmuşdu. Ümumiyyətlə bədən quruluşunda qüsur çətin tapılardı. Yaşına görə pis görünmürdü, amma evli olmamasının da bunda təsiri, sözsüz ki, var idi.

– İndi isə hər şeyi izah edin! Gözləyirəm, – ayaq üstə dayanan Mur öz kreslosunun başına keçdi. Detektivlərə isə oturmaqları üçün işarə etmədi. Bir ayağını digərinin üstünə qoydu, başını yelləyərək işçilərinə baxdı, – başla, Frenk.

– Frenkin bu işlə əlaqəsi yoxdur, – Endi müdaxilə etdi, – hər şeyin günahkarı mənəm.

– Yox, Cess. Endinin sözləri həqiqəti əks etdirmir. Mən hərəkətlərimə görə özüm məsuliyyət daşıyıram.

– Cənablar, sizcə, mən sizin bir-birinizi necə müdafiə etməyinizə qulaq asmaq istəyirəm? – Mur sərt bir gülümsəmə ilə onları acıladı, – indi isə biri danışanda o, biri susmağa çalışsın! Yaxşı, birinci sən başla, Endi.

– Cess, axı bilirsən, detektiv instinkti necə olur. Bax bu instinkt mənə yuxarı qalxmalı olduğumu dedi. Altıncı hiss deyək.

– Mənim instinktim isə sənin axmaq olduğunu deyir! Altıncı hiss deyək buna da – Murun gözləri parladı, – sənə görə bir nəfər həyatını itirə bilərdi ən azı.

– Amma, deyəsən, mən olmasam, o, özünü atacaqdı, – o, Teylora tərəf baxdı, – inanmıram ki, "deyəsən" köməyimə çata, – özlərindən asılı olmadan detektivlər gülümsədilər.

– Nə? – Mur soruşdu, – məni ələ salırsınız? Siz, ümumiyyətlə ağlınızı itirmisiniz, – qarşısındakıların özlərini belə aparması onu bir az da özündən çıxarırdı.

– Dedim, axı deyəsən işə yaramazın biridir.

– Hovard!!!

– Bağışla, Cess.

– İndi isə sən uçan qartal Teylor. Danış! Necə oldu ki, uçmağa başladın?

Teylor boğazını arıtladı, – Endiyə dəstək olmaq istəyirdim. Vəziyyət həmin an çox kritik idi.

– Uçaraq? Düşünmədin ki, bu hərəkətin Neşi binadan sala bilər?

– Cess, axı biz risk almasaq, necə uğur qazana bilərik?

– Bəs Ferrell də riskin nəticəsidir də, hə? – Mur qəhvəsini bir dəfəyə başına çəkdi, masanın üstünə çırpdı, xırıltılı tərzdə dərindən nəfəs aldı, – partlayışın nəticəsi daha da pis ola bilərdi.

– Hə, haqlısan, Cess.

– Elə öz başına havaya atdığın güllələrdən danışmıram heç! – Mur növbəti dəfə içini çəkdi.

– İndi bizi nə gözləyir? – Hovard sakit tonla soruşdu, – yenə maaşdan kəsir?

– Yox.

– Sağ ol, Cess. Sən ən yaxşı müdirsən.

– Yox.

– Axı belə olduğunu bilirik.

– Siz işdən bir aylığına kənarlaşdırılırsınız.

– Görürsən, Frenk? Gərək, özümüzü yaxşı aparaq, – ilk anda heç nəyi anlamayan Endi Hovard ortağının üz ifadəsini seyr etdikdən sonra elə indicə eşitdiyi cümləni bir daha beynindən keçirdi. Yerindən atılaraq hər iki əlini müdirinin masasının üstünə qoydu, ucadan etiraz etdi, – nə? Axı hansı haqla? Cess, bunu bizə etmə. Bir aya mən dəli olaram axı!

– Mən sizi işdən qovmuram. Sadəcə, bir aylıq fasilə.

– Axı niyə? – Teylor gözlərini bərəltdi, – bunun mənası nədir?

– Frenk, düz deyirsən. Əlimdə olsa, sizi qovardım, lakin nə də olsa, bu gün şou göstərmisiniz, – kiçik bir fasilə, – amma...

– Amma nə? – detektivlər eyni anda soruşdular.

– Siz bir aylığına məcburi məzuniyyət götürürsünüz, uşaqlar, – Mur güldü, – bu qədər bəsit.

– Mənim məzuniyyətə ehtiyacım yoxdur! – Hovard artıq sinirlərini zorla cilovlayırdı.

– Endi, sən artıq bir ildir, Frenk isə iki ildir ki, məzuniyyət götürmür, – Homosid şöbəsinin müdiri yenidən gülümsəyərək ayağa qalxdı, – indi isə, cənablar, sizə xoş istirahətlər.

– Amma...

– Ammasız!

– Cess, xahiş edirik, – artıq həyatının ən uğursuz həftəsini yaşadığından əmin olmuş Teylor dedi,

– axı biz indi çox vacib araşdırma aparırıq. Silsilə cinayətlər.

– O işlə Selvek və Boldvin məşğul olacaq. Ürəyiniz rahat olsun, – adı çəkilən detektivlər, həqiqətən, öz işlərinin ustaları olsalar da, yenə də bu iş Frenk və onun komandasına məxsus idi, – indi isə xahiş edirəm, buranı tərk edin. Mən hələ Hanna Ferrellin şikayətlərini eşitmək məcburiyyətindəyəm. Bir ay sonra görüşərik.

Müqavimət göstərməyin xeyri olmadığını görən detektivlər sakitcə otaqdan çıxdılar. Qapının ağzında son bir dəfə Teylor Murun simasına baxıb üz cizgilərinin gülümsədiyini gördü. Qapıdan çıxan kimi nifrət dolu gözlərlə onlara baxan Hanna Ferrelli gördülər. Bu xanımın xasiyyətinin yaxşı olmadığı bütün idarəyə məlum idi, amma onun Teylor və Hovarddan xüsusi ilə acığı gəlirdi. Ferrellin iş yoldaşlarını bir növ qısqanır və həyat yoldaşının başına gələnlərə görə hər ikisini günahlandırırdı. O, çox soyuq tərzdə onların yanından keçərək Murun otağına girdi və zərbə ilə qapını arxasınca örtdü, dərhal içəridən qışqırıq səsləri eşidildi.

– Bağışlayın, uşaqlar, onu saxlaya bilmədim, – bir növ həyat yoldaşının hərəkətlərindən xəcalət çəkən Stiv Ferrell başını aşağı saldı.

– Yox, o nə sözdür, Stiv? Hannaya bəraət qazandırmaq olar. Nə də olsa, sən ölə bilərdin. Partlayışda yerindən tərpənməməyin əsl möcüzədir, – kefsiz də olsa, ona təsəlli verməyə çalışan Teylor xəfifcəsinə gülümsədi.

Binanın başında partlayışa səbəb Ferrellin ayağının altındakı detonator yox, içində snayper olan çamadan olmuşdu. Cinayətkar dəlilləri yoxa çıxartmaqdan ötrü öz silahını və digər əşyalarını havaya uçurmuşdu. Xoşbəxtlikdən partlayışdan hürksə belə, Ferrell yerindən tərpənməmişdi, lakin KTLA5 News kanalının helikopterinə küllü-miqdarda ziyan dəymişdi. Əgər bunun tərsi olsaydı, həmin halda, şübhəsiz ki, Hovard ilə Teylor limitsiz məzuniyyətə göndərilərdi.

– Stiv, biz bir aylığına işdən qovulduq, – Hovard sözə başladı, – yəqin ki, Selvekgilə tapşıracaqlar. Ancaq sən bacardığın qədər çox məlumat toplamağa çalış. Qoy vəziyyətin necə olduğundan xəbərdar olaq. Hə, yeri gəlmişkən binanın axtarışları nəticə verdi? – Ferrell sakitcə başını inkar əlaməti olaraq yellədi, – əla. Ən azından indi şübhəli biri var. Heç yoxdan, yaxşıdır. Neşin vəziyyəti necədir bəs?

– O, komadadır. Həkimlər əllərindən gələni ediblər. İndi isə gözləməkdən başqa heç nə qalmır. Yara çox ağır olmasa da, qan itkisi problemi var.

– Görək də, nə olur. Boldvingilə salam deyərsən.

– Yəni indi bizə Boldvin rəhbərlik edəcək? Özü də bir ay? Lənət! – bu səs divarın arxasından Elizabet Nikolz və Qebriel Brauna məxsus idi, – onu görən gözüm yoxdur.

– Qeb, o, öz işində o qədər də pis deyil.

– Bəlkə, biz hamımız Murla danışaq? – Nikolz dedi, – axı onun bunu etməyə haqqı yoxdur. Bir köməyimiz dəyə bilər.

– Yox, bəsdirin artıq uşaqlar. Özünüzü yormayın. Endi özünlə nə isə götürürsən əşyalarından?

– Ehtiyac yoxdur. Getdik, Frenk.

– Amma. . .

– Ammasız, uşaqlar, – Teylor eyni anda etiraz etmək istəyən işçilərinə baxaraq gülümsədi, – bir aydır da. Darıxmayın, vaxt tez keçir. Ceslə danışsanız, sizin də məzuniyyət planlarınız yaranar.

Beləliklə, LAPD detektivləri öz iş yerlərini bir müddətliyinə də olsa, tərk etdilər. Oradan çıxdıqdan sonra özünü təhqir olmuş hiss edən ortaqlar öz evlərinə yollandılar. Yolboyu Teylor baş verən hadisələri düşünmədən dayana bilmədi. Uğurlu karyerasında belə bir fiasko ilə üzləşəcəyi heç vaxt ağlına belə gəlməzdi. Üstəlik iki il əvvəl buraxdığı səhvin də il dönümü yaxınlaşır və bu, Frenk Teyloru tamamilə özündən çıxarırdı.

On yeddi oktyabr yaxınlaşırdı. Onun həyatındakı ən pis gün olan on yeddi oktyabr.

# 12



## 17 oktyabr. 18:25

**Son iki gün sanki bir neçə il qədər gec keçmişdi. Vaxt donmuşdu, saat əqrəbləri özlərini zorla tərpədirdilər. Günəş batmaq, öz yerini aya vermək istəmirdi. Teylor ilə Hovard artıq öz məzuniyyətlərindən bezməyi bacarmışdılar. Həmin hadisə sonrası evə qayıdan Teylor oxuduğu Dik Frensisin romanını bitirmiş və janrı dəyişərək Maykl Kraytonun[19] "Next" kitabına başlamışdı. Gecəni isə səhərə qədər Blu-ray diskdə Klint İstvudun[20] "Dollar" trilogiyasını izləmişdi. Səhəri gün də oxşar şeylər etdikdən sonra, dəvəti qəbul etmiş və birlikdə Hovardın valideynlərinin axşam yeməyində qonaqları olmuşdular. Yemək kifayət qədər şən və maraqlı keçmişdi.**

---

[19] Michael Crichton(1942-2008) – dünyaca məşhur yazar, ssenarist, rejissor. Yura dövrünün Parkı(Jurassic Park), İfşa olunma(Disclosure), Ölüləri yeyənlər(Eaters of Dead), Sfera(Sphere) kimi sonradan əsasında film çəkilmiş, onlarla müxtəlif janrlı romanların müəllifi.

[20] Clint Eastwood(1930) dörd Oskarlı rejissor, aktyor və ssenarist.

Hovardın valideynlərinin Teylora qarşı münasibəti həmişə çox gözəl olmuş, onlar Teylora öz övladları tək münasibət bəsləmişdilər. Bəlkə də, həmən axşam yeməyi onun işlə bağlı yaşadığı problemlərin həlli ola bilərdi. Bəs on yeddi oktyabr? Bunu necə unutmaq olardı axı? Bəs Stiv Ferrell həmin partlayışda, ölsə, görəsən, Teylor hansı hisləri keçirərdi? Axı bütün baş verənlər onun və ortağının ucbatından idi.

Bu gün isə həyatını alt-üst edən on yeddi oktyabrdan düz iki il keçirdi. İki il qabaq Frenk Teylor iki gün qabaqkına bənzər bir hərəkət etmişdi, lakin heç düşünmürdü ki, etdiyi hərəkətin hesabını ömrünün sonuna qədər ödəyəcək. Əksinə həmən an kiməsə yardım etdiyini düşünürdü. Necə bilə bilərdi ki? Amma həmən gün buraxdığı səhvi bir ömür unutmayacaqdı.

Frenk Teylor öz "Dodge Challenger"indən endi. Bir əlində böyük dəstə sarı ətirli gül, digərində isə balaca bir tort daşıyan Teylor dərindən nəfəs alıb döyməyə hazırlaşdığı qapıya baxdı. Qardaşı Xenk Teylorun evi. Qardaşıgilə məhz bu gün gəlməsi təsadüfi deyildi. Onun ucbatından qardaşının və ailəsinin həyatı da alt-üst olmuşdu. Bunu nə qədər inkar etsə belə, fakt öz reallığını saxlayırdı. O, əllərindən birini boşaldıb qapının zəngini çaldı. Növbəti keçmək bilməyən bir neçə saniyə. Nəhayət, qapını qardaşının həyat yoldaşı Naomi açdı. Həmişəki kimi gülərüz və mehriban Naomi.

– Frenk! Xoş gəldin – deyərək qaynını qucaqladı, – necəsən?

– Sağ ol, Naomi. Sən necəsən nə var, nə yox?

– Hər şey qaydasındadır. İki gündür ki, səni xəbərlərdə görürük, – o, geriyə bir addım atdı, – içəri keç, Frenki, – gülləri və tortu Teylordan aldı, – çox sağ ol. Xenklə Lusi qonaq otağındadırlar. Gəlişinə sevinəcəklər.

– Xoşdur, Naomi.

Teylor içəri keçdi. Güzgünün qapağında özünə baxıb bir neçə dəfə başını yellədi. İndi kabus yenidən başlayacaqdı. Tələsmədən gödəkcəsini çıxardı. İki il əvvələ qədər, heç olmasa, həftədə bir dəfə qardaşıgilin qonağı olardı. Həmin bədbəxt hadisədən sonra isə onun ziyarətlərinin sayı getdikcə azaldı. Çünki o, buna baxa bilmirdi. Axmaqlığının nəticəsinə baxa bilmirdi.

O, ağır addımlarla qonaq otağına daxil oldu. Qardaşı onu görən kimi gülümsəyərək ayağa qalxdı. Yeddi yaşlı Lusi isə bütün diqqətini yarpaqlarını kəsdiyi dibçəyə yönəltmişdi. Onun necə də səliqə ilə işlədiyini görən Teylor heyrətə gəldi. Diqqətlə yarpaqlara toxunur, korlanmış hissələrini tələsmədən kəsirdi. Əli ilə bitkinin gövdəsinin sığallayır, sanki bir canlı imiş kimi onunla pıçıltı ilə danışırdı. Bütün bunlara seyr edən Teylor qardaşının onun necə qucaqladığını hiss etmədi. Qəfildən reallığa geri döndü və sol əlini onu qucaqlayan böyük qardaşının kürəyinə qoydu.

– Nə yaxşı ki, gəldin. Lusi sənin yolunu gözləyirdi.

– Hə mən də darıxmışam. Necəsən, Xenk?

– Yaxşı. Sən keç əyləş, mən görüm, Naomi nə edir? Nə içirsən?

– Fərq etməz.

– Yaxşı, bro[21]. Səni gördüyümə sevindim.

– Mən də, Xenk.

Xenk otaqdan çıxdıqdan sonra Frenk Teylor Lusi oturan stula tərəf yaxınlaşdı. İndi balaca qız bitkini sulamaqla məşğul idi. Gözlərini hələ də öz dibçəyindən çəkmirdi. Frenk:

– Salam, balaca şahzadəm, – dedikdən sonra başını qaldırıb Teylora tərəf çevirdi.

– Frenk!!!

Teylor dizləri üstə əyilərək ona baxan və onu görməyən bir cüt balaca qara gözlərin içindəki parıltını seyr etdi. Bu gözlərin heç nə görməməsinin səbəbkarı Frenk Teylor idi.

O, tərpənmədən dayanmışdı. Əmisi hər iki əliylə onu qucaqladı. Balaca Lusinin qapqara saçları həmişəki kimi xoş qoxulu və buruq-buruq idi. Teylor bu qoxu üçün çox darıxmışdı. Balaca barmaqlar çiyinlərindən yapışdı və Lusi başını onun üstünə qoydu. Bu anın təsiri çox xoş ola bilərdi, lakin bir o qədər də acı verirdi. Frenk Teylor qardaşı qızının saçlarını tumarladı, toppuş şirin yanağından öpdü. Gözlərini yumub yaş damlalarına təslim oldu. Bir anlığına beyni iki il əvvəl baş verən hadisələrə qayıtdı.

Teylor üçün qardaşı qızı Lusi ilham mənbəyi idi. O, dünyaya göz açandan bəri Teylor əmilik hissinin necə də gözəl olduğunu anlamış və Lusinin böyüməsində Xenk və Naomidan geri qalmadan iştirak etmişdi. Körpə də böyüdükcə əmisinə qarşı sevgisi artmış və ona bağlanmışdı. Teylorla Lusi hər həftə

[21] Brother(qardaş) sözünün qısa forması.

sonu bir yerdə gəzməyi adətə çevirmişdilər. Onlar birlikdə kinoya gedər və filmdən sonra yemək yeyib müxtəlif yerləri gəzərdilər. Həmən bədbəxt hadisə gəzintilərdən birində baş vermişdi.

Balaca olmasına baxmayaraq, Lusinin filmlərə qarşı xüsusi rəğbəti vardı. Yəqin ki, bu həvəs ona əmisindən keçmişdi. O, həmişə baxdığı filmlərdə spesifik məqamlara diqqət yetirir və təəssüratlarını öz əmisi ilə bölüşürdü. Onlar maydan bəri dördüncü dəfə eyni filmi seyr edirdilər. Bu sənət əsəri haqqında hələ də əmi qardaşqızı arasında qızğın müzakirələr gedirdi. Bu, keyfiyyətlərə görə Teylor öz balaca şahzadəsi ilə fəxr edirdi.

Söhbətin ən maraqlı yerində ara küçələrdən birindən qışqırıq səsləri eşidildi. Səslərdən orada bir dəstə Pank olduğu qərarına gəlmək olardı. Bundan hürkən Lusi balaca barmaqları ilə Teylorun əlindən yapışdı. Kefi kök əmisi isə gülümsəyərək, – sənə nə oldu, balaca? – deyə soruşdu, əlini qardaşı qızının başına çəkərək ipək kimi yumşaq saçları sığalladı.

– Frenk əmi, bu nə səsdir? – Lusi domba gözlərini əmisinə zilləyərək soruşdu, səslər gələn ara küçəni işarə etdi. – bu, mənim xoşuma gəlmir.

– Balaca, – Teylor əyilərək həmsöhbəti ilə üz-üzə dayandı, – yəqin, orada pis bir şey baş verir.

– Nə kimi pis bir şey, Frenk?

– Lusi, qulaq as, orada pis oğlanlar yaxşı olmayan işlərlə məşğul olurlar. Los-Ancelesdə və bütün dünyada belə şeylər olur. Ona görə də anan dediyi kimi səssiz və qaranlıq küçələrdən uzaq durmaq lazımdır.

– Bəs həmən pis adamlar orada nə edirlər?

– İndi heç nə, amma hava qaralandan sonra nəsə edə bilərlər, – Teylor mövzunu dəyişməyə cəhd etdi, – gələn dəfə hansı kinoya baxaq?

– Axı niyə həyatda "Qisasçılar" yoxdurlar? – Lusi isə qətiyyətlə söhbəti bitirməyə hazırlaşmırdı, – onlar olsalar, həmən pis oğlanları cəzalandırarlar. Toni Stark da bəs edər əslində.

– Real həyatda da pis oğlanlarla mübarizə aparanlar var, balaca, – Teylor yenidən gülümsədi, məsələn, polislər.

– Frenk əmi, sən də polissən də. Niyə onları cəzalandırmırsan? Birdən kimisə incitsələr, necə olacaq? – səs gələn küçəyə aparan yolun üstündə tərpənmədən dayanan Lusi soruşdu.

– Gəl buradan gedək, başa salacağam.

– Yox, başa sal, sonra.

– Yaxşı, – Teylor təslim oldu, – birincisi, oradakı pis oğlanların hələ pis bir şey etdiyindən əmin deyilik. İkincisi...

– Onda nəyə görə onlara pis oğlan dedin, Frenk? – Lusi əmisinin sözünü yarıda kəsdi.

– Çünki qışqırmaq özü artıq pis hərəkətdir. Axı onlar bununla camaatı narahat edirlər. Yatanlar, istirahət edənlər var. Bu gün bazardır axı.

– Hmmm. Bunu başa düşdüm bir az, – Lusi gülümsədi, – bəs ikincisi?

– Hə, – Frenk kiçik bir fasilədən sonra dilləndi, – ikincisi, onlar qışqırmaqdan əlavə də nə isə etsələr, mən indi növbədə deyiləm, həm də ki səni qorumalıyam.

– Aha, deməli, qorxursan?

– Bu, haradan ağlına gəldi? – Teylor gülümsədi.

– Elə deyilsə, gəl gedək, görək orada nə var, əmi?

– Yox, ora olmaz. Artıq gecdir. Gəl evə qayıdaq.

– Qorxaq əmi! Qoxaq əmi! – Lusi zümzümə etməyə başladı.

Müqavimətinin xeyirsiz olduğunu görən Teylor strategiyasını dəyişdi. Qardaş qızının yanağını dartaraq:

– Ora baxıb qayıdacağıq, razılaşdıq? – dedi.

– Razılaşdıq.

Qərarından əmin olmayan Teylor balaca Lusinin əlindən yapışaraq ara küçəyə tərəf irəliləməyə başladı. Ora yaxınlaşdıqca qışqırıq səsləri ucalır və xoşagəlməz təsir yaradırdı. Günəş batmağa hazırlaşdığından küçənin mənzərəsi də o qədər xoş deyildi. Səksən metrə qədər məsafə qət etdikdən sonra onlar səslər gələn yerə çatdılar.

Qara zibil qutularının yanında üç nəfər dayanmışdı. Teylor yanılmamışdı. Üç ekstra-ordinal görünüşlü (boyuna qədər çatan çəhrayı bənövşəyi qarışığı saç teli, əcaib zodiak fiqurları ilə işlənmiş sırğalar və döymələr, kəsik barmaq ələk, qəribə deşikli papaq, iri qırmızı rəngli ket və qara köynəklə cırıq şalvar) pank. Onlar ikisi qəhqəhə çəkir, üzərində etiket olmayan içkilərdən dadırdılar, digəri isə diqqətlə divarda qraffiti çəkməklə məşğul idi.

Teylor küçənin digər tərəfinə baxdı. Bu adamların yanından bacardığı qədər tez keçmək yerinə düşərdi. Nə qədər ki beyni dumanlanmış üçlük on-

ları görməyib, nə qədər ki gec deyil. Hələ heç nə baş verməsə də, Teylor artıq balaca uşağın sözünə uyduğu üçün peşmançılıq hissi keçirirdi. Lusi isə diqqətlə onlardan haradasa iyirmi-iyirmi iki addım məsafədə dayanan üçlüyü süzürdü.

– Lusi, bəlkə, artıq gedək? – Teylor soruşdu.

– Gedək, Frenk, – o, əmisinin əlini sıxaraq gülümsədi. Uşaq da gördüyündən narahat olmuşdu.

Onlar geri dönərək qayıtmağa hazırlaşırdılar ki, arxadan civilti səsləri eşidildi. Ürək bulandıran, milçək vızıltısını xatırladan civilti.

– Uşaqlar!!! Burada gizli tamaşaçılarımız var imiş, sən demə!

Teylorun qorxduğu başına gəlmişdi. O, ayaq saxlayaraq arxaya boylanmağa çalışan Lusiyə:

– Balaca, arxaya baxma. Düz get. Yaxşı? Qorxma, əmi buradadır, –pıçıldadı.

Uşaq sadəcə başını tərpətdi. Arxadan iki cüt ayaq səsi eşidildi. Teylor ayaq səslərini ayırmaqda çox qeyri-adi bacarığı malik idi. Ən həssas bir addım belə onun qulağından yan keçməzdi. Arxaya baxmadan belə qraffiti ustasının yerindən tərpənmədiyini bilirdi, lakin digər iki nəfər isə qaçırdılar. Balaca uşaqla bu ara küçədən qaçaraq çıxmaq qeyri-mümkün görünürdü. Bəs optimal çıxış nə ola bilərdi? Ümumiyyətlə, çıxış yolu sualının cavabı tapıla bilərdimi?

– Dayanın da, cücələr. Yekə, qaçsan, o, gələcəyin balaca fahişəsini yıxarsan. Sonra bir işə yaramaz! – bu sözdən sonra panklar qarğa səsinə bənzər notlarla gülüşdülər.

Teylor anidən dayandı. Lusi təəccüblənərək əmisinə baxdı. Artıq balaca əsirdi, gözləri də dolmuşdu. Əmisi isə eşitdiyi sözləri cavabsız qoymağa hazırlaşmırdı. Onlardan sağ tərəfdəki zibil qutusuna baxdı və uşağa, – balaca, get oradan əminin necə bu pis oğlanları tərbiyələndirəcəyinə bax, – deyə işarə etdi. Alt dodağı büzüşmüş Lusi başını yelləyib həmən yerə yüyürdü.

– Dayandım, tovuz quşu. Nə istəyirsən? – Teylor yumruqlarını sıxaraq çıqqıldatdı. Sonra isə əllərini sürətlə açıb bağladı, bir növ özünü bir neçə saniyə sonra baş tutacaq hendikapa[22] hazırladı.

– Nə oldu? Fahişənə söz dedik deyə incidin? Yəqin, ilk müştərisi sən olacaqsan, – bir anlığına Teylorun dayanmasına təəccüblənən panklardan boğazında üçbaşlı it döyməsi olan tayı dedi, – siz bizə tamaşa etdiniz, indi isə növbə bizimdir. Axmaq, sən bizim kim olduğumuzu bilirsən?

– Tovuz quşu. Uşaqlar, sizə axırıncı dəfə deyirəm, dönüb gedin. Səbrim tükənir.

– Bu küçə bizə məxsusdur və səninlə o küçük bizə hesabat verməmiş buradan heç yana tərpənməyəcəksiniz, – panklar ona daha da yaxınlaşdılar. Uzun boylu olan əlində otuz-otuz beş santimetrlik qara rəngli lom saxlayıb arada bir yavaş zərbələrlə öz ovcuna vururdu.

– Yaxşı. De görək, birinci hansınıza hesabat verməliyəm? – Teylor sol əlini cibinə gətirərək silahından istifadə etməyə düşünsə də, sonra bu fikrindən döndü.

---

22 Handicap – əsasən əlbəyaxa döyüş sənətlərində sayca bərabər olmayan döyüşlər üçün istifadə olunan termin.

– O, mənimdir, – uzun boylu lomu ovcundan götürərək onun üzərinə gəldi. Üçbaşlı it döyməli həmkarı isə yerində qalaraq azarkeş rolunu oynayırdı.

Pank lomla sağ tərəfdən hücuma keçdi, aykido və güləş üzrə kifayət qədər təcrübəsi olan Teylor sağ əlinin kənarı ilə zərbəyə qarşılıq verib cəld sol əli ilə rəqibin biləyindən yapışdı, burnuna xırçıltı səsi ilə nəticələnən kəllə vurdu. Lom uzun boylunun əlindən düşdü və səsi küçəyə yayıldı. Ardınca isə Teylor hər iki əli ilə onun boynundan yapışdı, yüz səksən dərəcə dönüb rəqibin qanayan üzünü öz çiyninə çırpdı. Dirsəklə ürəyə zərbə endirib texniki olaraq nokauta düşmüş rəqibi yerə sərdi. Pank yerdə çırpınaraq çığırmağa başladı.

– Bu, bir! – Teylor qardaşı qızının gülümsədiyini görüb digər panka baxdı, – indi sən, tovuz quşu. Hesabat almağa hazırsan?

Pank gülümsədi. Bunun səbəbi isə arxadan Teylora yaxınlaşan digər iki pank idi.

– Yaxşı yadıma düşdü. Axı biz beş nəfərik, – üç başlı it döyməli pank donquldandı, – qardaşlarım, içki dalınca getmişdilər, amma şənliyə düz vaxtında çatdılar. İndi əsl hesabatın alınacaq, dostum.

Teylor arxası Lusiyə tərəf dayanıb digər iki nəfərə baxdı. Fiziki olaraq çox əla səviyyədə olmasalar da, üç nəfərə qarşı dalaşmaq haradasa qeyri-mümkün görünürdü. Buna görə də o, ağ ketini lomun ucunu qoyaraq sıxdı. Yerə perpendikulyar vəziyyət almış soyuq silahı əlinə aldı. Rəqiblərinin hərəkətə keçməsini gözləmədən arxadan gələn, əllərində içkilər gətirən

iki nəfərin üstünə atıldı. Lomun arxasıyla soldakı pankın qarnından vurdu, onun əlindən düşən şüşə butulkanı tutub digərinin başına çırpdı. Bu an üçbaşlı it döyməli pank belinə hoppanaraq əlləri ilə Teyloru boğmağa çalışdı. Lom zərbəsi almış adam isə onun əlindən yapışıb dartmağa başladı. Teylor onun dizinə kənar tərəfdən zərbə endirdi, pank əlini çəkən kimi o, belindəki adamın ayaqlarından yapışıb arxasını var gücü ilə divara çırpdı. Zərbənin təsirindən özü də yerə dizləri üstə yıxıldı. Lom zərbəsi almış pankın üstünə gəldiyini görən Teylor əlacsız şəkildə tapançasını çıxardı. Əslində o, bunu bayaqdan etməli, söhbəti bu qədər uzatmamalı idi. Silahın görən kimi pank yerində donub qaldı. Frenk Teylor ayağa qalxaraq divara çırpdığı panka təpik vurdu.

– LAPD, axmaqlar! Hamınız üzü üstə yerə uzanın! Əllər başın arxasına! – Teylor əlini cibinə atıb telefonunu çıxardı, mərkəzə zəng vurdu, lakin gördüyü səhnədən sonra telefon əlindən sürüşərək yerə düşdü.

– Kifayətdir! – qraffiti ustası pank Lusinin saçlarından yapışmışdı. Öz boyalı əli ilə uşağın başını ovcuna almışdı. Əmisinə yalvaran gözlərlə baxan balaca isə titrəyir, fəqət soyuqqanlılığı saxlayırdı. Pank isə digər həmkarlarından fərqli olaraq düşüncəylə hərəkət edir, digərləri kimi çılğın şeylərə yol vermir və yaranmış vəziyyətdən ən əlverişli formada yararlanmağa çalışırdı. Sarı dişləri nümayiş etdirərək içini çəkdi, – silahını yerə at!

– Yaxşı, – ürəyi döş qəfəsini parçalamağa çalışan Teylor cavab verdi. Tapançanı əlindən buraxdı. Sa-

kit görünmək istəsə də, bu niyyəti indi çətin yaxşı alınardı. Sadəcə, bir neçə dəqiqə vaxt uzatsa, kömək gələcəkdi, – uşağı burax, məni götür.

– Əzizim, indi qərarları mən verirəm. Ona görə də dilini dinməz saxla və məni dinlə. Qəhrəman olduğunu düşünürsən? Supermen?

– Yox, əslində Qara Cəngavər, ancaq istəsən, Hulk belə ola bilərəm.

– Niyə belə çox danışırsan? Axı, bu balacanın həyatını niyə riskə atırsan? Nə polisisən?

– Sənin kimi uşaqların arxasında gizlənən xəstələrin səsini kəsən polis. Lazım gəlsə, nəfəsini də.

– Biriniz, tapançanı götürsün, – qraffiti ustası adamlarına səsləndi. Artıq onun bu beşliyin lideri olduğuna şübhə qalmamışdı. Divarın yanında ufuldayan üçbaşlı it döyməli pank ayağa qalxaraq Teylorun silahını götürdü. Sonra isə heç nə demədən dəstə başçısına baxdı.

– Qulaq as, gəl uşağı göndərək getsin. Baş-başa problemimizi həll edək.

– Axı baş-başa sən məni əzişdirərsən. Mən axmağa oxşayıram?

– Onda gəl, beşin birə oynayaq. Yoxsa yenə qorxursan? – Teylor başını ritmik şəkildə yelləyərək dedi.

– Bezdim, sənin danışığından, – dəstə başçısı başını qaldırıb qaralmağa hazırlaşan səmaya baxdı, dərindən nəfəs aldı, sonra isə, – bitir, bu Mr.Fantastikin işini, – deyə Teylorun silahını saxlayan adamına əmr verdi.

Çık...

– Nə? – üçbaşlı it döyməli pank gözlərini bərəltdi, yenidən ard-arda tətiyi sıxdı.

Çık. Çık. Çık.

– Bunu istəyirsiz? – Teylor cibindən tapançanın darağını çıxararaq havada yellədi, – o halda, gəlin, alın. Beşin birə.

Dəstə başçısı öz adamlarına baxdı. Başına butulka çırpılmış pank artıq özünə gəlmişdi, lakin uzun boylu isə hələ də yerdə hərəkətsiz uzanırdı. Qraffiti ustası əlindəki alüminium boya bankasını havaya atıb tutdu, – yaxşı gəl başlayaq!

– YOX!!!

Pank əlindəki qraffiti spreyini uşağın üzünə sıxdı. Qəhqəhə ilə onun üz-gözünü yaşıl rəngə boyadı. Sonra isə müqavimət göstərməyə çalışan Lusini zərbə ilə ənsəsidən vurdu, huşunu itirən uşaq yerə yıxıldı. Bu səhnə Teylorun gözündə asta kadr şəklində əks olunurdu. Bu səhnənin rejissoru pank, ssenaristi isə onun özü idi.

Ağlını itirmiş Frenk Teylor nərə çəkərək üzərinə gələn ilk pankı yumruqlamağa başladı, lakin indi o, öz hərəkətlərinin necə nəticələnəcəyini bilmir, yalnız qardaşı qızı Lusinin yanına bacardığı qədər tez çatmaq haqda düşünürdü. Sayıqlığını itirməsindən istifadə edən panklar detektivi yerə yıxaraq təpiklədilər. Bir neçə zərbə isə onun üzünə tuş gəldi, qaşıyla ağzının qanaması ilə nəticələndi. Artıq özünü müdafiə etmək iqtidarında olmayan Teylor əllərini aşağı saldı. Bu an isə küçəyə bir neçə cüt ayaq daha daxil oldu. Teylor mərkəzlə danışa bilməsə də, onun yeri müəyyən edil-

miş və dərhal bura kiçik bir dəstə yönləndirilmişdi. Onlar gəldikdən sonra nələrin baş verdiyini görmək isə Teylora qismət olmamışdı. O, panklardan birinin üzünə vurduğu təpikdən sonra özündən getmişdi. Oyanandan sonra eşitdiyi xəbər isə onu gözlərini yenidən açdığına görə peşman etdi.

Polislər vaxtında gəlib pank dəstəsini zərərsizləşdirə bilmişdilər, lakin hadisə yerinə təcili yardım üzvləri bir az gec çatmışdılar. Bunun nəticəsi isə kritik və geri qaytarılmaz oldu. Qraffiti spreyi Lusinin göz bəbəyini zədələmiş, kənar qıcıqlara qarşı cavab vermə funksiyasını itirmişdi. Səbəb isə spreyin tərkibindəki göz üçün çox təhlükəli düşmən olan methanol[23] idi.

Əslində ilkin mərhələdə bu zəhərlənmənin qarşısını almaq mümkün olsa da, bu dəfə tibb heç bir uğur qazana bilməmişdi. Hadisələrin belə cərəyan etməsinin səbəbi Teylora hələ də aydın olmamışdı. Bunu nə ad qoymaq olardı? Həyat ironiyası, ya bəxt? Tale, yoxsa Bəla?

– Frenk! Yoruldum artıq, – qardaşı qızının səsi ilə o, beynindəki təkrarlanan reallıqdan oyanan Teylor diksindi. Balaca isə gülümsəyərək – yuxulamışdın, əmi? – soruşdu. Əmisinin qucağından çıxaraq dibçəyinə tərəf döndü, – gülüm xoşuna gəlir, Frenk?

– Hə, əlbəttə, Lusi. Çox gözəldir, – bu, səmimi cavab idi.

– Özüm qulluq edirəm ona.

– Hiss olunur. Sənə yaraşan gül belə olmalıdır.

---

23 Methanol – insan orqanizmi üçün güclü zəhər hesab olun $CH_3OH$ formullu mürəkkəb maddə.

– Yaxşı, balacalar, gəlin gedək süfrəyə, – bayaqdan arxadan onları seyr edən Xenk Teylor dilləndi, – Lusi, anan sevdiyin şorbadan bişirib. Qaç, əllərini yu.

– Onu belə görəndə dəli oluram, – Lusi çox rahat bir şəkildə otaqdan çıxdıqdan sonra Teylor qardaşına dedi, – həkimə gedirsiz?

– Hə, Frenk, lakin o, balacadır.

– İş elə budur da. Mənim ucbatımdan o, balacalığını yaşaya bilmir. Dözə bilmirəm onu belə görəndə!

– Yox, Frenk. Bəsdir.

– Sən mənim üzümə etdiklərimdən sonra necə baxırsan axı? Mənə görə sizin həyatınız alt-üst olub. Mən vicdansızam, – artıq Teylor əsəbindən yerində dayana bilmirdi.

– Frenk.

– Nə Frenk? Hə? Heç nə qabaqkı kimi deyil! Səbəbkar isə yalnız mənəm! Mən! Xenk, mən sənin qızının həyatını məhv etmişəm! Sən bilirsən, mən hər dəfə Lusiyə baxanda və onun gözlərimi görmədiyini anlayanda nələr yaşayıram?

– Frenk! – Xenk daha bərkdən və daha qəti bir səslə çığırdı.

– Bilmirsənsə, onda icazə ver, deyim. Özümdən razı olmağımın mənə necə baha başa gəldiyini görürəm. Balaca uşağın sözünə görə onun həyatının bitə biləcəyi gözümün qarşısına gəlir. Hər şey isə mənim axmaqlığıma görədir. Xenk, inan ki, həmən anın qarşısını almaq üçün əlimdə olsa, canımdan da keçərdim! – Teylor özünü divanın üstünə ataraq əlləri ilə üzünü örtdü, – artıq dayana bilmirəm, Xenk! Hər

gecə eyni kabusdan bezmişəm. Hər gecə yatmaqdan qorxaraq səhərin açılmasını gözləməkdən, hər dəfə birini xilas edərək təsəlli tapmaqdan bezmişəm.

– Frenk, – qardaşı əlini Teylorun çiyninə qoydu, – sakitləş. Sonra sənə bir iki şey deyəcəyəm.

– Mən yaxşıyam, – Teylor burnunu çəkərək başını qaldırdı.

– Onda qulaq as. Frenk, həmən gün əgər sən ümumiyyətlə Lusinin başına nələrin gələ biləcəyini düşünmüşdün heç? – cavabında isə Teylor sakitcə qardaşına baxdı, – Lusi həmən gün kinoya baxmaqda israrlı idi. Sən gəlməsən, ya mən, ya da Naomi balaca ilə gedəcəkdi. Bəs birdən bizlərdən biri həmin küçəyə girsə idik, nələrin olacağını təsəvvür edirsən heç?

– Axı siz elə axmaqlıq etməzsiniz, Xenk. Mən isə ağılsızlıq etmişdim.

– Frenk, inan ki, ani verilən qərarların necə olacağını heç kəs deyə bilməz. Elə olmasa, mənim soyuqqanlı qardaşım həmən küçəyə girməzdi. Amma hərdən işlərin necə baş verəcəyini bilmək olmur. Digər tərəfdən tibb hər gün inkişaf edir və Lusi on səkkiz yaşına gəldikdə, artıq müalicəsinin ehtimalları daha da artacaq. B-1 vitaminin göz qişasına tətbiqi ilə bağlı araşdırmalar hər gün yeni nəticələr verir. Bunlardan ən tez xəbər tutacaq biri varsa, o da mənəm, – son cümlənin deyilməsinin səbəbi Xenk Teylorun kifayət qədər məşhur kardioloq olması idi, – indi isə özünə gəl və gedək, yemək yeyək. Naomi möhtəşəm şeylər bişirib.

– Yaxşı, – sözlərdən sonra qismən sakitləşmiş Teylor başını yellədi.

Frenk Teylor öz qardaşının ailəsi ilə birlikdə çox gözəl şam yeməyi yedi. Naominin əl qabiliyyəti həmişəki kimi yüksək nəticələr vermişdi. Toyuq bulyonunda hazırlanmış bir neçə müxtəlif tərəvəzdən ibarət şorba. Qızardılmış ət dilimləri ilə Naominin şəxsən özünə məxsus kəmşirin sous və italyansayağı raquyla Peictti. Desertdə isə alma piroqu və bananlı kokteyl var idi. Bunların hamısının yanında isə əvəz olunmaz ailə ab-havası. Gözəl və müxtəlif mövzularda maraqlı söhbətlər (xüsusən də, Teylorların ən sevdiyi sahə olan kinematoqrafiya və Xenkin Doktor Hausla özünü müqayisə etməsi), bir neçə mahnı ilə nostalji hisləri yenidən yaşadan anlar və ən əsası ailə sevgisinin istisi.

Bir müddətliyinə bütün problemlərini unudan Teylor yenidən keçmişdəki tək özünü rahat və təmiz hiss edirdi. Bütün qəlbi ilə bu gözəl şam yeməyinin bitməməsini arzulayırdı. Qardaşı onlarda gecələməyi təklif etsə də, Teylor balaca Lusini yatızdırdıqdan sonra evə qayıtmaq qərarına gəldi və dörd saatdan artıq keçirdiyi gözəl ziyarətdən sonra qardaşının evindən ayrılaraq öz evinə yollandı. Tələsmədən “Challenger” ilə yarım saatdan sonra öz mənzilinə çatdı. Pilləkənləri qalxaraq qapının ağzına çatdı. Bu an yenidən saatının detalları töküldü. O, saatın şüşəsini və əqrəblərini havada tutdu. Hissələri yerinə qoyaraq əqrəblərlə yenidən vaxtı tənzimlədi. Sabah gedib saatını təmir etməyi nəzərində tutdu. Artıq bu qədər dəyərli saat-

la bayıra çıxmaq təhlükəli olardı. Əgər hansısa detal itərsə, onları dəyişmək, yenisi ilə əvəz etmək çox baha başa gələrdi. Heç həmin hissələrin necə çətin tapıldığını vurğulamaq lazım deyil.

Frenk Teylor qıfıla salaraq açarı çevirdi. Bu dəfə qıfıl da onu incidirdi. Görəsən, kimsə evinə soxulmağa çalışıb? Bəlkə də, qapının vəziyyəti çoxdan belədir və həmişə fikirli olan Teylor buna diqqət yetirməyib? Bu suala baş yormaq istəməyən detektiv birtəhər qapını açaraq içəri keçdi. Gödəkcəsini soyunub asılqanın üstünə atdı. Qapını bağlayıb güzgüdə özünə baxdı. O qədər də pis görünmürdü, lakin yenə də yuxusu gəlmirdi. Film izləmək qərarına gəlib oturma otağına yollandı. Qaranlıq otağa daxil olub işığı yandırdı. Buna baxmayaraq, onun gözlərində zülmət hakimiyyətini sürməyə davam etdi. Qaranlıqdan gələn zülmət yox, başından aldığı zərbədən gələn zülmət.

# 13



## 17 oktyabr 23:42.

**Nə baş vermişdi? Bəs indi ətrafı bürüyən qaranlığın səbəbi nədir? Başındakı ağrı və əlləri! Əlləri qandallanmışdı. Özü isə maşındadır. Böyük ehtimal, xırda bir sedanda. Chevrolet, ya da ki Toyota. Yanında heç kəs oturmamışdı. Qabaq tərəfdəki iki nəfər isə pıçıltı ilə arabir nəsə danışırdılar. Ağzı lentlə bağlanılmışdı. Axı buradan nə qərar çıxarmaq olardı? O, artıq polis deyil və həbs olunur? Yox belə şey olmaz, ən azından bunun üçün tutarlı səbəb yoxdur. Bəs onda onu ələ keçirən adamlar kimdir? Neşi öldürmək istəyən dəstənin üzvləri? Yox! Axı onlar da niyə dünəni saxlayıb məhz bu gün onun arxasınca gəlsinlər ki? Onun başından əsl professional zərbə endirmişdi, çünki həmin adam haradan və necə vurmalı olduğunu bilirdi. Məqsədi isə Teyloru zədələmək yox, məhz yatızdırmaq olub. Amma əsas sual onun bunu niyə etməsi idi.**

Birdən maşın dayandı, arxa qapı açıldı və iki nəfər nəyisə, yaxud da ki kimisə içəri atdı. Sonra isə həmin

iki nəfər sürücünün yanında oturan şəxsə nəsə dedilər. Maşın yenidən hərəkətə başladı, pəncərə örtülməsinin səsi eşidildi. Və sükut. Bir neçə dəqiqə maşın yolboyu orta sürətlə hərəkət etdi. Qəfildən sedan sola döndü. Görünür, sürücü döngəni düzgün hesaba almamışdı. Onun bu səhvinə görə Teylor sağ tərəfə, digər sərnişinin üstünə yıxıldı. Sol biləyindəki saatının detalları yenidən oturacağın üstünə səpələndi. Yandakı sərnişin Teylora ayağa qalxmağa kömək etdi. Görəsən, bu adam kim idi? O da Teylor kimi hansısa qeyri-adi təxribatın qurbanıdır?

Əlləri ilə detalları axtaran Frenk Teylor qəfildən yanındakı şəxsin hər iki əliylə onun biləyindən yapışdığını hiss etdi, saatın soyuq çarxı Teylorun dərisinə toxunurdu. O, əlini çəkmək istəsə də, digər şəxs israrla onu buraxmırdı. Çarxın iti dişlərini Teylorun dərisinə batırıb aşağı itələməyə başladı. Sonra isə çarxı batırdığı yerdən cızdığı xəttə perpendikulyar bir xətt cızmağa başladı. Bu proses kifayət qədər ağrılı olsa da, Teylor onun nə etdiyini öyrənmək üçün ağrıya dözməyi üstün tutdu. Sərnişin ikinci xətdən bir az aşağıda ona paralel yeni bir xətt cızmağa başladı. Eyni uzunluğa çatdıqdan sonra qəfildən əlini saxladı. İlk öncə bunun nə olduğunu anlamayan Teylor sonra əlindəki cızıqların təsadüfi olmadığını başa düşdü. Bir düz xətt. Başından və ortasından sağ tərəfə çəkilmiş, bir-birinə paralel iki düz xətt daha. *F* hərfi. Başqa nə ola bilərdi ki? Bu yalnız bir nəfər ola bilərdi. Saatındakı nasazlıqdan xəbəri olan və onu yaxından tanıyan biri.

Endi Hovard!

Bunu öyrənən kimi ortağının adını qışqıran Teylor lentin altından əcaib səs çıxardı. Bunun nə olduğunu hərfi olaraq demək mümkün deyildi. Amma həyəcan intonasiyasından onun boğuq səsinin nə dediyi anlaşılırdı. Bunun əvəzində isə yanındakı sərnişindən "Uhu" cavabı gəldi. Bu isə onun detektiv Hovard olmasının təsdiqi idi. Teylor ona tərəf yaxınlaşdı. Artıq çiyin-çiyinə toxunurdular.

– Ey, siz ikiniz! Orada nə edirsiniz elə? – sürücünün səsi eşidildi. Bu dəfə o, aydın səslə danışırdı, – bir az aralaşın, – detektivlərdən heç biri tərpənmədilər. Əsəbiləşən sürücü daha da ucadan, – aralaşın, lənətə gələsi axmaqlar! – qışqırdı, – eşitmirsiniz, aralaşın?

– Bəsdir! Sən maşınını adam kimi sürsən, arxadakılar bir-birlərinə yapışmazdı. İndi isə yola bax! – deyə yan tərəfdə oturan adam sürücünü çox kəskin tonla danladı. Danışıq tərzlərindən bu iki nəfərin cinayətkar olmadığını söyləmək olardı. Onlar detektivləri öldürməyə də hazırlaşmırdılar. Bu da dəqiq idi. Yaxşı bəs onda bu iki nəfər kimdir? Hansı məqsədə qulluq edirlər?

Hovard sağ əlini Teylorun budunun üstünə qoydu. Orta barmağı ilə onun budunu sıxdı, baş barmaqla Teylora toxundu, orta barmaqla havada dövrlər vurub barmağını bir düym irəliyə endirdi. Heç nə anlamayan Teylor: "ohh???" – deyə səsləndi. Qəzəblənən Hovard dirsəklə onu vurdu, yenidən hərəkəti bir neçə dəfə təkrar etdi. Altıncı cəhddən sonra Frenk Teylor "uhhf" nidası ilə hər şeyi başa düşdüyünü ifadə

etməyə çalışdı. Sonra isə Hovard baş barmağını özünə tərəf doğruldub əlini yarı yumruq formasına gətirdi, bir neçə dəfə sürücü tərəfə itələyib geri çəkdi. Teylor onun bu hərəkətini başa düşməsə də, növbəti razılıq nidası ilə cavab verdi. Hovard budundan yumruq vurub nə isə mırıldandı və bir barmağı ilə onun ayağına toxundu. Bunun ardınca isə ikinci mırıltı və Teylora toxunan iki barmaq. Bu, Hovardın üçə qədər saymasından xəbər verirdi. İkidən sonra Teylor bir az sol tərəfə keçib sürücünün arxasında öz yerini aldı. Əlindəki qandalları sıxaraq gözləməyə başladı. Səslərdən o, ortağının yerini rahatladığın; anladı. Bir neçə saniyə ötdü və Hovarddan qəribə bir səs çıxdı.

FUF!

Frenk Teylor əllərini sürücünün oturacağının üstündən keçirdi. Qandalları sürücünün boğazından aşırıb var gücü ilə geriyə dartdı. Maşın bir neçə saniyəliyinə idarədən çıxsa da, tormoz sonrası uğultu ilə sürəti aşağı düşdü. Sürücünün yanındakı adam nəyin baş verdiyini anlamamış Hovard onun oturacağına ard-arda təpiklər vurub fikrini yayındırdı, Teylor kimi qarşısındakı adamın boğazından yapışdı, lakin ortağından fərqli olaraq o, düşməni boğaraq yatızdırmağa çalışırdı. Adamın əlini tərpədərək cibini apardığını hiss edən Hovard onun silahına uzandığını yəqin etdi və saatın çarxını rəqibin yanağına batırıb hərəkət etdirdi. Qışqıran adam iki əli ilə yanağından yapışdı.

Sürücü ilə Teylor da oxşar tərzdə mübarizə aparırdılar, lakin sürücü yanında oturan adamdan daha ağıllı hərəkə edərək axırda təslim oldu, – lənət! Da-

yan, Teylor! – dedi, ancaq Teylor təslim olmağa hazırlaşmırdı. O, qandalı daha da möhkəm sıxdı, anidən rəqibin əllərini boş buraxmasından narahat oldu, bir anlıq duruxdu və yanılmadığını anladı. Sağ tərəfdən onun qarnına silah dirəndi. Bundan qorxan Teylor əllərini rəqibinin boğazından götürərək geri çəkildi, – Hovard, əllərini onun üstündən çək! Tez! Bu, bir əmrdir! Yoxsa ortağının başı havaya uçar! – Endi Hovard əmrə tabe olub özünü geriyə – oturacağın üzərinə atdı, – indi isə açaq onların üzünü, Riçmont! Onsuz da çatmağımıza bir az qalıb. Yolda bir də bu iki axmağın coşmasını istəmirəm. Tez ol, aç.

Hələlik üzü görünməyən adam bardaçoku açıb oradan nəsə götürdü. Təkrarlanan şırx-şırx səsindən bunun qayçı olduğunu demək olardı. Növbəti anda isə artıq Endi Hovardın aydın səslə qışqırığı eşidildi.

– Lənət olsun! Siz haranın bicisiniz? – səsindən Hovardın əsəbdən partlamağın astanasında dayandığı aydın olurdu.

– Sakitləş, detektiv. Biz də sənin kimi əmrə tabeyik.

– Onda, sənə əmr verənin anasını!

– Detektiv...

– Sus və mənim ortağımın üzünü aç!

O, heç nə demədən Hovardın göstərişini yerinə yetirdi. Bunun əsas səbəbi, onsuz da, bunu etməyə hazırlaşması idi. Üzü açılandan sonra Teylor qarşısında otuz beş yaşlarında, fındıq burunlu, üzü qanayan birini gördü. Adam ona baxan detektivlərin nə düşündüklərini anlayırmış kimi əlini cibinə atdı.

– Xüsusi agent, Mark Stivens, – o, öz vəzifə nişanını göstərdi, saxtaya oxşamırdı, – Birləşmiş Ştatların Gizli Xidməti. Bu isə xüsusi agent York Riçmontdur, – o, sürücünü işarə etdi.

– Bunun bizə nə dəxli var?

– Sakitləş, Hovard. Çatmağımıza az qalıb. Bir azdan hər şeyi öyrənəcəksən.

– Mən heç bir yerə getmirəm. İndi isə əllərimi açın. Yoxsa söz verirəm, nə siz, nə də biz bu lənətə gələsi maşından sağ çıxmayacağıq! – o, ortağına baxdı. Teylor isə sakitcə dodağını büzdü, ağır tərzdə başını yellədi.

– Cənablar, bu ölkənin sizə ehtiyacı var, – üzündəki qanı saxlamaqla məşğul olan Stivens dedi.

– Ən azından bir nəfər belə düşünür. – Bu, Riçmontdan gələn replika idi.

– Bu ölkə bizə ehtiyacı olduğunu əl-qolumuzu bağlamadan deyə bilmir bəyəm? – Hovard hədsiz dərəcədə aqressiv cavab verdi.

– Bu standart əməliyyatdır, detektiv.

– Standart?!. Gecə səni tutub maşına bassalar və bunun standart əməliyyat olunduğu deyilsə, sən nə edərdin?

– Bununla sizi yoxlayırdıq, – Stivens soyuqqanlı davranmağa çalışşa da, işin öhdəsindən gəlməkdə çətinlik çəkirdi.

– Yoxlama? Nəticələrdən razı qaldınız?

– O, artıq sənin problemin deyil, detektiv.

– Düzdür, mənim problemim səni yaxşıca əzişdirməkdir!

– Yaxşı, bizi hara aparırsınız? – bayaqdan susan Teylor dilləndi.

– Artıq çatırıq. İndi özünüz görərsiniz, – bundan sonra nisbi sükut bərqərar oldu.

"Toyota Corolla" Los-Anceles Beynəlxalq hava limanının yanından keçirdi. Onlar Sakit okeanın sahillərinə tərəf gedirdilər. Bir neçə dəfə döndükdən sonra qum yola çıxıb, cənub istiqamətində sahil boyu hərəkət edib kimsəsiz, qaranlıq bir yerdə dayandılar. Detektivlər pəncərədən bayıra baxıb harada olduqlarını anlamağa çalışdılar.

– Budur, gəldik, – Stivens açarla detektivlərin qandallarını açdı, – enə bilərsiniz, lakin deməliyəm ki, indi eşidəcəkləriniz buradan bayıra çıxmamalıdır. Bir də bizim yoxlama barədə içəridə danışmasaz, minnətdar olaram.

– Söz verə bilmərəm! – Hovard barmaqları ilə burnunu sildi.

Bununla da "Gizli Xidmət" işçiləri maşından endilər. İndi diqqət yetirəndə qara dəst kostyum və eynəklər onların kim olduqlarından dəqiq xəbər verirdi. Detektivlər də onların arxasınca maşından düşdülər.

Əyinləri qalın olmadığından küləyin təsiri özünü biruzə verirdi. Dənizin ləpələrinin səsi küləyin uğultusuna qarışırdı. Bunlardan əlavə qulağa çatan tək səs qum üstündəki addımlar idi. Endi Hovard əllərini üfürərək bir-birinə sürtdü, qəribə baxışlarla ortağını süzdü, başını sağ tərəfə fırlayaraq Teylora da ora baxmasını işarə etdi. Onlardan bir az irəlidə qara rəngli

“Hummer H4” dayanmışdı, üzərində nömrə, yaxud da ki seriya görünmürdü, maşının yanında daha bir “Toyota” və “Ford” da gözə çarpırdı. Həmçinin qara rəngli və tünd auralı. Agent York Riçmont başını “Hummer” istiqamətində tərpədərək, – içəri keçin, sizi gözləyirlər, – dedi. “H4”ə yaxınlaşıb arxa qapısını açdı. İlk içəri keçən Hovard oldu. Arxasınca Teylor da “Hummer H4”ə qalxdı. Salonda onlarla üzbəüzdə kiminsə oturduğu aydın idi, fəqət zülmət ucbatından onun üzü görsənmirdi. Agent Riçmont qapını örtdü, maşın yerindən irəlilədi, salonda işıq yandı.

– Aaron Keyn???

Los-Anceles şəhərinin meri. O, Hovardın qışqırığından sonra öz heyrətamiz gülüşünü nümayiş etdirdi. Gülərkən qırmızıya çalan yanaqları dirçəldi, özünə məxsus qəhvəyi-qara qarışığı bığları hərəkət etdi. Dişlərini isə reklam çarxlarında rahatlıqla nümayiş etdirmək olardı. Meri əvvəllər TV-də görməyinə baxmayaraq Teylora görə o, həyatda dəfələrlə daha yaraşıqlı görünürdü. Seyrək yarı bozarmış saçları, dördkünc çənəsi, burnunun üstündə oturan mavi rəngli eynəyi, zövqlə seçilmiş bahalı boz kostyumu onun necə də məharətli siyasətçi olmasının atributlarından yalnız bir neçəsi idi. Yaşı əlli beşi ötmüş mer artıq neçə ildir ki, dayanmadan şəhərə xidmət göstərir, hər il yeni iş yerləri açır, köhnələrin bərpası ilə məşğul olur, saysız-hesabsız xeyriyyə aksiyalarında iştirak edirdi. Bəs bu adamın Frenk Teylor və Endi Hovard kimi sıradan iki detektivlə nə kimi bir işi ola bilərdi axı?

– Xoş gördük, cənablar, – o, növbə ilə detektivlərin hər ikisi ilə görüşdü. Teylor Corc Kluni[24] səsli merin əl sıxışından necə hakimiyyətsevər və qüdrətli biri olduğunu hiss etdi, – bağışlayın ki, gecə vaxtı sizi narahat etdim, amma bu, fövqəladə haldır, – bir saniyəlik pauza verdi. Mer detektivlərin üzündəki sual işarələrini oxuyub sözünə davam etdi, – ayın on beşi gördüyünüz işlərdən çox təsirləndim, cənablar.

– Minnətdarıq, cənab mer, – detektivlərdən səsini ilk çıxaran Hovard oldu.

– Mən sizə minnətdaram, detektivlər, ancaq sizdən bir neçə ricam olacaq. Çarlz Neş olayı təsadüfi deyildi, – növbəti qəsdən verilmiş dramatik fasilə oldu. Teylor diqqətini toplayaraq merə qulaq asmağa başladı. Artıq yavaş-yavaş şəklin görünməyən parçaları öz yerlərini alırdı, – istəyərdim, buna göz atasınız, – mer əlini pencəyinin iç cibinə saldı və oradan ağappaq, qatlanmış vərəq çıxardı. A4 formatlı kağızı açaraq onlara uzatdı.

*usted werden* حرق *скоро*

Kağızın üstündə səlis xətlə bu dörd söz yazılmışdı. Qara mürəkkəblə və kalliqrafik xətlə. Bütün hərflər eyni ölçüdə və eyni əyrilikdə yazılmışdı. Əsl sənət əsəri.

– Cənab mer, burada nə yazılıb? Onu aydınlaşdıranlar olub?

– Hə, əlbəttə, Frenk, – mer cavab verməyə macal tapmadı.

---

[24] George Clooney(1961) – amerikalı aktyor və rejissor.

– Frenk, burada dörd dildən istifadə olunub, – Hovard başını kağızdan qaldırdı, nəzakətsiz hərəkət etdiyini anladı, – çox üzr istəyirəm, cənab mer.

– Heç bir problem yoxdur, Endi, – başqa bir kağız parçasını əlində saxlayan mer Aaron Keyn gülümsədi, – davam edin. Mənə sizin yozumunuz maraqlıdır. Sonra isə mən cümlənin açılışını sizlə paylaşacağam.

– Təşəkkür edirəm, cənab mer. Usted ispancadan siz deməkdir səhv etmirəmsə, werden isə gələcək zaman hissəciyi olmalıdır, amma dildən əmin deyiləm. Üçüncü söz fars dilinə məxsus ola bilər.

– Ərəb, – Teylor dedi.

– Bəlkə də, ərəb. Bilmirəm dəqiq. Son söz isə, məncə, slavyanlardan gəlmədir.

– Hə, cənab mer. Kinolarda həmişə rus terrorçuları o sözdən istifadə edirlər. Tez. Bu yaxınlarda. Belə bir şey olmalıdır. Çünki hansısa dəhşətli plan baş tutmamışdan qabaq antoqonist[25] "скоро" olan cümlə işlədir və kadr dəyişir.

– Əhsən, cənablar, – mer başını yelləyərək əl çaldı, – etiraf etməliyəm ki, qəribə və maraqlı yozum idi, ancaq cavaba yaxınlaşmışdınız.

O, ikinci kağızı Hovard'a uzatdı. Detektiv tez onu açıb ucadan oxudu.

– Sən tezliklə yanacaqsan[26]. Frenk, eşitdin? İlk söz ispancadır. Sonra isə uyğun olaraq alman, ərəb və rusca sözlər gəlir.

– Eşitdim, – Teylor mer tərəfə döndü, – cənab mer, bu, sizə ünvanlanıb?

---

25 Filmlərdə, əsərlərdə və digər sahələrdə mənfi obraz.

26 İngliscə: You will burn soon

Aaron Keyn başını yellədi.

– Bunu edənin Neş olduğunu düşünürsünüz?

– Əmin deyiləm, Endi, amma Çarlz Neşin bu işlərlə əlaqəsi olduğuna şübhəm yoxdur. Bu məktubu hadisə yerinə gətirən də o olub.

– Sizcə, bu, hədələyici məktubdur?

– Ağlıma başqa bir şey gəlmir, Frenk, amma iş orasındadır ki, belə bir məktubun kimdən olması ilə bağlı da heç bir təsəvvürüm yoxdur, – mer çiyinlərini tərpədərək irəliyə əyildi. Səsini pıçıltı səviyyəsinə qədər saldı, – cənablar, sizin ayın on beşi baş verən hadisələrin hamısından xəbəriniz yoxdur, elə deyilmi?

Teylorla ortağı başlarını yellədilər. O, pəncərdən bayıra baxıb “Hummer”in artıq yenidən asfalt yola çıxdığı gördü. Üzünü yenidən mer Keynə çevirdi, – cənab mer, həmin gün mən, Endi və Neş istisna deyək, başqa çılğın hərəkət edənlər oldu?

– Bəs necə? – qəmgin gülümsəmənin fonunda soyuq cavab verildi. Mer yenidən arxaya oturaraq hadisələri onlara nəql etdi, – mühafizə işçisi Bruno Morales başından aldığı zərbə ilə zədələnib. Katibəm və assistentim Reyçel Şilds isə cinsi zorakılığa məruz qalıb, – növbəti dramatik fasilə, – xanım Şilds də zərbədən sonra özündən getdiyindən baş verənləri xatırlamır, lakin tibbi analizlər bu alçaqlığı törədənin Çarlz Neş olduğunu üzə çıxarır. Moralesi zərərsizləşdirən də Neş olub, – mer Keyn dayanıb detektivlərin keyimiş çənələrinin yenidən hərəkət etməsini gözlədi. Bir neçə saniyəyə ilkin şok onların üstündən qalxdı, – hə, indi əsas məsələ, cənablar. Sizi bu çağırmağımın səbəbi

biznesdir. İstəyirəm, sizi özəl detektiv kimi bu işə cəlb edim.

– Cənab mer, bəs bizdən nə tələb olunur? – Teylor ortağına baxdı. Göründüyü qədəri ilə Hovard artıq çoxdan işi boynuna götürməyə hazır idi.

– Neşin bunları törətdikdən sonra özünü atmaq istəməsi və fikrindən dönən kimi də vurulması onun bu işdə tək olmadığını sübut edir. Sizdən istədiyim isə bu işin arxasında dayananları ifşa etmək və suallarımıza cavab tapmağınızdır.

– Ser, bəs niyə məhz biz? – Teylor soruşdu.

– Yaxşı sualdır, Frenk, – Keyn boğazını təmizlədi, – bildiyiniz kimi, gələn ayın üçü çox vacib bir tədbir baş tutacaq. Mənim təltifolunma mərasimimə Kaliforniya qubernatoru şəxsən təşrif buyuracaq, böyük ehtimal ki, – artıq burada detektivlərə hər şey aydın olmuşdu, fəqət onlar heç nə deməyib merin sözünü bitirməsini gözlədilər, – ona görə də hay-küy qopmasını arzulamıram. İki gün əvvəl baş verən hadisələrdən heç polisin belə xəbəri yoxdur. Yalnız FTB və Gizli Xidmət. Sizi seçməyimdə məqsəd isə göstərdiyiniz şücaətə heyran qaldım və açığını desəm, FTB işçilərindən heç xoşum gəlmir, Gizli Xidmətsə məni "Hummer"lə təchiz etməkdən başqa iş görmür. Məhz buna görə də sizi seçdim cənablar. Əlbəttə ki, razılıq versəniz.

– Bu, bizim üçün şərəfdir, cənab mer, – Teylora ağzını açmağa macal verməyən Hovard söylədi.

– Bilirdim ki, sizə bel bağlaya bilərəm, – deyən mer əyilərək öz oturacağının yanından netbuk ölçülərinə uyğun çamadan çıxardı. Ağzını açıb onu detektivlərə

tərəf döndərdi, – burada ehtiyaclarınızı qarşılamağınız üçün on beş min pul, dinlənilməyən iki ədəd telefon və bütün "Los-Angeles City Hall" personalının bioqrafiyası ilə son iki ayda binaya girib-çıxmış insanların siyahısı və kamera yazıları var. İlkin mərhələdə, məncə, bu kifayətdir, – mer çamadanın ağzını çırpıb onu Hovarda tərəf uzatdı, – fövqəladə vəziyyətdə işə daha iki nəfər əlavə edə bilərsiniz. Hər səkkiz saatdan bir agent Stivens ilə əlaqə saxlayıb hesabat verməyiniz rica olunur. Sualı olan?

– Cənab mer, birdən biz hər şeyi korlasaq? – Endi Hovard soruşdu.

– O halda, deməli seçimimdə yanılmışam, Endi, – mer gülümsədi, bir daha detektivlərin əlini sıxdı, – artıq Frenkin evinə çatmışıq. Endi, məncə, bu gün sən də Frenk ilə gecələ. Onsuz da heç biriniz yatmağa hazırlaşmırsınız, – mer yenidən güldü, – elə bil ki siz ikiniz, ümumiyyətlə, normal yuxunun daşını atmısınız, – agentlərdən biri maşının qapısını açdı, detektivlər merin işarəsini gözləyib yerlərindən tərpənmədilər. Ən nəhayət, o başını yellədi. Onlar maşından enərkən mer Keyn Teylorgilə son tapşırığını verdi, – bu işdən heç kəsin xəbəri olmamalıdır, detektivlər. Mənə bir sözünüz yoxdur ki?

– Əslində var, cənab mer, – Hovard xəfifcə başını yellədi.

– Eşidirəm, Endi. Buyur.

– Sizin agentlər bir də bizi elə yoxlasalar, biz məsuliyyət daşımırıq, – Teylor ortağını qabaqladı.

– Dediyinizi tam anlamasam da, təxmin edə bilirəm. Tədbir görərəm, – mer gülümsündü, – uğurlar, cənablar.

Maşının qapısı bağlandı, “Hummer” onlardan uzaqlaşıb getdikcə kiçildi və ən sonda gözdən itdi. Hələ də nəyin baş verdiyini tam anlamayan detektivlər maşını yola saldıqdan sonra Teylorun mənzilinə qalxdılar.

# 14



## 18 oktyabr 04:14

**– Bəsdir! Yalvarıram!**

**– Qışqırma! – növbəti bita zərbəsi, – sal başını suya. Sal!**

**– Axı mən sənə nə etmişəm? Səni tanımıram belə, – bu dəfə də o belindən bita ilə vuruldu. Başı qanla qarışmış vannaya girdi. Artıq zərbələrin sayını unutmuşdu. Bədənində salamat yer qaldığına belə şübhə edirdi. Görəsən, başını sudan çıxarmalıdır ya yox? Axı onun günahı yoxdur. Bəs onda bu başına gələnlərin səbəbi nədir? Bu vampir kimdir belə? Onun qanını niyə içmək istəyir?**

– Bəsdir, çıxart başını gedirik, – qurbanın vampir hesab etdiyi şəxs dedi, – indi rəqs edəcəyik. Hələ qabaqda səni çoxlu sürpriz gözləyir.

– Nə? Siz nə danışırsınız? Nə rəqs, – qadın ayağa qalxmaq istəsə də, ayaqları sözünə qulaq asmırdı, – yalvarıram, – o, tamamilə taqətdən düşdü, çənəsi vannanın qırağına dəydi, qəribə xırçıltı səsi eşidildi.

– Qalx, qancıq! Qalx! – vampir qadının arxasından üst-üstə bitayla vurmağa başladı, hər zərbədə

gözlərini yumur, artan ürək döyüntülərinə qulaq asırdı. Etdiyi hərəkətdən hədsiz həzz alır, anın bitməməsini arzulayırdı. Bitanın qulağa xoş tappıltısı, bədənin sümüklərinin sıradan çıxma harmoniyası, inanılmaz ekstaz və öldürmə eşqi, – eşitmirsən, qalx!

Vampir səs gəlməyincə, qadının nəbzini yoxladı. Aşağı tezlikdə olsa belə, nəbzi vururdu. O, qadının ayağından dartaraq hamamdan çıxardı. Otaqda lampanın düz altına sürüdü. Zərgər səliqəsi ilə qurbanın əllərini və ağzını mis məftillə bağladı. Qadın yenidən gözlərini açdı, vampirin hələ də başının üstündə olduğunu görüb hürkdü. Vampir gülümsəyərək onun üzülmüş yanağını dartdı. Sonra ayaqlarını kəndirlə sarıdı, tavana vurduğu dəmir qarmağın ucundan kəmərin digər başını keçirdi. Kəndiri dartaraq qadını yavaş-yavaş qaldırdı, lazımi hündürlükdən sonra kəndiri tək yaşayan qadının yatağının üstünə bağlayıb sıxdı. Yenidən bitasını əlinə alıb son dəfə qadının sinəsindən zərbə endirdi. Qadının qanı onun üstünə sıçradı, qara paltarının üstünə düşən qan damlalarını silərək barmağını dodağının üstünə gətirdi, sanki içki içirmiş kimi qanı yaladı, gözlərini yumaraq dodaqlarını dişlədi. Tavandan başı aşağı asılmış qadın isə əlacsız şəkildə inildəyirdi. Vampir istədiyini ala bilmişdi. Ehtiras və həzz. Bu hələ başlanğıcdır. Möhtəşəm sonluqla başa çatacaq başlanğıc. İllərlə unudulmayacaq əfsanənin başlanğıcı.

Vampir döşəmə təmizləmək üçün istifadə olunan vedrəni götürüb qadının qanlı vannasından doldurdu. Təzədən otağa qayıdıb tavandan başıaşağı asılmış

qurbanına baxdı. Sonra bir-iki şillə vurub, vedrənin suyunu şappıltı ilə üstünə boşaltdı. İşığı söndürdü, stulun üstünə çıxdı, qadının ayaqlarına başqa bir şey də bağladı. Planı möhtəşəm olacaqdı. İşini görən kimi qadının telefonunu götürdü. 911-ə zəng vurdu.

– Onları köməyə çağır, – bihuş qadının üzünü sığallayaraq dedi, telefonu qadının qulağına qoydu və məftili dartaraq ağzının üstündən götürdü.

– Pol... – qadın xısıltılı səslə nəsə deməyə çalışırdı, – köm... kömə...

– Bəsdir, əzizim, onlar artıq yoldadırlar, – vampir telefonu qulağından çəkib yatağın üstünə atdı, – mən getməliyəm. Bil ki, çox xoş oldu. Sənin üçün darıxacağam. Əlvida – deyib qadının aşağı sallanan saçlarını stula düyünlədi. Əşyalarını götürərək oradan uzaqlaşdı.

Başı aşağı qaranlıq otaqda tək qalmış qadın gözlərini açdı, diqqətlə ətrafa baxdı. Vampirdən əsər-əlamət qalmamışdı. Elə bil bütün gecəni qadına işgəncə verən şəxs heç burada olmayıb. Bəs indi qadını nə gözləyirdi? Əsmə səbəbinin su içində olması, yoxsa qan itkisinin mi olması barədə düşünürdü. Səssizliyi başından stulun üstünə düşən qan damlaları və xırıltılı nəfəs alma cəhdləri pozurdu. Qadın gücünü topladı, tavandan belə asılmasının səbəbini tapmağa çalışdı. Əvvəl nə baş verdiyini anlamasa da, sonradan ayaqlarına bağlı olan şeylərin nə olduğunu başa düşdü. Bu an qapı döyüldü.

– Xanım Peic, – boğuq səs, – LAPD. Qapını açın, xanım Peic, – on beş-iyirmi saniyəlik fasilə, – xanım, Peic? Xanım Peic.

– Gəl qapını sındıraq, – əvvəlkinə nisbətən daha gənc və aydın səs, – çəkil, görüm, – polis təpiklə qapını vurdu. Cəhdi uğursuz alındığından bir neçə dəfə ağ rəngli taxta qapını vurmalı oldu, nəhayət qapı açıldı, polislər içəri girdilər. Gördükləri səhnədən boğuq səsli çavuşun çənəsi havada qaldı. Ortağı ondan daha sayıq davranaraq cəld qadına yaxınlaşdı, Onun başından tutub nəbzini yoxladı, əllərindəki düyünləri açmağa başladı, – lənət! Herni, işığı yandır.

Qadın yox deyə inildəsə də, nə çavuş Hernandez, nə də digər polis onu eşitmirdi. Bəlkə də eşidir, fəqət dediklərini anlaya bilmirdilər.

– İndi! Yandırıram, – çavuş Hernandez qaranlıqda əlini divar üzərində gəzdirib axırda işıqları yandırdı.

İşıqlar nəsə yaman gur idi.

# 15

## 19 oktyabr 21:03

**Artıq ikinci gün başa çatırdı. Yorğunluq və sıxılma. Nəticə olmayanda vəziyyət bu həddə gəlir çıxır. Özündən asılı olmadan məyus olursan, çünki haradan başlamalı olduğunu bilmirsən. Hədəfi tapmaq üçün yapışa biləcəyin bir ipucu yoxdur. Sanki çıxışsız küçədə dayanıb geri qayıtmamaqda israr edirsən.**

Son beş gün sıradan iki LAPD detektivinin həyatında radikal dəyişikliklərlə yadda qalmışdı. İlk növbədə bir neçə professional cinayət, ardınca özünü şəhərin bir nömrəli binasından atmağa cəhd etmiş texniki təchizat şöbəsindən Çarlz Neş, helikopterə dəymiş snayper gülləlləri, az qala LAPD işçisinin ölümü ilə nəticələnə biləcək partlayış və ən sonda Frenk Teylor və Endi Hovardın bir aylığına məcburi sürətdə məzuniyyətə göndərilməsi.

Onsuz da artıq sıyığa çevrilmiş bu qarışıq məsələ bununla da yekunlaşmırdı. İki gün əvvəl detektivlər şəhər meri Aaron Keyn ilə üz-üzə görüşmüşdülər. Mer təhdid olunduğu sirrini açmış və mətbuata yayılmamış mer köməkçisinin zorlanma hadisəsini onlarla

bölüşmüşdü. Bundan sonra isə detektivlər, ehtimal ki, həyatlarının ən qeyri-adi təkliflərindən birini qəbul etmişdilər. Los-Anceles meri onlara baş verən qeyri-adi hadisələri ətraflı araşdırmalarını tapşırmışdı.

Və artıq həmən görüşdən iki gün keçirdi. Endi Hovard və Frenk Teylor verilən materialları gözdən keçirirdilər. Onlar bütün kamera yazılarını bir neçə dəfə gözdən keçirmiş, işçi heyətindəki müəmmalı şəxslər haqqında məlumat toplamışdılar. Digər tərəfdən isə onlar LAPD-ni təəccübləndirməyə davam edən qeyri-adi qatilin Kameron Peic adlı qadının vəhşicəsinə öldürülməsi barədə də düşünmədən dayana bilmirdilər. Bəs bu qatilin məqsədi nə idi axı? Nəyə görə insanları heç nədən öldürür? Lakin indi bu işlə vəzifə başındakı məmurlar məşğul olmalıydılar. Teylorla Hovardın isə görməli olduğu iş merə qarşı təxribat hazırlamış şəxsi və ya qrupu ifşa etməkdir.

– Lənətə gələsi Neş! Başa düşmürəm axı! – gözlərini TV-nin ekranına zilləyən Hovard deyindi, – bu, nə deməkdir? Məqsəd nədir?

Ekranda isə Neşin mühafizə işçisi Bruno Moralesin başından noutbukla vurub Reyçel Şildsin üzərinə gəlməsi əks olunurdu. Mer assistenti nə qədər yalvarsa da, Neş ondan əl çəkməyib təcavüz etmişdi. Ən qəribə isə bunu açıq şəkildə və düz kameranın qarşısında həyata keçirməsi idi və öz murdar işini qurtardıqdan sonra, – gördün? Sözümü tutdum! Tutdum! – deyə çığırırdı. Sonra isə o ağlayan Reyçeldən əl çəkib hoppanmağı planlaşdırdığı pəncərəyə tərəf yollanmışdı.

– Bax, bu zibili başa düşmürəm! Axı mənim danışdığım Neş bunları edəcək biri kimi görünmürdü, – Hovard tüpürə-tüpürə deyinməyə davam edirdi, – lənət! Heç nə anlamıram!

– Endi, çox xahiş edirəm, TV-mi çimizdirmə, – həmişəki kimi daha soyuqqanlı hərəkət edən Frenk çiyinlərini tərpətdi, – artıq bu yazıya qırxıncı dəfədir ki, baxırıq.

– Çünki işin sirri məhz bu yazıdadır. Axı o, niyə qışqırır?

– Bəlkə, sadəcə həyatdan bezib.

– Yox! Yox! – Hovard kreslonun qollarından yapışaraq yerindən atıldı. Bu təkan o qədər güclü oldu ki, Teylor bir anlığına kreslonun qırıldığını düşündü. Sonra isə irəli-geri addımlayan ortağını seyr etdi, – tutaq ki, sən haqlısan, Frenk. Bunların hamısı həyatdan bezməklə bağlıdır. Bəs o halda, niyə özünü atmadı, – bir anlıq fasilə verdi, – yaxşı, bəs onda snayper nə idi elə?

– Heç bir fikrim yoxdur.

– Bax buna görə də əsəbiləşirəm. Partlayışda az qala Stivi itirə bilərdik. Bəs buna nə ad verirsən?

Çiyinləri tərpədərək səssiz bir cavab.

– Səndən zəhləm gedir, Frenk! Bir işə yaramırsan! Bu pizza harada qaldı axı?

– Bunu da bilmirəm.

– Neşin yerinə sən özünü atmalıydın. Sən nə bilirsən axı? Axmaq adam!

– Endi, assistent Şildslə görüşmək lazımdır. Stivenslə bu barədə danışdın?

– Hə, deyir, Reyçel haqqında hələ ki dəqiq məlumatı yoxdur. Mümkün olsa, sabah bizim üçün görüş təyin edəcək.

– Yaxşı olardı, yoxsa heç nə tapa bilməyəcəyik. Bəlkə, bu işdən əl çəkdiyimizi merə deyək?

– Yox, Frenk. Nə əl çəkmək? Sadəcə yorulmuşuq. Bu mövzuya sabah qayıdarıq. Gəl indi bir az Peic barədə danışaq. Nə düşünürsən?

– Bax burada artıq qəribə fikirlərim var, – səhərdən dinləyici kimi fəaliyyət göstərən Teylor qəfildən aparıcıya çevrildi, – artıq cinayətkarın hansısa cədvəl, ya da qrafik üzrə hərəkət etdiyindən əminəm. Qurbanları tanımasa belə, onlar təsadüfi seçilmir. Hansısa struktura var. Biz isə o strukturanın ətrafında dövr edirik.

– Yaxşı bəs belə sadistcəsinə insanları öldürməyin mənası nədir? Bu alçaq Kameron Peici tavandakı elektrik xəttinə bağlayıb, Üstəlik qadın yaş olub təsəvvür edə bilirsən? Qadının necə əzabla ölməyini təsəvvür edirsən? Polis işçisinin vəziyyəti isə çox ağırdır.

– Endi, o, elə-belədən bu cinayətləri özünəməxsus şəkildə həyata keçirmir. Hər qurban hansısa əlamət, xasiyyətinə görə fərqlidir. Özün fikirləş, əvvəlcə yaxın vaxtlarda qətlə yetirilmiş eyni tarixdə doğulmuş iki nəfər. Biri ağ, digəri qara. Alınlarında yunan hərfləri. Sonra doğranılmış qadının sinəsindən asılmış güzgü. İndi isə cərəyan köməyi ilə öldürülmüş başqa bir qurban. Görmürsən, ölüm hadisələrinin hər biri unikaldır?

– İndi buradan nə nəticə çıxır bəs?

– Əslində iki dənə. Bir. Ya bu şəxs və yaxud şəxslər tamamilə ağıllarını itiriblər. İki. Bu adamların çox us-

talıqla hazırlanmış planları var. Amma günahsız insanlar niyə öldürülsün ki?

– Bunu da mən bilmirəm, Frenk, – bu an qapının zəngi eşidildi. Səhərdən qanıqara görünən Hovard gözlərini bərəldərək gülümsədi, – əla! Pizza gəldi. Günün ən yaxşı hadisəsi! Mən açaram. Sən isə fikirləşməyə davam et, bəlkə, bir işə yaradın.

– Endi, sus və imkan ver. Sebastian Smit və Tayler Gibson arasında əlaqə qurmağa çalışıram. Qapıya bax.

– Onlar arasındakı əlaqənin rənglə bağlı olmadığına əminəm. Ağ şokoladla qara şokolad. Yan-yana qoysan, Kubrikin[27] "Strangelove"ı alınar.

Öz sözünə gülən Hovard qapını açdı. Üzərində restoran loqotipi olan qırmızı və gödəkcəli bir gənc durmuşdu. O, qulaqlıq vasitəsiylə kimləsə danışırdı. Əslində danışmaqdan çox kiməsə əmr verməklə məşğul idi.

– Bir dəqiqə dayan, – qapının açıldığını görən kimi başını qaldırdı, – axşamınız xeyir, cənab, sifarişiniz, – o, pizza qutusunu Hovarda uzatdı, – sənə dayan demədim? Axı mən işdəyəm, – yenidən qulaqlığa cavab verən işçi dedi, – hə də. Başlanğıcda Black or White kimi ritm tutmaq lazımdır, sonra isə arxası gələcək. İndi isə sağ ol, yoxsa işimdən olacağam. Onsuz da töhmət əlindən divara dırmaşıram, – o, qulaqlıqları çıxarıb gülümsədi, – bağışlayın, cənab. Kiçik bir musiqi çıxışı var dostlarımın, onlara kömək edirəm.

[27] Stanley Kubrick(1928-1999) dünyaca məşhur rejissor və ssenarist. Bir çoxlarına görə ən yaxşılardan biri, bəlkə də, ən yaxşısı.

– Hə, eşitdim. Deyəsən, retro çıxşdır, – Endi Hovard da cavabında gülümsəyib gəncə bəxşiş uzatdı.

– Yox, əslində müasirdir. Bircə çıxışın əvvəlində doxsan birinci ilin mahnısından istifadə edəcəyik. Həm də ki Black or White unudulmaz mahnıdır. Çox sağ olun, ser. Gedə bilərəm?

– Hə, əlbəttə. Musiqi karyeranızda da uğurlar.

– Təşəkkürlər, ser.

Hovard qapını örtüb içəri keçdi. Teylor isə hələ də yerində oturmuş öz-özünə hadisələri analiz edirdi. Ortağı otağa daxil olan kimi burnuyla pizzanın ətrafa yayılmış ətrini qoxulayıb gözlərini açdı. Ahıldayaraq, – bəlkə, bu, eyni gündə doğulmuş ağ və qara dərili qurbanlar barədə bir əlaqə tapmağıma kömək edər.

– Aaa!

– Endi, sənə nə oldu?

– Ay səni! Tut! – Hovard pizza qutusunu ortağının üstünə atıb cəld qapıya tərəf qaçdı, Teylor çətinliklə də olsa, pizzanı tutub döşəməsini qoruya bildi, – lənətə gələsi pizza daşıyıcısı! – qapını az qala çərçivəsindən çıxaran Hovard bayıra qışqırdı, – pizza daşıyan?!!! – deyə çığıraraq onun ardınca sürətlə pilləkənləri üç-üç, dörd-dörd düşdü. İkinci mərtəbədə qulaqlıqlarla danışmağa başı qarışmış gəncin üstünə atıldı. Diksinərək ona baxan şəxsin qolundan yapışıb, – bura gəl, – hökm etdi.

– Cənab, nə baş verir? – pizza daşıyıcısının heç nə anlamadığı aydın görünürdü.

– Sənin musiqi seçiminə heyran qaldım. İndi isə gəl qalxaq yuxarı. Sənə işim düşüb.

– Amma mənim sifarişlərim var.

– Mən ödəyəcəyəm.

– Yox, ser. Bəs biz daimi müştərimizdən olsaq, necə? Mən işimdən olmaq istəmirəm. Xidmət səviyyəsi şirkətimizin əsas prioritetlərindəndir.

– İki qatı.

– Yox, siz yenə məni başa düşmədiniz, axı burada biznes nəzakətindən danışırıq. Etika, mədəniyyət necə olsun bəs?

– Yaxşı, üç.

– Hə? Onda buyurun gedək, amma, cənab, biləsiniz ki, mən pizza daşımaqdan özgə fəaliyyətlə məşğul olmuram. Qazancım isə o qədər də yüksək deyil. Evin kirayəsini də gecikdirirəm.

– Nəzərə alaram.

Bundan sonra heç nə demədən onlar yuxarı qalxdılar. Artıq Teylor da mənzilindən bayıra çıxmış, aşağı onlara tərəf baxırdı. Üz ifadəsindəki böyük sual işarəsini oxumaq Hovard üçün bir o qədər də çətin deyildi. Heç bir söz demədən onların hər üçü içəri keçdilər. Hovard gənc pizza daşıyıcısına bayaq özü oturduğu kreslonu işarə etdi. Gənc heç nə demədən ona tabe olub kresloda yerini rahladı. Kepkasını çıxarıb dizlərinin üstünə qoydu, mat-məəttəl Hovarda baxdı.

– Frenk, sən də otursan, yaxşı olar.

– Burada nə baş verir? Bu oğlanı bura niyə gətirdin?

– Keç yerinə, başa salacağam.

– Sən, deyəsən, havalanırsan, – deyərək Teylor digər kresloya tərəf keçdi.

– Bax, hər şeyin səbəbkarı elə deyəsəndir, çünki, DEYƏSƏN, mən bir şey tapmışam. İndi isə, – o, üzünü yenidən pizza daşıyıcısına tərəf çevirdi, – hmmm, sənin adın nədir, gənc?

– Nurlan. Nurlan Faiqoğlu, – o udqunaraq cavab verdi, – amma yenə deyirəm, mən başqa sahələrdə xidmət göstərmirəm.

– Nurlan? Bu, nə addır belə? Sən haradansan? Mərkəzi Amerikadan?

– Azərbaycandan.

– Ora hansı ştatdadır elə?

– Endi, ora ölkədir. Azərbaycan, paytaxtı Bakı, – Teylor Nurlanın əvəzinə cavab verdi, – Cənubi Qafqaz ölkəsidir. Türk xalqları ölkələrindən biri, – gəncin təəccüblə ona baxdığını görən Teylor əlavə etdi, – Jül Vern və Coğrafiya sənə nəsə deyirmi? Uşaqlıqda bütün ölkələr, paytaxtları haqqında məlumat toplamışdım.

Nurlan alt dodağını qabağa verib başını yellədi. Detektivin ölkəsi haqqında məlumatlı olması onu sevindirmişdi.

– Yaxşı, bəsdirin. İndi isə Nur... aha! Nurlan, bizə çıxışınızdakı ilk mahnı barədə danış, – Hovard pizza qutusunu açıb bir dilim götürdü, digərini Teylora ötürüb yenidən Nurlana tərəf döndü, – yeyirsən?

– Xeyr, sağ olun, – hələ də nə baş verdiyini anlamayan gənc bir daha detektivlərə tərəf baxdı, boğazını arıtlayıb sözə başladı, – klubların birində xırda bir çıxışımız var. Maraqlı müasir üslubda proqram...

– Bunlar bizə lazım deyil. Açılış mahnısı haqqında məlumat ver, – marçıldayan Hovard dedi.

– Hə, Black or White. Heç dedik ki, nostalgiya yaratmaq üçün açılışda doxsan birinci ilin hitindən istifadə edək.

– Neçənci il? – pizza boğazında qalan Teylor soruşdu

– Doxsan bir.

– Doxsan birinci il? Black or White?

– Aha. Black or White. Ağ və qara. Dahi Maykl Ceksondan irqçiliyə qarşı yazılmış möhtəşəm bir mahnı. On ikinci nömrə bir hit.

– On iki? Maykl Cekson? – Teylor yerindən qalxaraq iş masasına tərəf qaçdı.

– Aha on iki. Eşitməmisiniz? – Nurlan artıq daha da təəccüblənmişdi, – məşhur videosu da var. Uşaq gitara çalaraq atasını Afrikaya göndərir. Makoley Kalkin. “Evdə tək” filmindəki uşaq. Kevin.

– Doxsan bir və on iki. Başqa nə deyə bilərsən bu mahnı haqqında rəqəm olaraq? – Hovard soruşdu, – fikirləş, Nurlan.

– Mahnı yeddi həftə birinci sırada qalıb. Axı bunların hamısı internetdə yayğın məlumatlardır. Cənablar, siz kimsiniz belə?

– Panika yaratma. İndi isə dayan, – gəncin həyəcanlandığını görən Hovard gülümsədi, üzünü masasının üstündəki kağız-kuğuzu eşələyən Teylora tərəf çevirdi, – Frenk, orada yeddi var?

– Gözlə, baxıram, – bir neçə saniyə daha vərəqlərin səsi, – aha tapdım. Doxsan bir, on iki, səkkiz, Endi.

– Nurlan, səkkiz. Bu rəqəmlə ağlına heç nə gəlmir? Maykl Cekson'a aid. Black or White ilə bağlı bir şey. Fikirləş.

– Səhv etmirəmsə, Black or White doxsan birinci ildə işıq üzü görmüş Dangerous[28] albomunun səkkizinci mahnısıdır.

– İndi dəqiqləşdirərik. Frenk, Bil neçənci ildən idi?

– Səksən yeddinci il. On aprel.

– Nurlan, bu sənə tanış gəlir? Bunların da Maykl Ceksonla əlaqəsi var? 1987.04.10

– Səksən yeddidə Ceksonun Bad[29] albomu çıxıb. Oradakı mahnılar, deyəsən, Man in The Mirror[30] səhv etmirəmsə, amma...

– Yox, lənətə gələsi, səhv etmirsən! Frenk sxemi başa düşdün? – Hovard ortağına səsləndi.

– Hə, düşdüm. Nurlan, indi isə bu rəqəmlərə bir bax. 1979.01.02, – Teylor Peic Kameronun doğum tarixini soruşdu.

– Yetmiş doqquz – Off the Wall[31]. Birinci mahnı Don't Stop Till You Get Enough[32]. İkinci nömrə bir hit.

– Əla, – detektivlərin hər ikisi gülümsəyərək əl çaldılar.

– Bəlkə, biri məni başa salsın, burada nə baş verir və siz kimsiniz? – əsəbləri tarıma çəkilmiş Nurlan soruşdu.

---

[28] İng. Təhlükəli.

[29] İng. Pis

[30] İng. Güzgüdəki adam. 2) Ceksonun Bad albomuna daxil olmuş nömrə bir mahnı.

[31] İng. Divardan, Divar tərəfdən. Qeyri-etik

[32] İng. Məqsədinə çatana qədər dayanma. 2) Ceksonun Off The Wall albomuna daxil olmuş nömrə bir mahnı

– İndi hər şeyi izah edərik. Bu arada, Frenk Teylor, – o, əlini Nurlana uzatdı, – tanışlığımıza şad oldum.

– Endi Hovard, – oğlanın əlini möhkəmcə sıxan Hovard gülümsədi, – Frenk, görəsən, sən də mən düşünəni düşünürsən?

– Deyəsən.

– Lənətə gələsi deyəsən!

Detektivlərin hər ikisi qəhqəhə ilə gülüşdülər.

– Cənablar, artıq səbrim tükənir, – Nurlan yerindən ayağa qalxdı, – burada nə baş verir?!.

– Nurlan, sənə deyə bilərik ki, pizza pis olsa da, sənin xidmətindən həddən artıq razı qaldıq, – Hovard onu çiynindən sıxaraq yenidən kresloya oturtdu, – indi isə qoy daimi müştərilərin sənə hər şeyi başa salsınlar.



# 16

## 19 oktyabr 22:34

**– Lənət! İnanılmaz!**

**Artıq üç dəqiqə olardı ki, Nurlan Faiqoğlu dəlicəsinə başını yelləyir, baş verən hadisələri anlamağa çalışırdı. Detektivlər ona silsilə cinayətləri danışmışdılar. Bu cinayət qurbanlarının seçilmiş alqoritminin açarını isə onlara Nurlan vermişdi. Bu işlə bilavasitə məşğul olmasalar da, Teylorla Hovardın bu kəşfi işlə hal-hazırda məşğul olan detektiv Kruger Selvek və onun dəstəsinə çox böyük köməklik göstərəcəkdi. Teylor səhər açılan kimi bu məlumatı Selvekə şəxsən çatdıracaqdı. Selvek öz sahəsində kifayət qədər təcrübəli olduğundan bu ipucu onun işinə çox yaraya bilərdi, ancaq növbəti qurbanların kim olduğunu tapmaq o qədər də asan iş deyildi. Axı söhbət Los-Anceles kimi nəhəng şəhərdən gedir, bura isə hər gün minlərlə adam immiqrasiya edir və yaxud da əksinə.**

Amma artıq ölü yük yerindən tərpədilmişdi. İkinci mərhələ olaraq isə cinayət törədənlərin məqsədi

müəyyənləşdirilməliydi. Sonra da cinayətlərin baş vermə xəritəsi.

– Həqiqətən, inana bilmirəm. Belə cinayət, hə? – hər şeyi beyninə otuzdurmuş Nurlan təəccübləndi, – sizi isə tanıdım, mister Hovard. Siz özünü atmaq istəyən şəxsi xilas etmisiniz. O halda, – o, gülümsəyərək Teylora – helikopterlə şou göstərən də siz idiniz, hə, cənab Teylor?

– Aha, təəssüf ki.

– Təəssüf? Nə təəssüf? "Youtube"da sizin cəsur hərəkətinizə yazılan şərhləri oxumusunuz? – o, yenidən gülümsədi, – sizə buna görə mükafat düşür, – qəsdən verilmiş bir fasilə, – əlbəttə ki, binanın başındakı partlayışı və güllə atan adamı hesaba almasaq. Hə, doğrudan, həmin adamı ələ keçirdiniz?

– Nırç, – pizzanın axırına çıxmağa başı qarışmış Hovard cavab verdi, – Frenk binanın içində azmışdı onu axtaranda.

– Endi, yeməyini ye, – hələ də kağız-kuğuzu qurdalayan Teylor ona sərt bir baxış ünvanladı, – Nurlan, bizə bu gün, həqiqətən, çox böyük yardımın dəydi.

– Bu, mənim vətəndaş borcumdur, cənab Teylor.

– Sadəcə Frenk.

– Aydındır, Frenk, – artıq özünü daha sərbəst hiss edən gənc burnunu çəkib, – siz indi bu adamı necə ələ keçirməyi planlaşdırırsınız?

– Heç necə. Biz qovulmuşuq, Nurlan, – Hovard artıq pizzasını bitirmişdi, – bir şey içmək istəyən var? Kimə qəhvə hazırlayım? Özümə, Frenkə və sənə Nurlan. Aydındır.

– Çox sağ olun, Endi, – Hovard bu cümlədən sonra yerində donaraq gözlərini Nurlana zillədi, bundan narahat olan Nurlan gərginliyin səbəbinin izinsiz adı ilə detektivə müraciət etməsi olduğunu düşündü, – bağışlayın, cənab Hovard.

– Nəyə görə? – Hovard qəhqəhə çəkdi, – bu, sadəcə bir yoxlamadır. Əmin oldum ki, gələcəyin var, gənc, – o, cümləsini bitirib mətbəxə yollandı.

– Ona fikir vermə, əsəbləri çox pozulub. Bir az ağır günlər keçiririk.

– Hə, başa düşdüm. Üstəlik qovulmusunuz da.

– Yox, Nurlan qovulmaqdan betər olmuşuq, – Hovard mətbəx tərəfdən qışqırdı, – bir aylıq məcburi məzuniyyətə göndərilmişik.

– Təəssüf edirəm, Frenk. Bəs bu işlə kim məşğul olur?

– LAPD-də istedadlı adamlar çoxdur. Nə isə. Bunları boş ver. Bir az özündən danış. Hər gün azərbaycanlı istedadla görüşmək qismət olmur. Buyur, başla.

– Deməli, – Nurlan boğazını arıtladı, dərindən nəfəs alaraq öz doğma məskəni və keçmişi barədə danışmağa başladı, – sıradan uşaq kimi böyüyüb Qafqaz Universitetində təhsil almışam, amma bəzi X səbəblərdən üçüncü kursda ikən oranı tərk etmək məcburiyyətində qaldım. Sonra da hər bir xəyalpərəst gənc kimi bura üz tutdum. Xəyallarımın ardınca.

– Ümidvaram, məqsədinə nail olarsan. Musiqiçisən?

– Xeyr, mən mühəndisəm. Yəni olacaqdım. Sistem mühəndisi.

– Yenə də ümidvaram, məqsədlərinə nail olarsan.

– Artıq olmuşam, – Teylorun üz ifadəsini görən Nurlan gülərək əlavə etdi, – pizza daşımaq mənim rəsmi işimdir.

– Hmmm, bəs qeyri-rəsmi? – Teylor qaşlarını oynadaraq soruşdu.

– Bir polisə deyə bilməyəcəyim məlumatdır. Yəni üzərinizə götürməyin.

– Bax bunu Endi bilməsin, yoxsa pizza pulunu bəhanə edəcək.

Onların hər ikisi güldülər. Bu gülüş sədasının altında isə Teylorun beynindəki düşüncələrin pıçıltısı əks olunurdu. Görəsən, qarşısındakı gəncin ona açmadığı sirlər özündə hansı maraqlı faktları gizlədirdi? O və Hovard eyni anda Nurlanın istedadına heyran olmuş və materialları gözdən keçirmək bəhanəsiylə onun haqqında təəssüratlarını bölüşməyə də macal tapmışdılar. Nurlan Faiqoğlu – fenomenal yaddaşa və andisput liderlik keyfiyyətlərinə sahib bir gənc. Bəs bu maraqlı və əsrarəngiz kimliyin altında, görəsən, hansı sirlər yatır? Bunu öyrənmək pis olmazdı. Teylor səhər Selveklə danışdıqdan sonra Nurlan haqqında kiçik bir araşdırma aparmağı yaddaşının bir kənarına yazdı.

Mətbəxdən məcməyi əlində, qulağında telefon Hovard qonaq otağına geri qayıtdı. Həmişəki kimi emosiyalarla kimləsə mübahisə edirdi. Onların yanına çatıb, məcməyini masanın üstünə qoydu, özünə bir stul çəkib yerini rahladı. Barmağını dodağının üstünə gətirib səssizliyə riayət etməyi işarə etdi. Bir az gərgin görünürdü.

– Lənətə gələsən, Stivens! Axı o, bu qədər tez müddətə necə işə çıxa bilər, – xəttin digər tərəfindən

də qışqırıq səsləri eşidilirdi. Bu iki nəfər ilk görüşdən bir-birini bəyənməmişdilər, – bu gün deməli artıq vəzifədə olub, amma bunu mənə indi yox, səhərdən deməli idin! Sənin başın nə vaxta qədər ayaqlarının arasında qalacaq? Sənin kimilərin orada nə işi var axı? Sarsaq! Niyə elektron poçtunu yoxlamırsan? Bax deyirəm, sənin üçün pis olacaq, – iki saniyəlik bir nəfəs çəkmə, – nə susdun? Cürət edib telefona üç barmaq, filan göstərmə! Sağ ol! Tezliklə istefa verməyin diləyi ilə, – Hovard danışığını bitirən kimi qəhvəni başına çəkib üzünü ortağına tərəf döndərdi, – sən demə, o, bu gün artıq işə çıxıb.

– Belə tez? – Teylorun necə təəccübləndiyi üzündən aydın olurdu. O, başını yelləyib qəhvəsindən qurtum aldı, – sabah biz onunla danışa biləcəyik?

Söhbətin məzmununu tuta bilməyən Nurlan gözlərini bir detektivdən digərinə aparırdı.

– Hə, Frenk. O, bizlə sabah görüşəcək. Mən belə başa düşdüm ki, o, olanları ailə üzvlərindən gizlədir. Axmaq Stivens isə bizə xəbər verməyi yadına belə salmır.

– Bəlkə, yadına düşməyib?

– Yox, Frenk. Bu axmaq o cür vəzifədə ola-ola tvitterdə @UniversalRomantik adı ilə tvit də atmağa macal tapır. Müdiriyyət bu əməlindən xəbər tutanda görək nə olacaq? Axı onun kimi biri elə sosial şəbəkələrdə fırlanmamalıdır. Bizim qabağımıza həmişə axmaqlar çıxır! Hər addımbaşı! Nə var ki, iş bizə tapşırılıb, öz aləmində guya bizə dərs verir. Eqosentrik zibilçə, – Hovard söhbəti hələ də anlamaqda

çətinlik çəkən Nurlana baxdı, – sən üstünə götürmə. İstisnalar qaydanı pozmur. Frenk, indi kaş onun əvəzinə "Mən əsl eşşəyəm. Bunu retvitləyin" deyə tvit atardım, – bu fikirdən sonra Hovardın gözlərinə sanki hiyləgər parıltı gəldi. Bir anlığa həmin anı təsəvvür etdi və gülümsündü.

– Cənablar, sizdən iki şey soruşmaq istəyirəm, – Nurlan dilləndi.

– Birincinin cavabı yoxdur, – Teylor cavab verib başını kresloya söykədi.

– Axı bunun nə olduğunu bilmirsiz heç? – danışıq tərzindən bu cavabın onun bir az xətrinə dəydiyini demək olardı.

– Mən sadəcə deyə bilərəm ki, Endinin qulaqları əla eşidir, Nurlan.

– Sizi başa düşmədim, Frenk.

– O demək istəyir ki, sən bizdən nə barədə danışdığımızı soruşacaqsan, – Hovard aramla tələbəyə dərs izah edirmiş kimi danışmağa başladı, – cavabımızsa yoxdur, çünki sənin polisin bilməli olmadığı sirlərin olduğundan polisin də sənə deyə bilməyəcəyi sirləri var. İndi isə ikinci arqumentə keç.

– Keçməmişdən əvvəl qoyun, deyim, siz tanıdığım ən ağıllı polislərsiniz. Bunun səbəbi nədir?

– Bax, mən öz adıma deyim ki, Hiçkok[33], Stiven Kinq[34], Patterson[35], amma ondan çox xeyir gəlmir.

---

[33] Alfred Hitchcock(1899-1980) – beş Oskar namizədli rejissor.

[34] Stephen King(1947) – dəhşət, qorxu, fantastika və digər janrlarda romanların müəllifi olan məşhur, kult yazar.

[35] James Patterson(1947) – Alex Cross qəhrəmanın yaradıcısı və onlarla polisiyə ən çox satanların müəllifi.

Daha sonra Devid Linç[36] və başqaları, Frenk isə hər cür zibillə tanışdır.

– Tam aydın olmadı.

– Tam aydın olmaq üçün demədim ki. İndi isə ikinci arqument zəhmət olmasa.

– Hə, o halda, indi yenidən səhnə mənimdir, – Nurlan başını şax tutaraq dedi, – bunu, ümumiyyətlə, nəyinsə aydın olması üçün deməmişdim, – gəncin özünü belə aparması detektivlərin ona olan simpatiyasını daha da artırırdı. O, çantasını açaraq orada nəsə axtarmağa başladı, – mən eşşəklə bağlı tvit barədə kömək edə bilərəm. Əlbəttə ki, əgər lazımdırsa.

– Necə? – Hovardın gözləri bərəldi, – getdikcə daha da xoşuma gəlirsən, gənc.

– Bu mənim polisə deyə bilməyəcəyim sirlərimdəndir. İndi isə gəlin başlayaq, – Nurlan telefonunu çıxarıb sms yazmağa başladı, – deməli, @UniversalRomantik istifadəçi və "Mən əsl eşşəyəm. Bunu retvitləyin" doğrudur?

– Aha.

– Beş dəqiqə gözləyək. Sonra onun profilinə bir göz atın.

Bu an qapı döyüldü. Başını kreslodan qaldıran Teylor təəccüblə ortağına baxdı. Onlar qonaq gözləmirdilər. Bu vaxtı kim narahat edə bilərdi axı? Amma ki bu suala baş yormağa dəyməzdi. Cavab bir neçə metr aralıda – divarının digər tərəfində onu gözləyirdi. Teylor dəhlizə çıxdı, güzgüdə özünə baxıb qapını açdı.

[36] David Lynch(1946) – dörd Oskar namizədli rejissor.

– Oyyy, Frenk!

– Stiv?

– Bədbəxtçilik baş verib, Frenk.

– Axı nə olub? Keç içəri görək.

Stiv Ferrell – Teylorun iş yoldaşı və tabeliyində çalışan polis. Görkəmindən çox yaxın birini itirdiyini yəqin etmək olardı, hətta, deyəsən, bir az ağlamışdı da. Bunun səbəbi isə artıq qismən Teylora aydın olmuşdu. Bu xəbər Endinin ürəyincə olacaqdı.

– Frenk, o. Məni qovdu, – Ferrell əsir, özünü güclə ayaqüstə saxlayırdı, – kredit kartlarım, pulum, maşının açarları – hər şeyi əlimdən aldı. Gedəsi yerim yoxdur, bu gecəlik burada qonağın ola bilərəm? Çox üzr istəyirəm, Frenk, səni də narahat etdim.

– Hə, əlbəttə, Stiv. O, nə sözdür? İstədiyin qədər burada qala bilərsən. Gödəkcəni mənə ver, – əslində bu fikir Teylorun heç xoşuna gəlməsə də, Hannanın xasiyyətinə bələd ola-ola, Stivə rədd cavabı verə bilməzdi. Nə də olsa, Ferrell bir polis kimi çox dəyərli bir əməkdaş və yaxşı yoldaşı idi.

– Səhər gedib onunla danışacağam, Frenk, – onlar dəhlizdən qonaq otağına tərəf hərəkət etdilər, – bircə, xahiş edirəm, bunlardan, – otağa keçən kimi o, gülməkdən yaşarmış gözlərlə baxan Hovardı gördü, – Endi? Sənin burada nə işin var? – Ferrellin indi dünyada ən az görmək istədiyi şəxs Hovard idi, yəqin.

– Məni Hanna göndərib, Stiv. Dedi ki, südünü içməmiş yatmasın.

– Ash to your manhood head. Biz də bu cənabkimilərə belə deyirlər, – Nurlan pıçıltı ilə Hovarda dedi.

– Necə? Necə, Nurlan? – Hovard qulağını ona tərəf şəklədi, – bir də təkrarla, – deyə pıçıldadı, – bu nə maraqlı cümlədir belə? Xoşuma gəldi. Yəqin, bu cümlənin müəllifi Stivi görsə, daha orijinal ideyaları olardı.

– Stiv, Endiyə fikir vermə, onsuz da indi gedəcək. Buyur keç, – Ferrellin arxasınca otağa girən Teylor danışmaması üçün ortağına işarə etdi, – tanış ol, Nurlan. Nurlan, Stiv Ferrell. İş yoldaşımız və dostumuz.

– Şad oldum, – gülməmək üçün özünü çətinliklə saxlayan gənc ayağa qalxdı, bu gün artıq üçüncü polis işçisinin əlini sıxdı.

– Stiv, mən aradan çıxıram. Burada artıq süd və uşaq vaxtıdır. Səni əmin əllərə – Frenkə tapşırıram. Bircə, kompyuterdə bir şeyə baxmalıyam, – o, Teylorun noutbukuna yaxınlaşıb twitterə daxil oldu. Bir neçə saniyə taçpədi tərpədib son tvitlərə göz gəzdirdi və bütün səsi ilə çığırdı, – OOOOO!!! Frenk, bu Nurlan illüzionistdir. Artıq eşşəyi altı dəfə retvitləyiblər. Mən yeddinciyəm! Getdik, Nurlan. Sən bu gün baş verən ən yaxşı hadisə oldun, amma Stivin qovulmasından sonra.

– Sus, Endi! Artıq gecdir. İndi qonşuları oyadacaqsan. Bircə bu çatmırdı. İndi isə şələ-küləni yığıb rədd ol buradan, – Teylor özünü əsəbi göstərsə də, əslində o da ürəkdən ortağının sözlərinə gülmək istəyirdi, – Nurlan, sənə isə hər şeyə görə minnətdaram, həmişə qonağımız ola bilərsən.

– Xoşdur, Frenk, – o, ayağa qalxaraq ev sahibi və Ferrellin əlini sıxdı.

– Özündən muğayat ol, amma bizə deyə bilmədiyin sirlərin çox marağımı çəkir. Bir gün bu barədə danışaq.

– Nurlan, gəl görək, – artıq qapının ağzında dayanan Hovard ona səsləndi, hamı dəhlizə toplaşdı, Nurlan onlarla sağollaşıb qapıdan çıxdıqdan sonra Hovard, – gecəniz xeyrə və, Stiv, kül sənin kişi başına! – pıçıldayaraq qapını səliqə ilə örtdü. Qapı bağlandıqdan sonra digər tərəfdən qəhqəhə səsləri eşidildi.

– Kül? Nə kül? Bu nə mənasız ifadədir belə?

– Fikir vermə, Stiv, Endidir də.



# 17

## 20 oktyabr 14:35

**Teylorla Hovard Los-Ancelesin kiçik kafelərindən birində oturmuşdular. Hovard qəzet vərəqləyərək vaxtını keçirir, Teylor isə sadəcə baş verən hadisələri düşünür. Mer Aaron Keynin onlara verdiyi tapşırıqdan əlavə Maykl Cekson mahnıları ilə insanları öldürən qatil də onun şüurundan çıxmırdı. Səhər o, hər şeyi detektiv Selvek ilə danışmışdı. Artıq bu əməliyyata rəsmi ad da verilmişdi: “NÖMRƏ BİRLƏR”. Teylorun təkidi ilə Selvekin əməliyyat heyətinə zabit[37] Braun, çavuşlar Nikolz və Ferrell də qəbul olunmuşdu. Bu üçlük Teylorun dəstəsinin üzvləri olsalar da, bu gündən əməliyyat bitənə qədər rəsmi olaraq detektiv Kruger Selvekin idarəsi altına keçmişdilər.**

Bütün bunlardan əlavə olaraq, Stiv Ferrell daha bir gün Teylorun evində gecələyəcəkdi. O, səhər sübhdən öz evinə qayıtmağa cəhd etsə də, Hanna

---

[37] Amerikada polislərə hörmət anlayışı olaraq zabit deyilir.

qəbul etməmiş, əksinə əşyalarını da qoltuğuna verib yola salmışdı. Teylor bundan sonra həmkarına get deyə bilməzdi, bunun nəticəsi kimi daha bir 24 saat çavuş Stiv Ferrell qonağı olacaqdı. Onun kompaniyasında merin verdiyi tapşırıqla məşğul olmaq isə o qədər də asan deyildi. Bu gizli tapşırıqdan, yalnız özünün və Hovardın xəbəri vardı. Düzdür, onlara bu işə daha bir neçə nəfər cəlb etmə imkanı verilmişdi, lakin, hələlik, detektivlər nəzərlərində bir nəfəri tutmuşdular. Həmən şəxs bu tapşırığa kifayət qədər dəstək verə bilərdi. Amma hələ yox. Belə bir qərarın öz vaxtı var. Uyğun və əlverişli bir vaxtı.

– On beş dəqiqədir ki, o gecikir, Frenk, – Hovard başını "Los-Angeles Times" qəzetindən qaldırdı, – bizim vaxtımız gedir axı. Bütün günümü burada keçirmək istəmirəm. İşim başımdan aşır.

– Səbrli ol. O çox ağır period keçirir. Özün fikirləş.

– Ola bilər. Nömrə Birlər əməliyyatı ilə bağlı ictimaiyyətə nə vaxt məlumat veriləcək?

– Selvek bunun sabah baş tutacağını dedi. Ən yaxşı halda.

– Niyə belə gec?

– Bilmirəm, – Teylor çiyinlərini tərpətdi, – bəlkə, bizim verdiyimiz ipucunu bir daha yoxlamaq istəyirlər? Yaxud da belə bir xəbərin mediada necə təsir yaradacağından çəkinirlər. Axı Los-Ancelesdə hər nömrə birə uyğun tarixdən minlərlə insan var. Xaosun yaranma ehtimalı çox yüksəkdir.

– Frenk, – kafenin qapısı açılan kimi Hovard dedi, – pis deyilmiş, həqiqətən də.

Teylor da başını qaldırıb qapıya baxdı. Reyçel Şilds. Qara on iki santimetrlik dikdabanlar üstündə dayanan uzun ayaqlar. İdeal ölçüləri əks etdirən qıvrımlı bədən quruluşu. Səliqəli, dolğun sinə. Parlaq ağ dəri. Çəhrayı dodaqlar. Hamar, xırda burun tərəfindən bir-birindən ayrılmış duru, mavi gözlər. Boğaza qədər çatan buruq, şabalıdı saçlar. Qəhvəyi gödəkcənin altından görünən mavi bluzka, qara qısa ətək. Bu qadın reallıqda detektivlərin video və şəkillərdə gördüklərindən daha cəlbedici və parlaq görünürdü. Baxmayaraq ki, üç gün əvvəl o, Çarlz Neş tərəfindən vəhşicəsinə zorlanıb. Teylor ilə ortağı nəsə tapmaq naminə bu videonu, Neşin törətdiyi vəhşiliyi dəfələrlə izləmişdilər.

– Xanım, Şilds, – Hovard ona səsləndi, ortaqların hər ikisi ayağa qalxıb incə məxluqu salamladılar, – detektiv Hovard, bu isə ortağım detektiv Teylor.

– Reyçel, – çox soyuq bir ton.

Şilds oturduqdan sonra detektivlər də yerlərini aldılar, – içməyə nə arzulayardınız? – deyə müştərilərə qulluq edən qadın ondan soruşdu.

– Sərt qəhvə, – bir daha həmən soyuq ton. Qadın sifarişi aldıqdan sonra kənara çəkildi, Reyçel başını qaldırıb detektivlərə baxdı, – sizi eşidirəm, cənablar. Buyurun.

– Miss Şilds, ilk növbədə başınıza gələn bədbəxtçiliyə görə səmimi başsağlığımızı qəbul edin, – ilk danışan Hovard oldu.

– Mənim başıma heç nə gəlməyib. İndi isə suallarınızı verin, cənablar. Mən işə tələsirəm.

– Neşin hədəf kimi sizi seçməsinin məqsədi nədir? – Hovard tərəddüd etmədən mer assistentinin istəyini yerinə yetirdi, – Neşi necə biri kimi tanıyırsınız? Aranızda nələr olub?

Detektivin anidən kəskin şəkildə tonunu dəyişməsi Reyçel Şildsi bir az qəribə vəziyyətdə saxlamışdı. O, gözlərini Hovarddan Teylora çevirdi, – mən Çarlini iş üçün müraciət edənlər arasından seçmişəm, ancaq bir ilə yaxındır ki, şəxsi salam-sağolum var. Bu münasibətlər isə rəsmiyyətdən o tərəfə heç vaxt keçməyib. Məni seçməsində məqsəd? Bilmirəm, bəlkə dalım xoşuna gəlirdi, – artıq onun gözləri dolmuşdu.

– O, sizi zorlayarkən sizə “Gördün? Sözümü tutdum”, – deyirdi. Bu sözlərin mənası nədir?

– Mən haradan bilə-bilərəm ki? Elə bir şeyin olacağını bilsəm, özümü xəstə bir manyakın altına atmazdım. Bunu onun özündən soruşun.

– Biz binanın bütün işçi heyətini araşdırmışıq, – Hovard tonunu bir qədər də sərtləşdirdi, – Neş həmən gün sizin mərtəbəyə niyə qalxmışdı? Onu çağıran siz idiniz, Ms. Şilds? Məqsədiniz nə olub?

– Cənab, siz necə polissiniz axı? Yox, mən çağırmamışam! Olanlarla heç bir əlaqəm yoxdur.

– Onda, iki gün keçməmiş niyə işə çıxmısınız?

– Meri ayın üçü çox böyük tədbir gözləyir. Onun yanında olmalıydım.

– Sizin vəziyyətinizdəki bir xanım üçün bu arqument olmamalıdır. İndi isə bir də soruşuram, iki günə belə travmanı necə üstələyə bildiniz?

– Endi, – tamaşaçı qismində digərlərinin mübahisəsini izləyən Teylor dedi.

– Dayan, Frenk, – Hovard fincanını masanın üstünə çırpdı, – öz ifadənizdə niyə bu xəbərin yayılmasının qəti əleyhinə olduğunuzu vurğulamısız? Hə? Cavab verin, xanım!

– Mənim buna hüququm çatır.

– Amma bunun üçün əsaslı arqument lazımdır.

– Bacı-qardaşınız var, detektiv?

– Yox, xanım. Söhbətdən qaçmayın!

– Qaçmıram, demək istəyirəm ki, iki bacınız olsa, biri uşaqlıqda, digəri isə indi zorlansa, görəsən, uşaqlıqda zorlanan nələr düşünərdi?

– Anlamadım? – Üstünə su tökülmüş od kimi səsini aşağı salan Hovard soruşdu.

– Çünki anlamaq istəmirsiniz. Mənim bacım iki min üçüncü ildə iki nəfər tərəfindən zorlanıb. Vəhşicəsinə zorlanıb. Təmizliyini, toxunulmazlığını itirib. Elə bilirsiniz, Neşin etdikləri bu qədər iyrəncdir? Yox, siz hələ nə görmüsünüz ki? Onu elə hala gətirmişdilər, bədəni qan içində, hərəkətsiz idi. Cəmi on dörd yaşındaydı. Qorxudan, həyəcandan beyni iflic olmuşdu. Mən isə hələ də bacıma kömək ola bilmirəm. O, həyatın heç bir gözəlliyini görməyib. İllərdir öz otağında və əlil arabasında dünyanı yalnız TV-dən izləyir. Mən həkimləri gəzməkdən bezmişəm. Bunun müalicəsi yalnız psixoloji yolla mümkündür. Müalicəyə isə cavab vermir. Çünki istəmir, qorxur və mən də eyni aqibəti yaşadığımı ona deyə bilmərəm! Buna tab gətirə bilərmi, əmin deyiləm.

Kiçik bir fasilə oldu. Şildsin emosional nitqi Hovarda da təsir etmişdi. İndi heç kəs danışmır, hamı sakitcə bir-birinə baxırdı. Reyçel Şildsin gözləri parlayır, damlalar çırpınaraq oradan çıxmağa çalışırdı. Hovard ortağına baxdı. Teylor bayaqkıtək sakit dayanmışdı. İki nəfər arasında yaşanmış konfliktə üçüncü, neytral şəxs kimi yalnız tamaşa edirdi. Reyçel Şilds qaşıqla qəhvəsini qarışdırıb bir neçə qurtum aldı. Sonra isə nifrət dolu gözlərini yenidən Hovarda tərəf qaldırdı.

– O, televizora çox baxır. Bəlkə görsə, sizləri belə tanıyar. Mən isə başıma gələnlərin yayılmasına göz yuma bilməzdim. Ona görə də cənab Keyndən xahiş etdim ki, bu xəbəri bilməsinlər. Bu, üzə çıxsa o, dəli olar. Onsuz da bədəni ölüb. Ruhunun da ölməsinə imkan verə bilmərəm. Törətdiklərindən sonra Neşə isə nifrət edirəm, amma daxilimdə. Siz isə bunu anlamazsınız, cənab Hovard!

– Deməli, – Hovard heç bir şey olmamış kimi sözə başladı, – neçə ildir, merin tabeliyində çalışırsınız?

– Martda beş il olacaq.

– İşə necə düzəlmisiniz? – Hovard bütün bu məlumatları bilsə də, indi sualları verməklə qarşısındakı qadını psixoloji dözümlülük testindən keçirir. Onsuz da Şilds artıq qırılma nöqtəsinin astanasında dayanıb. Onun kimliyini müəyyən etmək üçün bir az daha təzyiqə ehtiyac vardı.

– Seçki kampaniyasından bəri merimizə dəstək olmuşam. Mer İndiana ştatında işləyəndən mən onun yanında çalışıram.

– Müdiriniz necə olub sizi işə götürüb bəs? Yəni, demək istəyirəm ki, bu mövqeyə qədər necə qalxmısınız?

– Mən sizə hesab vermək məcburiyyətində deyiləm. Növbəti sual zəhmət olmasa və bir az tələsin, mən işə gecikirəm.

– Xanım, başa düşməlisiniz ki, mən sizin müdirinizin tapşırığına əməl edirəm.

– Onda, bu sualın cavabını cənab Keyndən soruşun. Hələlik, cənablar.

Reyçel Şilds yerindən qalxdı, geriyə dönmədən masa başından ayrıldı. Ayaqlarını o qədər möhkəm çırpırdı ki, Teylor bir anlığına dikdabanların qopacağını yəqin etdi. Kafe qapısını çırparaq yoldan keçən taksini saxlayıb tələsik maşına mindi və oradan ayrıldı. Teylor gülümsəyərək ortağına baxdı. Başını yumruğuna çırpan Hovard bir neçə saniyə bu prosesi davam etdirdi, sonra gözlərini açıb ortağına baxdı.

– Bir az sərt oldu.

– Deyəsən, Endi, – qaşığı əlində oynadan Teylor cavab verdi.

– Frenk, deyəsən, sən düz deyirsən. Onun haqqında nə düşünürsən?

– O, günahkar deyil. Özün fikirləş.

– Sən onun başına gələnləri bilirdin?

– Aha.

– Necə öyrənmişdin?

– Mən camaatın tərcümeyi-halını yalnız şəkilə baxaraq gözdən keçirmirəm. Bilirsən, orada hərdən maraqlı bilgilər olur.

– Guya sən indi öz aləmində çoxbilmişlik edirsən. Yaxşı bəs mənə, niyə xəbər verməmişdin? – cavabında Teylor sadəcə çiyinlərini tərpətdi, – məhz buna görə səndən zəhləm gedir.

– Mənim də səndən. Bir işə yaramırsan. Sənin üzündən əlimizdə heç nə yoxdur. Özünü belə aparsan, heç nə də olmayacaq.

– Görəsən, xanım hansı ətirdən istifadə edir? – o, Teylorun sözlərini qulaqardına verdi, – Neşin miss Şildsi zorlamasının alçaqlıq olduğunu bilirəm, amma Neş özünü saxlaya bilməyibsə, onu çox qınamaq olmaz, – Hovard ağzı ilə əcaib səs çıxararaq gülümsədi.

Hovardın sözündəki həqiqət açıq-aşkar görünürdü. Teylor bu xanımı videoda görəndən ağlından çıxara bilmirdi. Bu qadın öz cinsinin nümayəndələrindən nə ilə isə fərqlənirdi. Onun hər bir hərəkəti özünəməxsus və təkrarolunmaz idi. Ətrafı bürüyən iyin isə həqiqətən də ətirmi, yoxsa bu gözəl varlığa xas bir qoxumuydu ? Bəs bu məsumiyyət dolu, mərhəmət diləyən parlaq gözlər necə? Teylor uzun zaman idi ki, heç bir xanıma qarşı bu qədər fərqli şeylər hiss etməmişdi.

Ümumiyyətlə, tələbəlik illərində Teylor xanımlar barədə düşünsə də, özünü işə verdikdən sonra qadınlar ikinci plana keçmişdilər. Xüsusən də, qardaşı qızı Lusinin başına gələnlər bu tip şeyləri onun həyatından tamamilə çıxardı. Çünki qorxurdu. Lusi kimi başqa əzizlərinin də başına bir şey gələcəyindən qorxurdu. Onların da həyatını məhv etməkdən qorxurdu.

– Frenk! Yatmısan? – Hovard çığırdı.

– Bağışla, – Teylor başını yellәyәrәk fikrini topladı, – nә deyirdin?

– Mәnә qulaq asmırsan? Gözün bu gözәlçәdәn başqa bir şey görmür? Ay sәni, şәrәfsiz alçaq! Neş kimi sәnin dә onun dalından xoşun gәldi?

– Yox, sәnin zibilini tәmizlәmәk barәdә düşünürdüm. Gәrәk Şildslә bir dә görüşüm. Tәk başıma vә sәnsiz. İndi isә mәnә bayaq nә dediyini de, – әslindә Teylor bunu bәhanә etmәmişdi. Doğurdan da, bu qadınla bir daha görüşüb bәzi sualları yenidәn müzakirә etmәk yaxşı olardı.

– Yaxşı, sәn deyәn olsun. İndi deyirәm, Aaron Keynlә bu assistent arasındakı әlaqәni gәrәk araşdıraq.

– Bu qadından şübhәlәnirsәn?

– Yox, – Hovard çiyinlәrini tәrpәtdi, – amma onunla merin әlaqәsinin ola bilәcәyi ehtimalını gözdәn qaçırmıram vә buradan da meri hәdәlәyәn üçüncü bir şәxsin ortaya çıxma ehtimalını. Köhnә sevgili, ya da buna oxşar bir şey.

– Hmmm. Haqlısan. Ağlıma gәlmәmişdi.

– Çünki ağlını o gözәlçәnin arxası işğal edib, Teylor. Özünә gәl.

– Yaxşı az danış. İndi planda nә var?

– Mәnim evimә gedib bir az araşdırma aparmaq.

– Yaxşı, sәnin evinә niyә? Hәmişә bizdә işlәmirik? – Teylor tәәccüblәndi.

– Çünki sәn evdә süd içmәyәrәk yiyәsinin sözündәn çıxmış birini qonaq edirsәn, – Hovard gülümsәdi.

– Stivә bir az çox ilişmirsәn? Axı o qәdәr dә pis oğlan deyil.

– Frenk, mənim qadın sözü ilə hərəkət edənlərdən xoşum gəlmir. Qonağın isə bunun ən yaxşı nümunəsidir. Biz naharda olanda belə o, Hannaya xəbər verir. Hər dəfə. Növbə bitəndə. Hansısa əməliyyat başa çatanda. Həmişə. Mən isə belələrini bəyənmirəm, dostum. Onun pis biri olduğunu demədim.

– Səncə, Hanna Stivi dünən nəyə görə qovub?

– Süd içməyib, yəqin. Nə bilim? Bəlkə, bizim qorxacaq diktatorun xoşuna gəlməyən bir söz deyib.

– Haqlısan, detektiv, amma nə? – Teylor məzəli tonla soruşdu.

Başını yelləyərək xəfif bir çiyin tərpətməsi.

– Onda, gəl, sənə məsələni danışım. Demək, əziz, Endi, sənin sevimli dostunun həyat yoldaşı Hanna ona bizimlə artıq işləməmək barədə göstəriş verib. Stiv isə mübahisə edib və bunun nəticəsində də evdən qovulub!

– Amma bu, yenə də ona tam bəraət qazandırmır. Özünü vaxtında kişi kimi aparsaydı, bunların heç biri olmazdı. Sözünü deyə bilsə, Hanna onun başına çıxmazdı.

Bayırdan avtomobil siqnallarının səsləri eşidildi. Bir neçə sürücü eyni anda öz maşınlarının səs tembrini yoxlayırdı. Başı mübahisəyə qarışan detektivlər bayırda baş qaldırmış izdihama fikir verməmişdilər. Maşınlar yerindən tərpənmirdi. Nəqliyyat axını donmuşdu. Görəsən, bayırda hansı hadisə baş verib? Endi Hovard hesabı verməyi boynuna götürdü. Teylor isə bayıra çıxdı.

Tıxacın uzunluğu bir neçə yüz metr olardı. Bəlkə də, bir kilometr. Artıq sürücü və sərnişinlərin bir çoxu

maşınlardan enib nə olduğunu anlamağa çalışırdılar. Günorta vaxtı belə şey yalnız qəza sonrası baş verə bilərdi, fəqət L.A nəqliyyatı tıxaclarla dolu olsa da, bu, nadir hallardan da daha fərqli bir durum idi.

– Bu, maşınların fleşmobudur? – Hovard da kafedən çıxdı.

– Bilmirəm, – Teylor çiyinlərini tərpətdi, – amma marağımı çəkdi.

– O halda gedək, öyrənək. Onsuz da, maşınları buradan çıxara bilməyəcəyik.

Yetmiş beş metrə qədər yol getdikdən sonra onlar bayaq kafenin qabağından keçən taksini və içində səbirsizlənərək oturan Reyçel Şildsi gördülər. Özündən asılı olmadan ılıq gülüş Teylorun simasına səpələndi. Maşındakı qadın isə detektivlərin bayırdan ona baxmasından xəbərsiz idi.

– Xanım Şilds, – Hovard özünü səliqəyə salıb qapının şüşəsini döydü. Qadın onu görən kimi simasını sərtləşdirib pəncərəni aşağı saldı, heç nə demədən detektivə baxdı, – xanım Şilds, irəlidə nəyin baş verməsi ilə bağlı təsəvvürünüz varmı?

– Xeyr, cənab Hovard, – buz tək soyuq bir cavab, – mən buradayam, irəlidə yox.

– Əgər gedəsi yeriniz yoxdursa, ortağım sizə bir neçə sual versin. Olar?

– Əlbəttə. İstəsəm də, sizin əlinizdən yaxa qurtarası yerim yoxdur, cənab Hovard.

– Yox, mən onsuz da qabağa gedirəm. Görüm, orada nə olub? Teylor isə sizin xidmətinizdə hazırdır, – o, üzünü ortağına çevirib, dilini göstərdi, göz

vuraraq maşının qapısını açdı, – Ms.Şilds, bir az o tərəfə keçin zəhmət olmasa. Frenk, buyur, əyləş, – sükan başındakı sürücüyə baxıb, – cənab, mənə yolboyu həmsöhbət olmağa etiraz etməzsiniz ki? – dedi və nişanını göstərdi. Əsli şərqdən olan sürücü heç nə demədən maşından endi, – Frenk, gör nə öyrənə bilirsən. Bu arada, ilk cəhddən qıza hücum çəkmə. Bir az özünü tanıtdır ona.

– Sənlə bu barədə sonra danışacağıq, Endi, – söyləyərək Teylor maşına minib qapını çırpdı, Hovard sürücüylə irəliyə yollandı. O, üzünü assistent qadına çevirib sözə başladı, – həmkarımın kobudluğuna görə üzr istəyirəm, xanım Şilds.

– O, sadəcə, işini görür, detektiv. Buyurun eşidirəm, sizi, – cavab yenə soyuq olsa da, aysberq az-maz ərimişdi. Ən azından aysberqin görünən tərəfi.

– Sizcə, mer Keyn ilə şəxsi qərəzliyi olan biri və yaxud da ki biriləri var?

– Elə birinin olacağına inanmıram. Detektiv, siz də ortağınız kimi məni sorğulayana qədər yalnız adımı bilirdiniz? – Teylor başını inkar əlaməti olaraq yellədi, – hə, lap yaxşı. Deməli, mənim atam hərbçi idi. On bir sentyabr sonrası İraqdakı əməliyyatlar zamanı şəhid olub. Bacımın başına bədbəxt hadisə gələndən sonra anam çox böyük psixoloji sarsıntı keçirdi. Bir yandan atamın ölümü, digər tərəfdən də İvin başına gələnlər. Üç ay tamam olmamış anamı da itirdik. Hələ o zamanlar bacım İv danışa, hərəkət edə bilirdi. Sonra isə biz məhkəməni uduzduq, – hisslərini saxlamaqda çətinlik çəkən Şilds gözlərini sildi, – İndiana ştatının vəziyyəti

o qədər də yaxşı deyildi. Bacıma qarşı bu dəhşəti törədənlərdən biri ondan iki sinif yuxarıda oxuyan sevgilisiydi. Digəri isə həmən alçaq Ceki Billipsin dostlarından biri. Billipsin atası bəzi ədliyyə işçiləri ilə tanış olduğundan geniş əlaqələrə malik idi. Hadisəni törədənlərin on səkkiz yaşdan kiçik olması isə onların işini daha da rahatlaşdırırdı. Yalançı dəlillər və şahidlər bacımın onunla əvvəlcədən əlaqəyə girdiyini dırnaqarası sübut etdi. Jüri də bizim yanımızda deyildi. Onların hərəsinə yeddi ay iş açıldı. Sonra isə müəmmalı şəkildə Billips bir ay tamam olmamış azadlığa çıxdı.

Bundan sonra yekun şəkildə emosiyaların əsirinə çevrilmiş qadın çantasından salfet götürüb gözlərini sildi. Bir neçə saniyəliyinə başını aşağı əyib əli ilə üzünü tutdu. Özünü narahat hiss edən Teylor isə üzünü digər tərəfə çevirdi. Maşınlar isə hələ də hərəkətsiz olaraq qalırdılar.

– Ms.Şilds, – detektiv dedi, – istəsəz, söhbəti burada yekunlaşdıra bilərik. Artıq kifayət qədər məlumat vermisiniz, onsuz da.

– Xeyr, cənab Teylor. Mən sizə yalnız həyatımı danışmışam. İndi isə keçək, əsas məsələyə. Mer Aaron Keyn həmin vaxtlar Ədliyyə Nazirliyində hakim olaraq fəaliyyət göstərirdi. Anam vəfat etdikdən sonra biz təkbaşına qaldıq. Mən və iflic olmuş bacım. Üstəlik məhkəməni də uduzduq. Məğlub olmağımıza baxmayaraq, o, bizə dəstək olurdu. O vaxt on doqquz yaşıma təzə girmişdim. Bacımın isə on dörd yaşı vardı. Həm oxumağa, həm də bacıma baxmağa imkanım yox idi. Təhsilimi yarıda saxlamaq qərarına

gəlmişdim, fəqət Aaron Keyn məni bu fikrimdən döndərdi. Mən onun yanında yarım ştat işə başladım və təhsilimi də başa vurdum. Sonra isə getdikcə vəziyyətim yaxşılaşdı. Aaron Keyn ilə birlikdə mən və bacım da Los-Ancelesə gəldik. Getdikcə pillələri qalxmağa nail oldum. Nəticədə mer məni assistent vəzifəsinə təyin etdi, – kiçik fasilə ərzində qadın Teylorun gözlərinin içinə baxıb onun ağlından keçənləri oxudu, – detektiv, Aaron Keyn öz həyat yoldaşına sadiq adamdır. Sizə zəmanət verirəm.

Son cümlələri eşitməmiş kimi özünü aparan Teylor soruşdu, – sizcə, merə qarşı birilərinin antipatiyası ola bilər?

– İnanmıram, çünki mənim kimi minlərlə adam merin köməyi ilə yenidən həyata qayıdıb. Ən azından son bir neçə ildə belə bir şeylə rastlaşmamışam. O, çox təmiz və sadə adamdır.

– Bundan xəbərim var, Ms.Şilds, axı xarici görünüş aldadıcı da ola bilər.

– Haqlısız, detektiv.

– Məncə, bu günlük bu qədər kifayət edər, – Teylor maşından enərək qapını örtdü. Əyilərək pəncərədən Reyçel Şildsə baxdı, – təşəkkürlər, xanım Şilds.

– Dəyməz, detektiv Teylor. Bu mənim borcumdur.

– Frenk deyə bilərsiniz. Hələlik.

– Yaxşı, Frenk, – bayaqdan bəri ilk dəfə idi ki, qadın gülümsədi, – sağ olun, detektiv.

Teylor başını çıxarıb Hovard və taksi sürücüsü yollanan tərəfə döndü, lakin ayaq saxladı, yenidən maşın pəncərəsinə baxdı, – Ms.Şilds?

Qadın pəncərəyə yaxınlaşaraq detektivə baxdı, – Reyçel sizi eşidir, Frenk. Buyurun.

– Əgər sizi bütün bunlar bitdikdən sonra yeməyə dəvət etsəm, rədd cavabı almaram ki?

– Alarsınız, Frenk, – bir anlığına duruxan qadın cavab verdi.

– Yaxşı, Reyçel, – deyərək Teylor üzünü çevirdi, – hələlik.

– Əgər bütün bunlardan sora məni yeməyə dəvət etsəniz, rədd cavabı alacaqsınız, çünki mənim o vaxta qədər gözləmək kimi fikrim yoxdur, – Şilds gülümsədi, bir az düşünüb dedi, – ayın iyirmi ikisi mənə uyğundur, Frenk.

– Yaxşı, Reyçel. Əlaqə saxlayarıq. Hələlik.

Bundan sonra Frenk Teylor vaxtın necə ötdüyünü, ortağının yanına nə vaxt çatdığını hiss etmədi. Son bir həftədə, bəlkə də, son iki ildə bu qədər rahatlamamışdı. O, bu qadına qarşı ilk baxışdan fərqli şeylər yaşamışdı. İfadə olunmayacaq qədər fərqli və qeyri-adi hislər. İşıq sürəti ilə artmaqda və daha da xoş şeylər yaşadan hislər. İki gün sonra o, çox gözəl bir qadınla yemək yeyəcək. İndi bu fikir Teylorun beynini işğal etmişdi. Bu qədər problem və qarışıqlığın içində Teylor yalnız Reyçel Şildsi düşünürdü. Görəsən, Reyçel onun təklifini niyə belə rahatlıqla qəbul etdi axı? Bəlkə, o da oxşar hislər yaşayır. İlk baxışdan eşq buna deyirlər? Görüşə necə hazırlaşmaq lazımdır? Məşq etməyə ehtiyac varmı?

– Oyan!!!

– Eşidirəm.

– Nə oldu? O, hiyləgər gözəlçə səni tələsinə sala bildi? – yenidən Hovarda məxsus hiyləgər gülümsəmə.

– Az danış, Endi. Yaxşı, de görək, burada nə olub?

– Partlayış. İntihar. Bunu kimin etdiyi hələlik bilinmir. Partlayışdan sonra həmən şəxsdən qalan bir şey varsa, onu mikroskopla axtarmaq lazımdır.

– Xəsarət alan var?

– Aha. Altı maşın. Üçü tamamilə sıradan çıxıb. İkisi ağır olmaqla on doqquz yaralı.

Maşınların şüşələri qırılmışdı. İkisi isə ümumiyyətlə külə dönmüşdü. Polis yolu bağlamış, öz qüvvələrini yanğınsöndürənlərlə birlikdə səfərbər etmişdi. Buraya toplaşan avtomobil sürücüləri və yaxınlıqdakı sakinlər səssiz şəkildə bu dəhşətli mənzərəni seyr edirdi. Hadisə yerinə yaxınlaşdıqca sirenlərin səsi qulaqları batırırdı. Partlayış yerinə ən yaxın dayanan qırmızı rəngli sedan tərs dönmüşdü.

– Dostum, siz gedə bilərsiniz. Həmin xanımdan isə muğayat olun. Frenk, biz içəri keçməliyik, – taksi sürücüsünü yola salıb hadisələrlə tanış olmaq istəyən Hovard dedi, – tanışlardan kimi görürsən?

– Burada o qədər adam var, heç ayırd edə bilmirəm. Niyə ora getmirik ki?

– Cesslə yenə problem yaşamaq istəmirəm, bu məlumatları birtəhər öyrənə bilmişəm, – Hovard qəzəblə cavab verdi.

– Yaxşı da, gəl keçək, – deyərək Teylor əyildi, cinayət yerinə dövrəyə almış lentin altından keçdi. Polis ona yaxınlaşan kimi nişanını zabitə təqdim etdi, – gəlirsən, Endi?

Onlar partlayış yerinə yaxınlaşdılar. Asfalt çatlamış, yaxınlıqdakı sedanın şüşələri yola səpələnmişdi. Qan isə hər yerdə görünürdü. Teylor diqqətlə ətrafa baxdı. Bu partlayışa səbəb nə ola bilərdi axı? Təsadüf, qətl yoxsa intihar? Bəlkə də, cihad? Son vaxtlar, deyəsən, Los-Ancelesin başına hava gəlib. Maykl Cekson cinayətkarı, merə qarşı sui-qəsd. İndi isə partlayış? Görəsən, sabah nə olacaq? Bu qədər təsadüf üçün bir az çox deyil? Axı təsadüf mövcud deyil. Bəs buradan nə nəticə çıxarmaq olar? Teylor öz inanılmaz altıncı hissini işə salaraq partlayış yerinin üstündə dayanaraq ətrafa baxdı. Ondan yüz yetmiş dərəcə cənub-şərq istiqamətində partlamış adama məxsus bədən nahiyəsi görünürdü. Sağ əl. Bədəndən geriyə qalmış hissələrdən biri. Bəlkə də, yeganə hissə. Bəs, görəsən, partlayış hansı tərəfdən baş verib?

Teylor əl düşən istiqamətdə dayandı. Qanın əsas hissəsi əl istiqamətində yayılmışdı. Ehtimal etmək olardı ki, partlayış həmən şəxsin arxa hissəsindən, belindən baş verib. Partlayışı bəs yaradan nə ola bilərdi? Zənn etmək olar ki, partlamamışdan əvvəl şəxs əlindən nəsə atıb. Partlama təcilinin gücü nəticəsində onun əli bədənindən irəli istiqamətdə hərəkət edib. O halda, bu partlamanın cihad olma ehtimalı yoxa çıxır. İntihar? Ola bilər. Özünü öldürmək istəyən şəxs özündən sonra dünyaya hansısa mesaj buraxmaq qərarına gələ bilər. Birdən bu, qətl hadisəsi olsa necə? Havaya uçurulan adam özündən sonra nəsə saxlaya da bilərdi. Hüquqi qüvvələrə köməklik edə biləcək

bir şey, çünki Teylorun fərziyyələri düzdürsə, heç kəs özünü arxa tərəfdən partladaraq intihar etməzdi.

Teylor partlayış yerindən on-on iki metr kənara düşmüş ələ tərəf yaxınlaşdı. Əyilərək ətrafa baxdı. Əlin ətrafı sarı lentlə bağlanmışdı. Orada qan damlalarından başqa heç nə görünmürdü. Teylor üzünü digər tərəfə çevirib gözləri ilə ətrafda ona lazım olan şeyi axtardı. Ətrafda dolaşan polis və tibbi yardım işçilərinin ayaqları diqqətini yayındırır, fikrini toplamasına imkan vermirdi.

– Deyəsən, bunu axtarırsan, – Teylor başını qaldırdı. Əslən macar olan LAPD detektivi Kruger Selvek. Teylor və Hovard “NÖMRƏ BİRLƏR” əməliyyatından kənarlaşdırıldıqdan sonra işin başına gətirilmiş polis zabiti. O, əlində saxladığı gümüşü rəngli telefonu işarə edirdi, – haqlıyam, Frenk?

– Əla, Kruger. Burada nə işiniz var? – həmkarının əlini sıxan Teylor özü verdiyi sualın cavabını taparaq qaşlarını qaldırdı, – lənət! Yoxsa? Bu da?

– Aha. Piter Staric. 1987.02.09. The way you make me feel[38], – Selvekin simasında ironik gülüş meydana gəldi. Şahidlər partlamış adamın bir neçə maşının üstündən atlanaraq keçdiyini deyir. Sonra isə o, yerində bir neçə dəfə atlanıb. Partlayışdan bir neçə saniyə əvvəl isə telefonunu var gücü ilə uzağa atıb.

– Bu artıq neçənci, adamdır?

– Beşinci adam. İkisi qadın. Üçü kişi. Əvvəllər də kimsələr bu silsilənin qurbanı ola bilər.

– Telefondan bir şey öyrənə bildiniz?

[38] Ing – Sənin mənə hiss etdirmə üslubun.

– Aha. Pitərə son zəng etmiş adamlar Çaynataundandırlar. Məşhur “Yaşıl Əjdaha” bandasının mənzili.

– Qeyri-rəsmi silah və insan ticarəti ilə məşğul olan dəstə? – Teylor soruşdu, – Axı onlara qarşı əlimizdə heç nə yoxdur? İllərdir, biz order alıb ora girə bilmirik.

– Hə, Frenk. Amma artıq bizim rəsmi dəlilimiz var: zəng. Biz bu zəngin yerini müəyyən edə bilmişik. Telefon sahibi son üç günü Çaynataun[39] ərazisində hərəkət edib. İndi isə bu nömrəyə zəng çatmır. Hə, nə deyirsən?

– Ora nə vaxt gedirik?

[39] Chinatown – Amerikanın müxtəlif şəhərlərində olan, çinlilərin yaşadığı qəsəbə.

# 18



## 21 oktyabr 03:30

**Gecə vaxtı Çaynataunun özünə məxsus çıraqları yanmağa davam edirdi. Şəhərciyin içində isə hələ də oyaq olanların sayı az deyildi. LAPD SWAT-ı artıq "Yaşıl Əjdaha" bandasına məxsus dörd mərtəbəli binanı əhatəyə almışdı. Üzbəüz binalardan, üç tərəfdən snayperlər banda binasının pəncərələrini nəzarətə almışdı. Mülki polis işçiləri artıq bir neçə saat idi ki, Thien Hau Məbədi yaxınlığındakı binanın başına fırlanır, vəziyyəti qiymətləndirirdilər.**

– Binaya əsas üç blokdan giriş var. Bundan əlavə olaraq kənar tərəflərdən iki, arxadan isə bir gizli çıxış. Kənarların və əsas girişlərin hər biri snayperlərin nişanı altındadır. Kənar çıxışlardan biri avtomobil yoluna çıxır. Qaçmaq üçün ən ideal variant məhz elə bu yoldur. Arxa tərəfdə isə adamlarımız var, – SWAT leytenantı Snou binaya giriş planını son dəfə izah edirdi, – içəridə isə yüz iyirmidən artıq insan yaşayır. Bunların əlli-altmışı qadın və uşaqlardır. Onlara toxunulmayacaq. Aydındır, çavuş? – o, qulaqlıqla dinləyən adamdan müsbət cavab aldıqdan sonra

sözünə davam etdi, – ilk atəş açan tərəf biz olmamalıyıq. Silahlı mübarizəyə başlasaq, ən azı otuz nəfərlə atışmalı olacağıq. Bunun üçün də son dərəcədə diqqətli və səbirli olun, cənablar. Birinci dəstə əsas girişdən içəriyə daxil olacaq. Onların siqnalından sonra biz də öz işimizi görəcəyik. Ən əsası – telefondur. Ona bir şey olması bizim işlərimizin boşa çıxması deməkdir. Bəlkə də, bütün suallarımızın cavabı birinci blokun üçüncü mərtəbəsindəki telefondur. Banda başçısı Zinq Çenkin binada olub-olmaması ilə bağlı dəqiq məlumat yoxdur. Dəstənin yuxarı başda olan adamlarının saçlarının teli yaşıl rənglidir. Bununla onlar digər üzvlərdən fərqlənirlər. Çalışın, bu adamları sağ ələ keçirin. Bir daha təkrarlayıram, günahsız insanlara xələl gəlməməlidir. Bu qədər. Yeddi dəqiqəyə, 03:40-da əməliyyat başlayır. Uğurlar. Xətdən ayrılıram, – deyə Snou yolun kənarında dayanan tünd-göy rəngli "Toyota"nın arxa tərəfindəki sərnişinlərə baxdı, – detektiv Teylor, siz və ortağınızdan bu işə girişməməyiniz xahiş olunur. Bu işi professionalların öhdəsinə buraxın. Sözlərim sizə də aiddir, detektiv Hovard. Razılaşdıq?

– Əlbəttə, – ortaqların hər ikisi eyni anda cavab verdilər, ardınca isə Hovard əlavə etdi, – biz heç maşının pəncərəsindən bayıra baxmayacağıq. Bilmək olmaz, birdən güllə, filan gələr üstümüzə. Həmin halda maşınınızı sonra kimyəvi təmizləməyə aparmalı olarsınız.

– Qanınızı təmizləmək üçün? – Snou ələsalıcı bir səslə soruşdu.

– Hə, üstəlik mən altıma da batıra bilərəm, – Hovardın cavabından sonra leytenant verdiyi suala görə peşman oldu.

– Ümid edirəm ki, hər şey dediyiniz kimi olacaq. İndi isə məni bağışlayın, cənablar. Detektiv Selvek, bu iki cənabdan göz qulaq olun, – Snou sükan başındakı Selvekə göstərişlərini verərək maşından endi, digər tərəfdəki SWAT avtobusuna tərəf yollandı.

– İndi ümid edək ki, bu özündənrazı zırramalar bir işə yarasınlar. Frenk, işdir, vəziyyət pisləşdi, biz işə müdaxilə edirik. Razılaşdıq? – son sözü Hovard leytenant Snounun ağzını əyərək tələffüz etdi.

Üç dəqiqə sonra Snou öz xüsusi təyinatlı dəstəsi ilə zirehli formada, tam silahlanmış şəkildə LAPD avtobusundan çıxdılar. Mülki polislər həmin andaca perimetri qapadılar. Binanı dövrəyə alıb işi SWAT-ın öhdəsinə buraxdılar. Xüsusi təyinatlılar iki-üç nəfərlik dəstələrə bölünüb blok girişlərinin qarşısında yerlərini tutdular, əməliyyat operatorunun, – dəstə bir, başla! Başla! – deməsi ilə üç üzvdən ibarət Draqon Bir dəstəsi birinci bloka daxil oldu. İçəridə sakitlik hökm sürürdü. Dəstə üzvlərindən öndə hərəkət edəni iki barmaqla yuxarı qalxmağı işarə etdi, – üç, iki, bir! – operatorun gerisayımı ilə bina işıqları söndü, – doxsan saniyə sonra generator işə düşəcək, hərəkət edin Draqon Bir!

“Heckler & Koch UMP” markalı, 45ACP kalibrli avtomat silahların başındakı fənərlər və gecə görünüşünü təmin edən gözlüklərin köməyi ilə Draqon Bir pilləkənləri qalxmağa başladı. Ətraf çox təmiz

və sakit görünürdü. İşığın sönməsindən sonra bəzi qapılardan ayaq səsləri və qısa dialoqlar eşidilirdi. Bu vaxt da oyaq olanlar, şübhəsiz, az deyildi. Belə təhlükəli insanlar üçün gecə-gündüz fərqi bir o qədər də önəm kəsb etmirdi. İlkin tapşırıq olaraq telefon ələ keçirilməli, sonra isə "Yaşıl Əjdaha" üzləri ilə məşğul olmaq lazım idi. Əyalət prokuroruna telefondan gələn siqnal dəlil olaraq təqdim olunmuş və binaya girmək üçün order alınmışdı. İndi isə dəstə üçüncü mərtəbəyə çatmışdı. İçəridən hələ də danışıq səsləri gəlirdi. Yarı ingilis, yarı Kantonos[40] çincəsində üç-dörd nəfər işıqların sönməsi barədə mübahisə edirdi. İki nəfər qapının kənarlarında dayandılar. Soldakı barmağı ilə üçə qədər saydı. Üç göstərilən kimi ortadakı xüsusi təyinatlı qapıya təpik vuraraq kənara çəkildi.

– LAPD! Heç kəs yerindən tərpənməsin! – soldakı xüsusi təyinatlı qışqırdı, – hamı yerə! Yerə! – o, silahın başındakı fənərlə ətrafa göz gəzdirdi. Otaqdakı üç nəfərin hamısı hərəkət etmədən onlara baxdılar. Onların ikisi divanda oturmuşdu, biri isə qapısı açıq soyuducunun yanında donub qalmışdı. Girişə paralel yerləşən mətbəx otaqdan bir metr iyirmi santimetrlik taxta barla ayrılırdı. Çinlilərin hərəkət etmədiyini görən xüsusi təyinatlılardan digəri bağırdı, – hamı yerə, lənətə gələsi axmaqlar! Axırıncı dəfə deyirəm!

Bu sözün ardınca soyuducun yanındakı çinli başı kəsilmiş tüfəngi soyuducu qapısının arxasından çıxarıb onlara tərəf atəş açdı. Xüsusi təyinatlılar cəld

---

[40] Çinin şimalında Cantonose vilayətində danışılan ən yayğın dillərdən biri.

ayrıldılar. Onların biri kreslonun arxasına atıldı, ikincisi soyuducu tərəfə atəş aça-aça yerə uzandı. Çinli qorunmaq üçün soyuducu qapısının arxasına keçdi, güllələr mətbəx şkaflarına tuş gəldi. Digər iki çinli geriyə çəkilərək divanın arxasında yer tutdular. Sonuncu xüsusi təyinatlı qapıdan bayıra çıxdı, kəmərinə bağlı işıq bombasını dartaraq ağzını açdı, var gücü ilə onu divan tərəf vızıllatdı.

– Lənət! Orada nə baş verir? Draqon Bir! Cavab ver, nə baş verir?

– Operator! Onlar bizim bura gələcəyimizdən xəbərdar idilər! – kreslonun yanındakı polis qulaqlığa çığırdı. Divan arxasındakı çinlilər avtomat "Uzi" və "Makarov" tapançasından onu atəşə tutmuşdular. İşıqların yanması ilə vəziyyət daha da gərginləşdi. Artıq rəqiblər də ətrafı daha rahat görə bilirdilər. Xüsusi təyinatlı silahını kreslo üstündən çıxararaq baxmadan darağı bütünlüklə divan tərəfdəkilərin üstünə boşaltdı. Sonra isə "Beretta 92" seriyalı tapançasını çıxardı. İşıq yandıqdan sonra işə düşmüş mikrodalğalı sobaya atəş açdı. Kiçik partlayışdan sonra soyuducu yanındakı banda üzvü tarazlığı itirib yerə yıxıldı. Yerə uzanan xüsusi təyinatlı onunla açıq mətbəx arası məsafəni hesabladı. Üç metrdən bir az artıq yol, ancaq o, həmən tərəfə qaçsa, digər iki nəfərin açıq hədəfinə çevriləcəkdi.

– Cek! Qoru məni! – o, həmkarına səsləndi. Cek atəş açan kimi yerindən təkan verərək mətbəx tərəfə qaçdı. Hərəkət zamanı atdığı güllələrdən bir neçəsi özündən sağda olan banda üzvlərindən birinə dəydi.

Mətbəxə çatdı, avtomatın arxasıyla soyuducun yanında uzanan bihuş adamın sinəsindən vurub onu zərərsizləşdirdi.

– Ay sizin ananızı! – tək qalmış banda üzvü ölmüş yoldaşının tapançasını götürdü, hər iki silahla eyni anda atəş açdı, – ananızı! – qışqırdı. Gülləsləri bitdikdən sonra qaçmaq istəsə də, kreslo yanındakı polis onu aradan götürdü.

– Gəlirlər! Gəlirlər! – bayırdakı dəstə üzvünün dəhşətli atəş sədalarında səsi eşidildi, – gizlənin! – qışqırdı, içəri keçdi. Onların hər üçü mətbəxdəki masanı aşırdıb arxasına sığındılar. Üzbəüz girişdən əllərində "Uzi" içəri daha dörd nəfər daxil oldu, – operator, bizə dəstək lazımdır! – Cek adlı xüsusi təyinatlı qulaqlığa qışqırdı. Masa bu cür atəş gücünə uzun vaxt tab gətirə bilməyəcəkdi. Cek Noks yoldaşlarına baxdı. Onlardan biri sağ çiynindən yaralanmışdı, ancaq başını yelləyərək Noksa hər şeyin qaydasında olduğunu işarə etdi. O, sürətli şəkildə vaxt qazanmaq üçün beynində taktika qurmağa başladı. Həmkarları cavab atəşi açsalar da, bir müddət sonra gülləsləri bitəcəkdi. Ona görə də çıxış yolu tapmaq lazım idi.

– Neil, Mak! Mən üç deyəndə masanı itələyib bara söykəyirik! – o, əl bombasını çıxardı, baxmadan girişə tərəf atdı. Yaşıl Əjdahalar təlaş içində ətrafa dağılışdılar, – üç! – onlar var gücləri ilə masanı qabağa itələyərək bara çırpdılar.

Banq!

Girişin ətrafının bir hissəsi uçulmuşdu. Qapı isə çərçivəsindən çıxaraq divara yapışmışdı. Tavandakı

lampa xıncım-xıncım olub ətrafa səpələnmişdi. Havada əmələ gələn toz qatı səbəbindən göz gözü görmürdü. Xüsusi təyinatlılar öz gözlüklərini termogörüntü moduna[41] çevirib başlarını barın üstündən qaldırdılar. Noks toz içərisində gözlüyün köməyi ilə ağ rəngdə əks olunan, qımıldayan bədəni tapdı. Onu aradan götürüb digər başını tutaraq yellənən adamı vurdu. Qəfildən gözlüyünün üstünə nəsə yapışdı. Gözlüyü üzündən götürüb ləkənin həmkarının qanı olduğunu anladı. Güllə onun boğazına tuş gəlmişdi. Noks əyildi, əli ilə həmkarının boğazını sıxdı.

– Hər şey yaxşı olacaq, tərpənmə, Roman. Sıx buranı, – o, həmkarının əlini yaranın üstünə gətirdi, – tərpənmə. Bir azdan pivə içməyə gedəcəyik.

– Cek, dördü də hazırdır. Buradan getmək lazımdır. Gəl yataq otağına çəkilək. Oradan daha rahat müdafiə oluna bilərik, – digər xüsusi təyinatlı dedi, – mənim güllən də bitib, demək olar. Üstəlik telefon da orada olmalıdır.

– Haqlısan. Gəl, kömək elə.

Onlar Romanın çiyinlərindən tutaraq yavaşca qaldırdılar. Noks iş yoldaşının nəfəsindəki əziyyəti, yorğunluğu hiss edirdi. Onlar tələsmədən yataq otağının qapısına çatdılar. Hər ani hərəkətdə yaralı xüsusi təyinatlı qan qusur, titrəyirdi. Noks sağ əli ilə yavaşca qapını açdı. İçəri addım atdı, qeyri-ixtiyari arxasındakı divara yapışdı. Sanki divar onu cəzb edirdi. Sanki o və divar əks-maqnit qütbləri idilər.

---

41 Bədən temperaturunun köməyi ilə qaranlıqda və dumanlı yerlərdə obyektlərin müəyyən edən görüntü modu.

Beli divara toxunarkən fərqli, acıverici hislər yaşadı. Ağrıdan gözlərini yummağa çalışsa da, özündə bu qüvvəti tapmadı. Bütün qüvvəsini toplayaraq bulanan gözlərinin qarşısına baxdı. Yaşıl rəng, parıldayan boya yaşılı. Qəribə bir döymə və tüfəng.

"Yaşıl Əjdaha" bandasının aparıcı üzvlərindən birinin qəhvəyi tüfəngindən açdığı atəş Noksun daxili orqanlarını məhv etmişdi. Onun gözləri isə hadisələri sanki zəif kadrla birtəhər təqib edirdi. Digər dəstə üzvü Breman Romanı divara söykəyərək cəld otağa girdi. Tüfəngin lüləsindən yapışıb onu yuxarı qaldırdı. Növbəti atəş tavana dəydi. Qırıntılar onların üstünə töküldü. Breman çevik həmlə ilə yaşıl tellinin arxasına keçdi, iki əllə tüfəngdən yapışıb rəqibini boğmağa başladı. Sonra isə dirsəklə arteriyadan vurub onu passiv hala gətirdi. Çinlini yatağın üstünə itələdi, cəld Noksun yanına tələsdi. Noks isə rahatlayaraq gözlərini yumdu və əbədiyyən bu dünyanı tərk etdi.

– Heç nə anlamıram. Burada nələr baş verir? – Selvek operatorla əlaqə saxlamağa çalışırdı, – cavab verin! Snou, eşidirsiniz məni? Snou. Snou. Snou.

– Aç lənətə gəlmiş qapını, Selvek! Son dəfə deyirəm, aç! – Hovard qəzəb içərisində yanırdı.

– Yox, Endi. Mən qəti təlimat almışam.

– Təlimatına ...! Sındırıram. Bax, son dəfə deyirəm.

– Endi, gözlə, – Teylor da əsəbi idi, fəqət onları cilovlaya bilirdi. – bir şey öyrənə bildin?

– Tam yox, amma hər tərəfdən bizimkiləri atəşə tutublar. Azı dörd nəfər itirmişik. İndi atışma davam edir.

– Elə bil ki biz bunu eşidirdik, amma yenə de təşəkkürlər, Selvek. Davam elə, – Hovard burnunu çəkdi.

– Draqon Bir elə indicə telefonu tapıb. Maraqlısı odur ki, telefon çarpayının altından tapılıb. Səssiz rejimdə. Deyəsən, onlar telefonu gizlədib dəlili yoxa çıxarmaq istəyiblər.

– Fuc... – Hovard sözünü sona çatdıra bilmədi, – Frenk, başa düşdün?

– Aha. Bəs onlar bizim gələcəyimizi haradan bilirdilər? Bu adam iki quşu bir daşla vurur. Lənət!

– Uşaqlar, siz nə haqqında danışırsınız? – Selvekin üzündə yağlı şriftlə sual əks olunurdu.

– Yaşıl Əjdahanın bugünkü partlayışla heç bir əlaqəsi yoxdur.

– Bəs onda, niyə bizə müqavimət göstərirlər? Sizdə paranoya var deyəsən, uşaqlar. Bizim gələcəyimizi də bilirdilər.

– Axmaq! Onda biz paranoiklərə cavab ver, niyə telefonu yoxa çıxartmırdılar? Onu parçalayıb unitaza töksələr, heç nə tapa bilməyəcəkdik. Yəni fiasko. Sıfır dəlil! – Hovard qarşısındakı oturacağa yumruq vurdu, – aydın oldu, sağlam düşüncəli, detektiv?

İnkar əlaməti olaraq baş yelləmə.

– Onda qapını aç, hər şey aydın olacaq.

– Yox, Endi!

Bu vaxt, sürətlə hərəkət edən yaşıl rəngli sedan onlardan bir az aralıda olan LAPD avtobusunun yanında tormozlandı. Oradan birinin teli yaşıl olmaqla dörd nəfər endi. Əllərindəki silahlarla avtobus sürücüsü-

nü atəşə tutdular, bütünlükdə avtobusu güllələməyə başladılar. Onların bu işi görməkdə əsas məqsədi operatorları aradan götürərək dəstələr arasında əlaqəni kəsmək idi.

– Bəlkə, bu zibili açasan? – detektivlər eyni anda qışqırdılar.

– Baqajdakıları götürün, – deyərək Selvek qapıları açdı.

Endi Hovard qapaqdakı oturacağı aşağı salaraq onun üstünə çıxdı. Sonra isə öz oturacağını endirib baqajdan “Remington 870” modelli tüfəngi Teylora uzatdı, özü ilə Selvek üçün isə “Heckler & Koch UMP”ları götürdü. Teylor cəld maşından endi, sol gözünü yumub nəfəsini tutdu. Ona ən yaxın olan banda üzvünü nişan aldı. Təpinməni nəzər alıb hədəfdən yayınmamaq lazım idi. Bəs hədəf olaraq haranı götürsə uğur qazana bilərdi? Haradasa aralarında otuz beş metr məsafə vardı. Ən optimal hədəf – bel hissəsi.

*Üç. İki. Bir.*

Teylorun atışından sonra çinli dizlərinin üstünə çökdü. Selveklə Hovard atəş açaraq növbəti banda üzvünü aradan götürdülər. Çinlilər cavab atəşi açdılar, detektivlər “Toyota”nı özlərinə sipər etdilər. Hovard avtomatını qırağa atıb “Glock”unu çıxardı. Çiyni üstə uzanıb üçüncü çinlini vurdu. Bu an yaralı operator avtobusun qapısını açıb yaşıl sedana güllə atmağa başladı. Sağ qalmış son, yaşıl telli banda üzvü sedanın arxasına oturaraq sürücüyə sürməsini əmr etdi.

– Lənət! Onlar qaçmamalıdır!

– Haqlısan, Endi. Getdik.

– Yox, Selvek. Açarları bizə ver. Sən isə operatorlara kömək elə, – Hovard açarları ondan alıb Teylora atdı, – sən sükandasan.

Onlar maşına minib zərbə ilə qapıları çırpdılar. Teylor transmitteri geriyə ötürüb ayağını qaza basdı. Sürətlə yüz səksən dərəcə dönüb yaşıl sedanın arxasınca şığıdı. O, maşınları növbə ilə ötdü, S hərfinə bənzər manevrlə yolda hərəkətsiz dayanmış "GMC" və "Buick"ın arasından keçdi. Görünür, bu maşınlar sedan üzündən yolda qalmışdılar. Aradakı məsafə artıq iyirmi metrdən də az idi.

– Bu, lənətə gələsiləri tutmaq lazımdır. Sağ, Frenk! Sağ.

Teylor sürətin bir az da artıraraq irəli bamperlə sedanı vurdu. Sedanın arxa şüşəsindən yaşıl tellinin başının necə qapıya dəydiyi görünürdü. O, qəzəblənərək avtomatı ilə arxa şüşəni sındırıb onları nişan aldı. Bütün səsi ilə bağıraraq tətiyi sıxdı. Detektivlər əyildilər. Ardı arası kəsilməyən güllələr salona daxil olurdular. Şüşə qırıntıları salona dolurdu.

– Mənim gülləm qurtarıb.

– Götür, – deyərək Teylor tapançasını Hovarda uzatdı, – tələsmə, Endi. Mən lənətə gəlmiş sedanı vuran kimi atəş aç, lakin o bizə sağ lazımdır, – cavabında detektiv başını yellədi. Teylor qazı sıxdı. "Toyota Camry" sedana çırpıldı. Toqquşma o qədər güclü oldu ki, sedanın bamperi qoparaq yerə, "Toyota"nın təkərlərinin altına düşdü. Bamperin üstündən tullanan maşın növbəti dəfə sedana çırpıldı. Hovard birtəhər müvazinətini saxlayıb başını qaldırdı. Silahını

salmış yaşıl telli təlaş içərisində salonu eşələyirdi. Hovard sürücü tərəfə atəş açdı. Bir neçə cəhddən sonra o hədəfi yaxaladı. Sedanın sürəti tədricən azaldı. Arxadan polis sirenlərinin də səsləri eşidilirdi. Yolun sonuna gəldiyini anlayan banda nümayəndəsinin sakitcə təslim olmaqdan başqa çıxış yolu qalmamışdı.

Hovard maşından endi, əlini sedanın pəncərəsindən irəli salıb çinlinin yaşıl telindən yapışdı. Onu dartaraq pəncərədən çıxardı, üzünü asfalta çırpdı, – xoşuna gəlir, alçaq? Hə? – daha bir neçə zərbədən sonra Teylor çinlini onun əlindən almağa çalışdı, – burax məni, Frenk! Burax! Bundan onsuz da bir xeyir gəlməyəcək. Burax!

– Sakitləş, Endi! Dayan. Hələ ondan öyrənə biləcəyimiz şeylər var. Sakitləş. Özünü ələ al.

Hovardı saxlamağa çalışan Teylor səmaya baxdı. İndi onu bircə dənə sual düşündürürdü. Bəlkə, bu sualın cavabını bilirdi, bəlkə də yox, fəqət cavabla bərabər gələcək olan nəticələr onu qorxuzurdu.

Bu səhər açılana qədər daha nələr baş verəcəkdi?

SWAT snayperləri bir-birləri ilə operativ əlaqə saxlayırdılar. İndi onlarla pəncərə onların nəzarəti altındaydı. Optik termonişangah pəncərə qarşısından keçən hər bir banda üzvünü yerindəcə aradan götürürdü. Bu üsulla artıq on üç nəfər yaralanmış və yaxud da öldürülmüşdü.

– Uşaqlar, on dördüncü, – sol küncdən binanı gözətləyən snayper gülümsədi, – möhtəşəm atış idi. Gördün, Slev? Bu birisini sən həll elə. Bax, dördüncü mərtəbə mən tərəf. On dollara mərcləşərəm ki, onu

yaralaya bilməyəcəksən. Uzaqbaşı öldürə bilərsən. Göstər şounu, dostum. Bax, on dollar, – deyərək snayper yanındakı energetik içkisindən bir qurtum vurdu. Binanın içərisindəki atışma səsləri onun qulaqlarına rahatlıqla çatırdı. Snayper bitmiş içkisini yerləşdiyi binadan aşağıya atdı, – Slev, bir az tez ol da. Artıq yoruluram. Sənin üzündən ekologiyanı da kirlətdim, – cavabında səssizlik. Növbəti bir cəhd və yenə də sükut. Snayper bir neçə söyüş söyərək nişangahını həmkarı tərəfə döndərdi, – itin balası, yatmısan? Tez ol! – o, snayperlə digər binanın başına baxdı, həmkarı orada hərəkətsiz şəkildə uzanmışdı, ancaq onun silahı əlində deyildi. Bəs onda snayper hanı? Bu sualın cavabı özünü çox gözlətmədi. Snayper qırmızı lazer işığını gördü, sonra isə sarı qığılcım, əks-səda ilə havaya yayılan səs və qaranlıq.

– Bu nədir axı? – banda üzvünün yaşıl telindən yapışan Snou çığırdı, – Çenk, hanı? – cavab almayan leytenant yumruğunu onun dodaqlarının üstünə otuzdurdu. Son bir neçə dəqiqədə artıq bir neçə xüsusi təyinatlı snayperlər tərəfindən öldürülmüşdü, – Mənə Çenkin harada olduğunu deyəcəksən!

– Ananın arxasındadır! Get bax! – çinli güldü, fəqət növbəti yumruqdan sonra yaşıl teli qana bulaşdı.

– Leytenant, snayper hərəkət etməyimizə izn vermir. Əmrlərinizi gözləyirik.

– Operatorlarla əlaqə yarada bildiniz? – Snou əsəbindən zəncir çeynəyirdi, – lənətə gəlmiş snayperi oradan yığışdırmaq lazımdır!

– Ser, əlaqə yarada bilmirik. Siqnal çatmır.

– Kimin yanında mobil var? – Snou soruşdu.

– Ser, siz telefona qadağa qoymuşdunuz keçən ay, – çavuş çiyinlərini tərpətdi.

– Offf, yekə eşşəklər, niyə mənim sözümə qulaq asırsınız axı? Niyə gizli şəkildə qaydanı pozmursunuz?

– Leytenant, – snayperi tapmağa çalışan digər iki xüsusi təyinatlıdan biri telefonunu ona tərəf atdı, – söz verin ki, maaşımdan kəsməyəcəksiniz.

– Buradan çıxsaq, maaşını əlavəli alacaqsan, Ablou, – Snou telefonu tutaraq cəld Selvekin nömrəsini yığdı, bir neçə dəfə siqnal səsi eşidildi və telefon açıldı. O, detektivə ağzını açmağa imkan vermədi, qışqıraraq, – Selvek, bu lənətə gələsi snayperi oradan götürün!

– Leytenant, binaya polislər girə bilmirlər. Sakinlər imkan vermirlər. Orada xaos baş alıb. Onlar qaçırlar. İnsanlar qorxurlar.

– Lənət! Alçaqlar öz evlərini dağıdırlar. Çinlilər havalanırlar, deyəsən.

– Deyəsəni at bir qırağa! Qulaq as, leytenant, onlar sizi pusquya salacaqlar, – bu səs başqasına məxsus idi, – onlar bizim texnologiyanı sıradan çıxarıblar. Operator avtobusu biabırçı gündədir.

– Sən bəs kimsən?

– Maşından çıxmağıma qadağa qoyduğun detektiv, leytenant.

– Hovard? Nə çərənləyirsən? Kömək elə bizə!

– Qadağanı götür, sonra.

– Götürürəm, tez ol, axmaq!

– Baş üstə, leytenant. İkinci SWAT yoldadır. Ətrafdakı üç məhəllə polislər tərəfindən bağlanıb. Sən bayırdakı səsləri eşitmirsən? – Hovard leytenantın güllə səslərini daha yaxşı eşitməsi üçün telefonu qulağından çəkib havaya tutdu, – aydın oldu? İndi isə, leytenant, sizin arxanızdakı divardan sürpriz gələ bilər. Məncə, dərhal hazırlaşın.

– Nə demək istəyirsən, Hovard?

– Termoradar salamat qalıb və sizin olduğunuz divarın arxasında üç dənə nöqtə parlayır. Elə qabaqdan gələn iki dənəni demirəm. Oy, elə snayper də var. Unutmuşdum. İndi isə sən Selveklə söhbətinə davam elə. Mən isə görüm, sənin dalını necə xilas etmək olar.

– Nə cürətlə! – Snou əsəbindən tomat pastası rəngi aldı, maskasını dartıb yerə çırpdı. Əlini kəmərindəki qaz bombasına gətirdi. Əgər, snayper termorejimdə işləmirdisə, onların buradan çıxmaq üçün beş-on saniyə vaxtları olardı. Risk etməyin vaxtı gəlib çatmışdı.

Teylor atışma olan binanın arxa tərəfi ilə səssizcə hərəkət edirdi. Tapançası əlində hazır vəziyyətdə idi, ancaq binanın arxa hissəsi onların snayperinin nəzarəti altında olduğundan bu bir o qədər də gərək deyildi. Amma əlavə sığortadan xələl gəlməzdi. Teylor binanın yanından döndü. Artıq çinli snayper olan bina ilə üz-üzə dayanmışdı. Binanın kənarından çıxsa, snayper ona diqqət yetirə bilərdi. Nəticə isə yaxşı olmazdı. Buna görə də o, ortağı Endi Hovardla danışdıqları plan üzrə siqnalı gözlədi. Saatına baxdı. Çox az vaxt qalmışdı. İndi planlarının birinci mərhələsi başa çatacaqdı.

*Dörd. Üç. İki. Bir.*

Bina tərəfə Endi Hovard tərəfindən bir neçə dəfə atəş açıldı. Belə məsafədən snayperi aradan qaldırmaq möcüzə olardı, ancaq bu gedişat Teylora bir neçə çox dəyərli saniyə qazandıra bilərdi. Ayaqlarını yerdən götürərək bəbirtək irəliyə şığıdı. Binanın altına snayperin onu görməyəcəyi yerə çatdı, tapançanın arxası ilə pəncərəni sındırdı. Qəribə şərq qoxusu gələn mətbəxə daxil oldu. Evdə heç kəs yox idi. O, açıq qalmış qapıdan bloka çıxdı. Atışma səbəbindən bayıra qaçanlar vardı, lakin bəzi ailələr övladları üçün qorxur və bloku tərk etmirdilər. Teylor yanlarından keçərək yuxarı qalxdı, qəfildən kim isə onun şalvarından yapışdı.

– Orada, iki əmi var. Əllərində də oyuncaq, – pilləkənlərdə oturan üç-dörd yaşlı hörüklü qız dedi.

Teylor gülümsəyib yoluna davam etdi. Beşinci mərtəbəyə çatdı, başını pilləkənlərin yanından çıxardı, dama açılan qapının yanında birinin teli yaşıl olmaqla iki nəfər dayanmışdı. Teylorun əynində isə heç gülləkeçirməz jilet belə yox idi. Əlini cibinə atıb işinə yarayacaq bir şey axtardı. Metal pulları çıxardı. Əlli sentlik qəpiyi banda üzvləri tərəfə atdı.

– O, nədir elə? – yaşıl telli təəccübləndi, – eşitdin?

Yox və çincə bir neçə söz. Teylor növbəti qəpiklə dəmir məhəccəri döydü.

– Demə ki, bunu da eşitmədin? – get bax ora.

Arıq gövdəli çinli ağır addımlarla pilləkənləri enib səs gələn tərəfə yaxınlaşdı. Sürəti çəkisi ilə üst-üstə düşmürdü. Teylor çinlinin kölgəsini görən kimi ayaq-

ları istiqamətində atəş açdı, sol əli ilə onun boynundan yapışdı, yüz səksən dərəcə döndərib özü üçün sipər etdi. Yaşıl telli tapançasını qaldırıb bir neçə saniyə ona baxdı. Teylor da əks-hücum üçün hazır vəziyyəti almışdı. İndi səhv bir hərəkət sonla nəticələnəcəkdi. Ona görə də Teylor çox düşünmədən tətiyi sıxdı. Yaşıl tellinin də cavabı özünü çox gözlətmədi. Onun silahının lüləsindən çıxan güllələr Teylorun qarşısındakı çinlinin sinəsinə tuş gəldilər. Detektiv isə hədəfdən yayınmamışdı, Aldığı üç gullədən sonra yaşıl telli bir neçə dəfə hara gəldi atəş açıb yerə yıxıldı. Teylor əlində saxladığı əsən çinlini yerə uzatdı. Qanın yaxşı işləməsi üçün ayaqlarını pilləkənin üstünə qoydu. Yuxarı qalxdı, damın qapısından ora keçdi, xüsusi təyinatlılar tərəfə güllə atan çinlinin başının üstünə çatdı. Tapançanı onun boynuna dirəyib pıçıldadı.

– Sürpriz.



# 19

## 21 oktyabr 06:11

**Detektiv Teylor "Homosid" – şöbə müdirinin adı yazılmış qapıya baxırdı. Artıq yarım saatdan artıq idi ki, o və ortağı SWAT leytenantı Snou və detektiv Selvekin Cessika Murun kabinetindən çıxmasını gözləyirdilər. Bəlkə də, onların polis kimi karyeralarının aqibəti indi həmin bağlı divarlar arasında həll olunurdu. Teylor etiraf etmək istəməsə də, çox qorxurdu. İşini sevirdi və indi bu qədər problemin arasında onu itirməyi heç arzulamırdı. Üzünü çevirib ortağına baxdı.**

– İndi Tvitter vaxtıdır, gic-gicə?

– Səs salma, – Hovard sakit tonla gözünü displeydən çəkmədən cavab verdi, – Nurlan yazır ki, təcili mailimi yoxlayım. Nəsə çox vacib xəbəri var.

– Öyrən gör, nə imiş.

– Nəsə telefonum donur. Deyəsən, atışmanın təsirindən hələ çıxa bilməyib. İndi özünə gələr.

Qapı açıldı. Səssiz şəkildə iki nəfər bayıra çıxdılar, kədərli gözlərlə detektivlərə baxdılar. Snou yaxınlaşaraq hər ikisinin əlini sıxdı, – uşaqlar, bu qancıq,

deyəsən, sizin torbanızı çoxdan tikib. Bu gün isə son düyünü vuracaq.

– Lənət, deyəsən! – Hovard özündən çıxdı, – Frenk, mən təcili Stivensə zəng eləməliyəm.

– Axı Cess bizi gözləyir. Nə olub?

– Məni yola ver, – deyərək Hovard onların yanından uzaqlaşdı, – soruşsa, de ki, bərk qarnım ağrıyırdı. Ya da de ki, Selvekin maşınını təmizləyir.

– Ona nəsə olub? – Selvek çiyinlərini tərpətdi.

– Bir az əsəbidir. Fikir eləyir.

– Nə isə, Frenk. Biz gedək, bu yaşılbaşların ifadəsini alaq. Uğurlar. Özünə yaxşı bax.

– Təşəkkürlər. İmkan olsa, baxaram.

Teylor onların hər ikisinin əlini yenidən sıxıb içəri keçdi. Onun müdirinin üzü şişmiş və qırmızı rəng almışdı. Yanaqları partlamağa hazırlaşan vulkanı xatırladırdı. Gözləri əsəbdən parlayır, dodağının kənarları titrəyirdi. Cessika Mur sinir krizisinin astanasında dayanmışdı.

– Açıqlamağıma izn ver.

– Açıqlama? Sən nə dedin? – Murun danışığından Teylor vəziyyətin nə durumda olduğunu anladı, – sənin axmaq ortağın hanı?

– O...

– Nə o? O, indi haranı dağıtmaqla məşğuldur?

– Vəziyyəti yaxşı deyil, – fasilə verdikdən sonra o, cümləsini bitirdi, – özünü yaman pis hiss edir.

– Onsuz da, sizi nə qədər az görsəm, yaxşıdır. İndi isə cavab ver, sizin orada nə işiniz vardı? Ümumiyyətlə, partlayış zamanı orada nə qələt eləyirdiniz?

– Biz kafelərdən birində idik, – Teylor yalan danışmasa da, Murun üz ifadəsindən ona inanmadığını anladı, – həqiqətən, bir nəfərlə görüşmüşdük.

– Nə barəsində? – müdir ağzından tüpürcək əvəzinə sanki alov yağırdı. Artıq o, lava püskürən vulkana dönürdü.

– Bu, şəxsi məsələdir, Cess.

– Bunu keçdik. Partlayış yerində nə edirdiniz?

– Deməli, biz kafedən çıxanda uzun tıxacı gördük. Hadisə yerinə getməyə qərar verdik. Sonra isə təsadüf nəticəsində baş verənlərdən xəbər tutduq.

– Frenk, sən mənə nağıl danışırsan? Hə, bəs sonra nə oldu?

– Sonra biz telefondan xəbər tutduq və Selvekə dəstək olmaq qərarına gəldik.

– Sizə bu ixtiyarı kim verib axı? Özbaşınalığınızın nəticəsi bildiniz nə oldu? Dörd xüsusi təyinatlı ölü biz tərəfdən. Altı yaralı. Çinin əhalisinin sayında isə kifayət qədər demoqrafik geriləmə var. İndi mənə sizə bu ixtiyarı kimin verdiyini de!

– Cess.

– Mənə cavab ver, Frenk!

– Özbaşınalığımızın nəticəsi ən azı beş xüsusi təyinatlını xilas etdi, yaxaladığımız çinlilərin sayından isə danışmıram, – cavab Hovarddan gəldi.

– Bu, nə danışıqdır belə, Hovard?

– Evdə qalmış, kişi axtaran biri ilə ancaq belə danışmaq olar.

– Sən həddini aşırsan!

– Mən həddimi aşıram? Mən? Bəlkə, son bir ayda mən və Frenk qədər heç bir polis həyat xilas etməyib. Sən isə bir "çox sağ olun" belə demirdin. Əvəzində isə ağzını açıb gözlərini yumurdun! Qoy deyim ki, mən səndən incimirəm. İnsan üçün dəyərli biri olmayanda nəticə belə olur. Mən səni bağışlayıram, bəs sən, Frenk?

– Mən, – Teylor bir saniyəliyinə fikrə getdi, sonra isə gülümsəyərək dedi, – mən də səni bağışlayıram, Cess.

– Siz, iki axmaq! – Mur əlini masasının üstündəki klaviaturaya çırpdı, arxasını detektivlərə çevirib səsli tərzdə nəfəs almağa başladı, saçlarını tutaraq heykəltək qarşısındakı lövhəyə baxdı.

– Endi, sən bizi pis vəziyyətə saldın, – Teylor pıçıldadı, – bu ifritə indi partlayacaq.

– Mənə inan, Frenki. Hər şey nəzarətim altındadır.

– Sən hər şeyə haranla nəzarət edirsən, mənə çox maraqlıdır.

– Stivens ilə danışdım. Çox maraqlı irəliləyiş var.

– Endi, o söhbətin bununla nə əlaqəsi var axı?

– Sən demə, az-maz var imiş əslində.

– Heç nə anlamır, – Teylor cümləsini bitirməyə macal tapmadı.

– Bu qədər kifayətdir, – Mur üzünü yenidən onlara çevirdi, – keçən dəfə bunu etməliydim, amma gec olması heç vaxt olmamasından daha yaxşıdır. Mən artıq öz idarəmdə iki axmağın hər şeyi məhv etməsinə dözən deyiləm. Bu gündən sən, Frenk Teylor, – o, baş barmağıyla Teyloru işarə etdi, ardınca isə onu Hovar-

da tuşladı, – və sən, alçaq Endi, Endi Hovard! Sizi rəsmən Los-Anceles Polis Departamentində tutduğunuz detektiv vəzifəsindən azad edirəm.

– Cess! – Teylor özünü saxlaya bilmədi.

– Susun və nişanınızla tapançanızı təhvil verin.

– Cess, bunu edə bilməzsən. Axı. . .

– Axı-filan eşitmək istəmirəm. İtilin gözümün qabağından!

Onlar heç nə demədən qapıya tərəf döndülər. Bu an qəfildən Murun iş nömrəsinə zəng gəldi. O, qəzəblə dəstəyi götürüb qulağına çırpdı, – alo, Mur eşidir. Bəli? Kim? Stivens? – otaqdan çıxmağa hazırlaşan cütlük ayaq saxladı, Endi Hovard hiyləgərcəsinə gülümsədi, – mən başa düşmürəm, agent Stivens. Axı bu, kimin göstərişidir belə? – artıq zəngin məqsədini başa düşməsə də, Teyloru da gülmək tutmuşdu. O, birtəhər özünü ələ alıb söhbətin davamına qulaq asdı, – axı?! Bəli, başa düşürəm. Aydındır, – deyərək Mur dəstəyi yerinə qoydu, barmağını dişlədi, qəhvə fincanını başına çəkib detektivlərə dedi, – ey, siz!

– Bizimləsən, Cess? – üzündə çiçəklər açan Hovard soruşdu.

– Hə, bir müddətlik vəzifənizin başına qayıdırsınız, təəssüf ki.

– Biz? – Hovard gözlərini bərəltdi, əslində isə vəziyyətin belə nəticələnəcəyindən xəbərdar idi.

– Əyalət Prokurorunun əmri ilə siz ikiniz “NÖMRƏ BİRLƏR” əməliyyatının başına gətirilirsiniz və bilavasitə agent Stivens adlanan birinə tabesiniz.

– Əyalət Prokuroru? Agent kim? – Hovard oskara layiq performansını davam etdirirdi.

– Lənət, Endi. Bilmirəm. Dedi, özü sizinlə əlaqə saxlayacaq. İndi isə gözümün önündən rədd olun.

– Necə arzu edirsən, Cess.

Şöbə müdirinin qapısı örtülən kimi Hovard qəhqəhə çəkdi.

– Frenk, indi öləcəyəm. Onun üzünü gördün? – özünü saxlaya bilmirdi.

– Hə, amma necə? Stivens ilə nə danışdın?

– Hər şeyi izah edərəm, – gülməkdən yaşarmış gözlərini silən Hovard dedi, – onu deyə bilərəm ki, Nurlan bizi xilas elədi.

– Amma necə?

– Mənə tvit ataraq mailimi yoxlamağımı demişdi, belə də etdim və Çarlz Neş barəsində maraqlı məlumat öyrəndim.

– Onun bu işlə nə əlaqəsi var? – Teylor çiyinlərini tərpətdi.

– Səksən ikinci il, beşinci ayın beşi.

– Billie Jean? – Teylor bu tarixin "NÖMRƏ BİRLƏR"dən birinə uyğun olduğunu başa düşdü və ağlına gələn ilk nömrə birin adını çəkdi.

– Yox, Frenk. Beat it. Yəni ki, Neş "NÖMRƏ BİRLƏR"dən biridir. Buradan isə ağlıma gələn ilk şey bilirsən, nə oldu?

– Biz axmağıq.

– Eyni ilə, Frenk. Axı belə bir şeyi necə gözdən qaçıra bilərdik. İnanılmaz bir xəta. Nurlan qədər də olmadıq. Uşaq Neş haqqında internetdə məlumat oxu-

yub və doğum tarixindən hər şeyi anlayıb. Biz isə? Bu uşaq dahidir, Frenk.

– Gərək, onunla görüşək, – Teylor içini çəkdi, – indi yenidən əməliyyatın başındayıq. Sırada nə var?

– Yaşıl çinliləri sorğulamalıyıq. Sonra isə görək nə olur.

– Yorulmuşam, Endi.

– İstəyərdim ki, deyim, axşam dincələrsən, amma gecə Stivens bizi merlə görüşdürəcək. Belə də ki sən, onsuz da, yatmırsan.

– Az danış, Endi. Mən gedirəm sorğulama otağına, sən isə get, tünd qəhvə hazırla. Bir də XYZ planını işə sal.

– Əminsən?

– Əlbəttə.

# 20

## 21 oktyabr 06:45

**– Sən mənə cavab verəcəksən. Onsuz da, qara başlar bizə hər şeyi deyiblər etiraf et, – Selveklə Snou özlərini bacardıqları qədər real aparsalar da, əslində blef etməklə məşğul idilər. Banda üzvlərindən bir söz belə ala bilməmişdilər, – Piter Staric və digər cinayətlərin səbəbi nədir? Məqsədiniz nədir? Cavab ver, itin balası!**

– Bildiyin suallarını məndən soruşub vaxtımı alma. Onsuz da adamlarım deyiblər də, – yaşıl telli Xin San kinayə ilə dedi. Teylorla Hovard onu maşınla qaçmaq istəyərkən yaxalamışdılar.

– Suallarıma cavab ver! – Snou yumruqlarını məhkumun masasının üstünə dayadı, – sənin nazınla oynamağa hazırlaşmıram.

– Onda, get başqasını tap özünə. Vəkilim gəlmədən heç bir sualına cavab verməyə hazırlaşmıram.

– Snou, ona çox təzyiq göstərirsiniz, – Selvek yumşaq səslə dedi, – gözləyək, vəkil gəlsin və məlumatları rahatlıqla ondan alaq.

– Yox, Kru. Yox! Mən onun dərsini verib ifadəsini elə buradaca alacağam. İndi isə danış, San! Danış. O telefondan zəng edən kimdir? Məqsədiniz nədir? Siyahıda kimlər var?

– Deməli, qarcıq , sən pis polissən, hə? Bu məsum isə yaxşı polis, – San növbəti dəfə hırtıldadı, – bəsdirin, uşaqlar. Ölümcül Silah və Pis Oğlanların vaxtı çoxdan ötüb. İndi isə məni vəkilimlə görüşdürün.

– Vəkilin artıq yoldadır, – Selvek və Snou dönüb içəri keçən Teylora baxdılar. O, elə yorğun görünürdü ki, hətta səsində belə halsızlıq əks olunurdu, – siz çıxın, uşaqlar. Gedin, vəkili qarşılayın.

– Frenk? Sənin burada nə işin var?

– Kru, sən yorulmusan, get, vəkili qarşıla. Snou, siz isə adamlarınıza baş çəksəniz, yaxşıdır. Başsağlığı veriləsi çox dul qadın və atasız uşaqlar var. Suallarınıza Endi cavab verəcək. Hər ikinizə minnətdaram, cənablar.

Onlar etiraz etmədən otaqdan çıxdılar. Teylor yaxınlaşıb masaya söykəndi. San onu gördükdən sonra Endi tərəfindən əzişdirilmiş üz-gözünü əymişdi. Görünür, onu yaxalayan detektivlərin simalarını unutmayıb, ancaq yenə də onun üzündə xoşagəlməz lovğalıq özünü biruzə verirdi. Detektiv diqqətlə bu şəxsin gözlərinə baxdı. İndi Sanın deyəcəklərinin doğruluq dərəcəsini ölçmək üçün kiçik bir test tələb olunurdu. – Məni tanıdın, San? – çinli səsini çıxarmadan başını yellədi. Gözləri azacıq sola meyl etmişdi. Teylor bu metodla britaniyalı detektiv yazarın əsərlərində tanış olmuşdu. Yaradıcı və məntiq beyni. Bəzi alimlər

dəqiq səmtlərdən danışsalar da, insanlarda bu kürələr müxtəlif səmtlərdə yer ala bilər. Bunu yoxlamaq üçün isə bir neçə bəsit sualdan istifadə etmək lazım idi. Yalan danışılanda gözlər yaradıcı beyin tərəfə meyllənir. Baş vermiş hadisə yada salınanda isə məntiq və yaxud da yaddaş beyni tərəfə yönəlir. İlk sualdan sonra isə Sanın gözləri sola meyl etmişdi. O, Teyloru, həqiqətən də, tanıyırdı, – vəkilinin adı Lebo Sopparddır?

– Yox, – çinli donquldandı, gözlər sağa sürüşdü. Metod özünü doğruldurdu, yaradıcı beyin, yəni yalan. Amma bu asan sualla iş bitmirdi, – Zinq Çengin On Üçüncü küçədə izinə düşmüşük. İstədim, xəbər tutasan, – gözlər yenidən sola sürüşdü və çinlinin üzündə xəfif gülümsəmə peyda oldu. O, Çengin həmin tərəfdə olmadığını bilirdi, buna görə də məntiqi beyinə müraciət etmişdi. Teylor növbəti dəfə metodun işə yaradığına sevinib daxilində iş bitən kimi yazıçının daha bir əsərini oxuyacağına söz verdi, – Xin, mən sizin baş verən cinayətlərlə əlaqəniz olmadığını bilirəm.

– Sən eyni anda həm yaxşı, həm pis polis olmaq qərarına gəlmisən, deyəsən. Hə, "Yaşıl Əjdaha"nın baş verənlərlə əlaqəsi yoxdur.

– Amma cinayət yerindəki telefona sizin binadan zəng gəlib. Bunu nəzərə al.

– Xəbərim yoxdur, bizə qarşı təxribat hazırlamısınız.

– Bax, Xin, mən səni burada yaxşıca əzişdirə bilərəm, – Teylor, metal masanın üstünə çıxaraq oturdu, çinli ilə üzə-üz dayandı, – telefon barədə nə fikrin var?

– Dedim axı, bilmirəm! Xəbərim yoxdur! Sən isə mənə barmağını belə toxundura bilməzsən. Mən Amerika konstitusiyasını yaxşı bilirəm. Hüquqlarım var və sənin həmin güzgünün arxasından izləndiyini də bilirəm. Yəni, mənə gücün çatmaz, – San stulunun arxasına söykənib ayağını ayağının üstündən aşırdı. Gözləri yenidən sola meyl etdi.

– Ax səni, alçaq yaşılbaş. Demək, sən həm də hüquqlarını bilirsən. Etiraf edim, təsirləndim. Hüquqlar, güzgü, yaxşı-pis polis. Əhsən, lakin iki şeyi unutdun, – siyasi bir fasilə və sorğulananın üzündə yamsılanan təəccüb, – bir. Bizim danışığımız yazılır. Yəni, mən sənə toxunsam, məni problem gözləyir. Həm güzgü, həm də kamera. Digər tərəfdən, mən səni vursam, üzündə izlər qala bilər, habelə qan da axa bilər. Onsuz da bayaq Endi sənə qadir olduqlarımızın treylerini göstərib. Yəni, bir sözlə, sən toxunulmazsan, – çinli gülümsədi, amma açıq-aşkar əsəbiləşirdi, – amma. Amma, əziz yaşılbaş, mənim ortağım – sən qaçmağa çalışanda sənin sürücünü vuran cənab indi güzgünün arxasından bizə baxan dostlarımızı qəhvəyə qonaq edir və sənə deyim ki, biz polislər çox tənbəlik, – Teylor ayağa qalxıb gəzməyə başladı, – əgər mən buradan məlumatla çıxsam, çətin ki, kim isə vaxtını xərcləyib kamera yazısına tezliklə göz ata, – o, çinlinin stulunun arxasına keçdi, qəfildən onun yaşıl telindən yapışdı, çinli bağırdı, – aaa. Yeri gəlmişkən, bizim divarların akustikası möhtəşəmdir.

– Mən heç nə deməyəcəm! Ağız-burnumu dağıtsan belə! – çinli masadan möhkəm yapışıb qışqırdı.

– Dostum, mən səni heç vuraram? Ən azı üzündən bir tük belə əskik olmayacaq, – Teylor yumruğu onun qabırğasına otuzdurdu, – bədənində qırıqlar və şişlər olsa belə, sən o boyda atışmada iştirak etmisən. Yəni, göyərməyinin zərəri yoxdur, – daha bir zərbə. Sol çiyinin aşağı hissəsini keyidən zərbə. Teylor onun əllərindən yapışaraq özünə tərəf dartdı. Sanın əlləri stula yapışdığından hədsiz ağrı yaşadırdı, – əllərini inan ki, həvəslə qırardım, yaşılbaş, ancaq vəzifə borcu buna imkan vermir. Birdən nəyəsə imza atası oldun.

– Telefonla əlaqəmiz yoxdur. Bunu özünüz də bilirdiniz, detektiv, – çinli artıq sınmışdı, – başqa heç nə bilmirəm.

– Bax, öz halına niyə yazığın gəlmir? – Teylor onu dartaraq ayağa durğuzdu, çiynindən yapışdı, badalaq atıb döşəməyə sərdi, – axı başqa heç nə bilmirdinizsə, bizim gəlişimizi necə öyrəndiniz? Altıncı hiss? – o, çinlini üzü üstə fırlatdı, ayağı ilə dizini sıxıb təzyiq göstərdi, – bizim reydimiz barədə kimdən məlumat almısınız? Cavab ver. Sənə son dəfə deyirəm, hələlik yaxşı polisəm, amma hər an pis polis gələ bilər!

– Çenkə kimsə xəbər verib.

– Kim?

– Müştərilərimizdən biri, deyəsən. Ya da şəriklərdən, ya da dilerlərdən.

– Nə tip diler? – o, Sanın dizini havaya qaldırıb sıxdı, – cavab ver, yoxsa dizini sındıracağam!

– Hərdən narkotik keçirmək üçün dilerdən istifadə olunur. Əntiq əşyalardan, hətta yığılma prosessorlara

qədər fərqli şeylərdən istifadə edirik. Çalışırıq ki, diler mal gələn ölkənin vətəndaşı olmasın.

– Mallarınız haradan gəlir?

– Kolumbiya, Meksika, hərdən Bolivia, Vyetnam.

– Son dəfə mallar haradan gəlib? Dilerlər qadın olurlar?

– Axırıncı partiyaya mən rəhbərlik etmirdim. Yox, yalnız kişi. Onlar malları sərhəddən keçirir və burada satmağa başlayırlar. Gördükləri işə görə isə kifayət qədər yaxşı faiz alırlar. Çenk qadınlara inanmır.

– Çenk bu gün kiminlə danışıb, de! – dizi bir az daha sıxılan banda üzvü ağrıdan əlini döşəməyə çırpırdı.

– Bilmirəm! Mən bilmirəm! Yalvarıram, – artıq gözündən yaş gəlirdi.

– Bu gün telefon sizin binaya necə düşə bilərdi? Bunu da bilməsən, ayağınla vidalaş.

– Sonuncu partiya uğurlu alındığından Çenk bu gün qızları çağırmışdı.

– Nə qızlar? Onları haradan sifariş vermişdiniz?

– Fransız, latın amerikalı, – onun nəfəsi kəsilirdi, Teylor ayağı ilə sıxdığı dizindən təpik vurdu, çinli qışqırdı, – yalvarıram. Bundan başqa heç nə bilmirəm. Qızları mən çağırmamışam!

– Sənə inanıram, yaşılbaş, – Teylor onun ayağını buraxdı, qalxmasına kömək etdi. Köynəyi ilə çinlinin tərini silib yenidən stula oturtdu, – işbirliyinə görə minnətdaram, – Teylor güzgüyə tərəf gedib yavaşca şüşəni döydü. Güzgüdə üst başını səliqəyə salıb yenidən çinlinin yanına döndü, – acmısan?

– Hə, su da pis olmazdı, – çinli hələ də təngnəfəs idi.

– Narahat olma, kömək yoldadır. Başqa heç nə xatırlamırsan? Əgər istəsən, yaddaşına kömək ola bilərəm.

– Yox, xahiş edirəm, kifayətdir.

– Görürəm, XYZ işə yarayıb, – Hovard əlində iki ədəd qəhvə, su və salatla içəri daxil oldu.

– Hə, artıq dostumuz əsl polis kimi hərəkət edir. Düzdür, yaşılbaş? – Teylor gülümsəyərək soruşdu.

– Əlbəttə, bu, mənim vətəndaş borcumdur.

– Hüquqları bilirdi, artıq borclarını da öyrənib.

– Nuş olsun, – deyərək Hovard salatı və suyu masanın üstünə qoydu, – işin bitdisə, gəl biz də gedib yeyək. Bir azdan ictimaiyyətə açıqlama verməli olacağıq. Axı artıq bu əməliyyata biz rəhbərlik edirik.



# 21

## 21 oktyabr 14:20

**Teylor başını masanın üstünə söykəmişdi. İstəməsə də, göz qapaqları aşağı düşürdü. Bütün gecəni adrenalin səviyyəsi enməmişdi. Müdiri ilə mübahisə və sorğulama prosedurası da atəş səslərindən geri qalmırdı. Ancaq bunların heç biri mətbuat konfransı ilə müqayisə oluna bilməzdi. Müxbirlərin ardı-arası kəsilməyən sualları “Uzi”nin güllələrini xatırladırdı. Bu “Uzi”lərin tək fərqli cəhəti isə daraqlardakı güllələrin bitməməsi idi. Bugünkü konfransda bütün mövzulara toxunulmuşdu. “NÖMRƏ BİRLƏR” əməliyyatı yığıncağın səbəbkarı olsa da, əsas sual hədəfi Çaynataundakı atışma və “Los-Angeles City Hall” hadisələri idi. Bir çoxları dəfələrlə Neş barədə eyni sualları verirdilər. Teylor konfrans müddətində bir anlığa müxbirlərin Neş haqqındakı ən son xəbərləri öyrənəcəkləri halda nələrin baş verəcəyini düşündü.**

Yaxşı ki, onlar bu xəbəri hələlik üzə çıxarmamışdılar. Bu xəbərin indi üzə çıxması merin bu işlə birba-

şa əlaqəsi olması demək idi. Ümumiyyətlə, bu xəbəri dörd nəfər bilirdi. Agent Stivens, Nurlan, o və ortağı Endi. Lakin Teylor sirri daha üç nəfərlə paylaşmaq barədə düşünürdü. Bu qədər dar əhatə ilə belə bir qarışıq labirintdən çıxmaq mümkün olmazdı. Ona görə də Hovard saat üçün yarısına komandaları ilə iclas təyin etmişdi.

Həmişəki kimi toplantı otağına birinci gələn Teylor olmuşdu. O, bir neçə dəqiqəliyinə mürgüləməyə qərar verdi. Gözlərini yuman kimi Reyçel Şilds gözlərinin qarşısına gəldi. Bu xanımla görüşündən iyirmi dörd saat keçmiş olardı, lakin onun parlayan gözləri, ucu atəş saçan saçları və sağollaşarkən nümayiş etdirdiyi əvəzolunmaz gülüşü, bir sözlə qadının xarici görünüşü ağlından çıxmırdı. Merin assistenti haqqında düşünərkən Teylor məntiqi düşünmə qabiliyyətini itirir, uşaqtək gülümsəyirdi. Yenə də qadının görüşməyə razı olması səbəbi barədə düşündü.

Qapı açıldı. Əlində gümüşü “Galaxy” tablet Elizabet Nikolz içəri girdi. Həmişəki kimi çox gümrah və şən görünürdü. Nikolz işinə bütün qəlbi ilə bağlanan polislərdən hesab olunurdu. Hər gün hamıdan əvvəl vəzifəsinin başına keçər, növbəsini ən gec tərk edən polislərdən olardı. O, yuxulu Teylora baxdı, heç nə demədən öz yerinə keçdi. Artıq üç il olardı ki, Nikolz detektivə qarşı fərqli hislər yaşayırdı. İlk əvvəllər fərqli hislərinin səbəbinin Teylorun onun həyatını qurtarması olduğunu düşünürdü. O, xidmətə başladıqdan bir az sonra girov xilasetmə əməliyyatında iştirak etmişdi. Cinayətkar ümidsizcəsinə atəş açarkən

Teylor onu itələmiş, cinayətkarın gülləsi onun qolunu siyirmişdi. Güllə keçən yerdə Nikolz olsa, ən az sinəsindən vurulmuş olacaqdı.

Bu atəşdən sonra isə vəziyyət dəyişdi. Soyuq xasiyyətli detektiv Teylorun xarakteri ona ilıq gəlməyə başladı. Nikolz həmkarını ikinci dəfə yenidən kəşf etdi. Bəlkə də, onun kəşf etdiyi insan sadəcə illüziyalardan ibarət idi, lakin Nikolz halından şikayət etmirdi. Teylor işinə o qədər bağlanmışdı ki, heç vaxt qızın ona qarşı rəftarına diqqət yetirməmişdi. Diqqət versə də, özünü görməzliyə vurmuşdu. Beləliklə, üç il ötdü, uzun və kələ-kötürlü üç il. Nikolz çox çalışsa da, alınmadı. Dəfələrlə başqaları ilə yeməyə getsə də. Unutmağa çalışsa da. Alınmadı ki, alınmadı.

O, sakitcə yuxulamış detektivi izləyirdi. Bu an qapı açıldı, Hovard içəri keçdi. Gözlərini çavuş Nikolzdan yatmış ortağına çevirdi. Gülümsəyərək ona tərəf irəriləyirdi. Əllərini bir-birinə sürtür, nə barədəsə götür-qoy edirdi. Ardınca gələn Ferrell isə Hovardın şeytani düşüncələrini oxudu.

– Frenk, – o, pıçıltı dərəcəsində alçaq tonla səsləndi, – oyansan, yaxşıdır. Bir nəfər yaramaz işlər planlaşdırır.

– Stiv, – başını hələ də masadan qaldırmayan Teylor eyni tonla cavab verdi, – bu səfeh artıq illərdir bunu bacarmır.

– Ax, zəhrimara qalasan, Stiv. İşə yaramaz Hanna oyuncağı. Sən əgər bir gün yuxulasan, sənə çoxlu sürprizlərim olacaq.

Hamı öz yerini aldı. Bir neçə dəqiqəliyə hərə öz qeydlərini eşələyib iclasa hazırlaşdı. Masa başında dörd nəfər əyləşmişdi. Buna təəccüblənən Ferrell soruşdu, – Qebdən nə əcəb? O, axı nadir hallarda gecikir.

– Bir nəfərin dalınca göndərmişəm, – hələ də çavuşun əlindən yanan Hovard cavab verdi.

– Selvek də əməliyyatdadır? – gözlərini tabletdən çəkməyən Nikolz soruşdu.

– Yox. Başqa biri. Tanımırsız. Əslində Qeb onunla artıq görüşüb. Onu yalnız sən tanımırsan, Liz, – Hovard həmişəki kimi söhbətin sonunu Ferrellə gətirdi, – Stiv ilə artıq tanışdırlar.

– Kimdən bəhs edirsən, anlamadım, – Ferrell başını yellədi.

– O halda, kül və baş desəm necə?

– Sən o gündə bu sözləri necəsə işlətmişdin, – ani fasilə və qəpik içki avtomatına düşəndə çıxan səs tək çavuş diksindi, – o gəlir?

– Aha. Artıq arxandadır.

Zabit Qebriel Braunla birlikdə Nurlan Faiqoğlu ora daxil oldu. Nurlan başını azca yelləyərək masa başındakıları salamladı. Teylorun işarəsi ilə Hovard tərəfdəki boş stula oturdu. Hələ də bura gəlişinin dəqiq səbəbini bilmirdi.

– Tanış ol, Liz. Nurlan Faiqoğlu. Dostumuz, yoldaşımız və bu günə qədər aldığımız uğurlu nəticələrin bir nömrəli səbəbkarı, – Teylorun sözündən sonra Nikolz başını azacıq əydi, hörmət əlaməti olaraq gülümsədi, – bilirəm, ağlınıza gələn ilk sual – bu,

kimdir və bizimlə nə işi vardır? Bu mövzuya qayıdacayıq. İndi isə başla, Endi.

– Təşəkkürlər, Frenk, – deyərək o ayağa qalxdı, – ilk növbədə yenidən sizlərlə bu işin başına keçməyimiz çox sevindirici xəbərdir. İndi isə başlayaq. Deməli, əlimizdə nə var? Bir. Maykl Cekson "NÖMRƏ BİRLƏR"i ilə insanları öldürən ən azı iki nəfər.

– Niyə əminliklə bir yox? – ilk sual, – biz bu barədə danışmışdıq, ancaq bu əminliyin səbəbi nədir?

– Yaxşı sualdır, Qeb. Gibson və Smit cinayətlərini xatırlayırsınız. Bunu teorem kimi qəbul etməmək, bəlkə də, olardı, amma Neş hadisələri ilə bağlı Nurlanın çatdırdığı məlumatlar bizim düşüncələrimizi təsdiqlədi. Çarlz Neş səksən ikinci ilin mayının beşində doğulub. Çoxumuz o bıçaqlarla zəngin "Beat it " klipini seyr etmişik. Mən indi xatırlayıram ki, Neş özünü atanda "Vur özünü!" deyə təkrarlayırdı. İndi bunun səbəbi mənə aydın olub. O, Maykl Ceksonun "NÖMRƏ BİRLƏR silsiləsinə daxil olan mahnılarından biridir. Yəni plan qurularkən onun iştirakı əvvəlcədən nəzərə alınıb. Təəssüf ki, Neş hələ də komadan çıxa bilməyib. Əminliklə deyirəm ki, o, sadəcə hadisə qurbanıdır, digər ikisi isə, – bundan sonra Hovard bir neçə cümlə ilə xəsarət almış Şilds və Morales barədə yoldaşlarına danışdı, – Bruno Morales və Reyçel Şilds barədə hələ də şübhələrim qalır. Az da olsa, – bu sözlər Teyloru düşünməyə vadar etmişdi. Görəsən, Hovard onun Şilds barədə bildiklərindən

xəbərdar olsaydı, fikrini dəyişərdi? Bəs Şildsin onunla görüşməyə razılıq verməsinə nə ad vermək olardı?

– Endi, bu qədər məlumatı siz haradan öyrənmisiniz? – Nikolz soruşdu. Bu sualın da izah etmək üçün bir neçə dəqiqə tələb olundu. O, komanda üzvlərinə merlə görüşlərini, qarışıq dildə yazılmış məktubu danışdı. Öyrəndikləri digər məlumatları və "NÖMRƏ BİRLƏR" cinayəti ilə merə təxribat arasındakı əlaqəni onlarla bölüşdü. Söhbətin sonunda, Nurlan da daxil olmaqla, bütün komanda ağzı açıq heykəl formasını almışdı. Onlar özlərinə gəldikdən sonra sualın müəllifi dedi, – aydındır.

– Sonda, – Hovarda oturmasına işarə edən Teylor ayağa qalxdı, – bu otaqda olanlar, danışılanlar və digər hər nə baş verərsə, bu otaqdan bayıra çıxmamalıdır. Aydındır, uşaqlar? – bir qədər tərəddüd etdikdən sonra iclas iştirakçıları başlarını yellədilər, – yaxşı. O halda, davam edək. İlkin olaraq, M.J. Hələlik, cinayətkara M.J. adını verək. Endi, davam elə.

– Nurlan, səncə, şəhərin güvənlik kameralarını kənardan izləmək mümkündür?

– İdeal sistem və müdafiə mövcud deyil. Şəhər kameralarını isə, əsasən, LAPD serverlərindən izləmək olar.

– Əminsən?

– Əlbəttə, – Nurlanın cavabı Teyloru gülümsəməyə vadar etdi. Nurlanın kameralardan nə vaxtsa istifadə etdiyinə şübhəsi qalmamışdı.

– Bəs bu serverlərə kənardan müdaxiləni necə müəyyən etmək olar?

– Endi, dəqiq olsaq, serverlərdən birinə müdaxilə etməklə arxiv məlumatları ələ keçirə bilərik, amma kamera yazılarının izlənilməsi nisbətən müşkül məsələdir. Çünki LAPD-nin iyirmidən artıq idarəsi var. Mərkəz, Qərb, Cənub və Vadi büroları.

– Yəni bütün idarələrimiz indi bu adamın oyuncağıdır? – Braun soruşdu, – axı L.A-in polis şəbəkəsi genişliyinə görə Nyu-York və Çikaqodan sonra üçüncü yerdə gəlir.

– Teoriyada hə, amma əmin olmaq üçün tezdir. Bəlkə də, – Nurlan fikrə getdi.

– Bəlkə də nə, Nurlan? – Hovard telefonu ilə kiməsə zəng vurdu, – bizə çay göndər. Zəhmət olmasa. Hə, iclas otağındayıq. Deyəsən, işimiz çox olacaq, – telefonu masanın üstünə qoyub yenidən üzünü Nurlana tutdu, – cümləni bitir.

– Bəlkə də, M.J. bütün idarələrə yox, yalnız özünə lazım olan yerlərə sızıb. Yəni üç və iki yer ola bilər. Yaxud da Mərkəzi və Qərbi polis bölmələri.

– Bu, bizim şanslarımızı artırır, – Nikolz sakitcə söylədi, – bəs kənardan serverə necə daxil olmaq olar?

– Yaxşı sualdır, Liz. Nurlan, buyur, – Teylor fasiləsiz qeydlər götürürdü.

– Birbaşa xətlə mümkündür, ancaq bu metod, yəqin ki, üzə çıxardı. Qabaq xakerlər kompyuter başından rahatlıqla bunu edə bilirdilər. İndi isə vəziyyət kifayət qədər ağırlaşıb, – Nurlan boğazını arıtladı, – daha sonra sistemə soxulmuş kiçik cihazların göndərdiyi radio dalğalarla naqillərdən keçən məlumatı ələ keçirmək olar. Bu bir növ qonşunun kabelli TV-sinə

şərik çıxmağa bənzəyir, lakin radio dalğaların ötürmə qabiliyyəti çox zəifdir, həm əksər hallarda serverin ötürücü sistemi radio dalğanın törətdiyi nasazlıqları hiss edir.

– Bu oğlan pizza daşıyıcısı üçün bir az çox şey bilmir? – Ferrell çiyinlərini tərpətdi.

– Stiv, bu otaqdakı söhbətlər barədə göstərişimi eşitdin axı.

– Aydındır, Frenk.

– Nurlan, yaxşı, bəs bu nasazlıqlar necə yaranır? – Teylor soruşdu.

– Bir neçə üsulla. Əsasən, kənardan sistemə giriş zamanı yaranan gecikmələr və sistemə quraşdırılmış cihazların serverin hansısa hissəsini və yaxud naqillərdən birini zədələməsi ilə. Zədələrin əsas səbəbi isə həmin cihazların çəkisinin bəzən özünü hiss etdirməsidir. Bu arada naqil dedikdə optik fiber kabelləri nəzərdə tuturam.

Bu an təmizlik işçilərindən biri stəkanlarla dolu məcməyi ilə içəri keçdi. Heç kim səsini çıxarmadı, onun öz işini bitirməsini gözlədi. O, çayları masa başındakılara payladıqdan sonra gülümsəyərək oradan ayrıldı.

– M.J. bizim serverlərə, məncə, bu yolların heç biri ilə daxil olmayıb. Selveklə kamera yazıları ilə bağlı araşdırma aparanda Nurlanın dediyi simptomlara rast gəlməmişik, – çayından qurtum alan Ferrell məsələyə öz münasibətini bildirdi.

– Hə, Stiv haqlıdır, – Braun onun fikrini təsdiqlədi, – elə dünən Mərkəz və Cənub idarələrinin sistemi yenilənib. Məncə, burada başqa bir şey var.

– Ağlında başqa nəsə var Nurlan? – Hovard telefonunu masanın üstündə fırladırdı.

– MOLE adlanan bir nano-ötürücü var.

– MOLE? Bu, nə mənaya gəlir? – Nikolz soruşdu. Gözlərində bu sualın cavabını necə maraqla gözlədiyi əks olunurdu. On dəqiqə əvvəl bu gəncə yuxarıdan aşağı baxan polislər artıq onun biliklərinin cazibəsi altına düşmüşdülər. Teylor ilə Hovard nəticənin belə olacağını ilk başdan təxmin etsələr də, reallıqda bu görüntü daha maraqlı idi.

– MOLE son illərin ən gizli və sensasional kəşflərindəndir. Bəziləri cihazın mənasının köstəbək olduğunu deyirlər, amma əvvəllər şayiələr yayılanda bu cihaz STAİN MOLE adlanırdı. Sonra isə sadəcə MOLE oldu. Casus aləmində köstəbəklərdən çox istifadə olunur. Üstəlik, omonimliyin burada təsiri böyükdür. Bəs bu MOLE nə işə yarayır? Nano-texnologiyanın qara incilərindən hesab olunan MOLE elektromaqnit dalğalar vasitəsi ilə işləyir. Yüksək tezlikli dalğalar rahatlıqla ötürülür və digər sistemlər tərəfindən heç bir maneəyə rast gəlmir. Çəkisi bildiyiniz kimi əl ilə hiss olunmazdı, səmərəlilik dərəcəsi isə üç rəqəmli ədədə çox yaxın. Yəni naqillərdə hiss olunmur və sistemdə ötürülən informasiyaya maneçilik törətmir. Sanki görünməz bir nöqtə. İş prinsipi radio dalğalarla işləyən ağır və kobud cihazlarla oxşardır, amma yenə təkrar edirəm, nano-ölçülü MOLE-un çəkisi onun əsas üstünlüyüdür. Bu oyuncaq məlumatları rahatlıqla iki kilometrə qədər radiusda ətrafa çatdıra bilər. Əgər

sistemə belə bir şey daxil edilibsə, nəinki siz, heç FTB belə onu rahatlıqla aşkar edə bilməz.

– Bəs bu köstəbəyin qiyməti nə qədərdir? – artıq Hovard çayını bitirmişdi.

– İki-üç milyon arası səhv etmirəmsə, amma dəqiq bilmirəm. Daha çox da ola bilər. Yəqin, qiymət hələ ki müəyyən edilməyib, nano-texnologiya isə qara bazarda bir o qədər də yayğın deyil.

– Sən onu müəyyən edə bilərsən?

– İnanmıram, amma cəhd etmək olar, bəlkə, MOLE-un qazdığı çuxurları tapa bilərəm.

– Necə ki? – Ferrell soruşdu, – daha aydın dillə izah edə bilərsən? Çuxur nədir?

– Əgər MOLE sistemdəki bəzi şeylərə dəyişiklik edibsə, bu proses müəyyən alqoritm altında baş tutur. Burada isə virtual səhvlər ortaya çıxır. Bir neçə virtual səhv – çuxur tapıldıqdan sonra serverdə onun gördüyü işlərin bir hissəsini ərsəyə çıxarmaq mümkündür.

– Gibsonun yaşadığı binanın kamera yazıları, – Teylor dedi, – Nurlan, əgər MOLE, həqiqətən də, sistemdədirsə, o, bu kameraların yazıları ilə oynayıb.

– Smitin də ünvanını unutmamalıyıq. Daha sonra Peic, Bil və digərləri, – Hovard əlavə elədi.

– Bunlara göz ataram, amma daha bir neçə fayl lazım olacaq. Həm onu tapacaq qədər təcrübəli olmaya bilərəm.

– Qeb, sən Nurlana kömək elə bu barədə. İlkin olaraq Mərkəz bürosuna aid olan “Newton” idarəsindən başlayın. Gibson cinayəti baş verən “Downtown” ərazisinə oradan nəzarət olunur. Nurlan, sənə isə

hər şeyə görə minnətdaram. Bu mövzuya hələ qayıdacağıq, – Hovard bir anlıq fasilə verdi, gözlərini “Galaxy” tabletə zilləyib fikrə getdi, sonra boğazını təmizləyib üzünü komandanın xanım üzvünə tutdu, – Liz, səndən o vaxt cinayətlərin hansısa klan, qurumla bağlı olması barədə bilgi toplamağını xahiş etmişdik. Nəticə var?

– Yox, ancaq “Ben” haqqında məlumat toplamışam. Siçovul Ben. Bu mahnı M.J-in ilk nömrə biridir, – bu cümlə ilə Nikolz səhnəni Nurlandan təhvil aldı, – mən son bir aydakı ölüm siyahısını gözdən keçirdim, üzə heç bir nəticə çıxmadı. İkinci cəhddə isə axtarış intervalını bir az daha genişləndirdim və tapdım, – bu cümlənin ardınca kulminasiya nöqtəsi gələcəkdi, – Drü Kempell və Elison Rayt. 1972-ci il. Yanvar ayının biri. İki nəfər son bir ildə müəmmalı şəkildə ölü tapılıb. Əslində bu ölümlərə düz əməlli polis müdaxiləsi olmayıb heç. Rayt ani şəkildə şəkərinin yüksəlməsindən vəfat edib. Bundan əvvəl o heç vaxt diabetlə bağlı problemlər yaşamayıb. Mahnı isə bildiyiniz kimi siçovula həsr olunub.

İkinci şəxs – Kempell isə zəhərlənmədən dünyasını dəyişib. Ekspertlər zəhərlənmənin dəqiq səbəbini müəyyən etməsə də, fərziyyələr arasında Brometalin qəbulu da var. Brometalin rodensit məhlullar siyahısına aiddir.

– Roden nə? – Hovard soruşdu.

– Rodensit, – Nikolz təkrarladı, – gəmiricilərə qarşı tətbiq olunan preparatların ümumi adı.

– Yəni siçovul zəhəri.

– Aha. Düzdür, Endi. Demək, Brometalin mərkəzi beyin sisteminin mitoxondrial oksidləşən fosforlaşma reaksiyalarını zəiflədir və nəticədə beyindəki adenozin trifosfatın miqdarı azalır, – məlumatları tabletdən oxuyan Nikolz bir anlığa dayandı. Görünür, bəzi kimyəvi, bioloji terminləri oxumaqda çətinlik çəkirdi, – insan kəlləsinin təzyiqi artır və neyronların sinir telləri zədələnir. İnsan beyni iflic olur və yaxud da ölümlə nəticələnir. Brometalini bədəndə dəqiq müəyyən edə bilən test yoxdur, ancaq əsas əlamətlər əzələ dartılmaları və hiperaktivlikdir. Kempelli isə evinin dağılmış qonaq otağında tapıblar. Televizor, pleyer aşırdılıb, bir neçə qab sındırılıb və digər məişət əşyaları ziyan çəkib.

– Yəni Kempell zəhərlənib? Belə düşünürsən, Liz? – Teylor mürəkkəbi bitməyə hazırlaşan qələmi ilə əlləşirdi.

– Yox, belə düşünmürəm, artıq əminəm. Hadisə yerindən bir neçə şəkil əldə edə bilmişəm. Qrammafonun yanında bu plastinka olub, – Nikolz tableti onlara tərəf çevirdi, ekranda dağınıq otaq və başı masanın üstündə hərəkətsiz qalmış Kempell görünürdü. Nikolz barmağını televizordan sol tərəfdə yerləşən qrammafonun üzərinə qoydu və həmin hissəni yaxınlaşdırdı. Qrammafonun kənarında maili dayanan plastinkanın üz qabığında Maykl Ceksonun şəkli əks olunmuşdu. Onun həmin şəkildə on dörd-on beş yaşı ancaq olardı. Şəkil Ben albomunun üz qabığı idi.

– Demək, Kempell siçovul imiş, – Hovard içini çəkdi, – bu hadisə nə vaxt baş tutub, Liz?

– İyirmi altı iyunda.

– Endi, diqqətini çəkdi tarix? – Teylor soruşdu.

– Yox, – Hovard bir qədər fikrə getdi, – həmin gün nəsə pis hərəkət etmişdim?

– Yox, iyirmi altı iyunda Kaliforniya qubernatoru mer Keyni təltifləndirmək barədə rəsmi sərəncam verib. Yenə bioqrafiyaların şəkillərinə baxmısan ancaq? Bu adamın planları əvvəlcədən cızılıb. Liz, başqa bir şey öyrənə bilmisən?

– İndi yerdə qalan "NÖMRƏ BİRLƏR"i araşdırıram. Artıq əlimizdəki məlumatlara görə altı mahnıdan istifadə olunub. Geridə yeddi nömrə bir qalır. Onları qruplaşdırmışam. Yetmiş doqquzuncu ilin "Off the Wall", səksən ikinin "Thriller" və doxsan beşin "History" albomundan bir mahnı qalıb. Səksən yeddinci ilin "Bad "indən üç mahnı və bir də "Say Say Say " var. Pol Makkartni ilə duet. Bu mahnı ilə vəziyyət bir az qarışıqdır, o, Ceksonun heç bir solo studio albomuna daxil edilməyib. Makkartninin "Pipes of Peace" albomunda isə ikinci mahnıdır. Buradan da ehtimal etmək olar ki, "Say Say Say" mahnısının qurbanı Səksən üçüncü ilin altı fevralında anadan olub. Əgər təxminlərimiz düzdürsə, əlbəttə. Məndən bu qədər.

– Təşəkkürlər, Liz. İndi isə diqqəti bu gecə baş vermiş Çaynataun olaylarına yönəldək, – yuxusu gözündən tökülən Teylor başını yelləyib özünü ələ aldı, – M.J. polisə qarşı yaxşı münasibət bəsləmir, lakin heç çinli kriminallarla da bir o qədər arası yoxdur. Telefonun ora necə düşməsi barədə fərziyyəsi olan?

– Bəlkə, onun əjdahalarla işbirliyi var, – ilkin fikir Braundan gəldi, – axı çinlilər sizin reyddən xəbərdar idilər.

– Qeb, haqlısan, amma bir problem üzə çıxır. Axı biz oradan telefon tapmasaydıq, əlimizdə heç bir dəlil olmayacaqdı. Yəni onların başına gələn hər şeyin səbəbi oradan gələn zəngdir. Heç bir işbirliyi isə tərəflərdən hansınısa belə bir risk altına atmazdı.

– Bəs onda, səbəb nədir? – Nurlan sual verdi. Artıq Ferrell istisna olmaqla, digərləri onu öz komandalarına qəbul etmişdilər. Ferrell isə hələ də soyuq baxışlarla süzürdü. Sözsüz ki, bunun ən əsas səbəbi Nurlanla Hovardın axırıncı görüşlərində ona qarşı göstərdiyi rəftar idi.

– Nurlan, əzizim, səbəb əslində göz qabağındadır. M.J. bu hərəkəti ilə bizi çinlilərlə üz-üzə qoydu, – Hovard ritorik tonla danışırdı, – indi biz yaşıl başları sərbəst buraxmasaq, onların dostları ilə başımız yaman ağrıyacaq.

– Yaxşı bəs telefon içəri necə keçirilib? – Braun təəccübləndi.

– Frenkin dostu Xan-xun-xin dünən yanlarına xanım qonaqların gəldiyini dedi. Güman ki, telefon onlarla birlikdə binaya keçib. Versiyamız belədir, Staric ilə danışdıqdan sonra M.J. telefonu çinlilərin yanına gedəcək xanımlardan biri ilə içəri keçirir və onu gizlətməyi tapşırır.

– Ağlabatandır, Endi.

– Nə danışırsan, Stiv! Möhtəşəm rəyinə görə minnətdaram, – Ferrell istisna, hamı gülümsədi.

– Uşaqlar, zarafat bir yana. Hamınızdan son dərəcədə diqqətli olmağınız xahiş olunur.

– Frenk, əməliyyatda sən və Endi iştirak etmisiniz.

Əsas ehtiyat etməli olanlar sizlərsiniz, – sözləri deyən Nikolz çox narahat görünürdü.

– Ola bilər, Liz, – Teylor gülümsədi, – amma yaşılbaşlar çox keçməmiş sizlərdən xəbər tutacaqlar. Ona görə indidən tədbirli olun. Konfransdan sonra, onsuz da mən və Endi öz populyarlığımızı birə-beş artırmışıq. Nə isə, bunu indi boş verək, amma yenə də diqqətli olun. Endi ilə mən axşam merlə görüşəcəyik. Nurlan, sən Qebriel ilə birlikdə köstəbəyin axtarışına başla. Stiv, Çarlz Neşin ailəsi ilə danış. Liz, sən isə araşdırmanı davam elətdir. Bütün mahnılarla bağlı nəsə tapmağa çalış.

– Frenk, mənə niyə belə iş tapşırırsan? – Ferrell üzünü turşutdu, – axı Neşin ailəsi ilə artıq iki dəfə danışmışıq. Bunun nə mənası var?

– Stiv, qorxmursan ki, Hanna səni danlayar? Axı o sənə bizlə işləməyə, ümumiyyətlə, qadağa qoyub.

– Kifayətdir, Endi! – Ferrell özündən çıxdı, – heç olmasa, mənə dəyər verən Hanna var, bəs sən? Təkbaşına və kimsəsiz! Ona görə də ilişirsən mənə! – o, hədələyici tonla cümləsini bitirib ayağa qalxdı.

– Bax bu danışığından sonra özünə gəlməyin üçün Hanna sənə ən azı iki həftə baxmalı olacaq, – Hovard da yerindən qalxdı. Sözlərində əsla zarafat hiss olunmurdu, – gəl gedək, baş-başa hava alaq.

– Gəl! Buyur, gedək! – Ferrell yumruqlarını sıxaraq əsəbindən titrəyirdi. Qollarını çırmalayaraq üzünü turşutdu.

– Endi, otur yerinə, – Teylor istisna, artıq hamı ayaq üstə yaranmış gərginliyi seyr edirdi.

– Yox, oturmasın! Qoy gəlsin, Frenk! Burax onu! – Ferrell Hovarda tərəf atıldı, Qebriel Braun və Elizabet Nikolz qollarından yapışıb onu saxlamağa çalışdılar. Nurlan da gözlərini Hovarda zilləmişdi. Onun da əks-hücuma keçəcəyindən ehtiyatlanırdı, – buraxın məni!

O, var gücü ilə təkan verib həmkarlarının əlindən çıxdı, sürətlə Hovarda tərəf şığıdı. Qəfildən ayaqlarının yerdən qalxdığı hiss etdi, Teylor onu çiynindən yapışaraq kobudcasına stula oturtdu.

– Endi ilə Stivdən başqa hami otağı tərk etsin! İndi! Endi, sən isə otur!

Teylorun əmrindən sonra hamı bir nəfər kimi otağı tərk etdi. Bir söz belə deyən olmadı. Ferrell ilə Hovard sakitcə oturub bir-birlərini və Teyloru süzdülər. O, sakitcə yerinə keçib tavana baxdı. Heç nə deməyib onları görməzlikdən gəldi. Otaq o dərəcədə səssiz idi ki, onun mexaniki "Tissot"unun tıqqıltıları eşidilirdi. Detektivin onlara heç nə deməməsi isə polisləri özlərindən daha da çıxarırdı.

– Nəyi gözləyirik? – sükutu pozan Hovard oldu.

– Mən sizi gözləyirəm, – hələ də onlara baxmayan Teylor buz kimi səslə cavab verdi.

– Bizi? – Ferrell təəccübləndi.

– Hə, sizi! Həyasını itirmiş, özünü polis sayan iki axmağı! Nə gözləyirsiniz? Meydanı sizin üçün təmizləmişəm. Başlayın da! Səbrim tükənmək üzrədir.

Ferrell başını aşağı saldı. Utanmışdı. Hovard da əlini alnına qoyub başını yellədi. O da etdiyinin xəcalətini çəkirdi.

– Biz guya cinayətkarları tuturuq, hə? Onda qandallanası adamların elə əvvəlincisi sizlərsiniz. Mən sizə inanıb əməliyyata kənardan birini daxil edirəm. Onu təlimatlandırıram ki, hər şey burada qalacaq, amma öz dostum deyə tanıdığım iş yoldaşlarımın hərəkətlərinə bax!

– Frenk...

– Sus, Endi! Danışma! Heç utanmırsan? Ferrell son dəfə bizə nə qədər kömək edib unutdun? Yəni bu həddə çatmısan ki, daha başqasının yardımına ehtiyac duymursan? – Teylor yumruğunu masaya çırpdı, – hələ bu birisinə bax! – o, üzünü Ferrellə çevirdi, – neçə ildir, birgə çalışdığı adama gör nələr deyir? Sən onu tək sayırsan hə, Stiv? Deməli, mən də təkəm də onda! Endi ilə demək olar ki, eyni həyatı yaşayırıq. Bu hərəkətləri sizdən heç gözləməzdim. Ailə olduğumuzu düşünürdüm, amma yanılmışam. Sizin kimilərlə işlədiyim üçün sizdən utanıram! Hər ikiniz bu əməliyyatdan xaric olunursunuz!

– Frenk! – polislərin hər ikisi ucadan etirazlarını bildirdilər.

– Heç nə eşitmək istəmirəm! Rədd olun gözümün qabağından, – Teylor müdiri Murun hərəkət və sözlərini təqlid elədi.

Ferrell ilə Hovard yerindən tərpənməyib birbirlərinə baxdılar, işarələrlə əlaqə yaratmağa cəhd etdilər. Sonda ümumi razılığa gəldilər.

– Frenk, bizə bir şans daha ver, – Hovard pıçıltıya yaxın səslə dedi.

– Axı niyə? Mənə səbəb göstər? Şans verim ki, sabah növbəti qalmaqalı törədəsiniz? Nurlan kimi yadların qarşısında idarənin adını batırasınız?

– Etdiyimiz axmaqlıqdan başqa bir şey deyildi, – Ferrell də müzakirəyə qoşuldu, – əsəblərimiz gərgindir. Uşaqlıq etdik, bağışla.

– Axı niyə başa düşmürsünüz? "NÖMRƏ BİRLƏR" qatilinin məqsədi də elə budur! Bizi bir-birimizə qarşı çevirmək! Çinlilərlə bizi görmədiniz necə üz-üzə qoydu!? Siz isə onun qanunlarına tabe olursunuz! Budur bizim komandanın iradəsinin gücü?..

Daha bir neçə saniyəlik sükut. Yas mərasimini xatırladan bir sükut.

– Dediyin hər şeyi etməyə hazırıq. Təki sən bizi bağışla, Frenk, – Ferrell məsum səslə dedi.

– Hər şeyi? – Teylor çiyinlərini qımıldatdı.

– Hər şeyi, – Hovard cavabı təsdiqlədi.

– O halda, – Teylor yumruğunu çənəsinə, dirsəyini isə masaya söykədi, – Endi, bu gün Neşin ailəsinin yanına birlikdə gedirsiniz, amma ilk növbədə uşaqlardan üzr istəyin. Sabah isə Çaynataun hadisələri ilə bağlı məlumat toplayırsınız. Ora gətirilən fahişələrin haradan gəldiyi və kimlər olduğu çox vacibdir. Razılaşdıq? – polislərin heç biri bu ideyaları bəyənməsə də, vəziyyəti korlamamaqdan ötrü başlarını yelləyərək razılıq verdilər, – və bir də, ən sonda. Stiv, bu iki günü Endi ilə qalacaqsan. Bəlkə, bu yolla bir-birinizə hörmət etməyi öyrəndiniz. Bu qədər. Çıxa bilərsiniz.

Onlar sakitcə mübahisə edərək otaqdan çıxdılar. Görünür, hələ də bir-birlərini günahkar hesab

edirdilər. Əslində isə bu xoşagəlməz hadisənin də səbəbi son günlər baş verən olaylar olmuşdu. M.J. öz məqsədinə hər dəqiqə bir az daha yaxınlaşırdı. Bəs, görəsən, onun əsas hədəfi nə idi? Bu oyunun sonuna nə qədər qalmışdı? Onları sonu olmayan bu qaranlıq tuneldə daha nələr gözləyirdi?

Amma indi baş verən hadisə digər tərəfdən Teylorun işinə yaramışdı. Bununla o, həm Ferrelli ortağının evinə yola salmış, həm də Reyçel Şilds ilə sabahkı görüşə rahat hazırlaşmaq fürsətini qazanmışdı.

# 22



## 21 oktyabr 19:20

**– Mən bu gecə sənin evində qalmağa hazırlaşmıram, – Ferrell deyinirdi.**

**– Sus. İndi qadın səni eşidəcək.**

**– Ona deməyə bilərik. Səhər də işə bir yerdə gedərik, hər şey qaydasına düşər.**

**– Stiv, səncə, Frenk bu ideal planını nəzərə almayacaq? – Hovard gülümsədi, – mənim tanıdığım Frenk Teylor bu gecə bizlərdən birinə zəng vurub digərini telefona çağıracaq.**

**– Bunu düşünməmişdim, – Ferrell təəccüblə çiyinlərini tərpətdi, – bəs nə edək?**

**– Hanna ilə barışana qədər sənə baxmalı olacağam. Yəni tez tərpən.**

**– Sən ağzının danışığını bilsəydin, bunların heç biri olmazdı.**

**– Sən də pis deyildin, Stiv.**

**– Yaxşı, sus, qadın gəlir.**

Lizi Neş iki fincan qəhvə əlində otağa daxil oldu. Orta çəkili, sadə görkəmli, qaraşın qadın səkkiz il əvvəl Çarlz Neş ilə ailə qurmuşdu. İlk başlarda maddi-mənəvi sıxıntı çəkmiş cütlük sonra qismən də

olsa öz ayaqları üstə dirçələ bilmişdi. Bu nisbi xoşbəxt evlilikdən onların dünyaya gəlmiş Lana adlı qızın isə artıq altı yaşı vardı.

– Buyurun, – deyərək xanım Neş onlarla üzbəüz stula oturdu, – artıq iki dəfə sizə ifadə vermişəm. Bu gəlişinizin səbəbi mənə maraqlıdır. Çarlz ilə bağlı təzə xəbər var?

– Yox, xanım, – Ferrell cavab verdi, – biz sadəcə sizlə daha bir dəfə danışıb bəzi suallara aydınlıq gətirmək istərdik.

– Məsələn, hansı suallara?

– Neşin kiməsə borcu vardı? – sual Hovarddan gəldi.

– Axı sizə demişəm, bizim bir neçə yerə kredit borclarımız var.

– Endi, bunların hamısı mənim izahatımda qeyd olunub.

– Gözlə, Stiv, – qadından gözlərini ayırmayan Hovard dedi, – aylıqları nə vaxt ödəyirsiniz, xanım Neş?

– Ayın ortalarından başlayaraq. Çarlz hər ay kiçik gecikmələrlə onları ödəyə bilir.

– Bəs gecikmələrdən necə xəbəriniz olur?

– Zəng və yaxud məktub gəlir.

– Bəs bu ay necə, sizə xəbərdarlıq gəlib?

– Hələ ki yox. Başa düşmədim sualınızı, çavuş.

– Detektiv. Detektiv Hovard, – fincanı masanın üstünə qoyan Hovard onun səhvini düzəltdi, – Çarlz on yeddisi xəstəxanaya düşüb. Sizcə, o bütün ödənişləri bu vaxt ərzində keçirə bilər?

– Bəlkə də. Əmin deyiləm, amma gecikmənin sizin istintaqa nə dəxli var axı?

– Sizdə aylıq ödənişlərin qəbzləri var?

– Yox, – qadın təəccübləndi, – yəqin, Çarli onları haradasa saxlayır.

– Endi, mən heç nə başa düşmürəm.

– Gözlə dedim, Stiv, – Hovard bir anlıq susub nəyisə qoy-götür etdi, burnunu çəkərək dedi, – qəbzlər harada saxlanıla bilər?

– Bilmirəm, detektiv, – artıq qadın özündən çıxırdı, – siz onu indi də oğurluqda ittiham edirsiniz?

– Yox. Sadəcə, suala cavab verin, xanım Neş. Axırıncı qəbzi nə vaxt görmüsünüz?

– Hmmm, üç-dörd ay əvvəl, deyəsən. Axı bunun mövzu ilə nə əlaqəsi var?

– Deyəsən, elə dörd ay əvvəl siz ilk dəfə yoldaşınızın sizə xəyanət etdiyini hiss etmisiniz.

Lizi Neş pomidor rənginə çaldı. Heç bir şey demədi, heç cəhd etmədi. Başını aşağı salıb dodaqlarını dişlədi. Saçları gözlərinin önünə töküldü. Bu vəziyyət onun qədər olmasa da, Ferrelli də şoka sala bilmişdi. Heyrətləndirici əsas məqam Hovardın bu nəticəyə gəlməsi idi. O, üzünü detektivə tərəfə çevirdi, simasındakı özündən razı ifadəni seyr etdi.

– Əvvəllər səhv etdiyimi düşünürdüm, sonra isə o, evə gəlməməyə başladı. Vəziyyət daha da pisləşdi. Məndən soyudu. Artıq fikrində başqası vardı. Əmin idim. Bir neçə həftə biz, ümumiyyətlə danışmadıq. Hər şeyin bitdiyini düşünürdüm, ancaq bir gün o, ağlayaraq qapını döydü. Hər şeyə görə peşman ol-

duğunu, axmaqlıq etdiyini etiraf etdi, – artıq qadın ağlayırdı, – onun səmimiyyətinə inanırdım, çünki o və mən kollecdən bir-birimizi sevirdik, bu səhvində isə mənim də günahlarım az deyildi. Hər gün eyni şeylərlə uzun müddətdir ki, canını sıxır, bezdirirdim. Uğursuz biri olduğunu dəfələrlə üzünə vurmuşdum. Bu səbəblərdən də onu bağışladım. Hər şey qaydasına düşdü. Qəfildən isə axırıncı hadisələr. Çarlinin bu hərəkətinin səbəbini hələ də bilmirəm.

– Çarlz sizdən nə vaxt üzr istədi? Xatırlayırsınız?

– Keçən ayın sonu.

– Bu qədər kifayətdir, xanım Neş. Dəstəyinizə görə minnətdarıq, – Hovard ayağa qalxıb hörmət mənasında başını aşağı əydi, başqa heç nə demədən oranı tərk etdi. Ferrell də qadınla sağollaşıb detektivin arxasınca getdi. Ferrell və Neş detektivin etdiyi hərəkətlərdən heç nə anlamamışdılar.

Elizabet Nikolz artıq ikinci saat idi ki, kompyuterinin qarşısından ayrılmırdı. Növbəsinin bitməsinə baxmayaraq o hələ də şəhər sakinlərinin databazasını araşdırırdı. Növbəti hədəf hansı mahnı, hansı nömrə birlə əlaqəliydi? Görəsən ölüm tarixləri ilə seçilmiş "NÖMRƏ BİRLƏR" arasında hansısa əlaqə mövcud idi? Maklavskinin dediyi kimi cinayətkarın OKP olduğu nəzərə alınsa, bu adam növbəti hədəfi hansı əlamətə görə seçəcəkdi. Dörd milyona yaxın Los-Anceles əhalisi arasından daha kimlər onun qurbanına çevriləcəkdi?

Yaxşı bəs birdən o hamını öldürməsə necə? Bu fikir qəfildən onun ağlına gəldi. Axı indiyə qədər ölənlər

hamısı on səkkiz yaşdan yuxarı adamlardır. Görəsən, bu, sadəcə təsadüfdür, yoxsa dahi cinayətkarın növbəti taktiki gedişi? Bu sual üzərində saatlarla baş yorub sonda nəticəsiz qalmaq olar. Nikolz qeyd dəftərindən bir vərəq çıxarıb qarşısına qoydu. Göy qələmlə kağızın üstünə qalın xətt çəkdi. Qələmi dəyişərək sol kənardan üç barmaq məsafə ayırıb qırmızı qələmlə yağlı nöqtə qoydu, üzərinə Ben və nömrə birə uyğun tarixi qeyd etdi. Sonra isə növbə ilə digər mahnıları göy xəttin üzərinə əlavə elədi. Bilərəkdən mahnılar arasında boşluqlar buraxıb əmələ gələn boşluqları düzəltməyə çalışdı. Nəticəyə kifayət qədər fərqli və ətraflı qrafik çıxdı.

Əllərindəki məlumatlara əsasən ilk ölüm Drü Kempellin hədəf olduğu Ben ilə başlayırdı. Ardınca isə Gibsonla Smitin ölümü ilə nəticələnən Black or White, Rebekka Bilə həsr olunmuş Man in the mirror, Çarlz Neş uğursuzluğu ilə nəticələnmiş Beat it, külə dönmüş Peic Kameronlu Dont Stop Till You Get Enough və sonda The Way You Make Me Feel mahnısının tarixinə uyğun gələn Piter Staric. Bu ardıcıllıq nəyə əsaslanır axı? Mahnıların burada rolu var, yoxsa yalnız onların rəqəmlərdən ibarət statistikalarının? Bu sxem hansı alqoritm üstündə qurulmuşdu? Mahnıların davam etmə müddəti ola bilməzdi, çünki ən qısa mahnı Ben olsa da, The Way You Make Me Feel mahnıların bəzilərindən daha çox davam edir. Deməli, burada davamiyyətlə bağlı bir şey yoxdur. Bəs onda başqa hansı rəqəmli məntiq burada yer alır? O, diqqətini

toplayıb xəttin üzərindəki "NÖMRƏ BİRLƏR"i sıra ilə kənara qeyd etdi.

**1,12,10,5,2,9**

Geridə yeddi fərqli rəqəm qalır. Fərqli yeddi nömrə bir. Növbədə nə gəlirdi bəs? Daha doğrusu neçənci nömrə bir? Demək, Maykl Ceksonun altı alboma 12 nömrə biri var. Onlardan beşi Bad, iki-iki Off the Wall və Thriller, albom başına bir nömrə bir isə Ben, Dangerous, History albomlarına düşür. Sonda isə M.J-in solo albomlarından heç birinə daxil olmayan Say Say Say. Ben'lə Dangerous'un nömrə bir mahnısı Black or White onun cızdığı xətdə ilk iki nöqtə idilər. Nikolz bu sualın cavabını tapacaq qədər məlumata sahib deyildi, ancaq fərqli bir şeyi yoxlamaq qərarına gəldi. Kompyuterdə növbəti rəqəm kombinasiyası qeyd etdi.

**1995.09.13.**

O, LAPD arxivinə axtarış verdi. Son bir ildə bu tarixdən iki nəfər dünyasını dəyişmişdi. Onlardan biri öz ailəsi ilə birlikdə Kolorado yollarından birində qəzaya uğrayıb. Doqquz ay əvvəl. İkincisi isə keçən ilin əvvəli vəfat edib. Valideynləri tərəfindən otağında ölü tapılıb. 16 yaşlı gənc, mənbələrə görə, iki dəfə narkoloji klinikada orta müddətli müalicədən keçib, lakin sonda depressiv davranışlarına son verə bilməyib və otağında tavandan asılmış tapılıb.

Yox, bu nəticələr onun işinə yaramırdı. Cavabı başqa yerdə axtarmalı idi, amma harada? Nikolz polis intuisiyasına güvənirdi. Bu hiss isə ona sonuncu nömrə bir olan "You Are Not Alone"un öldürülmədiyini deyirdi. Bu tarixdən olanların on səkkiz yaşı tamam

olmamışdı. Nikolz isə M.J.-in ölüm siyahısında uşaqların olmadığından, demək olar ki, əmin idi. Buna görə də *Google*-a daxil oldu, axtarış lövhəsində özünə lazım olan açar sözləri köçürdü.

**1995.09.13. Happiness. Luck. Success.**

Doqquz milyondan artıq nəticə. Bu qədər linki yoxlamaq həddən artıq çox vaxt alardı. Axtarış dairəsini qısaltmaq üçün o, açar sözlər siyahısına ABŞ sözünü də əlavə etdi. Nəticələrin sayın səksən iki minə qədər azaldı, ancaq hələ də lazım olduğundan daha geniş idi. Nikolz saata baxdı. Səkkizə yaxınlaşırdı. Yorulmuşdu. Özü-özünə növbəsindən sonra bu qədər işdə qalan tək polis olduğunu düşündü.

Tək!

You Are Not Alone

Əlbəttə, axtarış çevrəsini azaltmaqdan ötrü o, tək, yalnız, kimsəsiz kimi sözlərdən istifadə etmək olardı. M.J. hər nömrə birdə mahnıdan bəzi atributları əks etdirib. Black or White da qurbanlarının dəri rəngiylə yunan hərflərini, Man in the mirrorda qurbanın sinəsindən asılmış güzgünü. You Are Not Alone mahnısında isə əsas atribut tənhalıqdır.

Nikolz lazımı açar sözləri əlavə edərək növbəti dəfə axtarış verdi. 2652 nəticə. İndi isə növbəti və riskli addım gəlirdi. O, sonuncu açar söz olaraq axtarışa Los-Anceles sözünü əlavə etdi. Nəticələrin sayı əlli üçə endi. Artıq gözləri qaşınan Nikolz səbrlə nəticələri gözdən keçirdi.

Los-Ancelesdəki avtoqəzada vəfat etmiş tək şəxs 1995.11.23 təvəllüdlü...

Yox bu nəticə uyğun gəlmir növbəti.

1995-ci ildə Ölüm dərəsi ətrafında tapılmış qazıntı hal-hazırda ABŞ-ın Los-Anceles şəhərində saxlanılır. Nadir artefakt növündə yeganə və tək nümunə olaraq qalmaqdadır. Xoşbəxtlikdən səhrada eroziyaya uğrayaraq öz kimyəvi və fiziki xassələrini itirməyib.

Uğur onun üzünə güldü.

ABŞ vətəndaşı kimsəsiz Elmor Riçsitin hesabına on beş min ABŞ dolları köçürülüb. Los-Ancelesdəki "Hollygrove" Kimsəsizlər Evində qalan, 1995.09.13 doğumlu bəxtəvər uşaq on səkkiz yaşı tamam olduqdan sonra onun üçün nəzərdə tutulmuş miqdarın sahibi olacaq.

Axmaq gülüş Nikolzun üzünü işğal etdi. O, xəbərin yayımlanma tarixinə göz atıb iki ay əvvələ təsadüf etdiyini öyrəndi. Sərf etdiyi vaxt hədər getməmişdi. Bu nəticəni əldə etməyə nəinki üç, hətta on üç saat belə dəyərdi. Nikolz qulaqlıqlarını taxıb bir neçə mahnı dinləmək qərarına gəldi. Musiqi oynadıcı proqramı işə salıb stuluna söykəndi. Mahnı siyahısındakı ilk mahnı eşidildi. Bu "Earth Song" idi. Nikolz gülümsədi, əlini klaviaturaya uzadıb mahnını dəyişdi.

– Bağışla, Maykl, amma bu gün yox.

# 23

## 22 oktyabr 00:30

**Keçən dəfəkinə bənzər prosedura ilə Teylor merin "Hummer"inə qalxdı. Bu görüşlərində mer daha yorğun və yuxusuz görünürdü. Yenə də səmimiyyətini saxlayan mer Aaron Keyn onun əlini sıxıb əyləşməsini gözlədi. Azacıq utanan Teylor oturduqdan sonra mer də hərəkəti təkrarladı. Gözlərini süzərək Teyloru süzdü. Bu baxışın nədən ötrü olduğunu anlamaq çətin deyildi.**

– Endi Neşin yoldaşını sorğulamağa yollandığı üçün gələ bilmədi, həm dünən çox ağır gün keçirmişik, cənab mer.

– Başa düşürəm, agent Stivensə görüşü təxirə salmağını demişdim, ancaq o da yaman narahatdır. Hər şeyin tezliklə bitməsini istəyir, – mer cib dəsmalı ilə alnını sildi, – indi nə edəcəyik, Frenk? Ağlınızda nələr var?

– Bilmirəm, cənab mer. İnanın ki, ağlıma heç nə gəlmir. Adamlarım əlimdən gələni edir, ancaq hələ də tutarlı nəticələr üzə çıxara bilməmişik. Ən azından cinayətkarın istədiyindən artıq heç bir nəticə əldə etmirik.

– Sizin əməyiniz göz qabağındadır. Gördüyünüz bütün işlərə görə minnətdaram. Borclu deyildiniz, Frenk, – mer dərindən nəfəs aldı, – çinlilər barədə düşünmüsünüz?

– Bəli, ser. Onlar mənimlə Endi üçün baş ağrısı olacaqlar.

– Həm də necə. Çin səfirliyi sizin digər binaya ordersiz daxil olduğunuz üçün cəzalandırılmağınızı tələb edir. Onlara Əyalət Prokurorundan icazə alındığı deyilsə də, başa düşmək istəmirlər. Hələ Yaşıl Əjdahalardan heç danışmıram. Məsləhət edərdim ki, qıyıqgöz adamlardan uzaq dayanasınız.

– Haqlısınız, ser. Belə də edəcəyik, amma çinlilərin bu məsələ ilə birbaşa əlaqələri yoxdur.

– Bilirəm, Endinin Marka yolladığı izahatı oxumuşam. Sizcə, bu adamların polislə çin bandasını düşmən etməkdə məqsədi nədir?

– Ser, – Teylor tonunu bir qədər sərtləşdirdi, – mənim fikrimcə, bu adamlar insanları səbəbsiz yerə öldürmürlər. Düzünü desəm, artıq onların sırf qatil olduqlarına belə tam inanmıram. İlk əvvəllər bu cinayətlərin sadəcə bir psixopat fanat oyunu olduğunu düşünürdüm, lakin artıq əminliklə deyə bilərəm ki, düşmənimizin məqsədi var. Bizim hələ ki xəbərimiz olmayan məqsədi. Bir neçə saat öncə adamımız çavuş Nikolz mənə belə bir şey göndərib.

Teylor mailinə gəlmiş məktubun çap olunmuş variantını merə uzatdı. Keyn diqqətlə kağıza baxdı, məqaləni oxuduqdan sonra başını qaldırıb sakitcə

pəncərədən bayıra göz gəzdirdi. Heç nə danışmırdı, sadəcə baxırdı.

– Ser, bu uşağın doğum tarixi You Are Not Alone – on üçüncü nömrə bir ilə üst-üstə düşür, – heç bir şey deyilmədən Teylor sözə başladı, – bu hadisə ilk cinayətdən üç həftə əvvəl baş verib və uşaq öldürülməyib. Səbəb isə uşağın kimsəsiz, ya da yetkinlik yaşına çatmamasıdır.

– Əminsiniz?

– Statistik olaraq tam yox, amma bir polis kimi yüzdə yüz, cənab mer. Bu, onun imzasıdır. Həmən imzanı isə artıq bir ömür unutmayacağımdan əminəm. Onun məqsədi kimisə doğum tarixinə görə öldürmək deyil, əgər belə olsa idi, o, öz cinayətlərini bu qədər təmtəraqlı şəkildə törətməzdi.

– Axı bunları niyə edir? Hədəfi mənəmsə, digər on üç nəfərin bununla nə əlaqəsi var? Axı niyə məni öldürərək işi bitirmir? Bu qədər oyun nəyə gərəkdir axı?

– O, sizi alçaltmaq istəyir. Sizi öldürmək kimi fikri yoxdur. Bu oyunlarla iradənizi yoxlayır, geci-tezi sizi qırılma nöqtəsinə çatdıracaq. Tarixlərə fikir verin, on gün sonra qubernator gəlir. O isə sizi onunla görüşə hazırlayır. Belə düşünür ki, sizi insanların gözündən salaraq ölməkdən betər edəcək. Zənnimcə, o, təltiflənmə mərasiminə qədər öz işini bitirməyi planlaşdırır. Məncə, bir neçə gün içərisində bizi daha da ağır sınaqlar gözləyir.

– Fikrində yanılmayıb. Frenk, daha mən buna dözə bilmirəm, – merin gözləri parlasa, yanaqları azacıq

titrəsə də, o, emosiyalarını üstələdi, – onların neçə nəfər olması barədə fikirləriniz var?

– Ən azı iki və yaxud üç nəfərdən ibarət bir qrupla qarşı-qarşıyayıq. Cinayətkarların sayı daha da çox ola bilər. Mütəşəkkil qrup, ya da sindikat. Əmin deyiləm. Endi mənlə əlaqə saxlayıb qrup üzvlərindən birinin qadın olduğunu dedi. Sabah bu barədə ətraflı danışacaq.

– Yaxşı. Heç olmasa, bu xəbər sevindirici oldu. Sabah nə etməyi planlaşdırırsınız, Frenk?

– Geridə qalan altı nömrə biri araşdıracağıq. Bəlkə, çinliləri yenidən sorğuladıq, Endinin dediyi kimi qrupun qadın üzvünün olduğunu düşünürük, amma telefonu içəri keçirən qrup üzvlərindən biri deyil, güman ki.

– Bəs kim? – mer təəccübləndi.

– Dünən çinlilər həyat qadınlarının xidmətindən yararlanıblar, – sözləri diqqətlə seçən Teylor bir qədər ləngidi, – düşünürük ki, telefon içəri pullu xidmət göstərən qadınlardan biri tərəfindən göndərilib. Sonra isə qrup üzvlərindən biri, "Yaşıl Əjdaha"ların lideri Çenkə zəng vuraraq bizim ora reyd edəcəyimizi deyib. Maraqlısı budur ki, çinlilər qadınlarla biznes əlaqələri qurmurlar. Bunu banda üzvü Xin San deyib. "Yaşıl Əjdaha"lar qadınlara bir o qədər də inanmırlar. Ona görə də Çenklə əlaqə saxlayanın kişi olduğunu düşünürük. Buradan da bir neçə maraqlı fərziyyə ortaya çıxır.

Aaron Keyn razılıq əlaməti olaraq başını yellədi. Teylor ətrafına baxaraq maşını gözdən keçirdi,

"Hummer"in salonu kifayət qədər avanqard üslubda dizayn olunmuşdu. Əsl siyasət adamına məxsus bir maşın. Daxili interyer olaraq, əlbəttə ki. Xaricdən isə əsl tankı xatırladan bir amerikan klassikası. Buna bənzər "Hummer"i Teylor axırıncı dəfə "G.İ.Joe: Rise of the Cobra " filmində görmüşdü. İndi detektivi maraqlandıran sual bu zirehli maşında da pulemyotların olub-olmamasıydı.

Ancaq pulemyotlardan vacib sual isə Teylorun ağlından çıxmırdı. Gözlədiyindən daha çox davam edən sükutu pozmaq üçün o dedi:

– Cənab mer, yanılmıramsa, məni bura çağırmağınızın əsas məqsədi bu deyil, – mer diqqətlə ona baxdı, xəfifcə gülümsədi. Bu gülüşdən bir az ürəklənən Teylor davam etdi, – burada olmağımın səbəbini öyrənə bilərəm?

– Siz hər dəfə danışanda seçimimin necə dəqiq olduğuna inamım daha da artır, Frenk. FTB və MKİ -nin sizin kimi polislərə ehtiyacı var.

– Məncə, hələlik heç LAPD-yə də maneçilik törətmirəm, cənab mer.

– Sizi gələcəkdə uğurlu işlər gözləyir, detektiv, – təşəkkür əlamət olaraq Teylor başını yellədi, mer sözünə davam etdi, – indi isə keçək əsas məsələyə, – Aaron Keyn plastik butulkadan bir neçə qurtum vurdu, firuzəyi dəsmalla ağzını sildi, yumruğu ilə yavaşca pəncərəni döydü. Qapı açıldı, agent Mark Stivens içəri keçdi, Teylorun yanında yerini aldı. Mer gülümsəyərək onlara baxdı, – Mark, zəhmət olmasa, başla.

Agent Stivens cibindən şəffaf qovluq çıxarıb ağzını açdı, içindəki vərəqi götürüb intonasiya isə oxumağa başladı, – iki il əvvəl texniki təchizat şöbəmizdə – yəni indi Neş çalışan vəzifədə Kortez qardaşları çalışırdılar. Amoroso və Ambroso Kortez. Əkiz qardaşlar. Kifayət qədər istedadlı və işləməyə, qabağa getməyə can atan əkiz qardaşlar. Bu oğlanların uğurları mənim də qulağıma çatmışdı. Bir neçə ay keçdikdən sonra isə mühasiblər müxtəlif hesablardan kiçik miqdarlı pulların çıxarıldığını aşkar etdi. Vaxt irəlilədikcə oğurlanan pulların həcmi artmağa başladı. Çətinliklə də olsa, biz onların fırıldağını ifşa edə bildik. Qardaşlardan biri günahı boynuna götürdü və səkkiz aylıq həbs cəzasına məhkum oldu. Amoroso Kortez yeddi ay əvvəl azadlığa çıxıb, – Stivens gözlərini vərəqdən çəkib dedi, – Hovardın məlumatına nəzərən elə ilk nömrə bir olan Ben cinayəti də bundan bir az sonra baş verib.

– Bu sadəcə təsadüf də olar bilər, – Teylor dedi.

– Hə, haqlısınız, Teylor, amma, – Stivens əlini yenidən cibinə apardı, telefonunu çıxararaq bir neçə əmri yerinə yetirdikdən sonra onu detektivə uzatdı. Ekranda səs-küylü şəkildə ad günü tortu üfürən iki nəfər peyda oldu, – Kortez qardaşlarının doğum günü. Diqqətlə izləyin, Teylor.

Qardaşlar eyni anda tortu üfürdülər. Alqış sədalarından sonra dostları növbə ilə onları təbrik etdilər. İçki, tütün və əyləncə. Əsl gənc nəslə məxsus səs-küylü doğum günü. Təbriklər bitdikdən sonra qardaşlardan biri sağlıq dedi. Sonra isə Maykl Cekso-

nun You Are Not Alone mahnısı altında rəqs başladı. Qardaşlar öz tərəf müqabilləri ilə R.Kellinin bəstəsi altında oynadılar. Stivens yazını on dörd dəqiqə irəliyə apardı və yeni səhnədə daha ritmik rəqslər əks olunurdu. Bu dəfə isə onlar qrup şəklində Maykl Ceksonun They Dont Care About Us mahnısı altında rəqs edirdilər.

– İndi nə düşünürsünüz, Teylor? – agent Stivens mətnaltı təkəbbürlə soruşdu.

– Dəqiq bir şey söyləmək çətindir, agent Stivens. İndi bu qardaşların harada olduğu barədə xəbəriniz var?

– Son məlumatlara görə Nyü-Orleansda yaşayırdılar, ancaq biz artıq onların ünvanı yoxlamışıq. Dedi-qoducu qonşularının dediyinə görə iki aydır ki, qardaşlar evə gəlmirlər. Qonşularının onlar haqqında fikirləri, ümumiyyətlə, qənaətbəxş deyil, – Stivens gülümsəyərək Teylora baxdı, – deyəsən, bu faktlar şübhələrinizi ortadan qaldırdı, detektiv.

– Demək olar ki, – çiyinlərini yelləyən Teylor etiraf etdi.

– O halda, icazə verin, deyim ki, bu oğlanların yanına bir neçə dəfə yaşıl saçlı asiyalılar gəlib.

Teylorun beyni artıq bu qədər yükü daşıya bilmirdi. Anidən necə də yatmaq istədiyini anladı, ancaq hər ötən saniyə ilə onlarla oynayan düşmən daha da irəliyə keçirdi. Görəsən, növbəti addım nə olacaqdı? Bu gecə daha hansı nömrə bir onun ovuna çevriləcəkdi? Bu qara dəliyin sonu hara gedib çıxırdı? Daha nə qədər Teylor balaca uşaq kimi özünü aldadacaqdı?

– Hər şey aydındır, agent Stivens. Təşəkkür edirəm, – Teylor başını yellədi, – indi məndən nə etmək tələb olunur? – bu an "Hummer" yerindən götürüldü. Onların görüşünün sona yaxınlaşdığına aid bir işarə.

– İlk növbədə "Yaşıl Əjdaha" üzvləri ilə bir də danışın. Bizə Kortez qardaşları ilə münasibətləri lazımdır. Fikrimcə, çinlilərə bizim reydimizi də elə onlar deyiblər. Kortezlər üçün polis databazasına daxil olmaq uşaq oyuncağıdır. Yəqin, sizin dediyiniz, köstəbək filan da onların əməlləridir.

– Çox güman, haqlısınız, agent Stivens. Biz sabah Kortez qardaşlarının adlarını axtarışda olanlar siyahısına əlavə edərik.

– Çox gözəl, Frenk, – mer Keyn dedi, – indi isə başqa bir vacib məsələyə toxunmaq istəyirəm.

Başqa bir vacib məsələ? Növbədə nə gəlirdi? İndi deyiləcək şeyi, görəsən, Teylor həzm edə biləcəkdi mi? Bu qədər şey niyə üst-üstə yığılırdı ki? Bundan pis nə olacaqdı ki? Teylor bütün bu cavabsız sualları beynində susdurub diqqətini topladı.

– Sabahdan "NÖMRƏ BİRLƏR" əməliyyatına FTB işçiləri də qoşulacaq. Büro işçilərini nə qədər çalışsam da, fikirlərindən döndərə bilmədim, – bu hadisə heç merin də ürəyindən olmamışdı. Üz ifadəsi bunu büruzə verirdi, – ancaq mən onlarla danışmışam, siz də əməliyyatda iştirak edir və onlardan heç bir əmr almırsınız.

Həqiqətən də, bugünkü xəbərlərin ən pisi məhz bu idi. Özündən asılı olmadan başını yelləyən Teylor sakitcə, – yaxşı, ser, – dedi.

– Hər şeyə görə təşəkkürlər, Frenk. Sizə çox minnətdaram, – maşın Teylorun evindən bir neçə məhəllə kənarda dayandı. Mer əlini uzadaraq onunla görüşdü, – özünüzdən muğayat olun, nəsə lazım olsa, Mark qulluğunuzda həmişə hazırdır.

– Təşəkkürlər, cənab mer. Gecəniz xeyrə. Sağ olun, agent Stivens.

Teylor son həftə ərzində ikinci dəfə "Hummer"in necə itdiyinin şahidi oldu. Səkiboyu kiçik addımlarla, tələsmədən evinə yollandı. Heç bir şey haqqında düşünmürdü. Heç cəhd də etmirdi. Yalnız tezliklə yumşaq yatağına çatmağın xəyalını qururdu. Sabah daha ağır gün gələcəkdi. Dəfələrlə ağır və qarışıq. Labirintək hafizələrə həkk olunacaq bir gün. Sevindirici tək hal isə onun sabah Reyçel Şilds ilə görüşməsi idi.



# 24

## 22 oktyabr 10:10

**– Sabahın xeyir, Xin. Nə var, nə yox? Darıxmamışdın?**

**– Yenə siz? Nə istəyirsiniz? Mən sizə hər şeyi demişəm, – Teyloru görən çinlinin gözləri kəlləsinə çıxdı.**

**– Dostumun kefini soruşa bilmərəm məgər? – detektivin üzündə hiyləgər gülüş peyda oldu.**

**– Bu dəfə də mənə toxunsanız, cavab verməli olacaqsınız. Məni məcbur etməyin.**

– Yaxşı da, Xin. Axı mən bura ağ bayraqla gəlmişəm. Görmürsən? – Teylor həmkarları Hovardla Ferrelli işarə etdi, – bax, şahidlərim belə var.

– Məndən nə istəyirsiniz?

– Heç nə. Səni dostlarımla tanış etməyə gəlmişəm, Xin. Çavuş Ferrell və detektiv Hovard. Detektivlə dünən qısa söhbətin olub artıq. İndi isə onlarla səni baş-başa buraxıram. Bir-iki sual verib gedəcəklər. Uğurlar, uşaqlar, – Teylor dönüb qapıya tərəf getdi, bayıra çıxarkən, – qorxma, San. Çox incitməyəcək.

Teylor qapını bağlayıb digər otağa keçdi. Nikolz artıq oradaydı. O, Teylora plastik stəkandakı qəhvəni uzadıb üzünü pəncərəyə çevirdi. Digər otaqdan güzgü kimi görünən pəncərə vasitəsi ilə bu otaqdan sorğulama izlənilirdi.

– Necəsən, Liz? – gözünü pəncərədən ayırmayan Teylor soruşdu.

– Sağ ol, Frenk. Bəs sən? – Nikolzun yanaqları azacıq qızardı.

– Normal. Liz, mənə bir iş barəsində kömək edə bilərsən?

– Əlbəttə. Buyur, eşidirəm.

– Bu axşam bir nəfərlə görüşməliyəm, – Teylor gülümsədi, – əsas nömrəmi söndürəcəyəm. Digərini isə heç kəs bilmir. Heç Endi də. Əgər çox vacib şey baş versə, mənimlə əlaqə saxlayarsan?

– Hə, niyə də yox? Sevə-sevə. Deyəsən, gündəlik həyatına bir az rəng qatmısan?

– Hələ tam yox. Amma hazırlaşıram.

Nikolz gülərək başını yellədi, amma həqiqətdə eşitdiklərinə ürəyi yanır, hislərini boğaraq daxilində ağlayırdı. Bundan sonra onlar heç nə deməyib həmkarlarını seyr etdilər. Bu səssizlik Nikolzun daxilini məhv etsə belə.

– San, Maykl Ceksona qulaq asırsan? – ilk sual Ferrelldən gəldi.

– Bəzən. Çox da aram yoxdur.

– Tanışlardan kim isə qulaq asır bəs?

– Mən nə bilim? – San donquldandı.

– Çenkin dostları arasında kimlər qulaq asır?

– Onda de görək, əkizləri tanıyırsan?

San bir anlığa duruxdu, diqqətini toplayıb, – tanımıram, – dedi sakitcə.

Yalan idi və bunu ifşa etmək problem yaratmırdı. Hovard özünü bilməzliyə vurub bacardığı qədər təbii tonla sözə başladı.

– Xin, çində qohumların var?

– Sizə cavab vermək məcburiyyətində deyiləm, – San çiyinlərini tərpətdi.

– Yaxşı. Bəs onların yanına qayıtmaq istərdin?

Bir qədər tərəddüddən sonra çinlidən qeyri-əmin səslə – hə, – cavabı gəldi. Üz ifadəsindən oradakı yaxınları üçün necə darıxdığı aydın olurdu. Bir anlığa hislərinə məğlub olan San yenidən üz-gözünü turşutdu, – sizin suallara cavab vermək istəmirəm.

– İstəməmək ən təbii haqqındır, – Hovard stulu çəkib onunla üzbəüz tərəfdə əyləşdi. Barmaqlarını ritmik şəkildə oynatdı, – San, bəs ailən üçün darıxırsan?

Qısa səssizlik. Xin San detektivə baxıb yavaşca başını yellədi və onun sözlərini təsdiq etdi.

– Şahidlərin müdafiəsi proqramı barədə eşitmisən? – çinli yenidən başını yellədi. Detektiv sözünə davam etdi, – bilirəm ki, əkiz qardaşlar barəsində nəsə bilirsən. Əgər bizə lazımi qədər kömək etsən, cəza müddətin bir xeyli azalar. Özün bilirsən, bu işlərin necə getdiyini. Ona görə də sənə yenidən düşünməyini təklif edirəm. Yaşılbaşlardan sənə bir xeyir gəlməz. Gecitezi hər şey bitəcək və sən heçnəsiz qalacaqsan. Yaxşı düşün ki, sonra peşman olmayasan.

– Oldu, – deyərək çinli başını aşağı saldı, – suallarınızı verin, detektiv, amma bir şərtim var.

– Eşidirəm, San, – detektiv səbirli tonla söylədi.

– Ailəm Şanxaydadır. Onlarla əlaqə saxlayıb təhlükəsizliklərini təmin etməyinizi istəyirəm.

– Çalışarıq. Sənə yüz faizlik oldu cavabı verə bilmərəm. Ona görə də səmimi olacağam. Çalışarıq.

– Yaxşı. Razılaşdıq.

– Deməli başlaya bilərik. Əkiz qardaşlar barədə nə bilirsən? – Ferrell öz qeyd dəftərini açdı.

– Həqiqi adlarından xəbərim yoxdur, biz onları Mik qardaşları olaraq tanıyırıq. Çenk ilə haradasa yeddi-səkkiz ay bundan əvvəl tanış olublar. Əvvəllər, biz onların kompyuter bacarıqlarından istifadə edərək özümüz üçün təhlükəsiz əlaqə sistemi yaratdıq. Çata bənzər bir şey, amma bir az daha fərqli. İşlərindən razı qalmışdıq. Daha sonralar isə Çenk onlarla əlaqələri genişləndirdi.

– Genişləndirmək deyəndə nəyi nəzərdə tutursan? Həm siz onlarla necə və yaxud kimin köməyi ilə tanış olmuşdunuz? – Ferrell soruşdu.

– Səhv etmirəmsə, müştərilərimizdən biri məsləhət vermişdi.

– Nə tip müştəri? Bəs sonra necə oldu, bu qardaşlarla münasibətləriniz yaxşılaşdı?

– Xəbərim yoxdur. Mən yalnız bəzi əməliyyatlara nəzarət edirəm, müştərilərin bir çoxunu yalnız Çenk özü tanıyır, – Ferrell başını yelləyib razılıq verdikdən sonra çinli sözünə davam etdi, – qardaşlardan bir sıra başqa işlərdə istifadə etməyə başladıq. Xüsusən

də, meksikalılarla münasibətlərin inkişafında pay sahibi oldular. Pillələri qalxaraq bandamızda özlərinə məxsus yer tutdular. Əsas bildiklərim bunlardır.

– Onlar harada yaşayırlar? Başqa nə bilirsən? Görüşdükləri, iş əlaqələri olan qadın filan, kim isə var?

– Mən onları çox görməmişəm, amma “Flower 8” küçəsi tərəfdə qalırlar, məncə. Onlarla birlikdə heç kəsi görməmişəm.

– Bəs onları musiqiyə qulaq asan görmüsən? – bu suala veriləcək cavab çox əhəmiyyətli rol daşıyırdı.

– Hə, həmişə köhnə rocka, popa qulaq asırlar.

Frenk Teylor pəncərənin digər tərəfindən hər şeyi diqqətlə izləyirdi. Çinlinin üz cizgiləri və mimikasından yalan danışmadığı hiss olunurdu, amma onun verdiyi məlumatlar o qədər də böyük məna kəsb etmirdi. Bundan sonra edəcəklərinin sxematik planını beynində cızan Teylor ortağına zəng vuraraq işi yekunlaşdırmasını dedi və polislər birlikdə Hovardın otağına yollandılar.

Nikolz və Ferrell stullarda əyləşmiş, Hovard öz masasının başına keçmişdi. Teylor isə pəncərədən bayıra baxaraq qəhvəsindən qurtumlayırdı. Komandası da onun kimi artıq “NÖMRƏ BİRLƏR” əməliyyatındakı uğursuzluqlarından təngə gəlmişdi. Bunu nə qədər gizlətməyə çalışsalar da, Teylor uşaq deyildi. Doğru-düzgün yatmayan Hovardın üzü solmuş və yanaqları içəri basılmışdı. Nikolz isə yorğunluqdan üzünün makiyajını həmişəki kimi səliqəli etməmişdi. Ferrell digər əməkdaşlardan daha da betər vəziyyətdə idi. İş problemləri bir yana, yoldaşı Hanna ilə son dövrlərdə

yola gedə bilməməsi onu yarpaqları tökülmüş, quru ağaca bənzətmişdi. Bəs, görəsən, Teylorun özü nəyə oxşayırdı? Başqalarını təhlil etmək asan olsa da, iş insanın özü haqqında nəsə deməyinə gəldikdə adam çətinlik çəkir.

– Hə, Endi. İndi isə başa sal görək, Neşin yoldaşına xəyanət etməsi məlumatını nədən götürdün? – ilk danışan Ferrell oldu.

– Bu, mənə də maraqlıdır, – Teylor çavuşunun təklifinə dəstək verdi.

– Yaxşı. Siz istəyən kimi olsun, – Hovard stəkanını masanın üstünə qoydu, – Neşin bir neçə müxtəlif yerlərdə borcları var, amma məncə olub və biz onu tanıyanda artıq heç kimə borcu qalmamışdı. Soruşacaqsınız ki, niyə olub? Əvvəllər ailə hər ay min çətinliklə borcları ödəyirmiş. Sonradan isə Neşin işində heç bir dəyişiklik olmadan borclar barəsində söhbətlər seyrəkləşir. Axı Neş həmin maaşı alırsa, bu necə mümkündür?

– Özünə əlavə iş tapıb? – Nikolz fərziyyəsini irəli sürdü.

– Məntiqlidir, lakin Lizi Neş öz ifadəsində belə bir şeyi qeyd etməyib. Deməli, bu variantı siyahıdan çıxardıq. Başqa kimin nə kimi ideyası var?

– Onu pulla təmin edən biri, – Teylor üzünü onlara tərəf döndərdi.

– Haqlısan, Frenk. İndi isə gəlin düşünək, onu kim pulla təmin edə bilər?

– Başqa qadın. Burası aydındır artıq, amma sən bunu necə bildin? – Ferrell soruşdu.

– Əslində, mən bunu xanım Neşdən söz almayana qədər bilmirdim. Sadəcə, güman edirdim. Sonra isə Neş fikrimi təsdiqlədi.

– Çarlzın görüşdüyü qadının bizim işlə əlaqəsi olduğunu nəyə əsaslanaraq deyirsən, Endi?

– Liz, Neş özünü atmağa hazırlaşanda mən onun yanında idim və sizə ilk gündən burada qəribə şeylərin olduğunu deyirəm. İndi bütün konsepti sizə danışıram, nəticəni isə özünüz çıxarın.

M.J.lərdən biri qadındır. O, "Los-Angeles City Hall"da çalışan Neşi öz tələsinə salır. Bilirik ki, qadınlar bu işin mahir ustalarıdırlar. Üstəlik Çarlz Neş də ona lazım olan "NÖMRƏ BİRLƏR"dən biri. Üzərinə götürmə, Liz, – kiçik bir fasilə, – bir müddətliyinə Neş həyatını ona həsr edir. Nəzərə alaq ki, qadının kifayət qədər pulu var və sıradan bir texniki təchizat işçisinə qarşı hislər bəsləyir. Bundan gözəl nə ola bilər və bundan kimə zərər gələr axı? Ən azından Neş belə düşünür. Getdikcə həmin qadınla münasibətləri yaxşılaşır və öz ailəsi ikinci plana keçir. Sonra isə M.J. özünə lazım olan şeyləri tələb etməyə başlayır. Onun sahib olduğu gücü görən Neş qorxuya düşür və əmrlərə tabe olur. Nəticədə isə o, merin assistentini zorlamaq əmri alır. Bununla da M.J. mer Aaron Keynə əsas mesajlardan birini göndərmiş olur. Dörd dildən istifadə olunaraq yazılmış məktub və kameraların gözü qarşısında Reyçel Şildsin zorlanması. Bunları etdikdən sonra isə Neşə üçüncü mesajı göndərmək, özünü binadan atmaq tapşırılır. Neş isə qorxur. Mənimlə danışanda bunu ailəsi üçün etdiyini demişdi. Görünür, onlar Neşi, həqiqətən

də, qorxutmağı bacarıblar. Mənim fərziyyəm belədir. Ona görə də cinayətkarlardan ən azı birinin qadın olduğundan əminəm. Bir fikri, yaxud təklifi olan var?

– Belə çıxır ki, bütün bağlı qapıların açarı Neşdədir, hə? – Nikolz bir qədər düşündükdən sonra soruşdu.

– Elədir ki, var. Məhz buna görə də o, özünü atmaq fikrindən dönən kimi snayper tərəfindən vurulmuşdu.

– Deməli, tək şahidimiz Çarlz Neşdir.

– Və onun komadan nə vaxt çıxacağını heç kəs bilmir. Məndən bu qədər. İndi isə işi öhdənizə buraxıram.

– Əhsən, Endi, – Ferrell dedi.

– Təşəkkür edirəm, Stiv.

Əslində bu sözlərin heç biri səmimi qəlbdən deyilmirdi. Onlar sadəcə özlərini belə apararaq Teyloru hər şeyin qaydasına düşdüyünə inandırmağa çalışırdılar. Bir-birlərinə qarşı münasibətləri isə zərrə qədər belə olsun, dəyişməmişdi. Əslində düşmən deyildilər, sadəcə lazımsız yerə bir-birləri ilə zarafatlaşmağı sevən iki həmkar idilər.

– İndi isə sənin növbəndir, Elizabet, – Hovard dedi, – on üçüncü nömrə bir haqqındakı fikirlərin maraqlıdır.

Çavuş Elizabet Nikolz dünən etdiyi araşdırmanı ətraflı şəkildə onlarla bölüşdü. You Are Not Alone haqqındakı fikirlərini dedi. Onun gördüyü işlərə yağlı hərflərlə yazılmış afərin düşürdü. Nikolz üçün isə ən böyük afərin ona qulaq asarkən Teylorun gülümsəməsi olmuşdu. O, sözünü bitirdikdən sonra Teylor dedi:

– Əhsən, Liz.

– Sağ ol, Frenk, – Nikolzun yanaqları yenidən qızardı.

– Ey, dayan görək. Mənim əhsənim haradadır bəs? – Hovard etiraz etdi.

– Deyəsən, sənin əhsənini artıq Stiv deyib, – Teylor bilərəkdən "deyəsən" sözünü işlətdi, – Liz, mənə Say Say Say ilə bağlı da fikirlərinin olduğunu yazmışdın, – Nikolz başını yellədi, – buyur, eşidirik.

– Fikrimcə, M.J. on üç nömrə birdən yalnız Maykl Ceksonun solo ifa etdiyi on iki mahnısından istifadə edəcək. Üstəlik, yaşı on səkkizə çatmamış You Are Not Alone mahnısının dırnaqarası qurbanı heç nədən iyirmi min dollar qazanıbsa, Pol Makkartni ilə ifa olunmuş duetin də nəticəsinin ən pis halda buna oxşar bir şey olacağını düşünürəm. Yox, əgər belə deyilsə, o halda, gərək, biz Ceksonun dövrünün məşhur müğənniləri ilə oxuduğu We Are The World mahnısını da bu siyahıya əlavə edək. Onda, on dörd nömrə birimiz olardı. Başqa maraqlı fakt isə M.J.in bir nömrə biri olan albomlardakı mahnıları ilk olaraq istifadə etməsidir. Baxın, birinci Ben. Ardınca isə You Are Not Alone və Black or White ilə başlayan silsilə cinayətlər. Əgər cinayətkarlar belə bir sxemlə hərəkət edirlərsə, Say Say Say nömrə biri artıq ifa olunub. Ya kim isə öldürülüb, ya da You Are Not Alone'a bənzər bir şey. Əgər, əlbəttə ki, mənim təxminim düzdürsə.

– Fikrində yanılmadığını düşünürəm, ledi, – Hovard gülümsündü.

– Liz, sən Neşin qaldığı klinikaya gecə-gündüz nəzarət edəcək patrul dəstəsinin yerləşdirilməsi ilə məşğul ol, – Teylor göstərişlərini verməyə başladı, hələ də Hovard və Ferrellə qarşı münasibəti soyuq idi, – Stiv, Endi, siz isə vaxt itirmədən Kortez qardaşları haqqında məlumat toplayın. Saat on ikidə FTB-dən adamlar gələcək əməliyyatla bağlı. Hamı iclas otağında olsun. Mən isə Nurlan və Qebriel ilə əlaqə saxlamağa çalışacağam. Görək onların təzə nə məlumatları var. Hamınıza uğurlar, uşaqlar.

Teylor ortağının kabinetindən çıxaraq öz otağına tərəf getdi. Birdən telefonuna mesaj gəldi, onu açıb oxudu və üzündəki soyuq ifadə aradan qalxdı, yerini isə ılıq və xoş təsir bağışlayan rahatlıq aldı.

Axşam saat yeddi sizə uyğundur, detektiv?

Hörmətlə, Reyçel.

# 25

## 22 oktyabr 12:04

**– Bizə əmr verə bilməzsiniz! – Hovard FTB agentlərinin üstünə qışqırdı.**

**– Detektiv, səsinizi aşağı salın, yoxsa, – agent Baçelder hədələyici tonla dedi.**

**– Yoxsa nə? Mənə hədə-qorxu gəlirsiniz? Elə bilirsiniz ki, o parlaq nişan sizə bizimlə belə rəftar etməyə imkan verir? Kim olduğunuzu düşünürsüz, lənətə gəlmişlər?**

Agentlər, Baçelder və Flint cəmi beş dəqiqə əvvəl iclas otağına daxil olmuşdular. Qara dəst kostyum, səliqəli tünd qırmızı zolaqlı qalstuk, laklı ayaqqabılar, otuz beş-qırx yaşlarında iki fit, bədənli adam və spesifik vəzifə eqosu. Klassik büro işçilərinə xas görüntü. Onlar içəri daxil olan kimi özündən razı şəkildə masa başına keçmiş, Nikolz və Hovardı kobudcasına yerlərindən durğuzmuşdular. Bir neçə dəqiqə təkəbbürlü şəkildə özlərini təqdim etdikdən sonra Hovarda qəhvə gətirməsini əmr etmişdilər. Bu da sonrakı səs-küylü mübahisənin özülünü qoymuşdu.

– Detektiv, elə indicə buradan rədd olun, – Flint onun üzərinə qışqırdı, – sizin müdirinizlə danışacağam. Onda görərik, sizin axırınız necə olur.

– Öz axırımı bilmirəm, amma sənin arxanı həvəslə təpikləyərdim. Sən bizə əmr verə bilməzsən. Ona görə də danışığına və hərəkətlərini fikir ver, agent Flint! İndi isə qalx yerimdən və özünə başqa yer seç. Nə qədər ki mən Gizli Xidmətlə danışıb sənin yerini daraltmamışam, – Agent Baçelder başını yellədikdən sonra Flint yerini dəyişdi, – bax belə. Ağıllı ol, – deyərək Hovard yenidən öz daimi yerinin başına keçdi, telefonla zəng vurub qonaqları üçün qəhvə sifariş etdi, – sərt, şirin, acılı? Necə bir şey istərdiniz, cənablar? – heç bir şey olmamış kimi o, qonaqpərvər bir gülümsəmə ilə soruşdu.

– Sadə. İki şəkərli, – Baçelder onların hər ikisinin əvəzinə cavab verdi.

– Dolf, iki ədəd də iki şəkərli düzəlt. Təşəkkürlər, – Hovard sağollaşaraq yerini rahatladı, – əla, cənablar. Gəlin, başlayaq, amma ilk öncə soruşmalıyam ki, nəyə başlayırıq?

Heç nə anlamayan FTB işçiləri Hovarda baxdılar. Onlara verilən sualın mənasını çatdırmaq üçün Ferrell dedi:

– Cənablar, siz hansı bilgilərə sahibsiniz? Məsələ ilə ətraflı tanış olmusunuz?

– Demək olar ki, – Flint cavab verdi, – bəzi xırda detallar qalıb. Məsələn, Ben. Dediyiniz mahnı haqqında bir o qədər də məlumatımız yoxdur.

– Stiv sizə istədiyiniz məsələ ilə bağlı kömək edəcək, cənablar, – bayaqdan susmağı üstün tutan Teylor danışdı, – biz bu məsələ ilə əlaqədar lazımi tədbirləri görmüşük. Sizdən xahiş edərdik ki, işimizə çox qarışmayasınız. Yəqin, bu barədə agent Stivens danışıb sizə. Ancaq bizə dəstək olsanız, etiraz etmərik.

– Biz sizə nə ilə bağlı dəstək olacağıq ki? – Baçelder donquldandı, – sizin əlinizdə dəqiq heç nə yoxdur, – onun sözlərindən sonra Hovardın üzü yenidən əyildi. Bunu görən agent səhvini düzəltməyə çalışdı, – yəni əməliyyata sıfırdan bizim iştirakımızla başlasaq, bəlkə də, daha yaxşı nəticələr əldə edərik.

– Agent Baçelder, icazə verin, deyim ki, sizin qəhvəniz hələ gəlib çıxmayıb.

– Detektiv Hovard, nə demək istədiyinizi anlamadım.

– Demək istədiyim odur ki, yenə özünüzü gicliyə qoymusunuz, – hərarət yenidən yüksəldi, – axı sizə təlimat verilib, bizim işimizə burnunuzu soxmayasınız.

– Qulaq as, axmaq detektiv yetimçəsi. Mən agent Stivens, ya başqasından əmr almıram. Mənə yalnız FTB rəsmiləri göstəriş verə bilərlər. Mənim nişanım bunları deməyimə imkan verir. Bu qədər! İndi sus və qaydalara riayət elə! Xoşuna gəlmirsə, get Stivensə şikayət et!

– Baçelder, həddini aşırsan! – Hovard yumruğunu masaya çırpdı, – FTB nişanını arxana sox! – bu sözdən sonra mübahisə daha da qabardı.

– Qalstuklu klounlar!

– Başıboşlar!

– Axmaq LAPD səviyyəsizləri!

Ağız deyəni qulaq eşitmirdi. Ferrell ilə Hovard FTB adamlarıyla mənasızcasına mübahisə edirdilər. Nikolz nə qədər çalışsa da, onları sakitləşdirə bilmirdi. Teylora baxıb detektivin kefikök şəkildə onları necə izlədiyini gördü və o da yaranmış vəziyyətə gülməyə başladı. Bu bir neçə körpənin eyni oyuncaq üstündə davasına bənzəyirdi. Bir neçə dəqiqə sonra mübahisə qəfildən başa çatdı, onlar sakitcə oturaraq bir-birlərini süzdülər. İndi deyiləcək söz bu görüşün kulminasiya nöqtəsi ola bilərdi. Bu səbəbdən heç kəs özünü əsərin qəhrəmanına çevirməyə hazırlaşmırdı, çünki, böyük ehtimalla, baş qəhrəmanın sonu yaxşı olmayacaqdı.

– Agent Flint, agent Baçelder, – Teylor dedi, – sizin "NÖMRƏ BİRLƏR" ilə bağlı fikirləriniz nədir?

– Detektiv, bizim fikrimizcə, bu cinayətlərin səbəbkarının şəxsi motivləri var, – Teylor büro işçilərinin bu fikrini bəyənmişdi. Nə də olsa, onların Kortez qardaşlarından və merə göndərilmiş məktubdan xəbərləri yox idi. Ən azından Teylor belə düşünürdü. O, diqqətini cəmləyərək Flinti dinləməyə davam etdi, – cinayətkarın qurbanları seçməsi haqqında isə dəqiq təsəvvürümüz yoxdur, amma seçimlərin təsadüfi olma ehtimalı çox yüksəkdir.

– Belə düşünməyinizin səbəbi nədir bəs, agent Flint? – nəhayət özünü ələ alan Hovard soruşdu.

– Cinayətkar və yaxud cinayətkarlar Maykl Ceksonun sənətinin vurğunudurlar. Bu qətllər isə ona həsr olunmuş bir, – Flint uyğun sözü tapmaqda bir az çətinlik çəkdi, – bir növ ritualın, ya da yemək re-

septinin hissələridir. Biri olmasa, digərlərinin də heç bir mənası qalmaz.

– Yəni cinayətkarın mental travmalarının, yaxud əqli çatışmazlıqlarının olması fikri ilə razısınız?

– Əlbəttə, detektiv Teylor, – Flint başını yellədi.

– Bəs ritual bitdikdən sonra o nə edəcək? – Teylor üçün bu sualın cavabı çox maraqlı idi.

– İlk növbədə, sonluq fərqli olacaq, – Baçelder ortağının əvəzinə cavab verdi, – indiki cinayətlər sonluqla müqayisədə bir heç sayılır. Maykl Ceksonun konsertlərinə, yəqin ki, baxmısınız. Sonluq həmişə yadda qalan olur. Cinayətkar isə, şübhəsiz ki, onu özünə kumir seçib. Deməli, sonluq özünəməxsus şəkildə olacaq. Həm bu manyakların dəst-xəttidir. Onlar, adətən, qeyri-adi sonluqları sevirlər. İşə başladıqları kimi nöqtə qoysalar, öz aləmlərində boşuna əmək sərf etmiş olarlar.

– Bəs sonuncu mahnı barədə nə düşünürsünüz? Əgər biz doğru yoldayıqsa, geridə beş nömrə bir mahnı qalıb, – Teylor dedi.

– Billie Jean və yaxud Bad. Biz belə düşünürük. Bu mahnıların yazdığı tarix çoxlarına məlumdur. Fanat olan cinayətkar da özünü kumirinə, idealına oxşatmağa çalışacaq. Ona görə də sonda istifadə olunacaq mahnı və onun effekti unudulmaz olmalıdır.

Hamı effekt barədə düşünərkən birdən Hovardın telefonuna zəng gəldi. O, başını yelləyərək otaqdakılardan üzr istədi və cihazı qulağına apardı.

– Eşidirəm, Dolf. Bizim qəhvələr harada qaldı? – onun sualına cavab gəlmədi. Xəttin digər tərəfindən

xırıltılı nəfəs səsləri eşidilirdi. Bundan narahat olan detektiv Hovard yenidən soruşdu, – Dolf, sən yaxşısan? Yaman təngnəfəssən? – gülüşü xatırladan xırıltı eşidildi, – bax artıq əsəbiləşirəm. Sənə nə olub, Dolf?

– Heç nə, – normal səslə cavab gəldi, ancaq bu cavab telefondan yox, əlində məcməyi içəri girən Dolfdan gəlirdi, – iki şəkərlini kim arzulamışdı?

– Dolf? – Teylor ortağına və digərlərinə sürətlə göz gəzdirdikdən sonra soruşdu.

– Burada, – o, məcməyini masanın üstünə qoyub əlini cibinə uzatdı. Telefonunu çıxarıb otaqdakılara nümayiş etdirdi.

– Sən kimsən? – yenidən telefon ekranına baxıb heç bir nömrənin əks olunmadığını görən Hovard buztək soyuq səslə soruşdu.

– Səncə? – bu səsin hansı cinsin nümayəndəsinə aid olduğunu demək çətin idi.

– M.J? – detektiv udqundu. Qorxmurdu, amma həyəcanlanmışdı.

– Aaaah. Demək, məni belə çağırırsınız, – M.J. içini çəkdi, – zəhmət olmasa telefonun səsini açın. Qoyun, bizi hamı eşitsin.

– Necə istəyirsən, – deyərək Hovard telefonunu səs gücləndirici rejimə keçirdi, – indi səni eşidirik. Danışa bilərsən.

– Səsim yaxşı gəlir? Bəs agent Flint və Baçelder məni eşidirlər mi?

Baçelder səs çıxarmadan dodaqları ilə F ilə başlayan sözü tələffüz etdi. Heyrətə gəldiyini anlamaq üçün gözlərinə baxmaq kifayət olardı. Nikolz cəld

otaqdan çıxdı, zəngin yerini müəyyən etmək üçün rabitə bölməsinə qaçdı. Bilinməyən nömrədən gələn zəngi təsbit etmək LAPD ekspertləri üçün çox vaxt aparmayacaqdı. Teylor ortağına söhbəti uzatması üçün işarə etdi.

– Nə istəyirsən, M.J? – o, bir qədər sərt səslə soruşdu.

– Bax, Hovard, mən də sizə bu sualı verəcəkdim, – bu əcaib səs rahatlıqla insanın tüklərini ürpərdirdi, – siz məndən nə istəyirsiniz? Özünüz bəs deyilmişsiniz kimi, axmaq FTB-lilər də bu işə qarışırlar.

– FTB-lilər? Kimi nəzərdə tutduğunu başa düşmürəm, M.J. Bəlkə, bir az daha aydın danışasan?

– Özünü belə aparma, xahiş edirəm, – əcaib səs gərildi. Açıq-aydın əsəbiləşdiyi hiss olunurdu, – bilirəm, vaxtı uzadaraq bizim harada olduğumu müəyyən etməyə çalışırsınız. Məsləhət verim ki, ehtiyac yoxdur. Sizin oyuncaqlar hələlik mənim yerimi müəyyən edəcək səviyyəyə çatmayıblar. İndi hamınız bir nəfər kimi əsas girişdən bayıra çıxın.

Hovard masanın üstündəki telefonu qapdı, LAPD və FTB işçiləri tələsik pilləkənlərlə aşağı endilər. Orada o, Nikolzun üz ifadəsindən cinayətkarın dediklərinin həqiqi olduğunu anladı. Çavuşa "Nurlan!" pıçıldayaraq sürətini artırdı. O, telefonu yanağından çəkməyərək çıxışa çatdı, qapını açaraq özünü pilləkənlərdən səkinin üstünə atdı. Avtomobil yoluna çıxaraq ətrafa göz gəzdirdi.

– Buradayıq, – Hovard səsini sakit tutmağa çalışdı.

– Gözəl, – özündən razı ton xırıldadı, – düz irəli bax. Nə görürsən?

– Bircə saniyə, – LAPD-nin administrasiya binasının əsas girişinin mənzərəsi “Los-Angeles City Hall”a açılırdı. Cinayətkarın merlə olan ədavətini nəzərə alaraq Hovard cavab verdi, – City Hall.

– Yox, sən, həqiqətən, yaxşısan, – indi M.J.in səsi ilan fısıltısını xatırladırdı, – Şərqi “City Hall”u əsas bina ilə birləşdirən keçidin altında qırmızı lentlə bağlanmış qutu var. Onu tapmağını istəyirəm. Dörd dəqiqəyə zəng vuracağam. Uğurlar, detektiv.

– Hey, dayan, – ancaq artıq düyültü səslərindən başqa heç nə eşidilmirdi. Hovard üzünü digərlərinə çevirdi, – deməli, “City Hall”un binaları arasındakı keçidin ətrafına baxın. Bizə qırmızı lentli qutu lazımdır. Tələsin, üç dəqiqə qırx saniyəmiz var. Arxanızı tərpədin.

– Bu tərəfə! – Flint qara “Lincoln”u işarə etdi.

Onlar maşının üzərinə yüyürdülər. Ferrell, Teylor və Baçelder arxa hissədə, Hovard isə sürücünün yanında oturdu. Flint akselatoru sıxdı. “City Hall”la LAPD arasında iki yüz metr məsafə ancaq olardı. Bir neçə saniyə sonra onlar binaları birləşdirən keçidin altına çatdılar. Eyni anda dörd qapı açıldı, maşından düşən polislər cəld ətrafa dağıldılar. Hamı M.J.in tapşırdığı qutunu axtarırdı. Tapan isə çavuş Ferrell oldu. O, Şərqi “City Hall” binasının birinci mərtəbəsindəki sütunlardan birinin arxasında təqribi yetmiş santimetr uzunluğunda, qırx santimetr enlikdə olan boz rəngli qutu tapdı. Üstü hədiyyəlik al-qırmızı lentlə bağlan-

mışdı. Qutuya tək başına yaxınlaşmağa cürət etməyən Ferrell digərlərinə səsləndi. Onlar binanın sütunlarından birini əhatəyə aldılar. Avtomobil səsləri eşidilir, heç kim sükutu pozmağa cəhd etmir, hamı dörd gözlə Hovardın telefonuna gələcək zəngi gözləyirdi.

– Dörd dəqiqə keçdi. Bəlkə, o, bizim qutunu açmağımızı istəyir? – Baçelder soruşdu.

– Yox, bunun barəsində heç nə demədi, – qutuda nə olduğunu təxmin etməyə çalışan Hovard cavab verdi, – Frenk, sən nə düşünürsən?

– Fikrim yoxdur, – Teylor çiyinlərini tərpətdi. Başını çevirərək arxaya – "City Hall"un əsas binasına baxdı. Qəfildən ağlına bir fikir gəldi. Avtomobil yoluna tərəf dayanan Teylor sütunun arxasına keçdi, – mən binaya girirəm.

– Axı o, bizim hamımızı bura çağırdı, – Ferrell etiraz etdi.

– Hə. Haqlısan. Bizim hamımızı bura çağırırsa, demək, bizi izləyir. O, buralardadır. Çox güman ki, binalardan birinin içində və yaxud da başındadır. Mən binanın damına qalxıram. Çalışın, yoxluğumu hiss etdirməyin.

– Uğurlar, – Hovard gözünü qutudan bir saniyə belə olsun ayırmırdı, – asta ol, Frenk. Hamı silahını hazır vəziyyətə gətirsin. Agent Flint, siz Frenkin dayandığı yerə keçin ki, kənardan baxan üçün yer dəyişmisiniz kimi effekt yaransın. Baçelder, Ferrell, gözünüzü ətrafdakı adamlardan, maşınlardan, pəncərə və sairə ayırmayın. O, düz yanımızda belə ola bilər.

Bu an yenidən Selin Dionun[42] "Thats the Way it is" mahnısı səsləndi, – bu mahnı lap yerinə düşür öz sözləriylə, – Baçelder donquldandı.

Bu dəfə də ekranda heç kəsin adı əks olunmurdu. Hovard həmkarlarına baxdı. Onların da hər biri qorxurdu. Əlbəttə, kim olsa bu vəziyyətdə oxşar hisləri yaşayardı. O, əlini bir neçə dəfə açıb bağlayıb touchscreenin cavab vermə hissəsinə toxundu.

– Siz qıraqdan adamlarla işləyirsiniz? – sirli səs indi əvvəlkinə nisbətən daha emosional və əsəbi eşidilirdi.

– Anlamadım, – bu, yalan deyildi. Detektiv, doğurdan da, M.J-in nə dediyini anlamamışdı.

– Kim isə mənim haradan zəng vurduğumu müəyyən etməyə çalışır!!!

– İnan ki, xəbərim yoxdur, – amma artıq Hovard bu işdə Nurlanın imzasının olduğunu başa düşmüşdü. Gənc dərhal onun nömrəsini izləməyə başlamış, polislərə aydın olmayan metodlarla, görünür, cinayətkarın yerini müəyyən etməyə çox yaxınlaşmışdı. Məhz buna görə də cinayətkar indi başqa xətlə əlaqə saxlayırdı, böyük ehtimal.

– Nə isə, ancaq həmin axmağa de ki, özünü çox yormasın. Eşitdin?..

– Hə, bir dəqiqə təlimat verim, – üzünü Ferrellə çevirib heç nə deməməsini işarə etdi, – çavuş Ferrell, mərkəzlə əlaqə yaradıb gördükləri işi elə indicə dayandırmalarını deyin! Cəld! – o, başını yelləyərək

[42] Celine Dion(1968) məşhur kanadalı müğənni. Titanic filminin məşhur "My Heart Will Go On" mahnısının ifaçısı.

dediklərini bir növ inkar etdi, – hazırdır. İndi isə buyur, eşidirəm.

– Yaxşı. Qutunu aç. Yox sən açma! Qoy bunu agent Flint etsin.

Hovard tez M.J.in qərarını niyə dəyişdiyini analiz etdi. Teylor haqlı idi. O, üzbəüz binalardan birindədir. Flint Teylorun yerinə keçdikdən sonra Teylorun onlardan ayrıldığından, yəqin ki, şübhələnib. İndi o, ortağını sığortalamalı, yoxluğunu hiss etdirməməli idi.

– Axı, bu, bizim məsələmizdir. Axmaq FTB-liləri bu işə qatmağın nə mənası var?

– Sus! Deyiləni et!

İkinci planı işə salan Hovard Flint ilə yerini dəyişdi, – hə, Flint qutunun başındadır.

– Nəyi gözləyirsiniz? Açın!

Hovard başını yellədi. Agent Flint yerə tüpürərək qırmızı lenti dartdı. Əlləri ilə qutunun kənarından yapışdı. Daxilində üç deyərək qapağı qaldırdı.

– Lənət!!! – o, qışqıraraq qapağı qırağa çırpdı, – İt oğlu, it!

– Sən başını tamamilə itirmisən! Gicin biri gic! – Hovard telefona qışqırırdı. Artıq özünü bayaqkıtək soyuqqanlı apara bilmirdi, – səninlə üz-üzə bir gün görüşəcəyik. Həmin gün isə sən həyatının ən fərqli şousunu görəcəksən!

– XAXAXA! Hovard, mən etiraz etmirəm ki. Gəl bu oyunu biz oynayaq! Analarının qarnından növbəsiz çıxmış FTB-liləri rədd elə. Elə indicə! Yoxsa söz verirəm, gələn dəfə artıq qurban sıradan insanlar olacaq. Uşaq, qadın, yaşlı! Fərq etməz! FTB küçükləri,

cəhənnəm olun! Yoxsa artıq "NÖMRƏ BİRLƏR" yox, bütün nömrələr işə cəlb olunacaq.

– Yaxşı. Yaxşı. Başqalarına toxunma. Söz verirəm, FTB ilə məsələni həll edəcəyik.

– Razılaşdıq, – bundan sonra düyültülər eşidildi və zəng sona çatdı.

Hovard və digərləri qutunun içində tapdıqlarından sonra hələ də özlərinə gəlməmişdilər. Çox dəhşətli səhnə idi. Qutunun içində iki ədəd insan başı vardı. Bir sarışın qadın və qəhvəyi, seyrək saçlı kişi. İki göyümtül, rəngli insan başı. Belə səhnəni onlar, yəqin ki, yalnız qorxulu filmlərdə görmüşdülər. Qadının çənə hissəsi qan içərisindəydi. Bu qan isə artıq qurumuş, qaraya çalan rəng almışdı. Bir növ saqqal tək qadının çənəsini örtmüşdü. Kişinin də vəziyyəti qadınınkından bir o qədər fərqlənmirdi. Hər ikisinin boğazının kəsilmə tərzindən adi, iti mətbəx bıçağı və yaxud mişardan istifadə edildiyini demək olardı. Bu isə, sözsüz ki, günahsız insanların ölümünü daha da ağrılı etmişdi.

– Endi, – rəngi qaçmış Ferrell ona səsləndi, telefonunu ona uzatdı, – buna bax.

*O, yaxınlığınızdadır. İstiqaməti müəyyən edə bilmədim.*

Mesaj Nurlandan gəlirdi. Hovard bir neçə dəfə yazını sürətlə oxuyub bütün səsi ilə qışqırdı:

– O, buradadır!!!

Teylor Şərqi "City Hall"un damından ətrafa baxırdı. Aşağıdan polis sirenlərinin səsi eşidilirdi. Həyəcan çox yüksək həddə çatmışdı. Hovardın zəngindən sonra onun əsəbləri daha da gərginləşmişdi. Kəsik başları

görmədiyi üçün çox sevinirdi, çünki bu yükü daşıya biləcəyindən əmin deyildi. O, binanın mühafizə işçilərininin köməyi ilə dama qalxmışdı. Əlində alternativi olmadığından o, telefon kamerasının köməyi ilə ətrafa baxırdı. Buradan, görəsən, nəsə tapmaq şansları vardımı? Fikrini topladı. Damlarda ondan başqa heç kəs yox idi. Bəs onda bu adam harada ola bilərdi? Axı məqsədi nə idi? FTB haqqında məlumatları kimdən almışdı? Kortez qardaşları? Onlar bu qədər təcrübəlidir yəni? Bəs bunun sonu hara gedirdi axı? Bütün bu sualların tək cavabı vardı.

Teylor binanın kənarına yaxınlaşaraq orada oturdu, ayaqlarını binadan aşağıya salladı. Yerini rahatladıqdan sonra telefonla ortağına zəng vurdu. Bu zənglə o, "NÖMRƏ BİRLƏR" əməliyyatının nöqtəsini qoymağa hazırlaşırdı.

# 26



## 22 oktyabr 15:30

**Flower 8 küçəsində ilk baxışdan qeyri-adi heç nə gözə dəymirdi. Həmişəki kimi avtomobillər və piyadalar. Maşın siqnalları və orta təbəqəli insanların mənzillərindən gələn səslər. Hər şey normal və sıradan görünürdü. Amma xarici görünüş əksər hallarda aldadıcı olur.**

Teylor, Hovard, Ferrell və Braun Kortezlərin binasının girişində mülki geyimdə dayanmışdılar. Artıq onların hər biri baş verən hadisələrdən təngə gəlmişdilər. Əkiz qardaşların törətdiyi əməllərin cavabını verməyə hazırlaşan dördlük diqqət çəkmədən içəri daxil oldu. Sakitcə bir söz demədən onlar pilləkənləri qalxdılar. Tapançaları hazır vəziyyətdə idi. Altıncı mərtəbəyə çatdıqdan sonra onlar Kortez qardaşlarının qapısını dövrəyə aldılar. Açıq-qonur qapının üzərində boz rəngli ləkələr əmələ gəlmişdi. Yəqin ki, sonuncu dəfə bu qapıya iyirminci əsrdə qulluq olunub. Kirli qapı Teylora uşaqlığını xatırlatdı. Uşaq vaxtı onunla qardaşının da otağının qapısı buna bənzəyirdi. Teylor bu kiçik detalı indi nə səbəbdən xatırladığını bilməsə də, bunu əsəb pozğunluğu və stresslə əlaqələndirdi.

– Əllər yuxarı! – Braun qapıya təpik vuraraq qışqırdı.

Onlar diqqətlə, tələsmədən içəri keçdilər. Otaqlardan birində işıq yanırdı. Ancaq nə bir hərəkət, nə bir səs. İçəri o qədər sakit idi ki, artıq polislər bundan narahat olurdular.

– Bəlkə, onlar evdə yoxdurlar? – Braun soruşdu.

– Sanın bizə dediyi maşın aşağıdadır. Üstəlik qapı açarla qıfıllanmayıb, – üzərinə qonan milçəkləri qovan Teylor diqqətlə dəhlizə göz gəzdirdi, – Qeb, Stiv, siz yataq otağını yoxlayın, mən mətbəx və hamamı yoxlayacağam. Endi, sən isə işıq yanan tərəfə bax. Uğurlar. Diqqətli olun.

Onlar bölünərək müxtəlif istiqamətlərdə hərəkət etdilər. Teylor hamamın qapısını azacıq itələyərək içəri baxdı. Üfunət qoxusundan başqa orada diqqət çəkəcək bir şey yox idi. O, qapını örtərək üzünü mətbəxə tutdu. Orada da oxşar vəziyyətlə rastlaşdı. Tapançasını aşağı salıb geri döndü. Ferrell ilə Braun da yataq otağından oxşar nəticə ilə qayıtmışdılar.

– Deyəsən, mərkəzə xəbər verib əliboş qayıdacağımızı desək, yaxşı olar.

– Ehtiyac yoxdur, – işıq yanan otaqdan Hovardın səsi eşidildi, – onların ikisi də buradadırlar. Gəlin tanış olun və tapançaları aşağı salın. İnanmıram, onlardan bir ziyan gələ.

Otağa girdikdə polislər çürük qoxunu hiss etdilər. Üstəlik, pəncərəsi açıq olduğundan bura digər tərəflərə nisbətən daha soyuq idi. Kresloların digər tərəfində olan Hovard masaya söykənərək tapançasını fırlayır-

dı. Üzündən zəhirmar yağırdı. Onun yanına çatıb heç bir şey deməadən kreslolardakı mənzərələrə baxdılar. Üz ifadələri Hovardınkına oxşar vəziyyət aldı.

– Bunu demək istəməzdim. Ancaq deməliyəm, – Ferrell donquldandı.

– Əziyyət çəkmə, Stiv, – Teylor onun yerini dedi, – biz sözün əsl mənasında axmağıq.

– Elədir ki,var, – Hovard da onların fikrini dəstəklədi.

Ambroso və Amoroso Kortez qardaşları hərəsi bir kresloda cansız vəziyyətdə oturmuşdular. Hər ikisinin alnınında standart kalibrli güllələrin açdığı dəlik vardı. Ancaq bədənin və qanın rəngindən onların ölüm vaxtının qırx səkkiz saatdan daha az olduğunu demək olardı. Amoroso Kortezin köynəyinin yaxası cırılmış və sinəsinə iti əşya ilə üç hərf cızılmışdı.

*BAD*[43]

Polislər indi necə axmaq olduqlarını anlamışdılar. Yumurta əkizləri Kortez qardaşları Səksən yeddinci ilin səkkiz yanvar tarixində doğulmuşdular. Bu isə Maykl Ceksonun üçüncü studio albomunun adı, ilk mahnısı və ümumilikdə səkkizinci nömrə biri olan BAD ilə üst-üstə düşürdü. Bu cür faktı isə yenidən bütün polis departmenti, hətta FTB də gözdən qaçırmışdı. Digər tərəfdən burada kiminsə səriştəsiz hərəkət etdiyini də demək olmazdı. Kortez qardaşları ilə bağlı çox bir şey bilmədiklərindən Teylor və onun heyəti özlərinə bəraət qazandıra bilirdilər.

---

[43] 1) İng – pis. 2) Maykl Ceksonun 1987-ci ildə eyni adlı albomuna daxil olmuş nömrə bir mahnı.

– Frenk, nə düşünürsən? – Ferrell soruşdu.

– Nə düşünməli olduğum barədə heç bir fikrim yoxdur.

– Biz onun oyununda əsgərdən başqa bir şey deyilik, – orta barmağı ilə masanın qıçını döyən Hovard dedi, – o isə düşündüyümüzdən daha yaxşı şahmat oyunçusudur.

– Yaxşı indi nə planlarımız var? – gənc Qebriel Braun üçün isə həyatında gördüyü, bəlkə də, ən iyrənc səhnə ya bu, ya da bayaq gördüyü kəllələr idi.

– İdarəyə qayıdırıq. Siz administrasiya binasında FTB ilə M.J.in dediklərini müzakirə edin.

– Bəs sən nə edəcəksən, Frenk?

– Maklavskinin yanına gedib bəzi şeyləri aydınlaşdırmağa çalışacağam.

– Frenk, nə mənası var? – Ferrellin səsində artıq qorxu hiss olunmurdu, sadəcə bezmişdi. Qorxmaqdan bezmişdi, – onsuz da sıfırdan başlayırıq. Kortez qardaşları da deyilsə, bəs kimdir?

– Bilmirəm, Stiv, lakin özünü ələ alsan, yaxşıdır.

– Artıq bacarmıram, – Ferrell əlləri ilə başını tutdu.

– Bir dənə sənin ağlamağın çatmır indi, Stiv, – Hovard ağzını açacaqdı ki, Teylorun sərt baxışları onu susdurdu. O məcbur olduğundan söhbətin məcrasını dəyişdi, – nə isə. Burada qalmağın artıq bir mənası yoxdur, Qeb, sən bizimkilər gəlib bu əkizlərin cəsədlərini götürənə qədər gözlə.

Braun yavaşca başını yellədi.

Üç nəfər heç nə demədən oradan ayrıldılar. Ferrell ilə Hovard administrasiya binasına yollandılar, Tey-

lor isə işlədiyi idarəyə – Mərkəzi Büronun Newton bölməsinə gedəcəkdi. Maklavski ilə danışılası çox şey var idi. Sonra isə bu stressdən qısa bir fasilə götürüb Reyçel Şilds ilə axşam yeməyinə yollanacaqdı. Əlbəttə ki, əgər bacarsa.



# 27

## 22 oktyabr 16:42

**– Sənin üzündən naharımdan olmuşam. Xəbərin var?**

**Maklavski həmişəki kimi deyinirdi. Birlikdə keçirdikləri dörd il. Sakitcə ötüb keçən bir görüşləri olmamışdı. Hər bir atopsia[44] nəticəsində oxşar hadisələr, oxşar didişmələr. Bu adam Teylorun tanıdığı ən pis xasiyyətli və eyni anda, bəlkə də, işində ən yaxşı mütəxəssis idi. Özündən tez çıxmasına və deyinməsinə baxmayaraq, detektiv üçün əvəzolunmaz olan yerlərdən birinin sahibi idi. Həm Maklavskinin özündən çıxması və hər cümlədə onu bir neçə dəfə təhqir etməsi Teylorun xətrinə dəymirdi. Əksinə, bu vərdiş halını almış prosedura olmasa, tibbi ekspertin ciddi problemləri olduğunu düşünərdi.**

– Yaxşı, Leks. Gələn dəfə bir şeylər içəndə hesab mənlikdir. İndi isə de görək, bu adamlar kimdilər.

– Adamlardan geriyə qalanlar demək istəyirsən, – Maklavski masasının üstündəki kəllələrə baxdı, – xanımdan başlayım?

---

[44] Meyit yarma

– Fərq etməz.

– Salli Makintir. Qan və saç analizi bunu göstərdi. Cavablar lazım olduğundan dəfələrlə tez gəlsə də, nəticənin səhv olduğuna inanmıram, – o, ağzındakı saqqızı kəllənin düz qarşısına tüpürdü. Ağ iş xələtini səliqə ilə əyninə keçirib əlləri ilə qurbanın kəlləsindən yapışdı, onu qaldıraraq boğaz hissəsi üzrə çevirdi, – görürsən?

– Bunu göstərməyə bilərdin, – Teylor üzünü büzüşdürdü.

– Yox, bax, – Maklavski barmaqlarını qurbanın boğazından içəri salaraq qututək aralamağa başladı. Teylor bu iyrənc səhnə qarşısında gözlərini yumsa da, Maklavski onun üzərinə çığıraraq diqqəti yenidən üzərinə çəkdi, – buna baxmalısan. Lənətə gəlmiş, Teylor, ya başını qaldırıb bura bax, ya da rədd ol. Onsuz da, görüləsi işim çoxdur!

– Yaxşı, – Teylor zorla da olsa, boğazın altına baxdı.

– Hər iki kəllədə oxşar aspektlərə rast gəlmişəm. Bir onların başı bir o qədər də iti olmayan alətlə kəsilib. Böyük ehtimal ki, mətbəx bıçağı, yaxud da balta.

– Axı sən iti olmayan dedin. Balta bir az ağıla batmır.

– İti olmayan baltalar bəyəm olmur? – Maklavski təəccüblə ona baxdı, – kor baltayla boğaza bir neçə zərbə endirdikdən sonra baş bədəndən ayrılır və geriyə belə hissəciklər qalır, – o, barmağı ilə sallanan dəriyə toxundu, – görürsən, zərbənin gücü bu ətcəni başdan ayırmayıb, lakin bu sıradan bir bıçaq da ola bilər. Düzdür, onunla baş daha uzun müddətə kəsilər,

ancaq özün fikirləş. Sizin dostunuz insanlara işgəncə verməyi sevir. Buna görə də belə bir alətdən istifadə etmək ona əl verir. Amma bu boğazı nə ilə kəsildiyini göstərmək üçün gözünə soxmuram. Bura bax, – o, barmağını kəllənin içinə saldı. Geriyə çıxaranda isə əlində ağ rəngdə kiçik bir şey var idi.

– Leks, bu kağızdır?

– Bəli-bəli. I Just cant stop loving you[45], A.K. Sənə demirəm, səhv başa düşmə. Bu yazının nə olduğunu mənə başa sala bilərsən?

– Növbəti nömrə birin adıdır, – təəssüf içində başını yelləyən Teylor cavab verdi. A.K.nin isə M.J tərəfindən mer Aaron Keynə yollanmış bir ismarış olduğunu anlamaq çətin deyildi.

– Zəhləm gedir musiqidən. Bəs bilmirdiniz ki, bir adama kral, monarx, ya da başqa bir şey deyəndə axırı belə olacaq?

– Leks, başımı aparma. Onsuz da vəziyyətim yaxşı deyil. O, biri kəllənin içindən nə çıxdı?

– Kimsə daş, yellənmək barədə danışırdı.

– Rock With You[46]?

– Aha. Ceyk Sommerson. Doğum tarixi. . .

– Ehtiyac yoxdur, Leks. Fevralın üçündəndir, bilirəm. Yetmiş doqquzuncu il. Başqa nə var maraqlı?

– Barmaq izi.

– Nə???

---

[45] 1. Maykl Ceksonun 1987-ci ildə Bad albomuna daxil olmuş beş nömrə bir mahnıdan biri. 2. İng – Mən səni sevməyi dayandırmağı bacarmıram.

[46] 1. Maykl Ceksonun 1979-ci ildə Off the Wall albomuna daxil olmuş iki nömrə bir mahnıdan biri. 2. Səninlə yellənmək.

– Bu axmaq başqasının iç-içalatını qurdalayanda, görünür, əlcəyin bir hissəsi cırılıb. Yəni indi yarımçıq barmaq izimiz var. Üstəlik, baş barmaqdır, deyəsən, – Salli Makintirin başını əməliyyat masasının üzərinə atdı. Kompyuterinə yaxınlaşdı, barmaq izi darama proqramını işə saldı. Dairənin dörddə bir sektoruna bənzər bir şəkil ekranda əks olundu.

– Həmin izlə barmaq sahibini tapa bilərsən?

– İnanmıram, – Maklavski bir qədər fikrə getdikdən sonra dedi, – amma əslində fərqli bir metod var.

– Nə metod? Müəmmalı danışma, Leks. İndi bunun vaxtı deyil.

– Mənə şübhəlilər siyahısını gətirirsən, mən də onların barmaq izlərini bu parça ilə müqayisə edirəm. Bəlkə, uğur qazana bildik. Amma yenə də ümidlərə qapılma, çünki zəmanət vermirəm.

– Yaxşı fikirdir. Mən sənə siyahını göndərərəm. Leks, səncə, bu adamın növbəti addımı necə olacaq?

– Mən haradan bilim? Detektiv olan sənsən.

– Keçən dəfə onun səliqə-sahmana verdiyi dəyərdən danışırdın. Nevroz, ya da oxşar bir şey. Dəqiq xatırlamıram.

– Hə, OKP. Nəyi nəzərdə tutursan, başa düşmədim.

– Onun hər şeyə önəm verdiyini deyirdin. Mis, filan.

– Aydındır. Mis demişkən, baltanın, ya da bıçağın tiyəsi mis-alüminium qarışığıdır. Bu bir. İkincisi, bu adam öz səliqəsi ilə işləməyə davam edir. Elə bu başlara bax, – Maklavski skalpeli götürüb əməliyyat masasının üstündəki kəllələri işarə etdi, – onların hər

ikisinin başı sağ tərəfdən kəsilib. Kəlləyə baxanda sol tərəfin sıxılıb, əzildiyini görmək olar. Bildiyin kimi aorta damarları ilə hərəkət edən təmiz olan arterial qan beyinə sol mədəcik tərəfdən gedir. Yuxarı hissələrdə aorta şaxələnir və təmiz qan beyinə yuxu arteriyası damarı vasitəsi ilə ötürülür. Baş kəsilməyə başlayanda beyinə hələ də qan gedirdi. Beyin isə bədəndən ayrıldıqdan sonra da fəaliyyətini bir-iki dəqiqəyə qədər davam etdirə bilir. Sizin dostunuz bu yolla qurbanların ölümünü daha da əziyyətli hala gətirir. Yəni OKP-lik özünü burada da biruzə verir.

– Yaxşı, bəs sən nə təklif edərdin? O, bizim necə hərəkət edəcəyimizi belə bilir.

– Deməli, o, aranızdadır və yaxud da ki sizlərdən biri ona məlumat ötürür, əzizim.

Teylor heç nə demədi. Maklavskinin sözü ağla batırdı. Axı FTB-nin əməliyyata müdaxiləsindən yalnız barmaq sayı adam xəbərdar idi. Həmin agentlərin adını isə, ümumiyyətlə, heç kəs bilmirdi. O halda, kim? Teylorun ağlına bir nəfər gəlirdi, lakin o, qərarından əmin olanadək şübhələrini üzə çıxarmamağa qərar verdi. Ən azından bugünlük bütün "NÖMRƏ BİRLƏR" əməliyyatını ikinci plana atmalıydı. Görüş onu gözləyirdi. Ancaq bugünlük görüləsi son bir iş vardı.

– Mən getdim, Leks. Özündən muğayat ol.

– Get, bir də qayıtma. İmkan verin, bir az nəfəs alım.

– Yaxşı. Gedirəm. Gedirəm. Cəhənnəmdə görüşmək ümidi ilə, Maklavski, – bu, cütlüyün özünə məxsus sağollaşma metodlarından idi.

– Bir də ki, Frenk...

– Aha, – Teylor üzünü yenidən ona tərəf döndərdi, – eşidirəm.

– Diqqətli ol, – Maklavski donquldanaraq üzünü kompyuterə tərəf çevirdi, – cəhənnəmə, onsuz da, getməyə vaxtın olacaq. Çalış, bir az gec get.

– Yaxşı, dəli professor.

Administrasiya binasında isə vəziyyət daha qarışıq idi. FTB və LAPD üzvləri arasında əsl debat gedirdi. Agent Baçelder və Flint israrla əməliyyatı davam etdirmək fikrindən yapışmışdılar. Hovard isə M.J.in ultimatumunu yerinə yetirməkdə qətiyyətli idi.

– Baxın, agentlər. Onun nəyə qadir olduğunu bilirsiniz, – Ferrell təmkinlə söhbətin yenidən başına qayıtdı, – bəs birdən haradasa bomba gizlədibsə, necə? Siz dediklərini etməsəniz, onu partlatmağa hazırlaşır, bəlkə? Cənablar, biz buna imkan verə bilmərik. Fəsadlar bərpaolunmaz vəziyyət yaratmağa qadirdir. Los-Ancelesin isə belə fəsadlara heç ehtiyacı yoxdur. Üstəlik bu dövrdə.

– Axı sizin təkbaşına ona gücünüz çatmır! FTB bu məsələyə müdaxilə etməlidir. Yoldan çəkilməli biri varsa, o da sizsiniz! – Baçelder yumruğunu masaya çırpdı. Plastik qəhvə stəkanı aşaraq şalvarının üzərinə töküldü. Agent yerindən qalxaraq salfetlə üst-başını təmizlədi, – lənət şeytana, bircə elə bu çatmırdı.

– Bu, elə sizin buradan getməyiniz üçün bir işarədir, agent!

Hovard iş yoldaşı Stiv Ferrelli tanıya bilmirdi. Onu heç vaxt bu qədər aqressiv və emosional görməmişdi.

Buna səbəb, görəsən, nə idi? "NÖMRƏ BİRLƏR" cinayətlərinin yaratdığı hərarət, yoxsa Hanna? Həmişə həyat yoldaşının kölgəsində gizlənən Ferrell indi əsl canavara çevrilmişdi. Onun bu halı Hovardı narahat etsə də, bu vəziyyətdən şikayət etdiyini deməzdi. Əksinə, onun görmək istədiyi polis prototipi məhz bu kriterialarla uyuşurdu, amma yenə də birdənbirə davranışındakı yüz səksən dərəcə dəyişikliyin sonu pis nəticələnə bilərdi. Bir növ narkotik dozasının aşılması kimi. Təcrübə isə belə şeylərin yaxşı nəticələnmədiyini göstərir.

– İnanın ki, məndən olsa, öz xoşumla bu işdən çəkilərəm, – Ferrell yenidən səsini aşağı saldı, – ailəm üçün, onsuz da, narahatam. Sizin adınız ona məlumdursa, böyük ehtimal, mənim haqqımda da bilir. Ailəm haqqında məlumatı ola bilər. Övladlarım üçün narahatam, – Ferrell ilə Hannanın əkiz qızları vardı. Hovardın Hannadan bir o qədər xoşu gəlməsə də, əkizlərlə oynamağı sevərdi. Ən azından dörd ay əvvəl Hanna onun və Teylorun uşaqlarla görüşməsini qadağan edənə qədər vəziyyət belə idi, – sizdən çox xahiş edirəm, çəkilin, bu işdən, – Ferrell bir daha bütün səmimiyyəti ilə dedi.

– Heç vaxt! FTB bu əməliyyatda iştirak edəcək! – bu dəfə digərlərinə nisbətən daha soyuqqanlı görünən Flint kobudcasına cavab verdi, – bu qədər.

– Cənablar, – heç kəs ağzını açmağa macal tapmamış bayaqdan səssizcə debata tamaşa edən Nikolz dilləndi, – mənim bir fikrim var. Təklif edərdim ki, FTB bu əməliyyatda iştirakını davam etdirsin, – Ba-

çelder özündən razı şəkildə gözlərini süzdürdü, Hovardı isə sanki ildırım vurdu, – amma FTB-nin bu işlə qeyri-rəsmi şəkildə məşğul olmalıdır.

– Başa düşmədim, – Baçelder yenidən köhnə, itici simasını aldı.

– Yəni, siz cənablar, bu işdən rəsmi şəkildə imtina edirsiniz, ancaq öz fəaliyyətinizi davam etdirirsiniz. Əgər bu idarəyə gəlib getməsəniz və bizlərdən başqa heç kəslə əlaqə yaratmasanız, heç kəs sizin hələ də bizimlə əlaqədə olduğunuzu anlamaz.

Bir anlığa hamı fikrə getdi. Nikolzun təklifinin hər iki tərəf üçün üstün cəhətləri vardı. Nə də olsa, bu yolla onlar həm ortaq məxrəcə gələr, həm öz potensiallarını artırar, həm də M.J.in verdiyi ultimatuma ilk baxışdan əməl etmiş olardılar.

– Biz razı, – Flint dedi. Ortağı da təsdiq əlaməti olaraq başını yellədi.

– Elə biz də, – Hovardla Ferrell də sövdələşmədən məmnun qalmışdılar.

– O halda, razılaşdıq, – çavuş Nikolz gülümsədi.

– Bir şərtlə, – bayaqdan içəridə olub onlara tamaşa edən Teylor dedi. Polislərin başı mübahisəyə elə qarışmışdı ki, onun otaqda olduğuna belə fikir verməmişdilər. O, düzbucaqlı masanın başına keçərək əllərini dayadı, – centlmenlər, bizim sövdələşməmizdən heç kəsin xəbəri olmamalıdır. Hətta agent Stivensin belə. Aramızda köstəbək olduğuna əminəm. Ona görə də danışığımız bu divarların arasında qalacaq. Yox əgər bizim sövdələşməmizdən kimsə xəbər tutsa, demək, cinayətkarla əlbir olan aramızdadır. Şərtlər hamıya aydındır?

Hamı təsdiq əlaməti olaraq başını yellədi.

– Yaxşı, – Teylor xəfifcə əl çaldı, – axır ki, yola gedə bilirik. Agent Flint, agent Baçelder. Siz işinizə davam edirsiniz. Hətta idarəyə belə gəlib gedə bilərsiniz. Sadəcə açıq-aşkar bizimlə bir yerdə olmayın, kifayət edər. Günün istənilən vaxtı bizlərdən biri ilə əlaqə yarada bilərsiniz. Baş verən yeniliklər barədə gündəlik məlumatlandırılacaqsınız, – qısa effektli fasilə, – indi isə ilk növbədə agent Stivensə zəng vurub M.J.in ultimatumuna əməl etdiyinizi deyin. Sonra isə sərbəstsiniz.

FTB işçiləri heç bir şey demədən ayağa qalxdılar, dəst kostyumlarını səliqəyə salıb tünd-qara eynəklərini taxdılar. Şalvarı batmış Baçelder azacıq baş əyərək otağı tərk etdi. Flint də rəsmi tonla, – uğurlar, – deyərək ortağının arxasınca yollandı.

Qapı bağlandıqdan sonra bir söz deyən olmadı. Teylorun istədiyi vəziyyət də bu idi. O, əlini alnına dirəyib sakitcə düşünməyə başladı.

# 28



## 22 oktyabr 19:16

**– Təşəkkürlər, Frenk.**

**Reyçel Teylorun onun üçün çəkdiyi stula oturdu, kosmetik qab ölçüsündəki çantasını özündən sağ tərəfə qoydu. Sözün əsl mənasında mükəmməl görünürdü. Saçlarında son görüşlərindən bu yana bir o qədər də dəyişiklik yox idi. Sadəcə ortadan tağ vurularaq kənarlara doğru daranılmışdı. Üzündə isə sadə makyajın köməyi ilə xariqələr yarada bilmişdi. Gözlərinə çəkdiyi nazik lay tünd-qara boya, tuşla qaldırılmış zərif kirpiklərlə harmoniya yaradır, çəhrayı dodaqları parlayırdı. Boğazına gümüşü boyunbağı, qulaqlarına uzun halqavari sırğalar taxmışdı. Qara rəngli, bel hissəsi dekolteli qısa paltar geyinmişdi. Reyçel ayaqlarından necə istifadə etməli olduğunu da bilirdi.**

Şilds yerini rahatladıqdan sonra Teylor onunla üzbəüz stula oturdu. Ofisiant cəld masaya yaxınlaşdı, saxsı qablarda yanan şamları təzələdi. Cütlüyə gülümsəyərək bir neçə addım geriyə çəkildi. On-

lar sakit restoranlardan birində şam etməyə qərar vermişdilər. Ətrafdakı masaların bir çoxunda müxtəlif yaşlarda olan cütlük və ailələr görünürdü. Böyük masalardan birinin başında bir dəstə kostyumlu şəxs maraqla nə isə müzakirə edirdi. Yəqin ki, həmən masada hansısa müqavilənin taleyi həll olunurdu, onların yanındakı kiçik stolda isə əzələli, ağ və seyrək saçlı, orta yaşlı bir cənab şam edirdi. Üzündə bir neçə çapıq vardı. Bu məkana toplaşan insanlar akvarium olan divarın yanındakı qara royalın klavişlərinin nazını çəkən gənc pianistin gözəl ifasından məst olurdular.

Teylor bir neçə saniyə qadına baxdı, özündən asılı olmadan axmaqcasına gülümsədi. Reyçel da oxşar ılıq gülüşlə ona cavab verdi. Qarşılıqlı simpatiya sonrası onlar tünd göy rəngli menyuları qırmızı süfrə ilə örtülmüş iki nəfərlik kvadrat masadan götürdülər.

– Seçimimdə nəsə qərarsızam, – menyunun bir neçə vərəqini gözdən keçirən Frenk dedi, – sizdə vəziyyət necədir, Reyçel?

– Əslində, uzun müddətdir ki, şərq mətbəxini dadmıram. Hmmm, – Reyçel barmağını dodağına yapışdırıb düşündü, – dəniz məhsulları və ekzotik bir şey istəyirəm. Məsələn, ananas ola bilər. Ya da apelsin.

– Bəlkə, ananas şirəsində bişmiş balıq? – Teylor soruşdu. Əslində yemək barədə kiminsə məsləhətinə ehtiyacı olmazdı, ancaq Reyçelin bir növ nazı ilə oynamaq xətrinə (bəlkə də, özünü çoxbilmiş göstərmək istəmədiyindən) onun seçiminə bel bağlamağa qərar vermişdi, – salat kimi isə üzərinə quşüzümü, toyuq filesi, göbələk və rəndədən keçirilmiş pendir səpilmiş ba-

damlı apelsin salatını sizə məsləhət görərdim. İçməyə isə kivili martini, – Teylor yenidən gülümsədi. Bu dəfə özünə, Reyçelin seçiminə güvənmək məsələsinə gülürdü.

– Nəyə gülürsünüz, Frenk? – Reyçel məzəli tonla soruşdu.

– Heç. Kivi ilə bağlı başıma bir dəfə maraqlı əhvalat gəlib, – indi ən yaxşı çıxış yolu yalan danışmaq olardı.

– Məmnuniyyətlə dinləməyə hazıram, amma ilk öncə desert barədə təklifinizi gözləyirəm.

– Mənim üçün ən yaxşı desert limonlu çaydır. Limonlu ağ və yaxud da yaşıl çay. Ona görə də deserti siz seçin. Mən də sevə-sevə dadına baxaram.

– Yaxşı, ağ çay, – Reyçel şıltaqcasına güldü. Bu gülüş Teyloru bu xanımın əvvəllər qarşısına niyə çıxmadığı barədə düşünməyə vadar etdi, – üstəlik, limonlu ağ çay. İndi isə kivi barədə danışaq.

Onlar menyuları masadan yığışdırdılar. Teylor ofisianta sifarişləri verdi. Restoran işçisi ilə o qədər səmimi danışırdı ki, elə bil neçə illərin tanışıdırlar. Ümumiyyətlə, Teylor çox fərqli təbiətə malik insan idi. Hərdən çox xoş, ürəyə yaxın biri olurdu, hərdən özünü əsl qaniçən kimi aparırdı. Hər yaşda insana uyğun şəkildə davranar, hər bir sənətin sahibinin gördüyü işə hörmət edərdi. Ta o vaxta qədər ki, onunla həmin şəxs arasındakı əlaqə qopmayıb. Arası dəyən şəxslə isə aralarındakı buzlar çox gec əriyərdi. Amma tanışları arasında həmişə bir ikona hesab olunurdu. Polis akademiyası dövründə etdiyi hər hərəkət: futbol oynayarkən qaçış tərzi və özünü

məxsus simulyasiyaları, qrup şəklində olan yığıncaqlarda etdiyi jestlər, cizgi filmlərindəki nidalara bənzər nidalar, başına gələnlər tez bir zamanda akademiya tələbələrinin gündəlik söhbət mövzusuna çevrilmişdi. Ümumiyyətlə, Lusinin başına gələn hadisələrdən əvvəl tam başqa bir Frenk Teylor yaşayırdı, qardaşı qızının görmə qabiliyyətini itirməsindən sonra isə həmin Frenk Teylor bu dünyanı tərk etdi. Bəlkə də, onu yenidən bu dünyaya qaytaracaq şəxs indi qarşısında idi. Kim bilə bilər ki? Yəqin ki, yalnız zaman.

– Hə, Frenk. Danışın görək, – səliqəli zərli, boz lak ilə boyanmış dırnaqlarını süfrənin üzərində oynadan Reyçel soruşdu. Yol boyu Teylor ortağı Hovardla telefonla danışdığından doğru-düzgün söhbət etməyə macal tapmamışdılar.

– Nədən başlayım ki? Məsələn, kitab oxumağı çox sevirəm.

– Mən də. Sonuncu dəfə Sidni Şeldon[47] "If tomorrow comes"ı oxumuşam.

– Xoşum gəlir, o yazıçıdan.

– Xoşunuz gəlir? – Reyçel təəccübləndi, – mən elə bilirdim, onu ancaq qadınlar sevir.

– Ancaq qadınlar tərəfindən oxunan biri necə 600 milyon kitab sata bilər, – Teylor gülümsədi, – mən

[47] Sidney Sheldon(1917-2007) məşhur amerikalı yazar və ssenarist. Oscar mükafatının qalibi. İyirmi ilə yaxın müxtəlif serialların və filmlərin uğurlu produseri və müəllifi olub. Əlli yaşından sonra isə yazıçılığa başlayıb 370-600 milyon arası kitab satıb. 1985-ci ildə qələmə alınan İf Tomorrow Comes(Əgər Sabah Açılsa) romanı ən məşhur əsərlərindən biri hesab olunur.

bütün Şeldon romanlarını oxumuşam. "Doomsday Conspiracy[48]" ən sevdiyimdir.

– Niyə məhz o?

– İlk olaraq Sidni Şeldonun yalnız iki əsərində "Naked Face[49]" və "Doomsday Conspiracy"də baş qəhrəman obrazı kişidir. Doomsday'də isə hadisələr çox rəngarəngdir. Mən isə yüksək tempi və kəskin süjeti sevirəm.

– Frenk, bir feminist olaraq baş qəhrəmanın kişi olması kriteriyasını heç bəyənmədim, amma həmin romanı oxumağa çalışacağam. Hə, deməli, Sidni Şeldon ən sevdiyiniz yazardır.

– Xeyr. Mən elə söz demədim. Sadəcə, bütün əsərlərini oxumuşam.

– Hmmm. Onda, ən sevdiyiniz yazar kimdir?

– Çoxdurlar. Herbert Uels[50], Ayzek Əzimov[51], Artur Klark[52], Maykl Krayton, Stiven Kinq və başqaları. Yalnız insan hislərini irəli çəkən yazarları bir o qədər də bəyənmirəm.

---

[48] 1. İng. Qiyamət günü təxribatı. 2. 1991-ci ildə Sidney Sheldon tərəfindən yazılmış fantastik macəra romanı. Məşhur yazıçı Dan Braun məhz bu əsəri oxuduqdan sonra ilk romanını yazmaq qərarına gəlib.

[49] 1. Ing Yalın Sifət. 2.1970-ci ildə Sidney Sheldon tərəfindən yazılmış triller.

[50] Herbert G. Wells(1866-1946) məşhur ingilis fantas-yazar və siyasi-ictimai tənqitçi. Zaman Maşını, Görünməz Adam, Dünyalar müharibəsi kimi romanların müəllifi.

[51] İsaac Asimov(1920-1992) yəhudi əsilli amerikan yazar. Təşkilatlanma, Mən Robotam kimi məşhur fantastik seriyaların müəllifi.

[52] Arthur C. Clarke(1917-2008) Əzimov və Robert Hainlaynla birlikdə qurulmuş Böyük fantastik Üçlüyünün üzvü. Kosmik Odissey, Mars Torpaqları və başqa əsərlərin müəllifi.

– Niyə? – Reyçelin bu sualları söhbət xətrinə vermirdi, həqiqətən də, mövzu onun marağını çəkmişdi.

– Bilmirəm. Subyektiv fikrimdir, bu tip əsərlər zəif insanları aldadır. Yenə deyirəm, bu, sadəcə, mənim subyektiv fikrimdir.

– İnsan hisləri dedikdə nəyi nəzərdə tutursan? Nə demək istədiyini tam anlamadım.

– Yəni sevgi kimi təqdim edilən müxtəlif şeylər. Sonra depressiya adı üzərindən yersiz və səbəbsiz cinsi əlaqə və sairə. Ən çox da əsəbiləşdiyim şeylərdən biri mənim oxuduğum əsərlərin real olmadığını deyənlərin Magic Realism janrında mütaliə etməsi və həmin bu insanların mənim seçimlərimi bəzən lağa qoymasıdır.

Bu vaxt ofisiant dolu məcməyi ilə masaya yaxınlaşdı. Səliqəli şəkildə salatları və içkiləri onlara servis etdi. Salat çox nəfis görsənirdi. Gələn təravətli qoxu isə Teylorun iştahasını daha da artırırdı. Onlar eyni anda çəngəllərə əl atdılar. Heç bir şey demədən gülümsədilər, salatı nuş etməyə başladılar. Bir az sonra isə yenidən söhbətlərinə qaldıqları yerdən davam etdilər.

– Demək, sevgiyə inanmırsınız, detektiv, – Reyçel kivili kokteylindən daddı.

– Yox, niyə ki? İnanıram. Sevgini piar edən əsərlərə inanmıram, – Teylor ağzını sildi.

– Maraqlıdır. Bu arada, salat seçiminiz kitab oxumağınız kimi pis deyil.

– O qədər pis oxucu olduğumu bilmirdim.

– Kitab oxumayan vaxtlarda nə edirsiniz bəs? – Teylorun son cümləsini qulaq ardına verən Reyçel soruşdu.

– Filmə baxmağı çox sevirəm.

– Axı "çox oxuyan çox baxmaz" – deyə fikirləşənlər var.

– Bəli, var, lakin mən bununla zərrə qədər də razı deyiləm. Demək olar ki, bütün yeni filmləri seyr edirəm.

– Vaxtınız çatır, bəs?

– Əlbəttə. Hərdən orta səviyyəli filmləri izləyəndə paralel olaraq başqa işlərimlə də məşğul oluram. Məsələn, hansısa işlə bağlı internetdə araşdırma aparanda bir qıraqda kino pəncərəsi olur. Mən də arada-bir gözlərimi həmin pəncərəyə sürüşdürürəm.

– Frenk, bəs siz haçan yatırsınız?

Teylor bu sualı cavablandırmaq barədə az-maz götür-qoy etdi. Sonda isə suala düz cavab verməmək qərarına gəldi.

– Yox, niyə ki? – o, özünü təəccüblənmiş kimi apardı, – gündə ən azı 5-6 saat yatıram, – Teylor doğru-düzgün heç üç saat belə yatmırdı, – sadəcə vaxtımı boşa xərcləməyi sevmirəm, – arqumentini əsaslandırdı.

– O halda, vaxtınızı burada boşa xərcləyirsiniz, deməli, hə? – Reyçel yenidən gülümsədi.

– Tam deməzdim, – Teylor zarafatyana cavab verdi.

– Qəribə insansınız, Frenk.

Artıq onlar soyuq qəlyanaltılarını bitirmək üzrəydilər. Pianist Teylorun qulağına tanış gələn bir kompozisiya ifa edirdi. Bir anlığa bu mahnının Keiko Matsuiyə məxsus olduğunu düşünsə də, belə kiçik aspektə görə özünü yormadı. Yaranmış söhbət fasiləsindən istifadə edib telefonunu yoxladı. Qəribədir, hələ ki onu heç kəs

axtarmırdı. Nə əcəbsə. Digər tərəfdən bu nömrənin də üstünlüyü ola bilərdi.

İsti yemək sifarişləri də onlara təqdim olundu. Əla qızardılmış balıq ananasın şirəsinə qarışmış, çox ekzotik mənzərə yaratmışdı. Yemək dadmaq sahəsində özünə rəqib tanımayan Teylor çəngəl-bıçağını götürdü. Səliqəli şəkildə balığını doğramağa başladı. Elə ilk tikəni ağzına aparacaqdı ki, Reyçelin telefonuna zəng gəldi. Qadın kiçik çantasını açıb smartfonunu çıxardı.

– Eşidirəm, – bir neçə saniyə sonra onun üz ifadəsi dəyişdi. Deyəsən, qanı qaralmışdı, – Missis Koen, axı mənim vacib görüşüm var. Çox xahiş edirəm, sizdən. Başqa heç kəs alınmır? – Reyçel başını yelləyərək xətdəki qadına qulaq asdı, – yaxşı, çox sağ olun. Yarım saata gəlirəm. Siz on beş dəqiqəyə çıxa bilərsiniz. İvin altını yoxlayın və zəhmət olmasa, televizorda istədiyi kanalı tutun, – Reyçel başını yellədi, – təşəkkürlər.

Reyçel zəngi bitirdi. Başqa birinə zəng etdi. Ancaq ona cavab verən olmadı. Əsəbi şəkildə telefonu yenidən çantasına atdı. Salfetlə ağzını sildi. Vəziyyətin yaxşı olmadığını anlayan Teylor soruşdu:

– Nəsə problem baş verir, Reyçel?

– Yox, Frenk. Problem yoxdur. İvin dayəsinin oğlu oyun zamanı zədələnib. Ona görə də getməlidir. Mən isə bacımı tək qoya bilmərəm. Hava qaralandan sonra tək qalmaqdan qorxur. Məni bağışlayın, Frenk. Axşamınızı bərbad etdiyim üçün çox üzr istəyirəm, ancaq mən getməliyəm. Çox üzgünəm.

– Heç bir problem yoxdur. Mən sizi apararam, Reyçel, – Teylor balığının dadına baxmadan yerindən

qalxdı. Hesabı ödədikdən sonra onlar restoranı tərk etdilər.

O, bəxtinin üzünə güldüyünü düşünsə də, bu dəfə də hər şey korlanmışdı. Görüşlərinin, bəlkə də, ən yaxşı məqamı başlayacaq bir vaxtda hər şey məhv olmuşdu. Nəyə görəsə həmişə Teylorun başına bu tip şeylər gəlirdi. Yəqin, onun qara pişiyi xoşbəxt olmasını istəmirdi, yaxud da problem elə onun özündə idi.

Yol boyu onlar müxtəlif mövzularda restorandakı söhbətləri bir növ davam etdirdilər. Bəzən güldülər, bəzən əyləndilər. Ancaq bütün bunlar Teylorun kefini o qədər də yüksəltmədi, lakin o bunu minimum dərəcədə üzə verdi. Onlar şəhər kənarında yaşayan Reyçelin evinin qarşısına çatdılar. Bu qəhvəyi rəngli, ikimərtəbəli, xırda, şirin bir ev idi. Düzdür, azacıq kosmetik baxıma ehtiyacı olsa da, o qədər də pis görünmürdü.

Frenk və Reyçel bir anlığa göz-gözə gəldilər. Teylor çoxdandır yaşamadığı hislər keçirdi. Reyçelin gözlərində əks olunan məsumiyyəti, əziyyəti, digər tərəfdən isə ona baxan gözlərin boş olmadığını gördü. Bəziləri bunu elektriklənmə adlandırır, bəziləri eşq. Adrenalin, empati və yaxud da ki başqa bir şey. Digər bir qrup ehtiras. Teylor üçünsə bunun nə olduğu heç fərq eləmirdi. Əsas o idi ki, hiss etdikləri özünün xoşuna gəlir, bir növ onu rahatladırdı. Reyçel üzünü çevirib maşından endi. “Challenger”in pəncərəsindən içəriyə gülümsədi.

– Hər şeyə görə minnətdaram, Frenk. Bir daha axşamınızı məhv etdiyim üçün üzr istəyirəm.

– Təşəkkür edəsi biri varsa, o da mənəm. Hər şey çox gözəl idi, bircə desert heyif oldu.

– Başqa vaxt təkrar edək.

– Mütləq. Axı siz mənə bir desert borclusunuz. Gecəniz xeyrə, xanım Şilds, – Teylor gülümsündü.

– Frenk, – qadın duruxdu, diqqətini toplayıb dedi, – bəlkə, içəri gələsiz. Desertimizi qaldığı yerdən davam etdirək. Bu günə qədər çayımı bəyəndiyini deyən olmasa da, şikayətçilər də yoxdur.

Teylor nə cavab verməli olduğunu düşündü. Görəsən, içəri keçməli, yoxsa burada qalmalıydı? Yaxşı, içəri keçəndən sonra özünü necə aparmalıydı? Ümumiyyətlə, bu içəri keçmək fikri haradan çıxdı axı? Niyə sakitcə maşını ilə buradan uzaqlaşmadı ki?

– Məmnuniyyətlə, – cavabı nəyə əsaslanaraq verdiyini bilməsə də, Teylor riskə getmək istədi, – bir də gördünüz, ilk şikayət edən mən oldum.

– Baxarıq, – səmimi və ironik cavab.

Reyçel yavaşca qapını açıb içəri keçdi. Frenkə də sakit olmasını işarə edib detektivin keçməsi üçün yolu açdı. Detektiv sanki cinayət yerinə gəlmiş kimi həyəcanlıydı. Reyçelin göstərişi ilə qonaq otağına tərəf getdi. Açıq-yaşıl divarlar və alçaq tavanlı otağın kifayət qədər xoş aurası vardı. Yemək masası divara söykənilmişdi. Şkafın içərisində 32 diaqonal ölçülü düz ekran televizor dayanmışdı. O qədər də yeni model deyildi. Böyük ehtimal, LCD. Onun yanında isə kifayət qədər müasir və çoxfunksiyalı karaoke dəsti vardı. Şkafın şüşəli gözündə isə çoxlu sayda orijinal albomlar. Celine Dion, Mariah Carey, Adele, Beyonce

Knowles və daha bir çox qadın solistlərin diskləri. Nadir hallarda əks cinsin də nümayəndələrinin də albomları gözə çarpırdı. Reyçel feminist olduğunu deyəndə yalan danışmamışdı. Digər rəflərdən birində buna dair bir sıra başqa dəlillər yerləşirdi. Ayaan Hirsi Ali "İnfidel[53]", Khaled Hosseini "A thousand splendid suns[54]", Frances Gies "Women in middle Ages[55]" və Lisa Gardner, Daniele Stell, Sandra Braun, Sidni Şeldon kimi yazıçıların müxtəlif romanları Reyçelin kitab rəfini bəzəyirdi.

Qəfildən Teylorun gözünə başqa bir kitab sataşdı. Bu kitabın eynisindən Teylorda da vardı. O, əlini rəfə uzadaraq kitabı götürdü.

*Michael Connelly, The Poet.*

Ön sözü Stiven Kinqə məxsus olan bu nəşr 2004-cü ilin aprelində işıq üzü görmüşdü. Əsərin orijinalı isə 1996-da çap olunmuşdu. Teylora bu kitabı keçən il doğum günündə çavuş Elizabet Nikolz hədiyyə etmişdi. Ümumiyyətlə, Teylorun üçün ən sevimli hədiyyə elə kitab olardı. Xüsusən də, onun zövqünə uyğun kitab.

– Frenk, – Reyçel içəri girdi. Əlində iki dənə üzərində müxtəlif kəpənək şəkilləri olan ağ fincan vardı. O, çayları masanın üstünə qoyub şkafa, Teylor tərəfə yaxınlaşdı, kefi bir balaca yüksəlmişdi, – nəyə baxırsınız belə maraqla?

– Bu kitab, – Teylor sərt üzqabıqlı romanı göstərdi, – onun bu kitabların arasında olmasına təəccübləndim, doğrusu.

---

53 İng. – Xəyanətkar, ateist, inamsız.

54 İng. – Min Möhtəşəm Günəş.

55 İng. – Orta əsrlərdəki Qadınlar.

– Hə, elə mən də hərdən təəccüblənirəm, – Reyçel gülümsədi, – amma orada mənə görə maraqlı olan bir obraz var.

– Reyçel, – əvvəlcə, qadının dediyini anlamayan Frenk əsərin süjetini xatırladıqdan sonra dedi. Konnellinin əsərində Reyçel Uelling adlı bir qadın FTB-də işləyirdi. Əsərin əsas qəhrəmanlarından olan Uelling baş protoqonist Cek Makveyə Poet adını almış cinayətkarı yaxalamaqda yardım edir. Teylor yenidən fikrə gedərək əsərdə təsvir olunan Reyçel ilə qarşısındakı qadın arasında, həqiqətən də, nəsə bənzərlik olduğunu gördü.

– Oxşayırıq hə?

– Bir az, – o yenidən kitabın üz qabığına baxdı.

– Çayınızı soyutmayın,

Reyçel xəfifcə kitabı onun əlindən aldı. Barmaqları Frenkə toxunanda o, qadının əllərinin istisini hiss etdi. Dərisinin yumşaqlığını və bu anın bitməməsi duyğusunu. Reyçel kitabı yenidən rəfə qoyduqdan sonra onlar divanda əyləşib çaylarını əllərinə aldılar. Yaşıl çayın içərisindəki limon Teylorun gözünə günəştək parlayırdı. Çoxları çayı limonla içməyə qəribə baxsalar da, bu, Teylor üçün istirahətin ən gözəl yollarından biri idi. Düzdür, çay o qədər də yaxşı alınmamışdı. Lazım olduğundan bir az daha çox dəmlənmiş və normasından artıq tökülmüşdü.

Teylor heç bir şey demədən sakitcə çayından qurtumlayır, sırada onu nəyin gözlədiyini düşünürdü. İndi Endi ilə Stiv FTB məsələsi ilə məşğul idilər, Nurlanla Braun isə bütün idarələri tək-tək dolaşaraq, bəlkə

də, mövcud olmayan bir köstəbəyin axtarışındaydılar. Axı cinayətkarın Nurlanın onlara Mole deyə təqdim etdiyi qeyri-adi oyuncağı almağa, görəsən, pulu çatardımı? Axı pullu biri belə cinayətləri hansı məqsədlə edirdi? Teylor isə bu suallara cavab tapmaq əvəzinə çox cəlbedici bir xanımla otaqda baş-başa qalmışdı. Bu günkü fürsəti qaçırsa və Hovard bundan xəbər tutsa, Teylorun güzəranı Ferrellinkindən heç də yaxşı vəziyyət almayacaqdı. Hovardın isə dilinə düşən şəxs çətin halını düzəldə bilsin.

– Nə düşünürsünüz, Frenk? – Reyçel soruşdu. Hələ də əynində yeməyə gedərkən geyindiyi qısa qara paltar vardı.

– Heç, bir anlığa özümdən asılı olmadan son hadisələr ağlıma gəldi, – bu barədə danışmayacağına söz verməyinə baxmayaraq dedi, – "NÖMRƏ BİRLƏR" cinayəti – mən həyatımdakı ən ağır tapşırıqla üz-üzəyəm. Hərdən nə edəcəyimi belə bilmirəm.

– Zərrə qədər də olsun, irəliləyiş yoxdur?

– Əgər varsa belə, mən görmürəm, – yenidən Teylorun qanı qaraldı.

– Mən hələ də unuda bilmirəm, – qəfildən Reyçel ah çəkdi. Stəkanı masanın üstünə qoydu. Gözlərini televizora zillədi, lakin o işləmirdi, – axı niyə mən, Frenk?

Teylor heç nə demədi. Bu mövzuya toxunduğu üçün peşman oldu. Üzünü çevirərək Reyçelin yaşarmış gözlərinə baxdı. İlk görüşlərindən bəri o, başına gələnləri biruzə vermirdi, ancaq artıq Reyçel sınma nöqtəsində idi. Əlbəttə, belə bir fəlakəti çoxları

üzərindən ata bilmir. Bu qadın isə bir neçə Gizli Servis işçisi və polisdən başqa hamıdan sirrini gizlətmişdi. Onda bu o qədər də pis alınmırdı. Teylor həmin hadisədən xəbərdar olmasa, belə bir şeyin bir həftə əvvəl baş tutduğunu heç, yəqin belə edə bilməzdi. Görəsən, Reyçel nədən ilham alırdı? Necə dözürdü? Nəyə görə dözürdü?

– Mənim günahım nə idi? Hansı pis əməlin sahibiyəm? Nəyə görə bir ömürdür ki, bədbəxt hadisələr mənim kölgəmlə gəzir? Nəyə görə pis xatirələr beynimdən çıxmır? Bəlkə də, bunun səbəbi həyatda yaxşı anlarımın barmaq sayı olmasıdır. Yorulmuşam, hər şeydən yorulmuşam, Frenk, – o, yavaşca Teylorun əlindən tutdu. Ovucunun içi buz kimi idi, – ağrıdırdı. Mən Çarlza yalvarırdım. O isə eşitmirdi, qəribə sözlər deyir, kimləri isə söyürdü. Axı Çarlz bunu necə edə bilərdi? Mən onu gör nə qədərdir, tanıyıram. Axı niyə mən? Niyə? Özümü ləkəsi getməyən parça kimi çirkli hiss edirəm. Kirliyəm. İstəmirəm. Yaşamaq istəmirəm.

O, Teyloru qucaqlayaraq üzünü onun sinəsinə yapışdırdı. Teylor qərarsızcasına əli ilə kürəyini sığalladı. Nə deməli olduğunu düşünsə də, ağlına heç nə gəlmirdi. Reyçelin zəif durumundan istifadə etmək istəməzdi, çünki bu qadın indi aciz və kimsəsiz görünürdü. Növbəti atılacaq addım onların münasibətini başlamadan sonlandıra bilərdi. Xoşbəxtlikdən, növbəti atdılan addımın müəllifi o olmadı.

Reyçel başını qaldıraraq iki əli ilə onun üzündən tutdu. Teyloun ürəyi döş qəfəsini zorlayır, azadlıq

tələb edirdi. Gözləri Reyçelin mavi gözlərinə baxırdı. Artıq nəyin baş verəcəyi ondan asılı deyildi. Bu anı yaşamaqdan ötrü hər şeyi gözə almağa dəyərdi. İndi artıq Teylor öz nəfsinin əsirinə çevrilmişdi.

Onlar yavaşca öpüşdülər. Bu öpüş Teylora sevginin, eşqin nə olduğunu uzun illərdən sonra yenidən xatırlatdı. “NÖMRƏ BİRLƏR” əməliyyatını, işdəki çətinliklərini, hətta Lusini belə həmin anlığa unutdu. Reyçeli qucaqlayıb öpüşlərinə cavab verdi. Dodaqlarını ayırdıqdan sonra Teylor onun üzünə toxundu. Əlinin xarici ilə qadının yanağında yapışıb qalmış göz yaşını sildi. Hər ikisi gülümsəyir, hər şeyin necə bu vəziyyətə gəldiyini anlaya bilmirdilər. Reyçel divandan qalxıb Frenkin əlindən dartdı.

– Gəl, gedək. Səni bir nəfərlə tanış etmək istəyirəm, – o, uşaqtək gülümsəyirdi, – gəl, Frenk.

Onlar əl-ələ pilləkənlərlə evin ikinci mərtəbəsinə qalxdılar. Teylordan olsa, bundan sonra bir ömür Reyçelin yanından ayrılmasına izn verməzdi. Bir daha heç kəs onu başqasına qarşı istifadə edə bilməzdi. Teylor qadına aşiq olduğunu belə düşünməyə başladı. Niyə də yox? Onun da hər bir normal (bu söz ona aid olmasa belə) insan kimi sevməyə və sevilməyə haqqı var. Onun da hisləri, şəxsi həyatı var.

Reyçel onu növbəti dəfə öpüb ağ taxta qapını açdı. İçəri keçərkən Teylora göz vurub gülümsündü, qapını örtdü. Teylor çox həyəcanlanmışdı. Qapının digər tərəfində də özünü ən nümunəvi şəkildə aparmalı olduğunu qarşısına məqsəd qoydu. İlk andan pis təsir

yaratmamalı idi. Yenidən qapı açıldı və Reyçel bir kənara çəkilərək onu içəri dəvət etdi.

Otaqda kreslo, şkaflar, dolablar, kiçik ölçülü televizor və bir nəfərlik çarpayıdan başqa heç nə yox idi. Teylor yataqda hərəkətsiz uzanan qadına baxdı. Bu Reyçelin bacısı İv Şilds idi. Yaşca daha gənc olmasına baxmayaraq ən yaxşı halda Reyçelin böyük bacısı yaşında görünürdü. Saçları arxaya yığılmış, gözlərinin altında çuxurlar əmələ gəlmişdi. Üz cizgiləri ilə burnu isə Reyçelinkindən seçilmirdi. O, gözlərini tavana zilləmişdi. Ağzının kənarından su axırdı.

– Hey, İv, – Reyçel bacısının əlindən tutdu, yavaşca çarpayıya oturdu. Bədəni hərəkət etməsə də, İvin gözləri bacısına tərəf meyilləndi, – tanış ol. Bu, Frenkdir. Frenk Teylor. O, polisdir. Sənə onun barəsində danışmışdım. Xatırlayırsan?

Reyçel üzünü detektivə qarşı çevirdi, ürəkdən gülümsədi. Bu hərəkətlə sanki o, Frenkə nə etməli olduğunu işarə etdi.

– Salam, İv. Tanış olmağımıza çox şad oldum, – xəstə qızın soyuq baxışları bir qədər mülayimləşdi. Bundan sonra hansı addımı atmaq barədə düşünən Teylor susmağın ən optimal variant olduğuna qərar verdi. Ətrafa göz gəzdirərək bacılar tərəfə baxmamağa çalışdı.

– Frenk mənim dostumdur, İv. Biz bu yaxınlarda tanış olmuşuq, – Reyçel nəzakətlə bacısına dedi, – bu gün çox gözəl şam etmişik. Qayıdanda isə Frenk səninlə tanış olmaq istədiyini dedi. O, kitab oxumağı çox sevir, İv. Hətta mənə sənin üçün kitab oxumağı

da təklif etdi, – İvin üz cizgiləri gülümsədi, – amma mən, əlbəttə ki, etiraz etdim. Axı bunu yalnız mən edə bilərəm. Nə isə, bizi boş ver. Günün necə keçdi? Missis Koenə bu gün filmə baxacağını demişdim. Bayaq diski gördüm. Deməli, cizgi filminə baxmısınız. Xoşuna gəldi? – cavabında qız xırıltı ilə nəfəs aldı.

Divarlara, masa üzərindəki qəribə ağ rəngli önlüyə, bəzi musiqi qruplarının posterlərinə baxan Teylor bacıların bir-birləri ilə necə yola getməsinə heyran qalmışdı. Bu andan sonra o, Reyçelin nə səbəbdən başına gələnləri gizlədiyini anlayırdı. Çünki başqa seçimi yox idi. İvin həyatda qalmağının tək səbəbi bacısı Reyçel idi. Bacısının xoşbəxt olacağına bəslədiyi inam idi onun ürəyini döyündürən qüvvə. Bacısı isə dəhşətli həqiqəti paylaşsa, yəqin ki, həmin gün İvin sonu olardı.

– İndi mənimlə Frenk aşağı düşürük, əzizim. Yaxşı? Gələcəyəm, – deyərək Reyçel onun alnından öpdü, – gecən xeyrə qalsın. Mən yenə gələcəyəm. Həyatım, sən narahat olma, – İvin saçına tumar çəkərək yataqdan qalxdı.

– Gecən xeyrə, İv, – Frenk qapıdan bayıra çıxdı, onu açıq saxlayaraq Reyçel üçün yolu açdı.

Şilds arxasınca qapını örtən kimi pıçıldadı, – bu xəbərin yayılmasını nəyə görə istəmirəm?

– Aha. İnan ki, çox üzgünəm, Reyçel, – Teylor onun əlindən tutdu.

– Bilirəm, – Şilds gülümsündü, üzünü uşaqtək turşudaraq baxdı, – gəl gedək, daha bir çay içək.

– Razı, amma icazə ver, bu dəfə çayı mən dəmləyim.

Hər ikisi gülərək aşağı, mətbəxə endilər. Sadə döşənmiş mətbəxdəki masanın başına keçdilər. Müxtəlif xatirələri yada salaraq bir-birlərini daha yaxından tanıdılar. Teylorun əlləri robottək hərəkət edirdi. Əsl evdar xanımtək çayı dəmlədi. Dolablardan birində tapdığı saxsı stəkanlara süzərək servis etdi. Ən əsas məqamlardan biri isə limon idi. O, özü üçün iri bir dilim kəsərək saxsının içinə atdı. Limon ora düşərkən yaranan tuqqultu səsinə qulaq verib, onun ətrini içinə çəkdi. Masanın üstündəki qara şokolad piltəsini əli ilə ortadan simmetrik bölüb Reyçellə bölüşdü. Ləzzətlə çayını içib həmsöhbətinin işdə başına gələn məzəli olayları dinlədi. Uzun müddətdir ki, hiss etmədiyi rahatlıq duyğusu onu məst etmişdi. Bu xoş gecənin bitməməsi üçün qəlbində dua edirdi.

Sonra onlar yenidən qonaq otağına keçdilər. Film izləmək qərarına gəlsələr də, uzun mübahisədən sonra bu fikirdən daşındılar. Əvəzində isə Reyçelin notbukunun başına keçdilər. Bir müddət müxtəlif saytları ziyarət edib ən son xəbərləri oxudular, maraqlı faktlar barədə səmimi müzakirələr apardılar. Elektron poçtlarını yoxladılar. Teylor da işi haqqında danışdı. Onun da öz sənətində başına kifayət qədər maraqlı hadisələr gəlmişdi.

Teylor özünü çox xoşbəxt hiss edirdi. İlk dəfədir ki, birini bu qədər rahat anlayır və biri tərəfindən bu qədər rahat başa düşülürdü. O, uşaqlıq qorxularını və hələ də bacarmadığı şeyləri Reyçelə danışanda qadın gülmədən dayana bilmədi.

– Deməli, sən hələ də ayaqqabı bağlarını bağlaya bilmirsən, hə?

– Elədir ki, var. Nə qədər çalışsam da, alınmır, – Teylor gülümsündü.

– Gözlə, indi gəlirəm, – Reyçel yerindən qalxıb dəhlizə tərəf yollandı. Bir neçə dəqiqə sonra, Frenk artıq onun üçün darıxmağa başlayanda bir cüt uşaq çəkməsi ilə geri qayıtdı. Masanın üstünə atıb dedi, – bu uşaqlıq ayaqqabılarımdır. Onları alanda atam mənə bağ bağlamağı öyrətmişdi, – bundan sonra o, bir anlığa duruxdu. Fikrə gedib bir neçə uşaqlıq xatirəsini, valideynlərini yad etdi. Sonra yenidən gülümsəyərək divana oturdu, – indi isə cəhd et.

– İnan ki, bacarmıram, – Teylor başını notbukdan qaldıraraq dedi.

– Mən sənə kömək edəcəyəm, – Frenkin əllərini çəkmələrin üzərinə gətirdi, – bax, o qədər də çətin deyil. Əvvəlcə bağın bir ucunu digərinin üzərindən keçirib kip sıx, sonra isə onlardan birini halqa formasına gətir, digərini onun içindən aşıraraq yenidən sıx.

– Gördün, dedim axı, alınmır, – cəhdi boşa çıxan Teylor deyindi, – mən sadəcə bunu bacarmıram. Bu iş mənlik deyil. Bəzi şeylər var ki, insan onları heç vaxt əldə edə bilmir.

– Bunu ayaqqabı bağı haqqında deyən ilk şəxs, yəqin ki, sizsiniz, detektiv.

– Polislər həmişə öz qeyri-adi cəhədləri ilə seçilirlər.

– Axı burada çətin heç nə yoxdur. Gəl bir yerdə cəhd edək.

– Yox, alınmayacaq.

– Eeee, yaxşı da, – ərköyüncəsinə bir etirazla qarşılaşdı.

– Yaxşı, amma yalnız bir dəfə, Reyçel, – Teylor əllərini yenidən qırmızı çəkmələrə uzatdı.

Reyçel onun əllərindən tutdu. Barmaqlarını Frenkin ovucuna toxunduraraq yavaşca bağlara tərəf apardı. Bir yerdə onları X şəklinə gətirib halqa əmələ gətirdilər, səliqəli şəkildə bağın digər ucunu oradan keçirib sıxdılar. Əyri-üyrü olsa da, Teylor çəkmələrə düyün vura bildi.

– Təbriklər, – Reyçel əl çaldı, – görürsən, o qədər də çətin deyil.

– Sən olmasaydın, bacarmazdım.

– Yaxşı da, detektiv Teylor. Özünüzə bir az inansanız, daha yaxşı olar.

– Yaxşı, xanım Şilds. Çalışaram.

– İndi isə bir daha cəhd edin, ancaq təkbaşına.

Teylor nə qədər çalışsa da, alınmadı. Hər dəfə sonuncu mərhələyə çatanda haradasa xətaya yol verir, ən başa qayıtmalı olurdu. Reyçel isə heç nə demədən ona tamaşa edir və gülürdü.

– Of, bezdim, – Teylor təngə gələrək balaca ayaqqabını masanın üstünə atdı. Divana söykənərək deyinməyə başladı, – görürsən, alınmır da!

– Həqiqətən, belə bacarıqsız polis görməmişdim, – Reyçel çırtıldayaraq başını yellədi, – çox təəssüf edirəm, detektiv.

– Elə mən də, – Teylor saata baxdı. Üçə işləyirdi. Vaxt axı hara tələsirdi? Sanki elə indicə İvin yanından

mətbəxə enmişdilər, amma artıq gör neçə saat keçib? – mən getsəm, yaxşıdır, – o dedi.

– Niyə? Bezdin məndən, Frenki? – Reyçel ona yaxınlaşdı. Bayaq paltarını dəyişib rahat bir şey geyinməyinə baxmayaraq bihuş edən ətrinin iyi hələ də gəlirdi.

– Yox, o qədər də bezməmişəm. Amma. . .

– Ammasız, detektiv. Bu bir əmrdir, – Reyçel ehtirasla onun dodaqlarından öpdü. Bu hücumun qarşısında aciz qalan Teylor ona cavab verdi. Reyçel bir ayağını onun üzərindən aşıraraq qucağına çıxdı, – mənim yuxum gəlir, detektiv. Bilirəm, sizin də.

– Reyçel, bunun yaxşı fikir olduğundan əmin deyiləm.

– Mən əminəm, detektiv və təklif yox, əmrdir.

Onlar öpüşməyə davam edə-edə pilləkənləri qalxdılar. Qonaq otağında isə notbuk və işıqlar yanıq qaldı. İvin otağı ilə üzbəüz qapını açıb içəri keçdilər. Teylor illərdir gərçəkləşdirmədiyi çılğınlıqları bir gecəyə necə sığdıra bildiyini anlamamışdı. İndi isə, bəlkə də, o həyatının qadını ilə baş-başa qalmışdı.

Amma...

Görəsən, həyat müxtəlif anlarında və yerlərində insan qarşısına çıxan ammalar olmasa, insan həyatı necə olardı? Sıxıcı və monoton, yəqin ki. Axı hər şey əldə oluna bilsə, bu həyatda gözəl hesab edilən əlçatmaz məfhumlar nələr olardı? Hər gün bütün arzular həyata keçsə, artıq həmin şeyləri niyə arzu adlandırılardı? Utopik həyatı gözəl sayanlar çoxdur, amma niyə? Əgər hər şey istədiyin kimi olsa, nə istəyəcəyini

necə müəyyən edə bilərsən? Və yaxud da hər bir şey pula, maddiyyata bağlanılırsa, nəyə görə hər il onlarla imkanlı şəxs özünə qəsd edir? Demək ki, həyatın AMMA-larının nazı ilə oynamaq lazımdır.

Lakin bu AMMA Teylorun kefinə əməlli-başlı soğan doğraya bilmişdi.

Onlar yataq otağına keçdikdən qırx-qırx beş saniyə sonra Teylorun telefonuna Hovarddan zəng gəlmişdi. Başqası olsa, o cavab verməzdi, ancaq ortağının bu vaxt onu səbəbsiz yerə narahat etməyəcəyini bilirdi. Qısa danışıqlarından sonra Teylor oranı tərk etmək məcburiyyətində qaldı. Gedişinin səbəbini deyə bilməsə də, Reyçeldən dəfələrlə üzr istədi. Getməmək kimi bir seçimi, onsuz da, yox idi.

Çarlz Neş bir neçə dəqiqə əvvəl komadan oyanıb xilaskarı Endi Hovardı dərhal yanına çağırmışdı.

Teylor "Challenger"inin başına keçdi. Maşın yerindən götürülərkən mühərrik şirtək nərə çəkdi. Onun səsi səssiz küçəyə yayıldı. Gözəl günlər, həqiqətən də, mövcuddur, amma nədənsə onlar Teylorla heç cür yola getmirlər.

White Memorial Medical Center. Şərqi Los-Ancelesin məşhur xəstəxanalarından biri. Çarlz Neş burada LAPD-nin nəzarəti altında saxlanılırdı. İyirmi dörd saat onun qapısının önündə iki nəfər keşik çəkirdi. "NÖMRƏ BİRLƏR" cinayətinin və merə qarşı planlaşdırılan sui-qəsdin tək şahidi Çarlz Neş idi. Bir az əvvəl o, bir həftəlik komadan qalxmış, dərhal Endi Hovardla görüşmək istədiyini bildirmişdi. Digər polis məmurları nə qədər cəhd etsələr də, Neş bildiklərini

yalnız bir nəfərə demək fikri üzərində durmuşdu. Onlar detektiv Hovardla əlaqə saxlayan kimi o, polislərə orada olacağını demişdi. Müvəqqəti onunla qalan Ferrelli oyadan kimi ortağına xəbər vermiş Hovard əl-üzünə su belə vurmadan buraya yollanmışdı.

Onlar ikinci mərtəbəyə qalxıb Neşin qaldığı palataya girdilər. Hələ də müxtəlif sistemlərə və cihazlara bağlı Neşin üzündən oksigen maskası qaldırılmışdı. O, Hovardı görəndə gülümsündü, lakin nəyisə ağrıdığından üzünü turşutdu.

– Salam, – Neş boğuq səslə dedi.

– Hey, dostum. Nə var, nə yox? – Hovard çarpayıya yaxınlaşdı. Özünü sakit aparmağa çalışsa da, həyəcandan ayaqları sözünə qulaq asmırdı.

– Mənim yoldaşımla qızım necədir?

– Yaxşı, hər şey qaydasındadır. Onların evinin qarşısında patrul nəzarəti var. Narahat olma. Hər gün yanına gəlib səni ziyarət edirdilər.

– İnanmağım gəlmir, – Neş gülümsəyərək gözlərini sıxdı. Qəfildən gülmək növbəti dəfə yüngülvari sancı vermişdi, – sənə deyiləsi sözüm var.

– Eşidirəm, Çarli. Buyur.

– Bəs? – o gözlərini tibb bacısından Ferrellə tərəf çevirdi, – baş-başa qalsaq, daha yaxşı olar.

– Haqlısan, – Hovard başını yelləyərək digərlərinə oranı tərk etmələrini işarə etdi.

– Amma...

– Ammasız, Stiv. Xahiş edirəm, – Hovardı bu qədər ciddi görmək hər adama nəsib olmurdu.

– Dörd-beş dəqiqədən çox olmasın, lütfən. Onun vəziyyəti hələ ki o qədər də yaxşı deyil, – deyərək tibb bacısı otaqdan çıxdı. Ferrell də oranı tərk etdikdən sonra Hovard yavaşca qapını örtdü.

– Hə, tək qaldıq. Başla, Çarli.

– O, insan deyil. Ona baş qoşduğum üçün özümə nifrət edirəm. Yazıq Reyçel. O, necədir? – Neş öskürdü.

– Reyçel Şildslə hər şey qaydasındadır.

– Mən bunu etməyə məcbur idim, detektiv. İnanın ki, əgər deyilənə əməl etməsəm, o, ailəmi məhv edərdi. Bir dəfə sözündən çıxmışdım. Həmin gün bağçada qızımın yanında dayanmışdı. Qorxurdum.

Neş sinir pozuntusu keçirirdi. Hər bir insanda travma sonrası meydana çıxan tipik travma nümunəsi. İndi onun sözləri yarıda saxlanılsa, xəstənin fikri dağıla bilərdi. Ona görə də Hovardın ona qulaq asmaqdan başqa çarəsi qalmırdı.

– O, şeytandır. Dayanmayacaq. Mən bilirəm, dayanmayacaq.

– Onun adı nədir, Çarli?

– Janet. Janet Cekson[56].

– Çarli? – Hovard təəccübləndi.

– Bilirəm, ancaq o, mənə ad deməyib. Əvvəllər bunun təsadüf olduğunu deyib keçirdim. Sonra isə həqiqətləri öyrəndim. O, merin axırına çıxacaq.

– Çarli, o nəyə oxşayır deyə bilərsən? Janetə? İndi dincəl, sabah foto-robot üçün ekspert gələr.

---

[56] Janet Jackson(May 16, 1966) Maykl Ceksonun kiçik bacısı. Məşhur müğənni, rəqqasə, aktrisa.

– Yox, o qara deyil. Endi, mənə qulaq asın, o, meri... – Neş boğuldu.

– Kömək çağırım? – Hovardın bədəninə soyuq tər gəlmişdi. Neş üçün narahat olsa da, deyəcəklərini öyrənməkdən ötrü səbirsizlənirdi.

– Qızı, qub... Qu. Qu. – onun səsi pıçıltı səviyyəsinə endi. Yenidən öskürməyə başladı.

– Çarlz, səni eşitmirəm. Gözlə, – deyərək Hovard ona tərəf əyildi. Qulağına qəribə və tanış səslər gəldi, lakin bu səslər yataqdan yox, bayırdan gəlirdi. Qışqırıq səsləri. Ardınca isə həyəcan işə düşdü və çox tanış səslər.

Atəş səsləri!!!



# 29

## 23 oktyabr 03:41

**– Lənət! – qışqıraraq Hovard Neşin palatasından çıxdı. İki nəfər nəzarətçi orada tapançalar əllərində hazır dayanmışdılar. Gənc olduqlarından səriştəsizlikləri hiss olunurdu, – Ferrell hanı? – cavab gəlmədi, – soruşuram, Ferrell hanı? Diliniz haranıza girib sizin?**

**– Burdayam, – arxadan Ferrellin səsi gəldi, – ən azı səkkiz nəfər saymışam. Yaşılbaşlardı. Xəstəxana mühafizəsi onları saxlaya bilməyəcək. Uzağı üç dəqiqə vaxtımız var.**

– F...!!! – Hovard tapançasını çıxardı. Tünd-göy Glocku əlində sıxaraq düşünməyə başladı. Üzünü gənc polislərin yanında dayanaraq zırıldayan tibb bacısına çevirdi. Onun yaxalığından adını oxudu, – xanım Şavert, mənə qulaq asın.

– Onlar bizi öldürəcəklər! Yox, mən yaşamaq istəyirəm, – tibb bacısı zırıldayırdı. Fürsətləri olsa, digər iki məmur da onun hərəkətini təkrar edərdi.

– Xanım, özünüzü ələ alın, səbrim tükənir.

– Siz nə danışırsınız? Axı indi bizi öldürəcəklər!!! Gedin onları saxlayın, burada dayanmaqdansa.

– Kifayətdir, – Hovardın səbri tükəndi. O, meksikalı tibb bacısına bir şillə vurdu. Bundan sonra qadın yerində dondu. Şokun təsirindən çıxmışdı, – mərtəbələr arasında neçə yol var?

– İki lift və üç pilləkən. Bir də yanğın çıxışı, – aşağıdan atəş səsləri gəlməyə davam edirdi.

– Siz ikiniz, – Hovard üzünü gənc polislərə tutdu, – liftin qapısının bağlanmasına izin verməyin, – polislər ağzıaçıq vəziyyətdə ona baxırdılar. Görünür, onlar da şokun təsirindən çıxmamışdılar, – eşitmədiz, bir-iki dəqiqəmiz var? Tələsin! Qapıların qarşısına nəsə qoyun!

Polislər hərəkət etdikdən sonra Hovard palatada boğulan Neşə baxdı, – xanım Şavert, siz onun yanında qalın. Stiv, nə qədər güllən var?

– İki maqazin.

– Məndə də. Sən buraların keşiyini çək. Siqnalizasiya işə düşən kimi polisə xəbər göndərilib, amma sən Frenklə əlaqə saxlayıb tələsməsini de.

– Bəs sən nə edəcəksən?

– Gedim görüm, aşağıda neçə nəfər var? Sənə inam yoxdur axı, – Hovard gülümsündü, – uğurlar.

– Endi, özündən muğayat ol.

Hovard cavabında başını yelləyib oradan uzaqlaşdı, pilləkənləri düşərək birinci mərtəbəyə endi. Divarın üzərində bir sürü mərmi izi qalmışdı. Üzbəüz pilləkənlər olan tərəfdə isə xəstəxananın mühafizə işçisi gizlənmiş, dizləri üstə əyilərək belini divara söykəmişdi. Hovardı görən kimi əli ilə nə etməli olduğunu soruşdu. Hovard barmağını dodağının üstünə

gətirərək «sakit ol» deyə işçiyə pıçıldadı. Fikrini toplayaraq atəş açanların sayını təxmin etməyə çalışdı. Divarın arxasında işçidən başqa, heç olmasa, daha bir nəfər yaşıl əjdahalara atəş açırdı. Onun isə burada olduğundan çinlilərin xəbəri yox idi. Sağ gözünü divarın arxasından çıxararaq giriş tərəfə baxdı. Doqquz nəfər çinli ətrafı gülləbaran edirdilər. Döşəmənin üzərində üç-dörd mühafizə işçisinin cəsədi görünürdü. Bundan əlavə bir neçə xəstəxana işçisi və xəstələr də öldürülmüşdü. Üç nəfər mühafizə işçisi, bir həkim və qoluna sistem bağlı yaşlı bir xəstə isə resepşn masasının arxasında gizlənmişdi. Onlar da çox dayana bilməyəcəkdilər.

O, digər tərəfdəki mühafizə işçisinə baxdı. Arxasında çarxlı çarpayı vardı. Qalxan kimi istifadə etmək olardı. Risk böyük olsa da, bu, resepşn tərəfdəki insanları xilas etməyin yeganə yolu idi. Hovard mühafizə işçisinə resepşn tərəfi işarə edib əlini telefon kimi qulağına gətirdi. İşçi onun nə soruşduğunu anlamayıb başını yellədi. Hovard hərəkəti ikinci dəfə təkrar etdikdən sonra o, kəmər cibindən ratsiya çıxardı. Hovard başını yelləyib əl jesti ilə onu atmasını istədi. İşçi ratsiyanı döşəmənin üstünə qoyub Hovarda tərəf itələdi. Xoşbəxtlikdən çinlilər buna diqqət yetirmədilər.

– Məni eşidən var? Danışır detektiv Endi Hovard, – cavab gəlmədikdən sonra Hovard bir daha dedi, – Xətdə kim isə var? Eşidirsiniz?

– Eşidirik, – Hovard ratsiyaya cavab verən işçiyə baxdı, – bizə kömək edin son güllələrimiz qalıb.

– Mənə qulaq asın. Pilləkənlər tərəfdəyəm. Sizə siqnal verəndə hamınız bu tərəfə qaçırsınız. Aydındır?

– Yox, detektiv. Onlar bizi məhv edərlər. Çoxdurlar.

– Başqa çarəniz yoxdur. Dediyimi edin, aydındır?

– Aha, – xəttin digər tərəfindəki səs udqundu.

Hovard ətrafa baxdı. Pilləkənlərin yanındakı divarda qırmızı yanğın qutusu vardı. İçində isə yanğın söndürənlə balta. O, cəld onları götürdü. Baltanı divara söykəyib yanğın söndürəni əlinə aldı. Digər tərəfdəki işçiyə sürətli şəkildə barmaqları ilə bir, iki, üç işarə edərək arxasındakı çarpayını işarə etdi. Artıq onun hərəkətlərini anlamağa başlayan mühafizəçi başını yellədi. İki əli ilə çarpayıdan yapışaraq divara tərəf sürüdü.

Bir.

Hovard yenidən digər tərəfə göz atdı. Çinlilər artıq resepşnı əhatəyə almışdılar.

İki.

Digər pilləkənlər tərəfdəki işçi çarpayını özünə tərəf dartıb qüvvəsini topladı.

Üç!

Divarın arxasından çıxan çarpayını görən yaşıl əjdahalar atəş açdılar. Hovard divarın arxasından çıxıb yanğınsöndürəni onlara tərəf atdı. İki əli "Glock"dan yapışıb bir neçə dəfə atəş açdı. Güllələri yanğınsöndürənə tuş gəlməsə də, çinlilərdən ikisini vura bildi. Qaçaraq çarpayını çiyini ilə vurub aşırdı, onu özünə sipər etdi. Bir anlığa nəzarəti itirən çinlilər çaşbaş qaldılar. Bu an resepşının arxasından atəş açan mühafizə işçiləri onlardan daha ikisini aradan götürdülər.

– Lənət! Bu, odur. Endi Hovard! İt oğlu! Öldürün onu, – yaşıl telli çinli civiltili səsi ilə qışqırdı, – bu lift niyə işləmir axı? Yuxarı qalxın cəld olun! Vaxtımız yoxdur. İndi alçaq polislər burada olacaqlar.

Hovardın geriyə bircə darağı, yəni on gülləsi qalırdı. O, tapançasını hazır vəziyyətə gətirdi. Divara söykədiyi baltada iki çinlinin atəş aça-aça çarpayıya yaxınlaşdığını gördü. Baltanın sapında hər şey bulanıq əks olunsa da, siluetləri rahat seçə bilirdi. Bəs yanğınsöndürən hansı tərəfdə idi axı? Hovard tapançanın lüləsini çarpayının başından çıxarıb daha bir neçə dəfə atəş açdı.

Növbəti çinli və geriyə qalan 6 güllə. Digər çinli geriyə çəkildi. Dörd nəfər qalmışdılar. Hovard baltaya baxaraq yanğın söndürənin resepşının sol tərəfində yerləşdiyini gördü. Çinlilər də artıq qorxurdular. Hovard əllərini ciblərinə apardı. Düşməni çaşdırmaq üçün ən azı iki-üç fərqli əşyaya ehtiyacı vardı. Ratsiya bir. Cibindən bıçağını çıxardı. Bəs sonra nə ola bilərdi?

– Nəyə görə atəş açmırsınız? – yaşıl telli özündən çıxmışdı, – O, sadəcə bir nəfərdir. Unutmayın ki, bura gəlməyimizin səbəblərindən biri də odur!

– Ey, qıyıqgöz! – aha. Hovardın ağlına bir fikir gəlmişdi, – məni istəyirsən? Gəl, al onda! – o, tapançanın lüləsini çıxarıb növbəti dəfə atəş açdı, beş güllə, – sənə təklifim var. Günahsız insanları burax, mən çıxıram.

– Get işinin dalınca!

– Yaxşı, görək. Onların sizə müqavimət göstərməyə gücləri çatar. Ən azından bir neçə dəqiqəlik. Gülləri

hələ qurtarmayıb. Özün fikirləş, burada qaldığın hər saniyə sənin ölümünü sürətləndirir. Uzağı bir dəqiqəyə polislər burada olacaqlar. Görək, onda nə edəcəksən?

Bu an Hovardın qorxduğu başına gəldi. Liftin qapısını açıldı. Axı necə ola bilərdi? Qapıdan qışqıraraq tibb bacısı Şavert çıxdı. Görəsən, bu qadının bir damcı da olsa ağlı var idi? O, liftdən çıxan kimi çinlilər tərəfindən atəşə tutuldu. Yaşıl telli üç nəfərə işarə edib onları yuxarı yolladı. Geriyə iki nəfər qalırdı. Beş güllə, iki nəfər və günahsız beş insan. Üstəlik artıq yuxarı qalxan daha üç nəfər. Axı bu polislər harada qalmışdılar? Yuxarıdan atəş səsləri eşidilməyə başladı. Orada üçün-üçə savaş gedirdi. Təcrübəsiz gəncləri nəzərə alsaq bunu üçün birə handikap da adlandırmaq olardı. Qərar vermək üçün sonra gec ola bilərdi. Ya indi, ya da heç vaxt.

Hovard ratsiyanı, bıçağını və ayaqqabılarını havaya vızıllatdı. Çinlilər müxtəlif istiqamətlərə atəş açaraq əşyaları vurmağa çalışdılar. O, ayağa qalxaraq darağı yanğınsöndürənə boşaltdı. Dördüncü güllədə məqsədinə nail oldu. Yanğın söndürən partladı. Partlayışın gücü çinlilərdən birini resepşn masasına çırpdı. Yaşıl telli isə yıxılaraq çənəsi üstə yerə yapışdı. Ətrafı qoxusuz, təzyiq altında sıxılmış karbondioksidin ağ tüstüsü bürümüşdü.

– Nəyi gözləyirsiniz? Rədd olun oradan! – resepşının arxasındakı insanların hərəkət etmədiyini görən Hovard qışqırdı. Yuxarıdan isə atəş səsləri gəlməyə davam edirdi. Hovard ayağa qalxmağa çalışsa da,

qəfildən çarpayının altında qaldığını hiss etdi. Partlayışın gücündən çarpayı onun üzərinə aşmışdı. Heç yanı əzilməsə də, buradan çıxmağa taqəti qalmamışdı, – lənətə gələsi, axmaqlar biriniz mənə kömək edin! Çıxarın məni buradan!

Görəsən, yuxarıda nələr baş verirdi?

Ferrell Neşin palatasının qapısının ağzından liftə tərəf atəş açırdı. Tibb bacısı Şavert liftə girdikdən sonra gənc polislər də tapançalarını ataraq oradan üçüncü mərtəbəyə qaçdılar. Ferrell isə təkbaşına qaldı. O, liftin qapısı açılarkən cəld çinlilərdən birini vurdu. Güllə ata-ata Neşin palatasına girdi. Gülləsi bitmək üzərə idi. Axı nəyə görə o, qorxaq polislərin silahlarını götürmədi? Görəsən, haçan özünü soyuqqanlı aparmağı öyrənəcəkdi?

Çinlilər atışa-atışa qapının bir neçə addımlığına çatmışdılar. Son bir gülləsi qalmışdı. O, qapıdan geriyə çəkilərək yaşıl əjdahaların kölgəsini görən kimi atəş açdı. Növbəti səriştəsiz addım. Ancaq bunun ardınca daha bir atəş səsi eşidildi. Çinlilərdən biri quştək qapının önündən uçdu, lakin o, atəş açmağa davam edirdi. Digəri isə tələsik palataya girdi. Əlverişli məqamdan istifadə edən Ferrell cəld çinlinin üzərinə atıldı. Qarnından yapışaraq onu divara çırpdı. Çinlinin tapançası yerə düşdü. Ferrell dizi ilə onu vurmağa çalışdı, çinli özünü kənara attıdığından dizi divara çırpıldı. Ağrıdan çığıran Ferrell beliüstə tapançanın üstünə yıxıldı. Özünü birtəhər ələ alıb tapançanı götürdü, tətiyi sıxaraq hara gəldi atəş açdı. Güllələr qapının ətrafına və divara dəysə də, hədəfə tuş gəlmədi.

Çinli yenidən yüksələrək onun əlindən təpik vurdu, ayağı ilə boğazını sıxmağa başladı. Ferrell boğulurdu. Bütün bədəni taqətdən düşürdü. Düşmənin ayağını üzərindən atmağa cəhd etsə də, alınmırdı. Sonda Ferrell məğlubiyyətlə barışmağa hazırlaşarkən boğazının boşaldığını hiss etdi.

Teylor tüfənginin arxası ilə çinlinin üzündən vurub onu yerə sərdi. O, xəstəxanada baş verənləri öyrəndikdən sonra baqajda saxladığı tüfəngi ilə binaya arxa tərəfdən daxil olmuşdu. Bura çatanda onun cəld çinlilərə atəş açması Ferrellin həyatını xilas etmişdi.

– Stiv, sən yaxşısan? – o, əlini uzadaraq çavuşun qalxmağına kömək etdi.

– Səni gördüyümə necə sevinirəm, təsəvvür edə bilməzsən, – rəngi göyərmiş Ferrell dedi. Yenidən normal nəfəs almağa çalışırdı.

Teylor Neşə yaxınlaşdı. Nəbzi hələ vururdu, amma yenə də təcili yardıma ehtiyacı vardı. Axı bu nə vaxt bitəcəkdi? "NÖMRƏ BİRLƏR" artıq onu boğaza yığmışdı. Bəlkə də, bu gün həyatındakı ən yaxşı günlərdən biri kimi qalacaqdı, lakin son anda hər şey məhv oldu. Axı haçana qədər? Çinlilərin bura gəlmələrinin səbəbkarı olan Çarlz Neş indi onun qarşısında idi. Demək, o, çox vacib məlumatlara sahibdir. Bunu isə öyrənməyin tək yolu Neşin həyatda qalmasını təmin etməkdir. Bu vəziyyətdən yeganə çıxış yolları məhz bu texniki təchizat işçisi Çarlz Neş idi. Yaxşı, bəs yaşıl əjdahalar Neşin oyandığını haradan öyrənmişdilər? Teylor Reyçelə heç bir şey demədən

oradan ayrılmışdı. Özünü tənliyin məchul sırasından çıxara bilərdi. Geriyə isə Ferrelllə Hovard qalır, lakin onların da heç bir kənar şəxsə xəbər vermədiklərindən əmin idi. Bəs onda kim?

– Frenk! – qapının ağzında Endi Hovard göründü. O, axsaya-axsaya içəri keçdi, – şərəfsiz! Bayaqdan haradasan? Mən az qala o dünyaya gedirdim e!..

– Mən də səni gördüyümə şad oldum, Endi. Görürəm, hələ ki, ayaq üstəsən. Narahat olma, səndə ölən sifət yoxdur, – Teylor gülərək əlini ortağına uzatdı, Hovarda çarpayının yanına gəlməyə kömək etdi, – dəstək gəldi?

– Aha. Polislər aşağını təmizləyirlər, Stivenslə Riçmond da aşağıdadırlar, amma işin ən kirli qismini artıq mən həll etmişəm. Həmişə ən çirkli şeylər mənim boynumda qalır. Sonra isə federallar gəlib medalla gedirlər belə yerlərdən.

– Nə isə, Endi. Boş ver. İndi isə de görək, dostumuz nə dedi? – Ferrell dilləndi.

– Düz-əməlli heç nə. Onunla görüşən qadın özünü Janet Cekson deyə təqdim edib. Başa düşdünüz də söhbət kimdən gedir. Mən bu Neşi nə vaxt görsəm, bəlaya düşürəm.

Hər üçü güldülər, ancaq əbəs yerə deməyiblər ki, yaxşı gülən sonda gülür. Hər şey bir göz qırpımında baş verdi. Teylorun zərərsizləşdirdiyi çinli oyandı, Ferrellin yerdən götürmədiyi tapançanı əlinə alıb Hovarda tuşladı. Nə edəcəyini bilməyən Teylor yerində qaldı.

ENDİ!!!

Çinli ard-arda atəş açdı. Ani şoku atladan Teylor tüfənglə onu iki dəfə vursa da, artıq iş-işdən keçmişdi. Teylor sakitləşmək bilmirdi. Gülləsi bitdikdən sonra tüfəngin lüləsindən yapışıb üzü dağılana qədər silahın arxasıyla döydü. Çinli ölmüşdü, ancaq bu onun etdiyinin cəzası ola bilməzdi. Teylor adını eşitsə də cavab vermir, var gücü ilə yerdəki leşi çırpmağa davam edirdi. Gözlərindən necə yaş gəldiyini hiss etmirdi. Çinlinin qanının üstünə necə sıçradığını hiss etmirdi. Başını arxaya döndərib baş verənlərin real olduğunu gördü. Dizləri üstə yıxıldı, bir neçə saniyəliyinə reallıqla təxəyyül arasındakı sərhəddi müəyyən etməyə çalışdı. Mədəsində qəribə ağrı hiss edirdi. Ürəyi bulanır, başı gicəllənirdi. Adətən, sərxoş olanda belə duyğular yaşanır. Əslində, o, indi də sərxoş idi. Günahsız insanların ölümü onu sərxoş etmişdi.

Növbəti bir neçə saniyədə Teylor özündən gedərək döşəmənin üstünə sərildi. Sonra isə nələrin baş verdiyini xatırlamırdı. Heç xatırlamağa da cəhd etmirdi. Əgər bacarsa, onun yaddaşına həkk olunan şeyi unutmaq istərdi. Çox yaxın insanlardan birini itirmişdi. Yeri həmişə hiss olunacaq birini.



# 30

## 23 oktyabr 12:35

**Yaxınının ölüsünü daşımaq qədər ağır yük varmı, ya yox? Ölüm qarşısında nəyə görə bu qədər acizik? Axı niyə bizim səhvlərimizin qurbanı başqaları olmalıdır? Teylor bu sualların cavabını axtarırdı. Parad formasında bir neçə əməkdaşı ilə birlikdə tanıdığı ən yaxşı insanlardan birinin tabutunu daşıyırdı. Əslində qara gözlük taxmağı sevməzdi, lakin gecə təzyiqi qəfildən düşmüş və özündən getmişdi. Xəstəxanada oyandıqdan sonra hər şeyin, həqiqətən, baş verdiyini öyrənmiş, bir neçə saat fasiləsiz ağlamışdı, insanların onu bu vəziyyətdə görməsini arzulamırdı. Xəstəxanadan çıxaraq birbaşa bura yollanmışdı. İndi həyatda tək bir şeyi arzulayırdı.**

Tabutdakı insanın yerində olmağı.

Endi Hovard buna layiq biri deyildi. Belə olmasını heç vaxt istəməzdi. Ölüm. Bundan ağır cəza ola bilərdimi məgər? İnsan həyatının necə dəyərli olduğu məhz bundan sonra aydın olur. Üstəlik, biri özünü digərlərinin yolunda qurban verirsə, sağ qalanlar nə

etsinlər? Bu borclarını necə ödəsinlər? Bu yükü nə vaxta qədər daşısınlar? Onlara görə özünü qurban vermiş insanın ailəsinin, yaxınlarının üzünə baxmaqdan böyük cəza nə ola bilərdi?

Teylor ətrafa baxdı. Kimi desən burada idi. Bölmələrindən olan polislərin haradasa yetmiş-səksən faizi, digər bölmələrdə çalışan həmkarlar, şöbə müdirləri Cessika Mur, Gizli Xidmət işçilərindən Riçmond və Stivens, FTB-dən təzəlikcə tanıdıqları Flint və Baçelder, mərhumun ailə üzvləri, dostları və başqaları. LAPD bu gün çox istedadlı əməkdaşlarından birinin aralarından ayrılmağının hüznünü yaşayırdı. İzdiham içərisində vəziyyəti yenidən korlanan Teylor baş verənləri yenidən gözünün qarşısına gətirdi.

Neşin palatasında olanda nəzarətsiz qalan çinli qəfildən yerdəki tapançanı götürmüşdü. Teylor reaksiya verməyə macal tapmamış o, Endiyə atəş açdı, lakin Ferrell onu qabaqlaya bildi və heç vaxt yola getmədiyi Hovardı itələyərək onun yerini aldı. Stiv Ferrell özünü heç vaxt yaxşı münasibətdə olmadığı bir şəxs üçün, Endi Hovard üçün qurban verdi.

Hovard Teylora paralel olaraq tabutu çiynində daşıyırdı. Onun vəziyyəti Teylorunkindən dəfələrlə pis idi. Nə də olsa, Teylor bu bədbəxt hadisənin şahidiydi, o, isə iştirakçısı. Teylor öz ortağını yaxşı tanıyırdı. O, buna görə özünü heç vaxt bağışlamayacaqdı. Bəlkə də, Stivin yerinə Frenk olsaydı bununla barışmaq Hovard üçün daha rahat olardı. Amma indi...

Növbə ilə müxtəlif insanların nitqi eşidildi. Keşişin, Murun, LAPD-nin yuxarı vəzifəli şəxslərindən bi-

rinin və digərlərinin. İndi isə sıra Teylora çatmışdı. O, tələsmədən tribunaya tərəf addımladı. Beynində hansı cümlələri işlədəcəyini götür-qoy etdi. Fikrini qısa və konkret çatdırmaq istəyirdi. Özünü pis hiss edirdi, daha nə qədər dözə biləcəyindən əmin deyildi. Tribunaya qalxaraq udqundu. Gözlüyünü çıxararaq sözə başladı.

– Bu gün LAPD ən yaxşı işçilərindən birini itirdi. Təkcə, gözəl, nümunəvi polisi yox, həm də ideal ailə başçısını, atanı. Stiv Devid Ferrell iki ildən artıq mənimlə bir yerdə çalışıb. Bu cür ağır iş atmosferində işləməyinə baxmayaraq qəlbi həmişə təmiz və yumşaq biri idi. Heç vaxt kiminləsə ucadan danışmaz, qəlbini qırmazdı. Əsl centlmen, əsl yoldaş, əsl polis, – Teylor yanağının islandığını hiss etdi, – o, həyatını məni, detektiv Hovardı və Çarlz Neşi xilas etmək üçün qurban verdi. Mən bu gün burada söz verirəm ki, dostum Stivin ölümü əbəs yerə deyil. Stiv indi daha yaxşı yerdədir. Yuxarıdan bizə baxaraq gülümsəyir. Buna bütün qəlbimlə inanıram və bizdən tələb olunan şey isə onun yolu ilə getməkdir. O, öz işinə vurğun insan idi. Buna görə də vəzifə uğrunda canından keçdi. Stiv Ferrell Los-Anceles Polis Departamentində çalışan hər bir insana örnəkdir. Ən əsası da, Tob Frost və Co Quylfoilə, – Teylor özünü gənc polislərini adını çəkməməklə bağlı tənbehləsə də, dayana bilmədi, – mən səhərdən ətrafa baxır və həmin iki nəfəri görmürəm. Çarlz Neşə nəzarət etmək üçün təyin olunmuş iki nəfəri. Bizim çətin anımızda silahı ataraq aradan çıxan iki nəfəri. Qoy, Stiv Ferrellin şərəfli

ölümü bu vicdansızlara dərs olsun! Sahib olduqları vəzifəyə hörmət etməyi öyrənsinlər. Çox təəssüf ki, onlar burada deyillər. İnanmıram ki, gəlməmələrinin səbəbi vicdan əzabı çəkmələri olsun, çünki onların vicdanı yoxdur. Onlar kimilər də aramızda az deyil, amma yenə də hamı Stiv Ferrellə baxıb özü üçün dərs alsın. Stiv, – Teylor başını yuxarı qaldırdı, – qardaşım, ümid edirəm ki, indi rahatlığını tapmısan. Əlvida.

Teylordan sonra isə tribunaya mərhumun həyat yoldaşı Hanna Ferrell qalxdı. Başında papaq, qara rəngdə geyinmiş Hannanın əlindəki yaylıq su içindəydi. Burnu həddən artıq çox silindiyindən göyərmişdi. O, bir neçə saniyəliyinə bura toplaşanlara baxdı. Udqunaraq dedi:

– Sadəcə övladlarıma bir şey deyəcəyəm, – o, üzünü bacısının yanında dayanmış körpələrinə tutdu. Sarışın qızı Stivə çox oxşayırdı. Oğlan isə daha çox anası tərəfə bənzəyirdi, – bilin ki, sizin atanızın qatili onu vuran adam yox, Frenk Teylorla Endi Hovarddır, – Hanna nifrət dolu gözlərini Hovarda zillədi, – səni lənətləyirəm!!!

Bir anlığa zaman durdu. Hamı baş verənləri analiz etdi. Çoxları Endi Hovarda baxdılar. Onun aqressiv xasiyyəti polislər arasında kifayət qədər şöhrətə sahib idi, ancaq o, heç nə demədi, sakitcə başını yellədi. Dodaqlarını dişləyərək başını yellədi. Diqqətlə baxdıqda bədəninin necə titrədiyini görmək olardı. Ferrell ömrünün son üç gününü Hovardın evində keçirmişdi. Hanna Stivi onların yanından ayrılmayana qədər evə buraxmamaqla hədələyirdi. Gecələrin birində Hovard onların telefonda davasına qulaq asmışdı. Heç vaxt

güvənmədiyi Ferrellin onunla Teyloru yoldaşı qarşısında müdafiə etməsinə heyran qalmışdı. İndi isə qəzəbinin hüdudları yerə-göyə sığmırdı. Hər şeydən çox da ifritə Hannaya belə fürsət verməyinə yanırdı.

Ani sükutdan sonra mərasim yenidən normal axını ilə davam etdi. Mərasim nəğməsi altında havaya hörmət atəşi açıldı. Ferrellin cəsədi Roman Katoliklərinin adətlərinə uyğun şəkildə kremasiya[57] edildi. Təxminən iki saatdan artıq baş tutan dəfn mərasimindən sonra insanlar dağılışmağa başladı. Teylorla Hovarda da başsağlığı verənlərin sayı az deyildi. Polislər hadisələrin, həqiqətdə necə baş verdiyini bilirdilər, ona görə də detektivləri qınamırdılar. Yaxşı polis üçün ən xoşbəxt ölüm vəzifə başındadır.

Teylorla Hovard "Odd Fellows" qəbiristanlığından çıxan kimi yaxınlıqdakı barlardan birinə girdilər. İki bardaq sərt içki sifariş verib masalardan birinin başına keçdilər, köhnəlmiş dəri kreslolara oturdular. Teylor yerini rahlamamış ortağının bardağının boşaldığını gördü.

– Bir dənə daha.

– Endi, sakitləş.

– Mən sakitəm. Gedirəm, «Jack Daniels»dən Tekiladan bir şey götürüm. Sən nəsə istəyirsən?

– Gözlə. Mən özümünkünü bitirim, gedib gətirərəm. Sən isə sakitləş.

– Mən sakitəm dedim! – Hovard çığıraraq yerindən qalxıb bara tərəf getdi.

---

[57] Ölü bədəndəki ruhun bir dünyadan digərinə keçməsini təmin etmək üçün yandırılması.

Uzun illərdir təmir olunmamasına baxmayaraq bu məkan hələ də özünə məxsus şarma sahib idi. Divarların tutqun bulud rəngi, taxta masalar və kovboyların dövrünü xatırladan tünd-qonur bar. Qara rəngli dəri kreslolar, ağ və qonur mozaikalarla işlənmiş döşəmə. Teylor arxaya söykənərək əlində butulka ilə geri qayıdan ortağına tamaşa etdi.

– Nə? Nə baxırsan? Barmenə o qədər şey sifariş verdim ki, əvəzində bunu verdi, – Hovard özünü kreslonun üstünə atdı, öz bardağını dodaq yeri buraxmadan ağzına kimi doldurdu, – süzüm?

– Yox, hələ varımdır.

– İndi nə etməyi planlaşdırırıq?

– Heç bir fikrim yoxdur.

– Deyəsən, axır vaxtlar bu cümləni çox işlədirsən, – Hovard donquldanıb növbəti bardağı boşaltdı.

– Deyəsən, axır vaxtlar sən də yaman deyəsənləyirsən.

– Ax, Frenk. İnanırsan, yaşamaq istəmirəm.

– Yaxşı, bəsdir, belə şeyləri ağlından çıxar. Başqa vaxt ölərsən, indi görüləsi işimiz var, – Teylor içkisini yarılayaraq masanın üstünə qoydu, – gecə məndən əvvəl Neşin oyanması barədə başqa kimlərə xəbər vermişdiniz?

– Heç kimə. Mənə xəstəxanadan zəng gəldi. Sənə xəbər verdim, Stivi oyatdım, birlikdə ora yollandıq.

– Səncə, xəstəxanadan kimsə yaşılbaşlara xəbər verib?

– Niyə də yox? Yaxşı pula xəbər yox, nə istəsən, verərlər, – Hovard ortağının yarımçıq bardağını doldurub butulkanı başına çəkdi.

– Əslində məntiq var, amma özün fikirləş, Neşin oyandığını neçə nəfər bilirdi?

– Ən azı bir tibb bacısı və həkim, sən, mən, Stiv. Aşağı yuxarı altı-yeddi nəfər. Tibb bacısını siyahıdan çıxaraq, qorxudan əl-ayağı əsirdi.

– Bəlkə, bilərəkdən edirdi?

– Frenk, yaşılbaşlar onu güllələdilər. Tibb bacısının günahı yox idi.

– Bəs həkim? – Teylor yerini rahatladaraq yenidən bardağını götürdü.

– Bax həkimi görməmişdim. Heç biz ora çatanda da orada deyildi, – Hovard başını yellədi. Əlindəki butulka, səliqəsiz köynək üzə çıxmış parad formasında əsl veteran əyyaşları xatırladırdı, – amma nəzərə al ki, gecə vaxtı hər həkim xəstəxanada qalmır. Yenə də xəstəxanaya girib çıxanların siyahısını tutarıq. Sən harada idin, Frenk?

– Mən? Necə bəyəm? – Teylor utandı.

– Səsindən yatmadığını başa düşmüşdüm. Həm də ki kifayət qədər həyəcanla danışırdın. Əminəm ki, evdə olmamısan.

– Məndən şübhələnirsən? – Teylor bu sualın cavabını bilirdi. Sualı verməkdə əsas məqsəd mövzunu dəyişib Hovardın dərinə getməsinin qarşısını almaq idi.

– Səndən şübhələnirəm, ancaq başqa məsələ barəsində. Mən sənə zəng vuranda yanındakı şəxsə dilindən heç nə qaçırmadın ki?

– Yox, nə danışırsan? – ritorik sual, – geriyə kimlər qalır, Endi? Görəsən, bizim zənglərə qulaq asırlar?

– Bilmirəm, indi düşünəcək halda deyiləm. Dedim axı, ölmək barədə düşünürəm. Sən isə başımı boş suallarınla xarab edirsən.

– Onda mən susuram.

Bir müddətliyinə onlar heç nə demədilər. Teylor bardağını, Hovard isə butulkasını bitirdi. Bir litrə yaxın içdiyindən artıq qızarmış gözləri xumarlanırdı. Endi Hovardın maraqlı xüsusiyyətlərindən biri də nə qədər çox içməsinə baxmayaraq, özünü idarə edə bilmək qabiliyyəti idi. İçki onun bədəninə və hislərinə təsir etsə də, beynini asanlıqla zəbt edə bilməzdi.

Hovard qəfildən ayağa qalxıb yenidən barmenə tərəf getdi. İki dəqiqə sonra iki bol köpüklü latte[58] ilə geri qayıtdı. Şəffaf fincanlardan birini Teylora uzadıb oturdu, bir ayağını digərinin üzərindən aşırdı. Qaşığı fincanın divarlarına çırpa-çırpa latteni qarışdırdı.

– Frenk?

– Aaaa?

– Nəyə görə mən yox, Stiv?

– Mən haradan bilim? – Teylor mövzunu açılmamış bağlamağa çalışdı, – gördün, bu dəfə fikrim yoxdur demədim?

– Mən ciddiyəm. Onun ailəsi, uşaqları indi atasız böyüyəcəklər. Mənim isə özümdən sonra davamçım yoxdur. Ölümüm o qədər də böyük itki olmayacaqdı. Məni sevənlərin də sayı çox deyil. Hanna haqlıydı. Əgər Stiv vaxtında bizdən ayrılsaydı, indi ailəsinin yanında olardı. Axı nəyə görə zaman maşını yoxdur, Frenk?

[58] Qaynanmış süd və espresso ilə hazırlanan qəhvə içkisi.

– Mən Herbert Uels deyiləm. Endi, – Teylor dərindən nəfəs aldı, – sənin heç bir günahın yoxdur. Bax zaman maşını demişkən sən keçmişə qayıtdın, Stivi xilas etdin, bəs sonra? Stiv oradan çıxıb evə gedəndə qəza keçirə bilərdi. Keçən dəfəki söhbətimizdə Nurlan mənə maraqlı əhvalat danışdı. Deməli, onların ölkəsində zəlzələ olanda bir nəfər ölüb.

– Pfff. Bunun nəyi maraqlıdır?

– İmkan ver, fikrimi bitirim. Həmin adam isə zəlzələyə görə yox, tikinti şirkətinin səriştəsizliyinə görə dünyasını dəyişib.

– Necə ki? – Hovard qaşlarını çatdı.

– Başına kərpic düşüb.

Onların hər ikisi qəhqəhə çəkdilər. Bu əhvalat qanıqara Hovarda dərman kimi təsir etmişdi. Onlar köpüklü lattelərini bitirib ayağa qalxdılar. Bardan çıxıb "Chevrolet Malibu"ya tərəf addımladılar. Sərin külək əsirdi. Günəş buludların arxasında gizlənmişdi. Ehtimal ki, yağış yağacaqdı. Əslində hava dəyişimi yaxşı olardı. Fərqli hava fərqli əhval-ruhiyyə yaradırdı. Onların isə buna çox ehtiyacları vardı.

– Mən evə ayaqla gedəcəm, – Teylor dedi.

– Razıyam. Lap yaxşı. Sənin əlindən bir az dincələrəm. Gecə şəhərə çıxacam. Barları gəzməyə. Gəlirsən? – Hovard maşının qapısını açaraq sükanın başına keçdi.

– Əlbəttə. Deyəsən, ağlında nə olduğunu bilirəm. Zənglərin dinlənilməsi barədə Nurlanla gərək danışım. Axşam, bəlkə, hamımız bir yerə toplaşıb bir şeylər içək?

– İçkiyə yox demərəm. “Streak”də görüşək. Saat doqquzda. Hesab sənlikdir.

– Razı, – Teylorun diqqətini ortağının seçdiyi bar çəkmişdi. Həmin məkan Man in The Mirror nömrə biri Rebekka Bilin öz gündəliyindəki müəmmalı şəxs ilə tanış olduğu yer idi. Həmin şəxs ki, sonradan onu vəhşicəsinə qətlə yetirdi. Həmin şəxs ki, Stiv Ferrellin ölümünə səbəb oldu.

– Nə isə. Axşama kimi, – Hovard qapını çırparaq örtdü. Səliqəsizcəsinə maşını geriyə verərək döndərdi, bir neçə saniyə içərisində gözdən itdi.

Teylor gülümsündü. Ətrafa baxaraq yol boyu irəlilədi. Bir insanın ölümü, həqiqətən, heç nəyi dəyişmir. Bir müddətliyinə hər kəs hüzn içində yaşayır, sonra isə ordinar həyat həmin insanı öz qrafikindən çıxarır. Sanki belə bir dəyişkən heç bir qrafikdə olmayıb. Onun kateqorik və kvantativ xassələri silinir. Geriyə yalnız bir neçə xoş xatirəni əks etdirən şəkil və sənədlər üzərindəki ad qalır. Əslində Endinin dediklərində haqq var idi. Stivdən sonra geriyə ailəsi qaldı. Bəs onun yerində Frenk olsa, geriyə nələr qalacaqdı? Həyatın oynadığı qumarın bankomatı, görəsən, kimdir? Bu qumarın qalibinin mükafatı nədir?

O, yenidən Odd Fellows qəbiristanlığının yanından keçirdi. Artıq yağış damcıları yerə enməyə başlamışdı. Teylor qəbiristanlıq tərəfə boylanaraq içəri baxdı. Stivin kremasiya olunduğu yerdə heç kəs qalmamışdı, lakin bir az əvvəl bura insanla dolu idi. İndi isə Stiv təkbaşına və kimsəsiz idi. Yalnız və nəzarətsiz. Yağış getdikcə daha da gücləndi. Teylor

dayanacağa qaçaraq avtobusun gəlməyini gözlədi. Parad forması islanmışdı. Külək də kifayət qədər güclənmişdi, bir az daha çox burada qalsa, Teylor xəstələnəcəkdi. Soyuqdəymənin isə heç yeri deyildi. Ona görə də o, dayanacağa gələn ilk avtobusa mindi. Arxadakı, pəncərə tərəfdəki yerlərdən birinə keçdi. Başını pəncərəyə söykəyib bayıra tamaşa etdi. Yağış damlaları şüşənin üstü boyu yavaşca aşağı axırdı. O, barmağını şüşəyə dirəyərək pəncərənin bu tərəfindən toppuş damlalardan birinə toxundu. Bir azdan yağış kəsəcək və bu su damcısı da Stiv Ferrell kimi tarixə keçəcəkdi.

# 31



## 23 oktyabr 20:48

**Görüşmə planları alt-üst olmuşdu. Teylorla komandası "Streak" barı əvəzinə Mərzəki Los-Ancelesdə idilər. "Westin Bonaventure" otelin bahalı nömrələrindən birində striptiz qadın ölü tapılmışdı. Doğum tarixi səksən yeddinci ilin on bir sentyabrına olan qadının təvəllüdü Maykl Ceksonun Dirty Diana[59] mahnısı ilə üst-üstə düşürdü. Bu artıq cinayətkarın sayca on ikinci nömrə biri idi. Hər dəfə öz orijinal qətlləri ilə seçilən M.J. yenə də ənənəsinə sadiq qalmışdı.**

Teylor ətrafa baxdı. Bahalı otel nömrəsi, ehtirası artırmaq üçün yandırılmış onlarla şam, qırmızı şərab, buz və qara şokolad, qoruyucu və bir neçə bu tip əməllər üçün istifadə olunan kapsula. Öldürülmüş Karenn "Alov" Keycin bədəni yatağın üzərində idi və bədənin sol tərəfi qismən sallanırdı. Görünür, vurulduqdan sonra o, yatağın üzərinə yıxılıb, əlində saxladığı telefon isə yerə düşüb. Çarpayı üzlüyü ölən

[59] 1) Maykl Ceksonun 1987-ci ildə Bad albomuna daxil olmuş beş nömrə bir mahnıdan biri. 2) İng. – Kirli Diana.

striptizin qırmızı sinəsindən yatağın üzünə tökülmüş qan ilə harmoniya yaradırdı. Keycin açıq qalmış qara gözləri tavana baxırdı. Əynində erotik alt paltarı istisna heç nə yox idi. Paltarları otağın müxtəlif yerlərinə səpələnmişdi. Dirty Diana mahnısı üçün bundan ideal kim ola bilərdi ki? Dəlil axtarışında olan dəstə hər bir əşyanı nəzarət altına almışdı. Ətraf lentlərlə dolu idi. Paltarlar, telefon və başqa şeylər sarı lentlə dövrəyə alınmışdı. Otaqda ondan artıq polis işçisi vardı.

– Analiz nədir? Fərziyyələriniz var? – qəfildən otağa daxil olan şöbə müdiri Cessika Mur soruşdu. O, bura, görəsən, niyə gəlmişdi? Axı bu əməliyyatda o, heç bir idarə haqqına sahib deyildi, – sualıma cavab verən olacaq, ya yox?

– İlkin versiya belədir, – Hovard yataqdan bir-iki addım irəlidə dayandı, – kim isə otelin bu nömrəsini bronlayıb. Kim isə, böyük ehtimal ki, bizə lazım olan adamdır. Sonra o, Karenn ilə əlaqə saxlayıb onu bura dəvət edir, yaxud da ki özü onu bura gətirir. Rəqqasə nömrəyə qalxır və hazırlıq işləri görür. Şamlar, şərab və digər şeylər, – Hovard telefonunu çıxarıb qulağına qoydu, – qəfildən dostumuz ona zəng vurur. Şirin söhbət başlayır. Seksə hazırlıq, intim temalar. Burdan isə çox güman hadisələrin məcrası bu istiqamətə axır.

O, iri pəncərənin qarşısına keçərək oradan ona tamaşa edən həmkarlarına baxdı. Murun bura gəlməsi onun da kefinə soğan doğramışdı. Son dövrlərdə aralarında yaşanan gərginlik üzündən ümumiyyətlə, müdirini sevmirdi. Hannanı onlara qarşı qızışdıran şəxs də məhz Mur idi.

– Söhbət əsnasında Karenn xırda-xırda soyunmağa başlayır. Hətta “telefonda seks” deyilən anlayış var. Onların söhbətinin ən qızğın məqamında üzbəüz göydələnlərdən birindən atəş açılır. Karenn snayper gülləsi ilə sinəsindən vurulur. Kalibri 0.50 BMG[60]. NATO-nun istehsal etdiyi güllələrdəndir. Maklavski hələ buradaca gülləni qurbanın bədənindən xaric edə bilib. Keçən dəfə Neş də bu kalibrli güllə ilə vurulmuşdu, amma həmin partladılmış çantadakı silah Barrett M95 idi. Yəqin, bu dəfə də eyni snayperdən istifadə olunub. Bu silah isə 1800 metrə qədər öz effektivliyini qoruyur. Pəncərə isə Yeni Dauntaun tərəfə açılır, – o, üzünü pəncərəyə tərəf çevirdi. Los-Ancelesin nəhəng göydələnlərinin işıqları göz oxşayırdı, – indi qalır atəşin hansı binadan açıldığını müəyyən etmək. Təklifi olanlar var?

– Başqa fikri olan var? – Mur ətrafına toplaşan polislərdən soruşdu.

– Mən hər şeyi dedim, Cess, – Hovard sərt tonla etiraz etdi.

– Deyəsən, mən səndən heç nə soruşmadım, Hovard.

– Evdə qalmış, kimsəsiz ifritə, – Hovard üzünü çevirərək donquldandı.

– Nə dedin?

– Heç. Sadəcə güllənin haradan gəldiyini təxmin etməyə çalışıram.

– Onda, ilk növbədə sağ tərəfdəki binaları yoxlayın, – eynəyi burnunun üstündə cəsədi incələyən

---

60 Brauning Machine Gun (Brauning Pulemyotu Gülləsi) (.50 BMG) 12.7×99mm kalibr.

Maklavski dedi, – güllə yazığın bədəninə sağdan mailli istiqamətdə girib. Bu atəşin sağ tərəfdəki göydələnlərdən açıldığına dair ilk sübut. İkincisi isə ölünün uzanma vəziyyətinə baxın. Ayaqları ilə çarpayı arasında otuz-qırx dərəcəlik bucaq var. İnanmıram ki, kim isə yatağa belə diaqonal vəziyyətdə uzansın. O, vurulduqdan sonra geriyə yıxılıb. Snayper mərmisinin verdiyi təkandan sonra iti bucaq yatağın sağı tərəfinə meyil edib.

– İndi onu sağdan vurublar, ya soldan? – Mur gözlərini tibbi ekspertə zillədi.

– Soldan. Ancaq sağ tərəfdəki binalardan. Üstəlik obyektlər arasında kifayət qədər nisbi hündürlük fərqi olub. Striptizə atılan güllənin ucu az qalsın ki yerə baxır.

– Sənin fikrinin doğruluğunu nə sübut edə bilər, Maklavski? – Murun xarakterindən hər kəs təngə gəlmişdi.

– Giliz, kamera yazıları, barmaq izi, saç, dırnaq, tüpürcək, sperma! – Maklavski özündən çıxdı, – polis olan sizlərsiniz! Amma sizə bir məsləhət verə bilərəm, Mur. İşini, həqiqətən, bilən polislərə mane olmayın!

– Yaxşı, – Murun cavabı hamını şoka saldı. Heç kəs ondan belə reaksiya gözləmirdi. Onun tülkü kimi hiyləgər olması bölmədəkilərə məlum idi və onlar Maklavskinin başının hələ ağrıyacağından əmin idilər.

– Güllənin haradan gəlməsindən daha vacib bir fakt var, – cümlənin effektini artırmaq üçün Maklavski kiçik fasilə verdi, – rəqqasəmizin başında və paltarının üzərində identik tük nümunəsi var.

– Əminsən? – Murun gözlərinə işıq gəldi.

– Əsl polislər mənim heç vaxt yanılmadığımı da bilirlər. Saç nümunələri eyni adama məxsusdur. Açıq-qara. Təxminən qırx beş-əlli yaşlı kişi saçı.

– Yaşı necə müəyyən edirsən bəs?

– Bəzi şeyləri sizə deyə bilmərəm, Mur. Sadəcə müəyyən edirəm. Səhər DNT analizi hazır olsun, hər şeyi dəqiqləşdirərik.

– Yaxşı səhər dəqiqləşdirərik. Frenk, sən bu barədə nə düşünürsən? – müdiri üzünü Teylora tərəf döndərdi.

– Mən həmkarlarımı dəstəkləyirəm, – Teylor Maklavskiyə baxdı. Nadir hallarda gülümsəyən ekspertin üzündə zərif gülüş nümayiş olunurdu.

– Hərdən özü-özümə düşünürəm, əlinizdə olsa, mənə qarşı qiyam qaldırarsınız, – Mur güzgüyə baxaraq dedi.

– Əlimizdədir, onsuz da, – Hovard növbəti dəfə donquldandı.

– Nəsə dedin, Endi? – Mur güzgüdə saçlarını düzəldir, üst-başını səliqəyə salırdı. Qara jiletinin altındakı qalstukunu yenidən bağladı.

– Heç. Maklavskinin lovğalanmağına irad tuturdum.

– Hə, haqlısan, – bu sözdən sonra otaqdakılar gülməmək üçün özlərini zorla saxladılar, – mən indi gedirəm. Frenk, hər bir irəliləyişlə bağlı məni məlumatlandır, – Teylor başını tərpədərək razılıq verdi, – gecəniz xeyrə.

O, otel nömrəsindən çıxan kimi içərini qəhqəhə bürüdü. Maklavski məharətlə şöbə müdirinin ağzını əydi. Parodiya o qədər uğurlu alındı ki, yoldaşları onu alqışa tutdular. Bir neçə dəqiqə keçdikdən sonra Teylorun sözü ilə hamı işinin başına qayıtdı.

– Qeb, bu telefonu Nurlana apar, – o, işçisinə müraciət etdi, – zəngin haradan gəldiyini müəyyən etməyə çalışın. Əsas zəngin gəldiyi yerdir. Alınsa, gözlədiyimizdən daha çox şey əldə edə bilərik.

– Oldu, Frenk, – Qebriel sellefona salınmış telefonu götürdü. Sağollaşaraq oradan ayrıldı.

Növbə ilə hər kəs öz vəzifəsini tamamlayıb otağı tərk etdi. Sonda yalnız Teylor, Hovard və Maklavski qaldı. Onlar bahalı şərabı üç yerə bölərək pəncərənin qarşısına keçdilər. Şəhər onların qarşısında parlayır, öz möhtəşəmliyi ilə ona baxan gözləri qamaşdırırdı. Maraqlıdır, dörd milyon insan arasında "NÖMRƏ BİRLƏR" ideyasını reallaşdıracaq neçə nəfər vardı? Dahilər hər sahədə olur. İdeal cinayətkar anlayışının isə ən böyük nümunəsi məhz kod adı M.J. olan şəxs və ya qrup olardı.

– Kim deyir ki, bahalı içkilər dadlı olur? – Maklavski badəsini başına çəkdi, – iyrənc dadı var.

– Dad demişkən, – Teylor şərabdan sonra üzünü turşutdu, – bunun üzündən başımız ağrımaz? Nə də olsa, şərab dəlildir!

– Yox, mən şərabdan analiz üçün nümunə götürmüşəm. Heç bizim gözəlçə də ona əl vurmayıb. Yəni bu boş dəlil sayılır. İndi isə bura baxın, – Maklavski güllənin şüşəni deşən hissəsini işarə etdi.

Qədəhi həmin deşiyin üstünə gətirərək içəri girən havanın qarşısını aldı, – M95, 98, ya da bunlara oxşar modellər. Məncə, beş yüz-yeddi yüz metr radiusundakı binaları yoxlayın. Nisbi hündürlük olaraq isə minimal fərqi iyirmi metr götürün.

– Niyə məhz beş yüz metrə, Leks? – Hovard soruşdu.

– Təcil güllə bir mühitdən digərinə keçdikdə azalır, sürət də ona düz mütənasibdir. İdeal şəraitdə isə bu snayper gülləsinin təcili 850 metr/saniyədir. İndi küləyi nəzərə alın. Hələ səsboğucudan danışmıram. Onun sürəti necə azaltdığından xəbəriniz var. Bundan uzaq məsafədə şüşə deşilməz, qırılardı. Atəş gücü də striptizçini öldürməyə inanmıram, kifayət edərdi. Digər tərəfdən, çox uzaqdan buranı nişan almaq da problem yaradardı. Yerinizdə olsam, 550-ci Hope Street-dəki binadan başlayaram. Sonra da Mellon Bankının mərkəzi binası.

– Leks, bu qədər şey bilə-bilə niyə hələ də ölülərlə məşğulsan?

– Çünki onlar sənin kimi mənasız suallar vermirlər, Hovard.

– Aydındır. Nə isə. Qulaq asın, məncə, burada görüləsi başqa iş qalmadı.

– Aha. Tərpənmək vaxtıdır, – Teylor ortağı ilə razılaşdı, – Leks, səhər analiz nəticələrini gözləyirik.

– Mütləq. İndi isə biriniz məni yolüstü evə atsın.

– Mənlik deyil. Mən mənasız suallar verirəm, – Hovard kinayə ilə dedi, – gecəniz xeyrə. Leks, ölüləri mənim əvəzimdən öpərsən.

– Narahat olma, Leks. Mənim yolumun üstüdür. Bir yerdə gedərik.

– Narahat olduğumu haradan düşündün, heç aydın olmadı.

– Heç nə, Leks, boş ver. Gəl getdik, – Teylor özözünə çox istedadlı insanların niyə bu cür xəstə olduğunu düşündü.

Evinə gəldikdən sonra paltarlarını hara gəldi atıb özünü soyuq duşun altına atdı. Hər şeyin səhər bitəcəyinə inanırdı. Yalnızca bir analiz və hər şey həll olacaqdı. Ya da ki tam tərsinə üstü açılmış sirr, onlarla yeni sirli qapını onların qarşına çıxaracaqdı. Daha bir neçə saat və növbədə nələrin olduğu üzə çıxacaq.

Teylor hamamdan çıxdıqdan sonra mətbəxə yollanıb özünə sərt bir qəhvə hazırladı. Oxumaq üçün kitab və Man İn the Mirror mahnısına uyğun gələn Rebekka Bilə məxsus gündəliyi götürüb yatağına keçdi. Səhərə qədər vaxtını boş-boşuna oyaq keçirməkdənsə, belə dəyərləndirmək daha yaxşı olardı.

# 32



## 24 oktyabr 11:03

**– Nə? İnanmıram! – analiz nəticəsini açıqlanandan sonra Hovardın Maklavskiyə reaksiyası belə oldu, – testin səhv etmə ehtimalı nə qədərdir?**

**– Sıfır tamlı bir kəsr. Hovard, test səhv olsa belə, nəticənin məhz həmin adamı üzə çıxarması qəribə deyil?**

**– Leks, axı mən buna inana bilmirəm. Burada nəsə qəribəlik var.**

– Məni maraqlandırmır, sən nəyə inanırsan. Analizin cavabını aldın? – o, detektiv başını yelləyənə qədər gözlədi, – çox gözəl! İndi isə rədd olun buradan. Görüləsi işim çoxdur.

– Endi, çıx bayırda gözlə, – şokun təsirindən hələ də çıxmamış Teylor dedi, – mən indi gəlirəm, – ortağı qapını çırpan kimi üzünü tibbi ekspertə tutdu, – mən analizdə bir problem axtarmıram, ancaq Endinin də belə düşünməkdə səbəbləri var, Leks.

– Məndən nə istəyirsən? – Maklavski burnunu ağ xələti ilə silərək soruşdu.

– Məsləhət, – Teylor bu insanın fikirlərinə həmişə önəm verərdi. O, bəlkə də, bu idarə də analitik düşünmə baxımından birinci adam idi. Sadəcə, insanlarla yola gedə bilmədiyi üçün ulduzu heç vaxt parlamazdı, – Leks, onun hədəfi merdirsə, buna nail olmaq üçün bu qədər şansı olub. Niyə özünü belə oyunlarla yorsun ki?

– Bax sənə bir şey deyim. Mən, demək olar ki, hər gün nömrə bir cəsədlərdən ən azı biri ilə görüşmüşəm. Onların heç birinin üzərinə nəfəs belə verən olmamışdı. Nə bir barmaq izi, nə də başqa bir şey. İndi isə birdən-birə rəqqasənin başında və çantasından saç nümunəsi tapılır. Bir az qəribədir. Digər tərəfdən isə heç kəs ideal iş görmür. Fikir belə vermədən belə bir səhv buraxa bilər. Ən bəsit nümunə, onlar öpüşürlər. Saç kontaktı olur. Sonra üzləri ayrılanda bir neçə saç çantanın üzərinə düşür. Yəni hər şey mümkündür.

– Etiraf etməkdən xoşum gəlmir, amma yenə də haqlısan, Leks, – Teylor qapıya tərəf getdi, ora çatanda üzünü yenidən ekspertə çevirdi, – bəs birdən bu təxribatdırsa? Onda nə olacaq, Leks?

– Təxribat qurbanı olan şəxsin günahsızlığını sübut etmək çox-çox çətin olacaq, – Maklavskinin üzündə hiyləgər gülüş əks olundu.

– İndi nə edirik? – Teylor bayıra çıxan kimi Hovard sualları ilə onun üstünə cumdu, – bir azdan analiz nəticəsini digərlərinə deməli olacağıq. Təsəvvür edirsən, vəziyyət necə qəlizləşəcək. Bəs sən merlə necə əlaqə saxlayacaqsan? Lənətə gələsi DNT analizi!

– Sakitləş! – Teylor səsini qaldırdı.

– Yox, Frenk. Yox! Mən onun Stivin qatili olduğuna inanmıram!

Onların qısa mübahisə burada bitdi. Bir azdan bu xəbər yayılacaq və əvvəlcə idarəni sonra isə bütün şəhəri xaos bürüyəcəkdi. Mura elə bu lazım idi. Cessika Mura yuxarı rütbəli idarə heyətindən iki şiddətli töhmət gəlmişdi. Töhmətin əsas səbəbi isə bir neçə nəfərdən gələn şikayət idi. Teylor narazıçılığını bildirənlər sırasında olmasa da, Mura dərs verilməsinin də əleyhinə deyildi. Müdiri dünən axşam "Westin Bonaventure" otelinə işçiləri ilə münasibətini bərpa etmək, yerini möhkəmlətmək üçün gəlmişdi, amma yenə də nəticə istədiyinin əksinə çıxmışdı.

Teylor Gizli Xidmət işçisi Mark Stivensə zəng vurub ondan York Riçmondla idarəyə gəlməsini tələb etmişdi. Həlledici məqam qarşıda onları gözləyirdi. Yarım saat sonra Mur analiz nəticəsindən xəbər tutdu. İlkin reaksiya hər kəsdə eyni cür oldu. Şok və dilemma. Niyə və nəyə görə? Bir azdan bu xəbər mediaya da yayılacaqdı. Onda isə nələrin baş verəcəyini ağla gətirməmək mümkün deyildi.

– Cənab mer, – Aaron Keyn şəxsən Teylorla əlaqə saxlamışdı, – eşidirəm, ser.

– Salam, Frenk. Necəsiniz? – həmişəkitək sakit və təmkinli ton. Əsl politik. Əsl lider.

– Təşəkkür edirəm, ser.

– Buyurun eşidirəm. Mənlə şəxsən təcili danışmaq istəməyinizin səbəbini öyrənmək istərdim.

Teylor qısa şəkildə analizin nəticəsini ona nağıl etdi. Merin reaksiyası isə digərlərindən tamamilə

fərqli oldu. Hər zaman təmkinliyi və səbri ilə yaddaşlarda qalan mer indi sanki ağlını itirmişdi. Özünü əla almağa çalışsa da, bacarmırdı. Telefonu əlində elə bərk sıxdı ki, bir neçə dəfə çıqqıltı səsi eşitdi. Bir neçə saniyə mübahisə etdikdən sonra axırda yenidən soruşdu.

– Frenk, siz bundan əminsiniz?

– Bilmirəm, cənab mer.

– Lazımi bütün işləri görün. Proses bitən kimi şəxsən mənlə əlaqə saxlayın. Sizdən xəbərlər gözləyirəm, Frenk. Əgər o, günahkardırsa, bunun səbəbini, hərəkətlərinin izahını öyrənin. Yox, əgər deyilsə, onun günahsızlığını sübut etməyi unutmayın.

– Aydındır, cənab mer.

– Uğurlar, Teylor.

Teylor sağollaşdıqdan sonra Gizli Xidmət işçilərinin gəldiklərini öyrəndi. O, onlarla ayrılıqda danışacaqdı. Lazımi suallara cavab tapmağa çalışacaqdı. Əmin deyildi. Analizin nəticəsi yox, onu narahat edən faktor tük nümunələrinin orada olmasıydı.

O, sorğulama otağına daxil oldu. Analiz nəticəsinin üzə çıxardığı şəxs onun qarşısındaydı. Heç nədən xəbərsiz şəkildə Teylora baxırdı. DNT analizi Mark Stivensə məxsus idi. İllərdir Aaron Keynə xidmət edən Mark Stivensə.

# 33



## 24 oktyabr 12:17

**– Bu, cəfəngiyatdır. Bilirsiniz, nədə məni itdiham edirsiniz? – Stivens tüpürə-tüpürə çığırırdı, – axı siz buna necə inana bilərsiniz?**

**– Sakit olun, agent Stivens, – Teylor sakitcə cavab verdi. O, Riçmond və Stivens sorğulama otağında idilər. O, ilk öncə onlarla tək danışmaq istədiyini demiş, digərlərinin, hətta Hovardın belə qarışmamasını rica etmişdi.**

– Mən heç kəsi öldürməmişəm! Lənətə gələsi, axmaq polislər! Bu, nə iyrənc vəziyyətdir belə?

– Agent, saç nümunələri sizə aiddir. Buna nə izahat verə bilərsiniz?

– Bilmirəm. York, – o, üzünü Riçmonda tərəf çevirdi, – sən həmişə mənim yanımda olmusan. Niyə səsini çıxarmırsan?

– Mark, sən dünən axşam növbədə deyildin, – Riçmond başını aşağı salaraq dedi, ortağının üzünü baxa bilmirdi. Ya ondan utanır, ya da ona qarşı ifadə verdiyi üçün utanırdı.

– Lənət! Axı? Mən orada olmamışam, – Stivens yumruğunu masaya çırpdı.

– Bunu kim təsdiqləyə bilər? – Teylor soruşdu, telefonuna ortağının göndərdiyi mesajı oxudu. Daha bir maraqlı fakt.

– Mən hal-hazırda tək yaşayıram.

– Onun yoldaşı ilə problemləri var, – Riçmond Teylora pıçıldadı, – indi şəhərkənarı evlərində qalır.

– Stivens, dünən harada olmusunuz? – Teylor nisbətən sərt səslə soruşdu.

– Mən başqa yerdə idim, – Stivens başını yelləyərək xırıldadı, – Teylor, mənə qulaq asın. Mənim merlə heç bir ədavətim yoxdur. Heç vaxt da olmayıb. Bu sadəcə təxribatdır. M.J-in bizim üçün hazırladığı təxribat. Görmürsən, bundan başqa dəlil yoxdur?

– Yaşıl Əjdahaların xəstəxanaya hücumu barədə kimdən xəbər tutmuşdun? – Teylor stuldan qalxaraq əllərini masaya söykədi. Bu sualı soruşmağı ona Hovard demişdi, – hə, Stivens? Cavab ver.

– Sizdən mənə mesaj gəlmişdi.

– Mən belə bir şey xatırlmıram, heç Endi də.

– Siz yox, Ferrell. Sizin adamınız. O, mənə mesaj yollamışdı.

– Hanı o mesaj?

– Gözlə, – Stivens titrəyən əlləri ilə telefondan yapışdı, bir neçə dəfə müxtəlif düymələri basdı, – yox! O, axı burada idi. Deyəsən, onu silmişəm.

– Biz axı uşaq deyilik, – bu an qapı açıldı və Hovard içəri keçdi, – lap deyək ki, sənə mesaj gəlib. Özün fikirləş, sənə niyə mesaj göndərək ki? Biz çinlilərin ora

gələcəyindən xəbərsiz idik. Üstəlik, lap elə çinlilərdən də xəbərimiz var olsaydı, niyə polis çağırmayaydıq ki? Səndən bizə nə kömək deyə bilərdi axı, Stivens?

– Mən bilmirəm! Siz mənə xəbər verdiniz. Mən də Yorkla ora yollandım. Bu qədər! Mənə şər atılır! Mesajı yoxlayın!

– Problem yoxdur, – Teylor telefonla idarə operatoruna zəng vurdu, – təcili çavuş Stiv Ferrellin öldüyü gün kimlərlə əlaqə saxladığını yoxlayın. Cəld olun! – polislərin telefonları hər ehtimala qarşı dinlənir, nəzarət altında saxlanılırdı.

– Siz pis polis deyilsiniz? İşinizi bilirsiniz, – Stiven tonunu bir qədər aşağı saldı, – axı mən meri öldürmək istəsəm, bunu indiyə qədər niyə etməyim ki? Mən dəfələrlə onunla tək qala bilmişəm. Gecələr o, kabinetində çalışanda viskisini süzən mən olmuşam. Axı nəyə görə belə şeylər edəydim ki? Sizcə, burada nə məntiq var?

– Biz sənə haçansa “NÖMRƏ BİRLƏR” əməliyyatının məntiqli bir şey olduğunu demişik heç? – Hovard onu acıladı, – cinayətkar dəlidir. Bildiyim budur və ilk vaxtlardan onun meri tanıyan biri olduğundan şübhələnirdik. Sən isə ideal qəlibsən, Stivens! Kortes qardaşları söhbətini ortaya atan da sən idin. Onlardan istifadə edərək sonra aradan niyə götürməyəsən ki?

– Yox! Lənət. Bunların hamısı qurmadır, – Stivens əsəbindən bütün gücü ilə ovcunu qaşıyırdı.

– Özün fikirləş, sən mer Keynə nifrət edən iki nəfərlə ittifaqa girirsən. Onların köməyi ilə “Yaşıl

Əjdaha" bandasına sızırsan. Sonra isə öz alçaq planlarını reallaşdırmağa başlayırsan. Çaynataundakı telefonu ora ataraq həm polisi, həm də çinliləri məhv edirsən! Sonra isə FTB-nin işə müdaxiləsinin qarşısını almaq üçün bizim idarəyə iki kəllə göndərirsən. Baçelder və Flintin adını başqa cür necə bilə bilərdin ki? – Hovardın gözlərində məşəl alovlanırdı sanki. Yumruqlarını masaya çırparaq Stivensə tərəf əyildi. Aralarında iyirmi beş santimetr ancaq olardı, – işin bitdikdən sonra isə şahid saxlamamaq üçün Kortezləri aradan götürürsən. Mən haqlıyam?

– Yox! – Stivens qəti və özündən əmin şəkildə etiraz etdi. Çox sürətlə nəfəs aldığından xəfif külək Hovardın kirpiklərini titrədirdi, – bu sadəcə əvvəlcədən işi kiminsə boynuna yıxmaq üçün düşünülmüş bir plandır.

– O halda, niyə sən? Niyə Riçmond yox? Cavab ver, Stivens! Bizi bilərəkdən aldadırdın. Hər şeyi düşünən elə sən özünsən! Necə oldu ki, bizim xəstəxanaya gedəcəyimizdən xəbər tutdun?

– Mən sadəcə qurbanam! Digərləri kimi! Axı niyə başa düşmürsən? – Stivensin üzü tomat pastası rəngini almışdı. Əsəbindən yorulmuş at kimi sürətlə nəfəs alırdı, sanki kişnəyirdi, – mən günahkar deyiləm! Mənə Ferrell özü xəbər verib. Bunu aydınlaşdırmalısınız!

– Stivens, – xətdəki şəxslə sağollaşan Teylor dedi, – çavuş Ferrellin telefonundan sizin nömrəyə heç bir şey göndərilməyib, – Endi haqlıdır. Siz hər şeyi əvvəldən qurmusunuz.

– Yox, göndərilib! Mənim nömrəmi yoxlayın! – Stivens tamamilə özündən çıxdı, – axı niyə yoxlamırsınız? Mən heç nə qurmamışam, it balaları! Siz anlamırsınız!

– Biz Gizli Xidmətin databazasına girə bilmirik. Bunu heç FTB ilə MKİ də bacarmaz! Amma Gizli Xidmətin hörmətli adamlarından olan biri rahatlıqla bizim telefonlarımıza yol tapa bilər! Stivens, incimə, amma – Hovard xırıltı ilə içini çəkdi, – sənə inanmıram.

Mark Stivens heç nə demədən başını aşağı əydi. Sakitcə yelləyərək dodaqlarını dişlədi. Bir anlığa danışan olmadı və digərləri onu seyr etdilər. Sonra isə onlar Riçmondun işarəsi ilə bayıra çıxaraq Stivensi otaqda tək buraxdılar. Problemləri və düşüncələri ilə baş-başa.

– Baxın, bütün dəlillər əleyhinə ola bilər, ancaq mən onun belə bir şey edəcəyindən əmin deyiləm, – Riçmond dedi, – Mark pis insan deyil. Biz illərdir, tanışıq. Mən onu tanıyandan Mark bu ölkəyə xidmət edir. Əfqanıstanda, İraqda xüsusi təyinatlı dəstələrin əməliyyatlarında yer alıb. Bioqrafiyası onlarla nailiyyətlə doludur. Bir neçə dəfə prezident müdafiəsində belə iştirak edib. Fikrimcə, Stivens belə şey etməz.

– Endi, sən nə düşünürsən? – Teylor ortağından soruşdu.

– İçimdəki səs məni narahat edir, amma, Frenk, o, həqiqətən də, ideal qəlibdir. Bütün texnoloji təchizatı da əldə edə biləcək biridir. Danışıqlarımızı

da dinləyər, rahatlıqla idarəyə də köstəbək soxa bilər. Kortes qardaşları da əgər onun müttəfiqləri olubsa, bizim şübhələrimiz daha da dəqiqləşir. Ancaq yenə də əmin deyiləm, ancaq bu vəziyyətə düşdüyündən Stivensin əlində tapança olsa, öz beynini uçurardı. Bunu yüz faiz bilirəm.

Yaxşıdır ki, silahları protokola əsasən təhvil verirlər. Yoxsa hər şey Hovardın vurğuladığı kimi olardı. Frenk Teylor son hadisələrə sevinməli, ya da ki ağlamalı olduğunu bilmirdi. Əgər Stivens "NÖMRƏ BİRLƏR" cinayətlərinin müəllifidirsə, iş bununla bitmirdi. Heç bir canlı eyni anda iki yerdə olub Black or White cinayətini gərçəkləşdirə bilməzdi. Deməli, bu işə başqaları da cəlb olunmuşdu. Həmin adamlar indi lidersiz qalmış olacaqdılar. Buradan isə iki nəticə çıxa bilərdi. Bir – həmin əlaltılar bu işdən qorxub geri çəkiləcəkdilər. İki – onlar öz işlərini sona qədər davam etdirəcəklər. Bu isə daha da böyük fəlakətlərə yol aça bilərdi.

– Agent Riçmond, merlə Stivensin arasında nə vaxtsa konflikt olub? – Teylor bu formal sualları vermək məcburiyyətindəydi.

– Yox, xatırlamıram.

– Bəs xırda mübahisə?

Riçmond başını yellədi.

Bu an divarın arxasından zabit Qebriel Braun göründü. Təlaş içərisində onlara yaxınlaşdı, dəsmalı ilə alnını silərək dedi, – Mur indi Stivenslə şəxsən danışmağa gələcək. Özü ilə də əməlli-başlı idarə heyəti gətirir.

– Bu qadının başına hava gəlib? Axı bunun nə mənası var? – Hovard yumruğunu divara çırpdı, – bəlkə, bu dəfə biz şikayət edək, Frenk?

– İnanmıram, bir xeyri olsun, – Teylor saatına baxdı, – Qeb, biz onsuz da Stivens ilə artıq danışmışıq. Mur isə qoy öz işi ilə məşğul olsun. Bundan heç kəsə xələl gəlməz. Sən isə Lizlə Stivensin şəhərkənarı evinə yollanın. Mən order barəsində sizə xəbər verəcəyəm. Ora çatana qədər, yəqin ki, evə girilməsinə icazə alarıq.

– Aydındır, – Qeb başını tərpədərək gəldiyi yol ilə geri qayıtdı.

– Deyəsən, baş ağrılarımız sona çatır, – Teylor dərindən nəfəs aldı.

– Amma Stivensin başı yaman ağrıyacaq, – Hovard başını yellədi, – əgər günahkar deyilsə belə, Mur ona ömürlük iş verəcək.

– Elə bil adımı eşitdim, – budur onların ifritə sifətli müdirələri sanki yerin altından çıxdı. Yenə ürəkbulandıran addımlar, yenə ətürpərdici dikdaban səsləri. Bu cür gözəl dikdabanlar yalnız elə Mura yaraşmazdı. Əslində ayaqqabılarda heç bir problem yox idi. Onları o hala polislərin müdirələrinə olan pis münasibəti gətirirdi. Ancaq yenə də müdirələrindən razı olan yaltaqların da sayı az deyildi. O, ağzını büzüşdürərək detektivlərə dedi, – onun həbsxanaya transferi ilə bağlı protokol hazırlanır. Sorğulandıqdan sonra dərhal həbsə göndəriləcək. Yəqin, bir ömür orada qaldıqdan sonra ağlı başına gələr.

– Cess, biz onun günahkar olduğundan tam əmin deyilik, – Teylor bacardığı qədər mülayim səslə etiraz

etdi. İndi zilə qalxmaq yaxşı olmazdı, onsuz da problem problemin üstündəydi.

– Daha nədən əmin olacağıq ki? Operator indi mənə zəng barədə məlumat verdi. Bu da bizə lazım olan dəlil, – görünür, operator da yaltaqlar kateqoriyasından idi, – biz onu etiraf etdirdikdən sonra sənədləşməni rəsmiləşdirəcəyik. Bu canini nə qədər tez içəri bassaq, xeyrimizədir. Başda mən olmaqla Los-Anceles artıq onun əlindən bezib.

– Cess, bəs birdən yanılırıqsa, necə? Günahsız insanın həyatı söz altındadır.

– Onun günahkar olduğuna dair fikirlər daha çoxdur və bildiyimiz kimi azlıq çoxluğa tabedir.

– Xahiş edirəm, belə tez...

– Frenk! – Mur onun sözünü yarıda kəsdi, – heç nə eşitmək istəmirəm! İndi isə çəkil yoldan! İşimi görməyimə mane olma.

– Sən mənə qulaq asacaqsan! – zilə qalxmamaq planları alt-üst oldu, – onun günahkar olduğuna dair daha tutarlı dəlillər üzə çıxmamış Stivens heç bir yerə getməyəcək! Bu qədər.

– Frenk, deyəsən, kiminlə danışdığını unudursan! – Mur əllərini sıxdı, dırnaqları ətinə batdı.

– Yox, mən Cessika Mur ilə danışıram. Homosid şöbəsinin müdiri ilə! Amma sən də unutma ki "NÖMRƏ BİRLƏR" əməliyyatına mən, Frenk Teylor başçılıq edirəm! Və heç kəsə də tabe deyiləm!

– Sən! Mən sənə göstərəcəm, kimə tabesən!!

– Gözləyirəm!

– Frenk! Nişanını alacağıma söz verirəm!

– Lənət! – qapının üzərindəki pəncərədən içəri baxan Hovard çığırdı, – mübahisənizə pauza verin. Zibildəyik!

Hamı dərhal içəri soxuldu. Agent Mark Stivens qan içində idi. Boz kostyumu, açıq-mavi köynəyi al qırmızıya boyanmışdı. Halsız vəziyyətdə stulundan sallanırdı. Hovard irəli atılaraq ondan yapışdı. Biləkləri, çiyinləri və bədəninin digər aktiv qan dövr edən hissələri hansısa yolla deşilmişdi.

– Axmaqlar! – ilk an qışqırmamaq üçün iki əli ilə ağzını sıxan Mur özündən çıxdı, – onun üstündəki əşyaları niyə götürməmisiniz?

– Sus, Cess! – Teylor Stivensin sol tərəfinə keçdi. Digər tərəfdə isə Hovard ondan yapışmışdı. Onlar başlarını yelləyib eyni anda Gizli Xidmət işçisini stuldan qaldırdılar. İndi müvazinəti pozacaq hər bir hərəkət kolosal qan itkisi ilə nəticələnə bilər, onun ölümünə səbəb olardı, – itilin qapının önündən! – Teylor Murun yaltaq cəmiyyətinin üzvlərinə səsləndi. Hamısı bu dəhşətli səhnə qarşısında donub qalmışdılar. Özlərini polis adlandıran saxtakarlar səslərini belə çıxarmağa cürət etmirdilər. Riçmond onlardan birini itələyib yolu açdı. Cəld otaqdan çıxaraq liftə tərəf qaçdılar.

– Qanaxmanı saxlamaq lazımdır, – liftə təngnəfəs girən Hovard dedi, – Leksin yanına aparaq onu? Təcili Yardım gələnə qədər.

– Yox, onlar yoldadırlar – Riçmond artıq təcili yardıma zəng vurmuşdu. Telefon qulağında soyuqqanlı şəkildə həkimi məlumatlandırırdı.

– Xırrr, – Stivensdən əcaib səslər gəldi, – mən...

– Hovard əyilərək onu dinləməyə çalışdı, – Anrı ...insanla...hök .. inan.. ye.. sincək...– lift aşağıya çatan kimi onlar cəld hərəkət etdilər. Qışqıra-qışqıra qarşılarındakı izdihamı dağıtdılar, rəngi göyərmiş Stivensi idarədən çıxardılar. Bəlkə, indi yüzdən artıq göz onlara baxırdı. İdarədən çıxdıqdan sonra yola tərəf çıxdılar. Təcili yardımın siren səsləri eşidilirdi. Daha bir neçə saniyə və Stivensə kömək yetişəcəkdi. Müvazinəti pozmadan onlar köməyin gəlməsini gözlədilər. Maşın gəldikdən sonra tibb işçiləri ilə birlikdə onu xərəyə uzatdılar. Artıq bumbuz idi. Gültək solmuşdu. Dodaqları isə hələ də israrla nə isə pıçıldayırdı.

Təcili yardım yola düşdükdən sonra onlar bir-birlərinə baxdılar. Hər üçü qan içində idilər. Stivensin qanının içində. Riçmonda bıçaq vursan, qanı çıxmazdı. Teylorun da vəziyyəti oxşar idi, amma Hovard başını dəlicəsinə yelləyir və gülümsəyirdi.

– O bunu necə etmişdi? Axı əlində heç bir şey yoxuydu, – Teylor soruşdu.

– Kəmər. Kəmərinin ilgəyi ilə özünü deşmişdi. Axı o, müharibədə olmuş biridir. Əsir düşməmək üçün əlindən gələni edər, – Riçmond barmağını dişlədi, – gərək bu nüansı nəzərə alardıq.

– Görün bu adam son nəfəsində nə deyirdi, – Hovard qəhqəhə çəkdi, sonra isə gözlərindən qəfildən yaş gəldi, – Tanrı azadlığı yenidən yaratdı və onun tərəfindən yaradılan və insanlar üçün var olan hökumət yer kürəsindən silinməyəcək.

# 34



## 24 oktyabr 12:55

**– İnanılmazdır!**

**Nikolz heyrətə gəlmişdi. Qarşısında yüzlərlə detaldan ibarət plan var idi. Qəzetlərdən götürülmüş məqalələr, müxtəlif Maykl Cekson rəsmləri, “NÖMRƏ BİRLƏR” cinayət silsiləsinin qurbanlarının şəkilləri, bir-birləri ilə saplar vasitəsi ilə əlaqələnmiş hadisələr və lövhənin mərkəzindəki böyük şəkil.**

**Aaron Keyn.**

Çavuş Nikolz və zabit Braun Teylorun göstərişi ilə Stivensin şəhərkənarı evinə gəlmişdilər. Yolda olarkən Teylor onlara artıq order məsələsinin həll edildiyi xəbərini vermişdi. Qapını qıraraq içəri keçən cütlük evi sürətli şəkildə yoxlamışdılar, lakin bu monitorinq sadəcə formal xarakter daşıyırdı. Lazımi bütün dəlillər Stivensin kabinetindəki iri lövhənin üzərində idi. Görünür, o burada lap əvvəldən planlarını cızıb. Bura isə onun gizli iqamətgahı olub. Evdə yalnız bu otağın qapısı qıfıllı idi. Qonşuların dediyi, evi təmizləyən qadın əgər buranı görsə, onun planları alt-üst olardı.

– Məncə, artıq dəlilə ehtiyac yoxdur, – Braun udqunaraq alnındakı soyuq təri sildi. Telefonu çıxarıb Teylora zəng vurdu, – Frenk, Stivens bizə lazım olan adamdır. Burada istədiyin qədər sübut var, – Braun tələsmədən hər şeyi ona nəql etməyə başladı.

– İndi nə edirik? – danışıq bitdikdən sonra Nikolz soruşdu.

– Bəlkə, qonşulara baş çəkək? İndi bura polislər gələcək, – Braun lövhədəki qəzet xəbərlərinə baxdı. *"Westin Bonaventure otelində striptiz öldürüldü. LAPD hələ açıqlama verməkdən imtina edib"* Bu onlarla başlıqdan sadəcə bir dənəsidir.

– Yaxşı, gedək görək, nə öyrənirik. Burada məni üşütmə tutdu, – abı-hava, həqiqətən də, ona pis təsir etmişdi.

Onlar bayıra çıxdıqdan sonra növbə ilə yaxınlıqdakı evləri gəzdilər. Bir neçə qapıdan lazımi məlumat alınmasa da, Stivensin evi ilə üzbəüz həyətdən çıxan yaşlı qadın onların suallarına həvəslə cavab verdi.

– Axır vaxtlar o, ümumiyyətlə əyyaşlıq edir, tüfeyli həyat sürürdü, – qısa ağ saçlı, bəstəboy toppuş xanım deyindi, – əvvəl belə biri deyildi. Ailəsi ilə xoşbəxt yaşayır, ən azından yaşayırmış kimi görünürdü.

– Yanına gəlib-gedənlər olur? – Nikolz qeydlər götürürdü.

– O qədər də yox. Bir qadın gəlir hərdən. Belə balıqətli bir qadın. Deyəsən, məşuqəsidir. Bir də təmizlikçi qız gəlir. Başqa heç kəs.

– Həmin qadınları şəkillərdən tanıya bilərsiniz mi?

– Fahişəni, – sözünün yerinə düşmədiyini anlayan qadın sözünü yarımçıq saxladı, – Markın məşuqəsini inanmıram, amma təmizlikçi qızı tanıyaram. O, çox sadə və xoşüzlü biridir.

– Xanım İzabella, – Nikolz onun son cümlələrini eşitməzdən gəlib soruşdu, – Stivens dünən evdə olub?

– Bilmirəm. Deyəsən, yox. Dəqiq xatırlamıram, – qadın bir qədər tərəddüd etdi, – mən diabetikəm. Tez yatmalı oluram. O əyyaş isə düz-əməlli vaxtda gəlmir, amma, deyəsən, gəlməmişdi.

– Təşəkkürlər, xanım İzabella, – Braun hörmət əlaməti olaraq baş əydi.

– Hər zaman. Yenə gəlin, – son ifadə, yəqin ki, polislərə çox nadir hallarda deyilirdi, – bir də ki təmizlikçi xanımın gülməli görünüşü var, qəribə hərəkətləri və geyim tərzi. Önlüyü də maraqlıdır. Bilirsiniz, indilərdə...

Onlar İzabellanın uzun-uzadı söhbətlərindən maraqlı məlumatları yolda qayıdarkən Teylora çatdırdılar, daha sonra isə dəlilləri bir başa idarəyə təhvil verdilər. Bütün bu materiallar Stivensin gördüyü işləri aşkara çıxarırdı. "NÖMRƏ BİRLƏR" cinayətlərinin müəllifi Mark Stivens idi. Onun yaxalanması isə əməliyyatın sona çatması ilə bu zəncirvari reaksiya yaratmış iş bağlanılmışdı. Teylorla Hovard indi işi rəsmi şəkildə təhvil verəcəkdirlər. On günlük M.J ovu burada başa çatacaqdı. Onlar sakitcə Murun otağının qapısını döyüb müdirlərinin icazəsi ilə içəri keçdilər. Murun üzündə zanbaqlar açmışdı, kefinin həddi-hüdudu yox idi.

– Yəqin, sizi təbrik etməliyəm, cənablar, – bu cümlə kinayəlimi idi, ya yox onlara aydın olmadı, – Gizli Xidmət işçisinin belə bir şey edəcəyinə inanmaq, həqiqətən də, çox ağırdır, lakin həyat pis və qəddar sürprizlərlə doludur.

– Cess, biz hələ də tam əmin deyilik, – Endi Hovard dedi.

– Axı hər şey sübut olundu. Hətta şəhər meri də sizə təbriklərini çatdırır, – Mur hiyləgərcəsinə gülümsədi, – məncə, indi rahat məzuniyyətə çıxa bilərsiniz.

Məqsədi də məhz bu idi. Detektivləri bacardığı yolla başından eləmək. Onlar getdikdən sonra isə öz işçiləri arasında təmizləmə işləri aparacaqdı. Mur lokal düşünüb qlobal addımlar atmağı planlaşdırırdı.

– Stivens rəsmən məhkum hesab olunur artıq? – Teylor qaşlarını çatdı, bu sualın cavabını bilsə də, müdirinin ağlındakıları öyrənmək istədi.

– Bəli. Sadəcə bir neçə xırda prosedura və onun xəstəxanadan çıxmağı qalıb, – o təvazökarlıqdan uzaq bir tərzdə danışırdı, – sizin işiniz uğurla başa çatdı, cənablar. Məncə, bu söhbəti davam etdirməyin daha mənası yoxdur.

– Amma Cessika, biz hələ də tam əmin deyilik. Həm Stivens tək olmayıb. Cinayətlərin digər üzvləri necə olsun bəs?

– Bu barədə yaxşı ki, danışdın, Frenk. Mən ekspertlər və bir neçə psixoloqla müzakirə apardım. Onlar üç nəfər olublar. Stivens və Kortes qardaşları. İşləri qaydasına qoyduqdan sonra isə Stivens sizin diqqətinizi qardaşlara yönəldib, lakin sağ ələ

keçərlərsə, onu ələ verəcəklərindən ehtiyat edib, buna görə də onları siz hərəkətə keçmədən əvvəl aradan götürüb, – irəli sürülən dəlillər kifayət qədər tutarlı görünürdü. Detektivlər bir-birlərinə baxaraq, hələlik, susmaq qərarına gəldilər. Yenidən gülümsəyən Mur sözünə davam etdi, – Stivensin şəhərkənarı evinə gəlib-gedən qadının isə foto robotu hazırlanacaq. Başda Neş və ifadə vermiş İzabella Kovinski olmaqla Stivensin qonşularına və digərlərinə təqdim olunacaq, amma düşünmürəm ki, planın beyni sıradan çıxdıqdan sonra o özbaşına hərəkət etsin. Onsuz da, geriyə mahnı qalmayıb.

– Bir nəfər var axı, Cess. Bəs həmin nömrə bir necə olsun, – Teylor sonuna qədər mübarizə aparmaq niyyətində idi.

– Off, Frenk, – Mur saxta gülüşlə ahıldadı, – əgər başqa bir şey baş versə, yenidən bu işi açarıq. İndi isə azadsınız, cənablar. Bu qədər! – o, yerindən qalxaraq detektivlərə əl uzatdı, – bir daha təbriklər.

Homisid şöbə müdirinin kabinetindən çıxdıqdan Hovard yanlarından keçən ilk zabitdən siqaret götürdü.

– Sən axı çəkmirsən, – Teylor təəccübləndi, – həm burada çəkmək qadağandır.

– Bilirəm, sadəcə özümü pis hiss edirəm. Deyirlər, kömək edir. Nə danışırsan? Mən heç burada siqaretdən istifadə edərəm? – Hovard gülümsündü, – bunu bayırdakı zibil qutusuna atacağam.

– Elə də başa düşmüşdüm. Endi, indi nə etməyə hazırlaşırsan?

– Gedib bolluca içib yatmağa çalışacağam.

– Yenə içki?

– Nə də olsa, siqaret çəkmirəm.

– Heç içməyə də bilərsən. Ağıllı ol, detektiv Hovard.

– Frenk, mənə dayəlik eləmə. Eşitmədin, məzuniyyətdəyəm. Nə istəsəm, onu da edəcəyəm. Aydındır, detektiv?

– Deyəsən.

– Elə bütün bu problemlər bu deyəsən ilə başladı, – Hovard özündən çıxaraq siqareti ikiyə böldü və zibil qutusuna vızıllatdı.

# 35



## 3 noyabr 16:37

**Teylor kreslosunda yerini rahatlamışdı. Artıq iki saat olardı ki, Ceyms Rollinsin[61] yeni romanını oxuyurdu. Rollinsi, əsasən, gecələr oxumağı sevsə də, bikarçılıqdan vaxtını belə keçirirdi. On gün idi ki, işə çıxmırdı. Artıq bezmişdi. Hər gün eyni şeylər. Kitab, film, idman, yatmağa cəhd göstərmək və uğursuzluğa düçar olmaq. Son bir həftədə o, iki dəfə qardaşı Xenkgilə qonaq getmişdi. Bir neçə dəfə köhnə tanışları və iş yoldaşları ilə görüşsə də, monotonluğun daşını ata bilmirdi. Əgər Reyçel olmasa, iş-gücsüzlükdən dəli olardı.**

O, üç dəfə Reyçellə görüşmüşdü. Bir yerdə kinoya getmiş, əla vaxt keçirmişdilər. Digər görüşlərində isə Frenk onunla birgə tort hazırlamışdı. Həmin axşamın sonluğu daha da şirin olmuşdu. Dünən isə o, Reyçel və İv birlikdə parkda gəzintiyə çıxmışdılar. Frenk və Reyçel növbə ilə İvin əlil arabasını sürmüş, ona müxtəlif yerləri göstərmişdilər. Artıq İv də Frenki sevməyə

[61] James Rollins (1961). Məşhur amerikalı macəra, elmi-fantastika yazarı. Sigma Force antologiyasının müəllifi.

başlamışdı. Bu xəbər isə Teyloru daha da sevindirirdi. O, xəyallarının qadınını tapmışdı və itirməyə hazırlaşmırdı. Bəlkə də, onun həyatında çatışmayan stimul Reyçel idi. Çox pis bir hadisə nəticəsində tanıdığı qadın iş karyerası boyu Hovardla tanışlığından sonra başına gələn ən yaxşı hadisə olmuşdu. Onlar sabah da görüşmək barədə razılaşmışdılar. Teylor isə artıq indidən səbirsizlənirdi.

On gün ərzində "NÖMRƏ BİRLƏR" əməliyyatı haqqında heç bir inkişafın olmaması bir yandan Teyloru sevindirir, digər tərəfdən isə hələ də qorxudurdu. Altıncı hiss onu narahat edirdi. Bu narahatçılığının əsaslı olub olmaması ilə bağlı düşündü. Kitabı bağlayaraq masasının üstünə qoydu. Qəhvəsindən bir neçə qurtum aldı. Artıq bu gün üçüncü fincanı bədənə ötürürdü. Qəhvə onun narkotikinə çevrilmişdi. Səbəb isə yuxusuzluğun onu rahat buraxmamasıydı. Hər dəfə yatmağa çalışanda İnsomnia növbəti sürprizi hazırlayır, həvəsini burnundan gətirirdi. O da təsəllini kitab oxumaq və film seyr etməkdə tapırdı.

İki yüz əlli səhifə Ceyms Rollins oxuduqdan sonra kitabı bir qırağa qoyan Teylor ayağa qalxdı. Dartınaraq ucadan əsnədi. Bir neçə isinmə hərəkətindən sonra televizoru işə saldı. Hər bir kanalın gündəlik axınında oxşar şeylər yayımlanırdı. Bu gün Los-Anceles meri Aaron Keyn Kalifornia qubernatoru Klaiv Sanderlend tərəfindən göstərdiyi xidmətlərə görə təltiflənəcəkdi. İkinci müddətə vəzifəsində qalmış meri ştat rəsmiləri onu gördüyü işlərə görə mükafatlandırmağa hazırlaşırdılar. Əlli-altmış nəfər qonaqdan ibarət tədbir bu

axşam Los-Anceles merlərinə məxsus Getty House[62] rezidensiyasının bağçasında baş tutacaqdı. Ortalama 20-22 dərəcə selsilik temperatur bu cür tədbiri həyata keçirmək üçün imkan verirdi. Həm indiki dövrdə texnologiyanın inanılmaz nailiyyətlərinin köməyi ilə nəhəng ayzberqi belə bir neçə saat ərzində əritmək olar. Teylor bundan sonra kanalı dəyişdi. Yenə də oxşar nəticə. Başqa kanal. Merə məxsus bioqrafik veriliş. Digər bir kanalda isə ona tanış gəlməyən bir şərq filmi yayımlanırdı. Böyük ehtimalla, Koreya istehsalı.

Televizordan bir xeyir gəlmədiyini görən Teylor film kolleksiyasına baxdı. Hər gecə sevimli kinolarından birini seyr edirdi. İndi playerin üzərində Martin Skorsezenin[63] şah əsərlərindən sayılan "Qəzəbli öküz[64]" dururdu. Teylor diski cızmadan səliqə ilə qutusuna qoydu. Disklərin cızılmasına nifrət edirdi. Əgər biri filmlərini cızsa, bu ən azından onun özünü söymüş olduğu demək idi. Məhz buna görə də heç kəsə film verməzdi. Endi istisna. Ortağı ilə hər sahədə olduğu kimi burada da yola gedirdilər. Hovard onun əşyalarına hörmət və qayğı ilə yanaşır, bu isə Teylorun xoşuna gəlirdi. Kolleksiyasında bir ömür baxma-

---

[62] Los-Angeles merlərinin rəsmi evi. 1921-ci ildə tamamlanan bu evə ilk dəfə 1977-də ikinci müddətə seçkilərdə qalib gələn mer Tom Bradley köçüb və maraqlı adətin özülünü qoyub. Ev 1993-2005-ci illərdə boş qalıb. Sonra isə yenidən merlərin ixtiyarına keçib.

[63] Martin Scorsese – 1942. 17 noyabr. Məşhur amerikalı rejissor. Oskar və Qızıl Qlobus mükafatı laureatı.

[64] İng. – Raging Bull. 1980-ci il Scorsese tərəfindən ekranlaşdırılmış və tarixdə ən yaxşı filmlərdən hesab olunan sport drama.

ğa bəs edəcək qədər film var idi. Onların hər biri Teylor üçün əziz, doğma idi. Kitabları və diskləri. Reyçelə qədər həyatda istədiyi hər şeyi sevimli əşyalarından ala biləcəyini düşünürdü, lakin bu qadın onun şəxsi fəlsəfəsini alt-üst etdi. Ax, Reyçel! Görəsən, o, Frenkin həyatına necə bu qədər effektli şəkildə daxil ola bilmişdi? Lənət! Qadın eşqinə düşmək axmaq hisdir. Üstəlik, əgər sən yata və işini ağlından çıxara bilmirsənsə.

Bikarçılıqdan Teylor "Ev telefonuna kimsə mesaj buraxıbmı" – deyə düşündü. Divanın yanındakı stolda yerləşən boz telefonun toppuş ağ düyməsini sıxdı. Aha! Bir mesaj buraxılmışdı, amma, görəsən, kimdən? O, yazını işə salaraq dinləməyə başladı.

*Salam, Frenk. Bilirəm, deyəcəksən ki, Cessdən nə əcəb? Özündən razı, evdə qalmış ifritə, görəsən, mənə niyə zəng vurur deyə düşünəcəksən. Səninlə bir-iki şey barədə danışmaq istəyirəm. Əgər vaxtın varsa, mənlə əlaqə saxla, idarəyə gəl. İndidən təşəkkür edirəm.*

Qəribədir. Müdiri nə istəyə bilərdi axı? Bunu öyrənməklə Teylor heç nə itirməyəcəyini düşündü. Onsuz da bu gün Reyçel ilə də görüşə bilməyəcəkdi. Onun başı axşam baş tutacaq tədbirlə qarışıq idi. Frenk də bu müddətdə müdirinin ondan nə istədiyini öyrənərdi. Televizorda yenidən Aaron Keynin simasını gördü. Növbəti çarxda onun Los-Ancelesə gəlməmişdən əvvəl hüquqşünas kimi Portland, Utah, İndiana və digər ştatlarda gördüyü işlərdən danışılırdı. Merin isə mükafatını almağına saatlar qalırdı.

– Xoş gəldin, Frenk, – Teylor qapını döyüb içəri keçən kimi Mur ayağa qalxaraq onu qarşıladı. Bu isə onun müdirinin tərzində deyildi, – içməyə nə arzu edərdin? – o kresloda yerini rahatladıqdan sonra müdiri növbəti dəfə onu təəccübləndirdi. Axı bu gün bir aprel deyildi. Mur isə sualı verərkən çox səmimi görünürdü.

– Təşəkkürlər, qəhvə pis olmazdı, – Teylor gülümsündü. Yəqin, səbəb elə bu maraqlı və gülməli məqam idi.

– İki qəhvə, zəhmət olmasa, – Mur telefonla sifarişləri verib dəstəyi yerinə qoydu, – necəsən? Nə var, nə yox?

– Çox sağ ol, Cess. Hər şey qaydasındadır. Məzuniyyətin dadını çıxarmağa çalışıram.

– Heç olmasa, alınır, Frenk? – növbəti səmimi sual. *Görəsən, bu qadına nə olub belə? Yuxudan oyananda başı hara dəyib?*

– Nəzərə alsaq ki, çox böyük maraqla məzuniyyətə çıxmışam, – kinayə dolu bir fasilə, – pis keçmir, Cess.

– Sənin adına sevindim, – o, azacıq gülümsədi və ortaya bir neçə saniyəlik sükut çökdü.

– Eşidirəm, – nəhayət Teylor qərarını verib dedi, – mənimlə danışmaq istədiyini demişdin. Buyur, xidmətindəyəm.

– Hə, Frenk. Necə başlayım, bilmirəm, – o dərindən nəfəs aldı. Masasının rəfini açaraq oradan siqaret çıxardı, – çəkirsən?

– Yox, sənin çəkdiyini bilmirdim, – Teylor qaşlarını çatdı. Bu qadının ciddi problemi olduğunu anladı, – üstəlik, siqaretin tam əleyhinə biri bilirdim səni.

– Əslində eləyəm, amma bəzən ona çox ehtiyacım olur, – o, səliqəsizcəsinə alışqanı işə salaraq siqaretini yandırdı. Bir neçə dəfə sürətlə içinə çəkib, öskürdü, üzünü turşudaraq gözlərini sıxdı. Doğurdan da çəkən deyildi. Belə bir istisnaya gedirsə, tutarlı səbəbi var, yəqin.

– Cess, məni bura niyə çağırmısan? – masanın üstündəki jurnalı götürüb vərəqləyən Frenk artıq səbirsizlənirdi. Müdirinin bu qeyri-adi davranışı onda maraq oyatmışdı. Müdirinin siqaretini bitirməsini gözləyərkən Aaron Keyn haqqında məqaləni oxumağa başladı. *"Döyüşçü, filantrop, ata və ədalət tərəzisi"* Məqalənin başlığında belə yazılmışdı.

– Sənə səmimi bir sirr açmaq istəyirəm. Sən mənim üçün ən dəyərli adamlardan birisən, – siqareti qurtaran kimi Mur sözə başladı, Frenk isə daha diqqətlə müdirinə qulaq asdı, – sən, Frenk. Mən bunu deməliyəm. Artıq bunu qəlbimdə saxlaya bilmirəm. Gücüm qalmayıb.

Teylor qorxmağa başladı. Əgər Mur onun düşündüyü şeyi deyəcəkdisə, o, çox pis vəziyyətə düşərdi. Soyuqqanlılığı qorumaqdan ötrü fikrini jurnala cəmlədi. *Sakit ol, Frenk!* Özünü ələ almağa çalışırdı. Məqaləni oxuyarkən gözünə maraqlı şəkil sataşdı. 2003-cü il. Aaron Keyn bir qrup gənclə əllərində "Maykl Cekson üçün ədalət" yazılan lövhələrlə. Yeniyetmələrin iştirakı ilə keçirilən etiraz aksiyası. Həmin dövrdə Maykl Cekson balaca oğlan uşaqlarına cinsi zorakılıq tətbiq etməkdə günahlandırılmışdı. Sonradan popun kralı bəraət qazansa da, bu bədbəxt hadisə də onun ölü-

münü sürətləndirən əsas amillərdən olmuşdu. Aaron Keyn isə həmin vaxtlar İndianada məhkəmə hakimi olaraq fəaliyyət göstərirdi. Onun pop kralına verdiyi bu dəstək isə çox alicənab bir jest hesab oluna bilərdi. Şəkildə o, indikindən daha arıq və gümrah görünürdü. Üzündəki nur isə eyni idi. O və digər uşaqların hamısı fəxrlə Maykl Ceksona dayaq olurdular. Teylor müdirinə baxmamaqdan ötrü gözlərini şəkildəki uşaqlar boyu gəzdirdi.

– Frenk, mən,.. sən, – Murun dili topuq vurdu. Bu isə detektivi daha da qorxuya saldı, – mən səndən nə dərəcədə alçaq olduğumu deməyini istəyirəm, – Teylor dözə bilməyib güldü. Ağlına gələnlərdən tamamilə fərqli olan bu etiraf, həqiqətən də, onu şoka salmışdı, ancaq gülməyi müdirinin xətrinə dəydi. O, üzünü turşudaraq dedi, – deyəsən, sirrimi sənə açmaqla səhv etmişəm.

– Yox, Cess, – vəziyyətdən çıxmaq üçün ani uydurmalardan istifadə etmək lazım idi, – sadəcə sənin dediyin sözə güldüm. Bu nədir, ağlına gətirirsən?

– Mənə təsəlli vermə, Frenk, – müdirinin gözləri damlalarla dolmuşdu. Teylor onun üzünə baxmamaq üçün başını yenidən jurnaldakı aksiya şəklinə çevirdi. Bir daha uşaqlara nəzər saldı. Qulaqları isə müdirinin çıxaracağı növbəti səsi gözləyirdi, – bilirsən, mən son dövrlərdə özümü bizim kollektivə elə də yaxşı tərəfdən göstərmirəm. Yersiz yerə sizləri acılayır, könlünüzü qırıram. Niyyətim o qədər də pis olmur. Sadəcə, alınmır, Frenk, – Mur stolun üstündəki salfetlərdən birini götürərək burnunu sildi.

– Yaxşı da, Cess, – Teylor, həqiqətən də, pis olmuşdu. Sən demə, həmişə sərt və insafsız deyə tanıdıqları canavarın da qəlbi varmış, – sən düşündüyün qədər pis biri deyilsən.

– Düşündüyün qədər deyirsənsə, məndə, deməli, problem var. İnkar etmə. Mən alçağın biriyəm. Elə olmasa, mənə hörmət olunardı.

– Sənə indi də hörmət olunur. Belə şeyləri ağlına gətirmə.

– Ona görə mən "Bonaventure"ya gələndə hamınız mənimlə it kimi rəftar etdiniz. Sən özün Stivens bura gətirələndə yadındadır, mənə nələr demişdin?

– Bağışla, – başqa söz deyə bilməyən Teylor yenidən jurnala sığındı. Yenidən gözlərini şəkilə istiqamətləndirdi, – Cess, səninlə səmimi danışacağam. Bir şərtim var ancaq.

– De görək, – Mur bir qədər sakitləşərək özünü ələ aldı.

– Mənim sözlərimdən inciməyəcəksən. Razılaşdıq?

– Aha. Başlaya bilərsən.

– Deməli, – Teylor jurnalı açıq vəziyyətdə qarşısındakı masanın üstünə atdı, – sən işçilərinə polis kimi münasibət bəsləmirsən. Bizim öz kodeksimiz, öz yazılmamış qanunlarımız var. Sən isə əməl etməyimizə izn vermirsən. Məsələn, bəzən polislər arasında problemlər çıxır. Sən isə onları ört-basdır edib sülh yolu ilə qaydasına qoymaqdansa közərən odun üzərinə barıt səpirsən.

– Yəni mən burnumu hara gəldi soxuram, səncə? – Mur təəccüblə soruşdu.

– Bir az, – o başını yenidən bugünkü xilaskarı olan jurnala tərəf əydi. Merin üzündə gülüş əks olunurdu. Əllərində elan və şəkillər olan uşaqlar da onun ətrafına toplaşmışdı. Etiraz aksiyası keçirilməsinə baxmayaraq hər kəs sevincli idi. Sadəcə iki qızın simasında narazı ifadə əks olunurdu. Bayaqdan bu iki uşağı gözündən qaçıran Teylor diqqətlə onlara baxdı. Bu nifrətmi idi mi, yoxsa yorğunluq anlaya bilmirdi.

– Mən bunun bir az olmadığını bilirəm, Frenk. Mən pis bir müdirəm! Üzümə heç nə deməyib gülsələr də, gözlər yalan danışmır. Görürəm, gözlərdə mənə qarşı olan nifrəti görürəm. Endi və başqaları bir gün məndən qisas alacaq kimi gözlərlə mənə baxırlar. İndi yanımda olsalar da, onlar məni heç vaxt bağışlamayacaqlar, çünki insan gözləri nifrəti gizlədə bilmir.

*İnsan Gözləri Nifrəti Gizlədə Bilmir.*

Atası Teylora həmişə deyərdi ki, kainatda ən sürətli olan iki şey var. İşıq və fikir. İnsan düşüncələri işıq sürəti ilə hərəkət edir. Bir çoxları bununla razılaşmaq istəməyə bilər, lakin bəzi anlarda özün də istəmədən bu möhtəşəm sürətə inanır, ona tabe olursan. İndi Teylor buna bənzər anlardan birini yaşayırdı.

*On dörd oktyabr. Hər şeyin start götürdüyü gün. Ağ və qara. Beta və omeqa. Sinəsindən güzgü mıxlanmış qadın, ailəsini xilas etmək naminə özünə qəsd etməyə hazırlaşan bir şəxs. Gizli Xidmət işçiləri tərəfindən qaçırılma. Tavandan aşağı salınaraq cərəyanla öldürülmüş qadın. Partlayış və şəhərin ortasında bir nəfərin havaya uçması. Axı niyə? Niyə məhz Maykl Cekson? Niyə günahsız insanlar öldü-*

*rülürdü? Sadəcə bir manyakın oyunu, yoxsa illərdən bəri planlaşdırılmış qisasın ideal planı?*

Mur artıq bir dəqiqəyə yaxın idi ki, öz problemlərindən danışırdı. Teylor isə müdirinin narazıçılıqlarını yox, daxilindən ona yol göstərən səsi dinləyirdi. Günlərdir ki, hər şeyi müşahidə edən səsi. Ona gözlərini açaraq həqiqəti göstərməyə çalışan səsi.

*Yaşıl Əjdaha bandası – ideal planın qurbanları. Axmaq və özündən razı səriştəsiz insanlar birliyi. Onlarla insanın ölümü ilə nəticələnən şəhər savaşı. Bir qutudan çıxmış iki fərqli insan kəlləsi. Atılan hər bir addımı izləyən memar olacaq bir səviyyədə cinayətkar. Polisləri barmağına dolayaraq dəfələrlə yoldan çıxarmağı bacaran beyin. Kortes qardaşlarından oyuncaq kimi istifadə olunması. Bütün bunları kimin boynuna atmaq olardı? Merə çox yaxın birinin. Bəs birdən bu ideal planın tarixçəsi bir, iki il yox, daha da geriyə gedirsə necə?*

Artıq Teylorun başı gicəllənir, ürəyi bulanırdı. Merlə etiraz edən uşaqların şəklinə baxırdı. Maykl Cekson üçün ədalət. Görəsən, həmin vaxtdakı ədalətin "NÖMRƏ BİRLƏR"lə nə əlaqəsi vardı? O, artıq qulağında uğultudan başqa heç nə eşitmirdi. Sanki zaman durmuşdu. Murun səsi kobudlaşıb yavaş hərəkətlə işlədilən video çarxını xatırladırdı. Onun sözləri Teylorun qulağına boğultu kimi çatırdı.

*Sədaqəti ilə seçilən adam cinayətkara çevrilir. Los-Ancelesin və bəlkə də, Amerikanın heç vaxt unutmayacağı cinayətkara. Səhvsiz çalışan mexanizm digərləri ilə müqayisə də dəfələrlə rahat nömrə birdə xətaya yol verir. Karenn Keycin üzərində heç bir yerdə barmaq izi belə bu-*

*raxmayan qatilin saç nümunələri tapılır. Sona bu qədər yaxın ikən niyə belə xətaya yol verilsin ki?*

– Frenk? Frenk? – onun donub qaldığını görən Mur bir anlığa özünü itirdi, – yuxulamısan? Yəni, mənim söhbətim bu qədər darıxdırıcıdır? – Teylor isə onu eşitmir, daxilindəki səsi dinləyirdi.

*Məqsəd meri maddiyyət yox, mənəviyyat olaraq öldürməkdir. Stivens bunu dəfələrlə edə bilərdi. Maşın partlaması. İçkiyə zəhər. Sui-qəsd. Bu vendettanın kökləri düşünüldüyündən daha dərindir. Məhz ona görə də "NÖMRƏ BİRLƏR" planı icra edilib. İndianada hakim olaraq çalışan Aaron Keyn. Maykl Ceksonun uşaqlara qarşı zorakılıq tətbiq etməkdə ittiham edilməsi və bunlardan ziyan çəkmiş biri. Kortes qardaşları, Neş, Yaşıl Əjdahalar və Mark Stivens yox. O! Maykl Cekson və Aaron Keyn arasında qalan şəxs. Meri öldürməyi yox, məhv etməyi planlaşdıran şəxs!!!*

Teylor qəfildən diksinərək yerindən atıldı. Harada idi? Nə baş verirdi axı? Son iyirmi gündə baş vermiş hadisələr çox inanılmaz bir tərzdə beynində canlanmış və yeni fraqmentlərlə birlikdə təkrarlanmışdı. Əgər onun fikirləri doğrudursa, hər şey həllini tapmışdı. İnanılmaz! M.J onlara bu qədər yaxın olub və heç vaxt şübhə çəkməyib. Axı necə çəkə bilərdi ki? Ondan şübhələnmək üçün heç bir dəlil yox idi. Nurlanın düşündüyü MOLE proqramı, filan bunların hamısı qəsdən atılmış addım idi. Onları əsas hədəfdən yayındırmaq üçün istifadə edilmiş taktiki gediş. Bu dahiyanə planda isə ən pis vəziyyətdə Teylor qalacaqdı. Ən pis və ən çıxılmaz vəziyyətdə. O, başını

yelləyərək özünə gəlməyə çalışırdı, Mur isə sakitcə onu seyr edir, səsini çıxarmamağı üstün tuturdu.

– Mən getməliyəm, Cessika, – nadir hallarda ona tam adı ilə müraciət edərdi.

– Frenk, sənə nə olub? Rəngin də saralıb, – o, narahat olduğunu açıq şəkildə biruzə verdi, – bəlkə, nəsə içəsən.

– Mən merin təltifləndirmə mərasiminə getməliyəm, – ancaq bir şeydən əmin olmaq lazım idi, – Cessika, Stivensin evindən götürülən qəzetlər, elanlar, qeyd və xəbərlər harada saxlanılır?

– Frenk, sənin məqsədin nədir?

– Bax, sənə qarşı olan münasibətdən bezdiyini deyirdin, – Teylor ona tərəf yaxınlaşdı, – bir dəfə öz adamlarına inan. Onların fikrinə hörmət etdiyini nümayiş elətdir. Xahiş edirəm, Cessika. Mənə o dəlillər təcili lazımdır.

– Axı onlar artıq mərkəzi arxivə göndərilib. Bunun üçün ən azı iki saat lazımdır.

– Yox, mənə onlar dərhal lazımdır. Sonra çox gec ola bilər. Tədbirə bir saatdan bir az artıq vaxt qalıb.

– Mənə dəqiq nə öyrənmək istədiyini de.

– Qəzet nömrələri. Sadəcə oradakı başlıqlardan ən təzəsi hansıdır.

– Yaxşı, – bir qədər tərəddüd etdikdən sonra Mur iş telefonu ilə bir neçə zəng etdi. Səsini bir az qaldırmalı oldu. Sonda sağollaşdıqdan sonra başını qaldıraraq Teylora baxdı, – onlar indi yoxlayıb bizə cavab verəcəklər. On-on beş dəqiqə çəkər uzağı.

– Çox sağ ol, Cessika, sənə çox minnətdaram, – Teylor gülümsədi.

– Dəyməz, ancaq mənə nə baş verdiyini deməyini istəyirəm. Xahiş edirəm.

– Mark Stivens günahkar deyil.

– Yenə köhnə mövzulara qayıdırsan? – Mur ağzını büzdü, etiraz edəcəkdi ki...

– Yox. Əminəm. İnan mənə, Cessika, inan, – Teylor cibindən telefonu çıxardı, – bir zəng edə bilərəm?

– Əlbəttə, – hələ də çaşbaş qalmış Mur pıçıltı ilə dedi.

– Alo, Endi! Haradasan?

– Anamgilə yeməyə gedirəm, – sükan başında olan Hovard cavab verdi.

– Silahın üstündə?

– Aha. Nə baş verir?

– Tez gəl! Sənə ehtiyacım var. İdarədəyəm. Hansı tərəfdəsən?

– Çox uzaq deyiləm. On dəqiqəyə orda olaram.

– Tələs! Bir də, Endi!...

– Hə, Frenk?

– Mark Stivensin günahı yoxdur.

– Nə? – Teylor xəttin digər tərəfində ani tormoz səsi eşitdi, – sən əminsən, Frenk?

– Adım kimi. İndi isə bura gəl! Dərhal! – onların danışıqları başa çatdı. O, yenidən müdirinə baxdı, – Cessika, mənə internet lazımdır. Kompyuterindən istifadə edə bilərəm?

– Əlbəttə, – artıq Mur qəlbinin dərinliyində Teylorun dəli olduğunu düşünməyə başlamışdı, bunun üçün əsasları da var idi haradasa. O, yerindən qal-

xaraq bir kənara keçdi. Teylor onun kreslosuna sıçrayaraq cəld klaviaturanın üzərinə düşdü. Cəld Googleda Aaron Keynin təltiflənməsini axtarışa verdi. Yüz minlərlə nəticə ekrana axışdı. Ona lazım olan şey təkcə bu deyildi. Birdən artıq pəncərə açaraq daha bir neçə açar söz verdi.

Mer Aaron Keyn.

Qubernator Klaiv Sanderlend. Şəxsi həyatı.

Aaron Keyn təltifləndirilməsi. Üç noyabr.

O, sürətli şəkildə özünə lazım olan məlumatlara göz atdı. Hər şey onun düşündüyü kimi gedirdi. O, bir neçə tarixi yadında saxlayaraq ayağı qalxmağa hazırlaşdı, lakin son anda yenidən klaviaturaya açar sözləri ötürdü.

Aaron Keyn və rüşvət.

Bununla bağlı bir neçə saytda da göz atdıqdan sonra o masadan qalxdı. Mur isə hələ də ona tamaşa edir, nə etdiyini anlamağa çalışırdı.

– Cessika, sənə, həqiqətən də, çox gözəl münasibət bəsləyirik. Düzdür, bəzən aramızda anlaşılmazlıqlar olur, ancaq bunların öhdəsindən hamımız birgə gələ bilərik. Biz komandayıq. Biz ailəyik, Cess. Sən isə bizim liderimizsən.

– Doğrudan deyirsən? – Mur yenidən kədərləndi.

– Əlbəttə. Yadından çıxıb, qabaqlar biz necə piknikə gedərdik? Stivgildəki xoş günlərimizi unutmusan? – Teylor gülümsündü.

– Hə. Yadımdadır, – o, ağlayaraq Teylorun boynuna atıldı. Üzünü onun çiyninə dirədi, – bağışlayın, bağışlayın məni, Frenk.

– Hər şeyi unudaq, Cessika. Sənin adamların səni sevirlər, unutma. Başda mən və Endi olmaqla.

Bu an Murun stolüstü kompyuterindən siqnal səsi eşidildi. Dəlillərlə bağlı materiallar göndərilmişdi. Eyni anda telefona da zəng gəldi, – Mur eşidir, – özünü əla alan şöbə müdiri cavab verdi, – aha. Təşəkkürlər. Minnətdaram. Düşünərəm. Hələlik, – o şıltaqcasına gülümsəyərək sağollaşdı.

– Nə xəbər var? – Teylor səbirsizlənirdi. İndi öyrənəcəyi xəbər hər şeyi, bəlkə də, xilas edəcəkdi.

– Deməli, sonuncu başlıq striptiz Karenn Peyc ilə bağlıdır, Frenk.

– Əla! – Teylor sevincindən özünü saxlaya bilməyib müdirinin yanağından öpdü, – indi mən getməliyəm. Çox sağ ol, Cessika. Sən, həqiqətən də, bizim liderimizsən. Bizi etdiklərimizə görə sən də bağışla. Mən getməliyəm. Hələlik, Cess.

– Okay, Frenk. Özündən muğayat ol. Endiyə də salam deyərsən, – Mur güldü, – hələlik.

Teylor qaça-qaça çıxışa tərəf çatdı. Telefonla Qebriel Brauna zəng vurub Nurlanla birlikdə dediyi adresə yollanmağı tapşırdı. Artıq o, bu gün bir nəfəri xilas etmişdi. Əgər alınsa, hələ daha çox həyatı qurtara bilərdi.

Əgər alınsa.

# 36

## 3 noyabr 18:50

**Reyçel Şilds çox cazibədar bir libasda merin tədbirinə nəzarət edirdi. Burada kimlər yox idi ki? Siyasət adamları, ali polis zümrəsi, müxtəlif nazirlər və Los-Ancelesdəki ayrı-ayrı nəhəng infrastruktur sahibləri. Əlli nəfərə yaxın qonaq siyahısına göz atanda insan şoka düşür, bu qədər vəzifəli simanı necə razı salacağı barədə düşünürdü. Mer Keyn həmişə effektli çıxışları sevib. Bu gün də öz ənənəsinə sadiq qalaraq məclis qızışandan sonra saksafon ifa edəcəkdi. Artıq demək olar ki, qonaqların hamısı gəlmişdi. Klaiv Sanderlend çox şık bir smokinlə ən son təşrif buyuranlardan idi. Qızı Tara da atasından geri qalmırdı. Bir neçə il əvvəl qubernatorun həyat yoldaşı vəfat etdiyindən o, müxtəlif tədbirlərə bəzən qızı ilə yollanırdı. Qubernatorun həyat yoldaşına olan sədaqəti isə dillər əzbəri idi.**

Alisia Keys[65] görünüşə sahib Tara Sanderlend tünd qəhvəyi, sinə və bel dekoltesi gözə çarpan paltar gey-

65 Amerikalı müğənni, bəstəkar və aktrisa. 1981.01.25

mişdi. Boyu 5.6 futa[66] çatırdı. Qara burnu iti dikdabanlarla isə atasından daha da hündür görünürdü. Buna baxmayaraq bəstəboy Klaiv Sanderlend öz qızı ilə çox mehriban ailə portreti yaradırdı. Sanderlend altı ildən artıq idi ki, qubernator postunda çalışırdı. Bu müddət ərzində kifayət qədər rəngarəng hadisələrə şahid olmuş, öz səviyyəsində bir çox uğura imza atmışdı. Hüquq oxumuş qızı Tara da ona işlərində kömək edirdi. Yaşı otuzu keçməsinə baxmayaraq o, hələ də ailə qurmağa hazır deyildi. Ciddi işdə çalışsa da, həyatın dadını çılğıncasına çıxarmağın həvəskarı idi. Yaşı ötsə də, hələlik, ailəni ikinci plana atmışdı.

Mer Keyn qubernator üçün xüsusi hədiyyə hazırlatmışdı. O, "Getty House"un bağçasının mərkəzində dururdu. Üzəri qara örtüklə bağlanmış, qırmızı iplə kiplənmişdi. Onun yanından keçən qonaqlar nə olduğu barədə düşünür, sürprizi tezliklə öyrənməkdən ötrü səbirsizlənirdilər. Hədiyyə seçimində Reyçel merə kömək etmişdi. Qubernatorun əntiq əşyalara olan eşqini nəzərə alaraq onlar çox fərqli bir ərməğan hazırlamışdılar.

Reyçel müdirinin işarəsini gördükdən sonra hazırladıqları sürprizin icrasına başladı. Onun göstərişi ilə iki qırmızı pencəkli xidmətçi gəldi, hər biri örtüyün bir küncündən yapışdı. Sürprizin ilk mərhələsi tamamlanmışdı. Reyçel bağçadan evə keçərək xidmətçilərə göstərişlər verdi. Hər şey ən üst səviyyədə olmalı idi. Bircə heç bir problem çıxmaya. Bu gün Reyçelin

---

[66] Fut (foot) – Krallığa daxil ölkələr və Amerikada istifadə olunan uzunluq ölçü vahidi. 1 fut – 30.48 santimetr.

həyatında xoş və əlamətdar bir gün kimi qalacaqdı. Nə də olsa hər gün Kaliforniya qubernatoru Los-Anceles merini təltifləndirmir.

Qəfildən qubernator əlindəki balaca gümüşü zınqırovu yellədi. Violança, piano və skripkadan ibarət musiqi triosu nəğməni yarıda saxladı. Aaron Keyn ilə yoldaşı başda olmaqla qonaqlar əllərindəki işlərini yarımçıq saxlayıb diqqətlərini qubernatora yönəltdilər.

– Əzizlərim, bir dəqiqəliyinə diqqətinizi bura yönləndirməyinizi rica edirəm, – qubernator Sanderlend gülümsündü, – Aaron, bizi hamımızı bura toplayan sənsən. Buna görə sənə minnətdarlığımı çatdırıram ilk növbədə, – kiçik bir alqış dalğası.

– Xeyr, cənab qubernator, – Keyn az-maz qızardı. Onun da əynində qara dəst kostyum, yaxasında isə ağ zanbaq vardı. Yoldaşı isə bu xüsusi axşam üçün açıq-sarı libas seçmişdi. Bu cütlük kənardan bir-birini tamamlayır, gözə xoş mənzərə yaradırdı, – mənə bu şərəfi yaşatdığınıza görə mən sizə minnətdaram.

– Aaron, axı biz sənin bu qədər təvazökar olmadığını bilirik, – hamı gülüşdü.

– Formallıq xatirinə. Nə edə bilərəm ki? – qonaqlardan gələn cavab gülüşü.

– Onda, gəl mətləbə keçək, – qubernatorun adamlarından biri Taraya kiçik qara qutu təqdim etdilər. O gülümsəyərək qutunun qapağını açdı. Daha gurultulu alqış səsləri eşidildi, – nə donub qalmısan, Aaron, yaxınlaş. Axı bu sənin günündür.

Aaron Keyn heç vaxt olmadığı qədər həyəcanlı idi. Belə bir mükafat onun sahəsinin Nobeli, Oskarı hesab

olunurdu. Son günlərdə yaşanan "NÖMRƏ BİRLƏR" cinayətləri üzündən hətta bir dönəm qorxuya düşmüş, tədbirin təxirə salınacağından, daha da pis ləğv olunacağından qorxmuşdu. O, qeyri-əmin addımlarla qubernatora yaxınlaşdı. Yoldaşı onun əlindən tutaraq bütün sevgisini və dəstəyini Keynin ruhuna ötürürdü. Mer bir anlığa gözlərini sıxaraq ona baxan izdihamın əlindən gizləndi. Dərindən nəfəs alıb, addımlarını yeyinlətdi. Hələ mükafatdan sonra o da qubernatora öz hədiyyəsini təqdim edəcək, hətta saksafon çalacaqdı. Musiqi savadı buna imkan versə də, təngnəfəs olduğundan artıq necə ifa edəcəyi barədə narahat olmağa başlamışdı. Bir baş məsafəyə qədər qubernatora yaxınlaşdı.

– Aaron Keyn. Kaliforniya ştatı səni Los-Anceles şəhərinə qarşı göstərdiyin xidmətə görə bu orden ilə təltif edir. Tanrı hamımızı qorusun. Tanrı Amerikanı qorusun! – qonaqların canfəşanlığı altında mükafat mer Aaron Keynin boynundan aşırıldı. Məhdud sayda press üzvləri dərhal fotolarını götürdülər.

– Təşəkkür edirəm. Hər birinizə təşəkkür edirəm. Sizə təşəkkür edirəm, cənab qubernator. Tanrı hər birimizi, Amerikamızı qorusun! – mer göz yaşlarına zorla hakim olurdu, ancaq öz idarəsini itirə bilməzdi. O da qonaqlarla birgə bir neçə saniyə əl çalıb izdihamın sakitləşməsini gözlədi. İndi gecənin sürprizləri başlayacaqdı. Qubernator gördüyü hədiyyənin təsirindən uzun müddət çıxa bilməyəcəkdi, – indi isə mən bir neçə söz demək istəyirəm. Cənab qubernator, Los-Ancelesin adından sizə kiçik bir hədiyyəmiz var.

– Çox nəzakətlisiniz, cənab Keyn, – qızının əlini sıxaraq qubernator səmimi cavab verdi.

– Xoşdur. Hamıya məlumdur ki, gözəlliyə və incəsənətə necə önəm verirsiniz. Buna görə də biz Los-Anceles sakinləri sizə xoş olacaq bir şey seçdik, – Keyn əli ilə qara örtüyü işarə etdi, – miss Tara, buyurun. Məncə, cənab Sanderlend sizin bizi şərəfləndirməyinizə etiraz etməz.

Tara Sanderlend atasına baxıb onun gözlərindən razılığı oxudu. Qara örtük tərəfə yaxınlaşdı. Xidmətçilərdən biri qayçı olan məcməyini ona tərəf uzatdı. Qadın gümüşü rəngli qayçını götürdü, qırmızı rəngli bağa yaxınlaşdırdı. Press adamları yenə kameralarını işə saldılar. Qayçı qırmızı zolağı ikiyə ayırdı. Qara örtük yerə sərildi. Üç ayaqlı masanın üzərində göy rəngdə mozaikalarla işlənmiş vaza vardı. Çox orijinal görünüşə sahib bu nadir sənət əsəri hər kəsi öz sehri altına ala bilmişdi.

– Bu, Min[67] sülaləsinin dövründən qalıb. Bəzi mənbələr isə onun Zenq Xeyə[68] məxsus olduğunu deyir, – merin yoldaşı özündən bir qədər razı tonla dedi. Fərəh onun bürümüşdü.

– Çox minnətdaram. İnanılmaz sürpriz oldu, – Klaiv Sanderlend təəccübünü gizlətmədi. Tarixi vazaya daha yaxından baxmaq üçün qızının yanına getdi. Gözlərinin qarasında indi göy əjdahalarla işlənmiş

---

67 Min Sülaləsi(1368-1644) monqolların zəifləməsi nəticəsində Çində hakimiyyətə gəlmiş dinastia.

68 Zheng He (1371-1433) məşhur çinli dənizçi, admiral, tədqiqatçı və diplomat. Cənub, cənub şərqi Asiya və Somali kimi bölgələrə səfərlər edib.

vaza parlayırdı. Onun hipnozundan qurtulduqdan sonra qubernator üzünü mer tərəfə çevirdi, lakin Aaron Keyn artıq orada deyildi. O, təəccüblənməyə macal tapmamış saksafon səsi eşitdi. Üzünü musiqiçilərə tərəf çevirib Keynin qızılı alətlə ifasına tamaşa etməyə başladı. Mer isə vəziyyətin ürəyincə olmasından xoşallanırdı. Saksafonunda trionun dəstəyi ilə Careless Whisper [69]mahnısını ifa edirdi. O, yoldaşı və Reyçelin təşkilatçılığını etdiyi tədbir, hələlik, ideal şəkildə davam edirdi.

Hələlik...

[69] İng. – Qayğısız(gözlənilməz) pıçıltı. 1984-cü ildə yazılmış Həm Wham qrupunun, həm də George Michael'in ifasında nömrə bir mahnı.

# 37

## 3 noyabr 19:06

**Nurlanla Braun Teylorun onları göndərdiyi adresə çatmışdılar. Los-Anceles kənarı yığcam evlərdən ibarət sakit bir küçə. Qaralmağa hazırlaşan hava. Onlar maşından enib tapşırılan evin qabağına gəldilər. Bir-birlərinə və iki mərtəbəli evə baxdılar. Nurlan çox həyəcanlıydı. Hələ də bura gəlmələrinin səbəbinin nə olduğunu bilmirdi. Teylor onlara dəqiq məlumat verməmişdi. Sadəcə, xəbər göndərilən kimi öz motosikileti ilə bura şütümüşdü. Bir neçə isti pizza sifarişi ilə birlikdə.**

– Səncə, içəridə kim isə var? – Braun soruşdu.

– Mən heç bura niyə gəldiyimi bilmirəm, – Nurlan donquldandı.

– Bu ərazilərdə edilən zəngləri ev şəraitində dinləmək mümkündürmü? – Braun Teylor tapşıran sualı verdi.

– Baxır, balaca çantanda nə gizlədirsən. Niyə də ki yox? – Nurlan çiyinlərini tərpətdi, – bu evdən şübhələnirsiniz?

– Frenk buranı yoxlamağı tapşırıb.

– Bu işə normalda patrullar baxmır? Axı mən pizza daşıyıcısıyam.

– Haqlısan, amma bunun üçün leqal yolla order almaq lazımdır. Frenk isə səs-küy qaldırmaq istəmir. Yəni içəri girməməkdə sərbəstsən.

Nurlan içəri girməməklə bağlı cümləni sanki eşitmədi.

– Onda nə gözləyirik? Qapını döyüb içəri keçə bilmərik?

– Yoxla. Alınsa, sən deyən yoldan keçərik.

– İçəri keçsəm, məni nə gözləyir bəs?

– Heç bir fikrim yoxdur.

– Çox sağ ol, – deyərək Nurlan motosikiletinin arxasından pizza qutusunu götürdü, papağını başına keçirib gözlərini onun altında gizlətdi, – nə isə mən gedirəm. Orada kim isə olsa, nə etməliyəm?

– Nə qədər çox bacarırsansa, qapını açan şəxsin başını qat. Uğurlar. Soyuqqanlı olmağa çalış.

– Təşəkkür.

Ancaq Nurlan başını qaldırandan sonra Braundan əsər-əlamət yox idi. O, alnındakı damlaları silib ard-arda udqundu. Sanki qarşısındakı qapı ayaq açmış və Nurlan yaxınlaşdıqca ondan uzaqlaşırdı. Qapıya çatmaqçün sərf etdiyi saniyələr saatlar tək uzun çəkdi. Nəhayət, ora çatdı, əvvəlcə qapı zəngini basdı, sonra iki dəfə ritmik şəkildə qapını tıqqıldatdı. Saniyələr ötdü, açan olmadı. O, növbəti cəhdini etdi. Yenə də nəticəsiz. Eyni anda zəngi basıb saxlayıb qapını çırpmağa başladı. İki-üç dəqiqə bunu etdikdən sonra qapı açıldı.

– Lənət şeytana! Sizə nə lazımdır? – çox sərt üzlü biri ondan soruşdu. Bu kişinin haradasa əlli yaşı olardı. Saçları qismən ağarmış, qismən də tökülmüşdü. Sol gözünün altında, çənəsində çapıq vardı. Deyəsən, kəsici alətlə zədələnmişdi. Gözlərinin altı şiş, dərisi isə quru və kələ-kötürlüydü. Boyu bir səksən beşdən çox olardı. Çiyinləri başda olmaqla kifayət qədər yaxşı işlənmiş bədənə sahib idi. Gərgin görsənirdi, üzündən isə zəhrimar yağırdı, – nə istəyirsiniz?

– Pizza sifarişi, – Nurlan pıçıltı ilə dedi.

– Mən heç nə sifariş verməmişəm!

– Axı burada ünvan qeyd olunub, – Nurlan əlini çantasına uzatdı, – dayanın, indi göstərərəm, – o tələsmədən çantasını eşələdi.

– Dedim, heç nə sifariş verməmişəm! – adam çığırdı, – əl çəkin!

– Dayanın! – o qapını çırpmaq istəyəndə Nurlan ayağını qapının arasına qoyub onu bağlamağa imkan vermədi, – axı belə olmaz. Sonra bu sifariş mənim maaşımdan çıxılacaq, – o, yenidən çantasına başını soxub oradan klassik rok balladalardan ibarət albom çıxardı. Daha sonra bir tablet və bir neçə dəftər qələm.

– Yaxşı, nə qədər edir hesab? – adam qapını yenidən açaraq ondan soruşdu. Bu dəfə qapı bayaqkından daha geniş açıldı, adam bir kənara keçib oğlana içəri keçməsini işarə etdi. Luminisent lampanın işığı Nurlanın üzərinə düşdü.

– 29.99, – Nurlan hesabı dedikdən sonra pizzaları ona tərəf uzatdı, adam onları qaparaq əllilik əsginazı ona ötürdü, – dayanın, sizə hələ bonus kampaniyasın-

dan danışmamışam, – o, əşyalarını yığa-yığa uydurma bonuslar barədə danışdı. Həyəcandan əlindəki CD albomu yelləyir, lampanın işığı diskin qabının üzərinə düşürdü, – üstəlik, hər beşinci sifarişdə...

Adam Nurlanın yaxasından yapışaraq onu asılqan tərəfə vızıldatdı. Qapını çırparaq cəldə qonaq otağına şığıdı. Hər tərəfi ağrıyan Nurlan nəyin baş verdiyini anlamamışdı. Pizzalardan biri üzərinə yapışmışdı. Üst-başı pendirə bulaşdı. Adam işıq Nurlanın albomunun üzərinə düşəndə digər pəncərədən içəri girməyə çalışan Qebriel Braunu görmüşdü. Nurlan Faiqoğlu başını qaldıraraq döşəmənin üzərində oturdu.

Çapıqlı adam dəhlizdəki döşəməni silmək üçün istifadə olunan ağacı götürüb Braunun üstünə gəldi. Polis tapançanı çıxarıb qaldıranda adam ağacla onun əlindən vurdu. Silah döşəmənin üzərinə düşdü, polisin əlindəki sümüklər şıqqıldadı. Adam növbəti zərbəni onun başından endirməyə çalışdı. Qeb qolları ilə başını blok etdi. Qollarına dəyən taxta parçasının təsiri gözlədiyindən çox oldu. Çapıqlı növbəti ağacı geriyə çəkib üçüncü hücuma hazırlaşan an Braun onun üzərinə atılaraq iki əli ilə ağacdan yapışdı, düşmənini itələyərək divara çırpdı. Ağac üzərində hakimiyyət mübarizəsi başladı. Braun bir neçə dəfə təkan verib çapıqlını zərərsizləşdirməyə çalışdı. O isə məharətlə polisin təzyiqinə tab gətirdi, qəfildən Braunun sol qaşına kəllə vurdu. Qırmızı qan dərhal onun gözünün önünü örtməyə başladı. Bu ani üstünlükdən istifadə edən düşmən ağacdan yapışaraq Braunu geriyə, divana tərəfə itələdi. O, divanın üstündən aşaraq beli

üstə şüşə, şəffaf masaya çırpıldı. Xıncım-xıncım olmuş şüşələrlə birlikdə döşəməyə yapışdı.

Düşmən ağacın arxa tərəfini çevirərək ölümcül zərbəni vurmağa hazırlaşdı. Bu vaxt üzünün sağına və ağzının ətrafına ılıq pendir dəydi. Nurlan nisbətən yaxşı vəziyyətdə olan pizzanı onun üstünə atmışdı. Bunun ardınca isə o, çapıqlı şəxsin çənəsindən yumruq ilişdirdi. Çənə o qədər sərt idi ki, yumruq ifaçısının barmaqları sızladı. Əlbəyaxa döyüşdə təcrübəsiz olan Nurlan Brauna səslənsə də, əvəzində iniltidən başqa bir şey eşitmədi. Braunun bədəni müqavimət göstərəcək qabiliyyətdə idi, lakin qaşının açılması onu təcrübəli, naməlum adamla mübarizədə geri salırdı. O, qaşını əli ilə sıxaraq qanaxmanı saxlamağa çalışırdı. Cəld özünə gəlib Nurlana kömək etmək lazım idi. Nurlanın yumruğundan o qədər də zərər çəkməyən düşmən ağacı qaldırmaq istərkən Nurlan belindən yapışdı. İki əli ilə belini sıxıb, başını düşmənin ənsəsinə çırpdı, adam yıxılarkən əlləri ilə divandan tutub müvazinətini saxladı. Divanın üstünə düşmüş ağacla geriyə zərbə endirərkən özünə də zərər yetirdi. Nə etdiyini anlamasa da, qabırğasından vurulmuş Nurlan bunun əvəzini onun dalından vurduğu zərbə ilə çıxdı. Adam ahıldayaraq geriyə döndü. Bir əli ilə Nurlanın ənsəsindən yapışaraq bədənin müxtəlif nahiyələrinə yumruqladı, başını dartaraq oğlanı divanın üstünə atdı. Nurlan divanın qoltuğundan aşaraq beli üstə yumşaq divana çırpıldı. Çapıqlı adam ağacı götürdü. Hər iki əli ilə Nurlanın başının üstünə perpendikulyar vəziyyətə gətirdi. Qaldıraraq həlledici zərbəni

vurmaq üçün hazırlaşdı. Qüvvətlə ağacı yerə endirdi. Son anda Braun Nurlanın əlindən yapışaraq onu yerə dartdı. Pizza daşıyıcılığı ilə məşğul olan gənc zərbənin küləyini hiss etdi. Kirpikləri azacıq hərəkət etsə, onun düz yanına çırpılmış ağaca toxunacaqdı.

– Taxtanı buraxma!

Braun qışqıraraq masanın üstündən qalxdı. Nurlan iki əli ilə divana girmiş taxta parçasını tutdu. Ağacdan artıq xeyir gəlməyəcəyini anlayan çapıqlı adam ondan əllərini üzdü. Diqqətini masadan qalxmış Brauna yönəltdi. Təpiyi boşa çıxdı. Ardınca növbəti yumruq cəhdi. Braun iki dəfə manevr edə bilsə də, üçüncü cəhddə sinəsindən yumruq aldı. Geriyə bir neçə addım atdı. Başı gicəllənsə, müvazinətini saxlamaqda çətinlik çəksə də, birtəhər ayaq üstə qala bildi. Arxasında LCD televizordan tutub onu yerə çırpdı, Ekran qırıntıları masanın döşəmə üzərindəki şüşələrinə qarışdı. Braun bıçaq gəzdirmədiyi üçün daxilində özünü qınadı. İstifadə etmək üçün gözləri ətrafı gəzdi. Rəflərdən birinin üzərində adı "The Poet" olan sərt üz qabıqlı kitab gördü. Onu götürüb düşmənin üstünə atdı. Ardınca isə rəfdən əlinə keçən hər şeyi çapıqlı tərəfə vızıllatdı, ancaq bunlar təcrübəli yad adamı saxlamağa kifayət etmədi. O, Braunun boğazından yapışdı. Qaldıraraq bayaq televizor dayanan yerə çırpdı. Taxta televizor altı polisin çəkisinə dözə bilməyib ortadan qırıldı.

Adam bihuş vəziyyətdə divanda və yerdə qalmış iki nəfəri süzdü. Yeri müəyyən edilmişdi. Bir azdan bura başqaları da gələ bilərdi. Planın icrasında bir

az gecikmə olsa da, hələlik xəta yox idi. O, buradan ayrılaraq merin malikanəsinə yollanmalıydı. Buradakı iki nəfərə vaxt ayırmağın zamanı deyildi. Evin zirzəmisinə enərək özünə lazım olan əşyaları götürdü və yuxarıda yatanları aradan götürmək üçün gərəkli tədbirləri gördü.

# 38



## 3 noyabr 19:25

**– İçəri keçəndə soyuqqanlılığı itirmə. O, ifşa olunduğundan şübhələnsə, daha pis nəticələr üzə çıxa, fəsadlar törənə bilər.**

**Teylor qışqıraraq “Challenger”dən endi. Qapını çırparaq “Getty House” tərəfə qaçdı. Ətrafda çoxlu sayda mühafizə işçiləri keşik çəkirdi. Standart mühafizəçilərdən əlavə burada Gizli Xidmət və federallara da rast gəlmək olardı. Onlar şübhəli baxışlarla nişanları əllərində mer iqamətgahına tərəf yüyürən detektivləri süzdülər.**

– Detektiv, sizə nə lazımdır? – qara geyimli, zil qara eynəkli natarazlardan biri soruşdu.

– Məni içəri buraxın. Oradakı hamının həyatı təhlükədədir, – Teylor səbirsizcəsinə dedi.

– Sakitləşin, detektiv. Hər şey idarəmiz altındadır.

– Başa düşmürsünüz, – bu dəfə danışan Hovard oldu, – vəziyyət çox mürəkkəbdir.

– Biz hər bir künc-bucağı nəzarətdə saxlayırıq. Narahatçılığa lüzum yoxdur.

– Axmaq, bizi içəri burax! – Hovard özündən çıxdı.

– Danışığına fikir ver, detektiv! İndi isə rədd olun buradan! – gözlüklü Gizli Xidmət işçisinin də səsi kobudlaşdı.

– Bacarırsan, rədd elə, – Hovard sözünü bitirən kimi qara kostyumlu adam yumruğunu sıxaraq onu bir növ jestlə hədələdi, – məni vurmaq üçün toplarının ölçüsü kifayət etməz! – Hovard daha da sərt görüntü aldı.

– Səni! – əsəbindən partlasa belə agent özünü saxlaya bildi, – bunun acığını səndən çıxacam!

– Gəl, vur da. Qorxma. Uzaqbaşı ananın yanına gedib döyülmə sərgüzəştini danışacaqsan.

– Teylor! – qara geyimli hücuma keçəcəkdi ki, arxadan agent Riçmondun səsi eşidildi, – burada nə edirsiniz?

– Sənin zırrama adamın bizi içəri buraxmır. Biz də onunla toplardan danışırıq! – Hovard donquldandı.

– Hər şey qaydasındadır, – Riçmond digər agentə işarə etdi, Teylor ilə Hovard içəri keçdilər. Üçü birlikdə evin qapısına tərəf istiqamətləndilər, – nə baş verir?

– Riçmond, Stivens günahsızdır, – Teylor cinayətkarın adını ona açıqladı.

– Əminsən? – bərəlmiş gözlərlə ona baxan Riçmond qalstukunun düyününü açdı.

– Aha. Bir neçə şeyi yoxlamışıq.

– Onda girək və onu aparaq.

– Onun tək olduğuna inanmıram. Bizim onun kimliyini bildiyimizdən xəbər tutsa, başqa bir şeyə əl ata bilər. Burada isə əllidən artıq adam var, York.

– Yaxşı. Siz içəri girin. Bəs mən nə edim?

– Bura heç bir transport yaxınlaşmasın. Heç kəsi bayıra və ya içəri buraxma. Biz onun tərəfdaşının kim olduğunu bilmirik.

– İnana bilmirəm. Axı o, özü bunu necə edə bilərdi? Özünü qurban kimi göstərib bu qədər insanı necə məhv edə bilərdi? – Riçmond şokun təsirindən çıxmamışdı.

– Diqqətli ol, York, – deyərək detektivlər merin evinin içərisindən bağçasına keçdilər.

Hər kəs göy çin vazasının başına toplaşmış, mer Aaron Keynin ifasını dinləyirdi. Qonaqların bu qədər sıx məskunlaşması cinayətkarı müəyyən etmə şanslarını daha da azaldırdı. Teylor ətrafa bir daha nəzər saldı. Sonuncu nömrə bir olan Billie Jean[70] onların qarşısında dayanmışdı. Səksən ikinci ilin dörd mayında doğulmuş qubernator qızı Tara Sanderlend. Görəsən, cinayətkar onu aradan götürməyi necə planlaşdırıb? Bu qədər insan arasında bunu yalnız uzaqdan həyata keçirmək mümkün olardı.

– Endi, mən evə girirəm. Sən isə buraları nəzarət altında saxla.

– Haranı? Kimi? Onun nə vaxt hərəkət edəcəyini bilmirəm axı!

– Bu finaldır, Endi. Deməli həmin məqam xüsusi olacaq. Düşün! – Teylor yenidən içəri girib qatili görən olubmu deyə xidmətçilərdən soruşdu.

---

70 Maykl Ceksonun rekordları alt-üst etmiş Thriller albomunun və bütün karyerasının vizit kartı hesab olunan nömrə bir mahnı. Məşhur Moonwalk (Ay yürüşü) da ilk dəfə məhz bu mahnı ifa edilərkən nümayiş olunub.

– Əla! Effekt imiş! – Hovard donquldanaraq ətrafa baxmağa davam etdi. Effekt. Möhtəşəm Final. Maykl Ceksonun konsertlərindəki şou. Dangerous turunda o, sonda havaya qalxır və səhnəni uçaraq tərk edirdi. Bəs burada nə baş verəcəkdi? İnsanların diqqəti merə yönəlmişdi. İfası bitdikdən sonra Aaron Keyn də Cekson kimi yox, amma partlayışın təsiri ilə havaya uçacaqdı? Qubernator və qızı. Ətrafındakı insanlar. Tara Sanderlend əlində ehtiyatla saxladığı göy vaza ilə meri seyr edir, xəfifcə gülümsəyirdi, – Lənət!!!

Teylor ikinci mərtəbəyə qalxdı. Evin içərisində qatili görənlər onun yuxarı qalxdığını demişdilər. Detektiv iki otağı yoxladıqdan sonra heç bir nəticə əldə etməmişdi. Ürəyi döş qəfəsini zorlayır, sanki məni azadlığa burax deyirdi. Vaxt azalırdı. Növbəti seçimdə yanılmaq olmazdı. O, "Getty House" bağçasına daha yaxşı açılan pəncərələri yoxlamışdı. Qatil orada deyildi. Demək, onun üçün mövqe görüntüyə görə yox, məqama görə seçilib. O, nəyisə gözləyir. Həmin siqnal gəldikdən sonra hərəkət edəcək. Teylor qaçaraq son qərarını verdiyi qapıya çiyin vurdu, tapançası hazır vəziyyətdə içəri girdi. Qatil bir əlində binokl evin bağçasını seyr edir, digərində isə pulta bənzər bir şey saxlayırdı. Teylor içəri girən kimi o, karıxıb binoklu aşağı saldı. Onu nişangahında saxlayan detektiv dedi.

– Tərpənmə, Reyçel.

– Frenk, – Reyçel Şilds sarkazm dolu bir tonla gülümsündü.

– Çəkil pəncərədən. Bir dəfə xəbərdarlıq edirəm.

– Silahını at, Teylor, – Reyçelin səsi yenidən eşidildi, lakin o danışmamışdı. Bu an Teylor gicgahına toxunan soyuq tapançanın lüləsini hiss etdi, – mən də bir dəfə xəbərdarlıq edirəm.

Tapançasını yerə buraxan Teylor bu sözləri deyənin kim olduğunu öyrənmək üçün geriyə döndü. İv! İv Şilds.

– Təəccübləndin, Frenk? –İv də bacısıtək gülümsündü, – yox, dəli olmamısan. Bu, mənəm. Yerindən qalxmağı bacarmayan İv.

Teylor heç nə deməyib gözlərini bir bacıdan digərinə apardı. Reyçelin mer Aaron Keyndən bacısının qisasını aldığını düşünürdü, yaxşı bəs İv sağsalamatdırsa əgər? Onda necə? Heç nə anlamasa da, detektiv susmağı məsləhət bildi. İndi danışmaq təkcə onu yox, bütün məclisə gələnləri təhlükəyə ata bilərdi.

– Əllərini arxana endir, Frenk, – Reyçel da tapançası ilə onu nişan aldı. İv Teylorun əllərini yapışqan lentlə üst-üstə bir neçə dəfə sarıyaraq kip bağladı. Tapançanın arxası ilə onun üzündən zərbə endirib əli ilə döşəməyə itələdi, – bağışla, Frenk, ancaq qızıl qaydalar pozulmur, – o, Teylorun ağzını və ayaqlarını da lentlə bağlayıb yanağından öpdü, – indi şou başa çatana qədər burada sakitcə otur. Bizə minnətdar olmalısan. İlk sıradan biletlərin var, – İv qəhqəhə çəkdi.

Bacıların hər ikisi pəncərənin yanına keçib mənzərəni seyr etməyə davam etdilər. Saksafon səsləri eşidilirdi. İv binoklu bacısından götürüb bayıra baxan an Reyçelin gözləri Teylora tərəf döndü. Yanaqlarından yaş damlaları axır və gülümsəyirdi. Bunun nə məna kəsb etdiyi detektivə aydın deyildi. Ancaq o,

bu qadınla həyat qurmağı belə ağlına gətirirdi. Qatilin Reyçel çıxması isə onun bütün xəyallarını puç etmişdi. Bunları beynindən çıxarmağı özünə şərt qoyan Teylor əl-ayağını açmaq barədə düşündü. Saksafonun isə tempi getdikcə aşağı düşür, ifa sona çatırdı.

– Budur, Rey. Artıq bitir, – İv bacısına dedi.

– Axır ki. Hazırsan?

– Hə. Eyni anda. Yaxşı?

– Əlbəttə, amma tələsmə, – Reyçel gülümsündü.

Bacılar əllərini pultun qırmızı düyməsinin üstünə gətirdilər. Teylor bu düymənin nəyə xidmət etdiyini anlamışdı. Qırmızı düymə detonatoru aktivləşdirəcəkdi. Aaron Keyn ifasını bitirəndə sonuncu nömrə bir Billie Jean partladılacaqdı.

Endi Hovard Aaron Keynə və Klaiv Sanderlendə baxdı. Meri məhv etmək dedikdə öldürmək nəzərdə tutulmurdu. Bəzən insanın başına elə şeylər gəlir ki, ölüm onlarla müqayisədə xoş bir hədiyyə hesab olunur. Hovard indi nə etməli olduğundan əmin deyildi. Altıncı hissinə arxalanaraq qubernatorun qızı tərəfə qaçdı. Merin ifası bitdi, hər kəs əl çaldı, o isə qarşısında dayanan adamları itələyərək Tara Sanderlendin əllərindən yapışaraq doğru hesab etdiyi hərəkəti etdi. Tara və Klaiv Sanderlend onun bu hərəkətindən əsəbiləşərək tərs-tərs baxdılar, nə etdiyini anlamağa çalışdılar. O isə "Əyilin!" deyə qışqıraraq qubernatoru yerə yıxdı, qızını isə iki əli ilə tutaraq yüz səksən dərəcə döndərib özünü qızın qarşısında sipər etdi. İnsanlar onun hərəkətini ümumi bir "AH!"la qarşılasalar da, bir saniyə sonra həmin təəccüb nidası gurultu altında boğuldu.

# 39

## 3 noyabr 19:28

*Nurlan!!! Nurla.. n! Nur...*

**Faiqoğlu yavaşca gözlərini açdı, ağrıyan başını yumşaq divandan qaldırdı. Bədəni sözünə qulaq asmamaqda israr edirdi. O, Braunun səsinə oyanmışdı. Başı gicəllənir, ətrafındakı cisimlər sanki hərəkət edirdi. Nurlan divana sancılmış ağacdan tutub ayağa qalxdı. Birtəhər ayaqlarını döşəmənin üstünə qoyub özünü ayağa qaldırdı.**

– Nə oldu? O, haradadır? – o, qırılmış masanın hissələri arasında uzanan Braundan soruşdu.

– Bilmirəm. Deyəsən, gedib.

– İkimizi də çırpdıqdan sonra niyə getsin ki?

– Bilmirəm. Bəlkə, qalxmağıma kömək edəsən? – Braun inildədi.

– Əlbəttə, – Nurlan utanaraq yerindən qalxdı. Polisə yaxınlaşıb əlini uzatdı, – gəzə bilərsən?

– Əmin deyiləm.

O, çətinliklə də olsa, Braunu ayağa qaldırdı. Yenidən divandan bir dəqiqəlik nəfəs aldıqdan sonra hərəkət etdilər. Polisin göstərişi ilə pizza daşıyıcısı döşəmədəki

tapançanı götürdü. Axsasa da, Brauna nisbətən daha yaxşı durumda idi. Köməkləşərək birlikdə qapıya tərəf getdilər. Hər ikisi kifayət qədər qan itirmişdilər, ancaq Nurlan artıq ağrılara öyrəşmişdi. Bayaqkından daha rahat hərəkət edə bilirdi. Onlar qapının ağzına çatdıqdan sonra Nurlan ayaq saxladı.

– Aşağı, zirzəmiyə enirəm.

– Orada nə işin var? İndi kömək çağırarıq, – Braun etiraz etdi.

– Bəlkə, o, aşağıda gizlənib. Mən düşürəm.

– O, burada gizlənməz. Gizlənsə idi, biz həyatda olmazdıq.

– Yaxşı, – deyərək Nurlan pilləkənləri enməyə başladı, – məni bayırda gözlə.

O, pilləkənlərlə düşdükdən sonra boz taxta qapıdan içəri keçdi. Bura zülmət qaranlıq idi. Bir işıq belə yanmır, zirzəmidən bir pəncərə belə çıxmırdı. Klaustrofobiyası olanlar üçün bura əsl cəhənnəm hesab oluna bilərdi. Nurlan əlini divarın üzərində gəzdirərək işığı yandırdı. Bir neçə yerdən lampalar közərdi və o heyrətə gəldi.

Hər tərəf şəkillərlə dolu idi. Müxtəlif növlü silahlar. Cürbəcür telefon, kompyuter və digər cihazlar. Bir neçə əl bombası. Nəhəng lövhə üzərində qurulmuş bir sxem. Stivensin evindən tapılmış sxem bunun xırda modelini, alt çoxluğunu xatırladırdı. Qara əməliyyat paltarları. Eynəklər. Müxtəlif rəngli pariklər. Bıçaq və digər silahlar. Lövhədə hər bir cinayətin xırdalıqları işlənmişdi. Bura baxanda insanın tükləri biz-biz olurdu. Nurlan lövhənin mərkəzində yerləşən Aaron

Keynin şəklinə baxdı. Yaxınlaşıb onun altındakı yazını oxudu.

*Gec-tez. Hər şeyin vaxtı var.*

Onun altında isə "NÖMRƏ BİRLƏR" adı altında siyahı hazırlanmışdı. Hər bir seçilmiş şəxsin adı və hansı nömrə bir olduğu qeyd olunmuşdu. Faiqoğlunun ürəyi bulanırdı. Ətrafdakı sükutun içərisində lövhəyə baxmağa davam etdi, ancaq qəribə bir ritmik səs eşidirdi. Səs lövhənin arxasından gəlirdi. Tapançanı hazır hala gətirərək lövhənin arxasını yoxlamaq qərarına gəldi. Bir neçə sakit addım atıb qəfildən lövhənin arxasını nişan aldı.

LƏNƏT!!!

Braun Nurlanın sözlərinə əməl etməyərək pilləkənləri enməyə çalışırdı. Bayaqdan səy göstərsə də, cəmi üç pilləkən düşə bilmişdi. Ağrıdan ayaqları tutmurdu. Qabırğasının da sınmasından şübhələnirdi. Öskürdükcə ağzından qan gəlirdi. Qırılmış masanın bəzi iti hissələri onun bədəninə batmışdı. O, on beş-iyirmi yaş böyük biri tərəfindən belə döyüldüyü üçün özündən utanırdı. Üstəlik də, onlar iki nəfər idilər.

Pilləkənlərdən taqqıltı səsləri eşidildi. Braun səksənərək geriyə çəkilmək istədi. İki pilləkən qalxdıqdan sonra üzü üstə döşəməyə yapışdı. Yuxarı qalxan Nurlan onu bu vəziyyətdə görcək qışqırdı:

– Sənə dalını buradan uzaq tutmağını tapşırmışdım! Lənətə gələsən, Qebriel. Tez ol! Qalx!

O, Braundan yapışaraq dizləri üstə qaldırdı, əlinin boynundan keçirib tez qapıya tərəfə qaçdı. Bayıra çıxdıqdan sonra da qaçmağa davam etdi. Çox sürətlə

nəfəs alırdı. Qebriel Braunun da durumu kritik həddə çatmışdı. Onlar evdən yeddi-səkkiz metrə uzaqlaşmışdılar ki, arxadan nə isə onları irəliyə itələdi. Ardınca isə uğultulu eşidildi. Partlayışın təsiri evin ikinci mərtəbəsinə qədər çatdı, qonşu evlərin də şüşələrini xıncım-xıncım etdi. Nurlanla Braunun ayaqları yerdən üzüldü. Partlayışın təsir gücü onları bir neçə metr irəliyə çırpdı.

# 40



## 3 noyabr 19:33

**Ətrafı tüstü bürümüşdü. Qışqırıq səsləri hər yerdən eşidilirdi. Yerdə qan izləri də vardı. Musiqiçilərin səsi kəsilmişdi. Hovard nəyin baş verdiyini dəqiq anlamırdı. Son xatırladığı şey Çinə məxsus əntik mavi vazanı bütün gücü ilə havaya atması idi. Bundan sonra qubernatoru və qızını qorumaq üçün yerə uzatmışdı. O, başını qaldırıb qubernator və qızı Taranın sağ olduğunu gördü. Kiminsə kölgəsi qızın üzərinə düşdü. Qara geyimli mühafizəçilərdən biri əlini uzadaraq qubernatora kömək etmək istəsə də, bu an atəş səsi qulaqlarda zingildədi. Gizli Xidmət orqanının üzvü yerə sərildi. Bu güllə axı haradan gəlirdi?**

– *Heç kəs tərpənməsin!!!*

Səs gücləndiricilərdən ard-arda eyni cümlə səslənsə də, bu göstərişə əməl edən olmadı. İv bundan əsəbiləşərək növbəti düyməni sıxdı. "Getty House" silkələndi. İkinci partlayış evin içində olmuşdu. Birinci mərtəbədə. İlkinə nisbətən dəfələrlə zəif idi. Oradan qaçmaq istəyən insanlar sürprizlə qarşılaşdılar.

– *Axı sizə qaçmaq olmaz dedim!* – İv mikrofona gülümsədi, – *indi isə Tara Sanderlenddən ayaq üstə qalmağı, digər hər kəsin isə yerə uzanmağı xahiş olunur. Yox, əgər tələblərim yerinə yetirilməsə, sizin üçün hazırladığım digər dörd C4 də səsini eşitdirəcək. Diqqətinizə görə təşəkkür. Üç dəqiqəniz var. Billie Jean, səni gözləyirəm. Aaron səni gözləyir, Billie. Bu günün səbəbkarı odur.*

Qəhqəhə...

Teylor nə etməli olduğunu bilmədiyi vaxtda məsuliyyətsizliyi işinə yaramışdı. İv onu döşəməyə yıxdıqdan sonra saatının şüşəsi yenidən çıxmışdı. Saatını təmir etdirməməsi, bəlkə də, onlarla insanın həyatını xilas edəcəkdi. O, saatının dişli çarxını əlini götürərək yapışqan lenti kəsməyə başladı. Artıq əllərini kəsmişdi, ayaqları da hazır idi. Reyçel və İv hərdən ona baxır, tərpənmədiyindən ayaqlarının açıq olduğuna diqqət yetirmirdilər. Ancaq problem Teylorun silahsız olmasında idi. Silahlı bacıların hər ikisini zərərsizləşdirə bilməzdi. Ona görə innovativ addım atmağın əsil vaxti idi. Amma necə?

– Ayağa qalxmayın, – Hovard Tara Sanderlendə pıçıldadı. Qız əsirdi. İndi plan B-nin icrasına başlamaq barədə düşünürdü. Detektiv bayaq atılan güllənin haradan gəldiyini tuta bilməmişdi. Telefonu ilə Teylorla əlaqə saxlamaq istəsə də, cavab verən olmadı, – lənətə gələsən, Frenk! – o, yerə tüpürdü. Pıçıltı ilə saymağa başladı, – bir, iki, üç!

Hovard dizləri üstə qalxdı. Bu snayperin diqqətini çəkəcəkdi. Tapançasını havaya qaldırıb güllənin təqribi gəldiyi hissəyə atəş açıb Taradan əks istiqamətdə qaçdı. Snayperin səsi eşidildi. Güllə arxasından ötərək qazona dəydi. Hovard çərəzlər olan masanı aşırıb arxasın-

da gizləndi. Növbəti güllə masaya tuş gəldi. Detektiv yerdəki mis məcməyini əlinə aldı. Onu masanın qırağından çıxaran kimi növbəti snayper atəşi məcməyini tutdu. Qorxudan Hovard yerində sıxıldı. Burada çox qalmaq olmazdı. Növbəti addımını beynində analiz edib hərəkətə keçdi. Bir daha məcməyini yuxarı qaldırdı, gözlərini sıxaraq mis səthə zillədi. Onun əksində atəşin hansı pəncərədən açıldığını gördü. Snayper növbəti dəfə havaya qalxan məcməyini vuranda Hovard yerə uzanaraq pəncərə tərəfə atəş açdı.

– UMMMMM!

– Ay səni! – İv ilə Reyçel Hovarda görə əyilərək gizlənməli olmuşdular, – Rey, ona nə olub elə? – Teylora baxan İv soruşdu.

– UMMMM! – Teylor yerində əsirdi.

– Bilmirəm, get yoxla, – Reyçel yenidən snayperlə pəncərədən bayıra baxdı, – tez ol, üç dəqiqə dolur.

İv Şilds Teylorun başının üstünə gəlib tapançanı ondan çəkmədən əlini ağzındakı lentə uzatdı. Ayaqlarını açmağa müvəffəq olmuş Teylor, ona badalağ verərək müvazinətini korladı, cəld ayağa qalxıb iki manevrlə tapança üzərində hakimiyyəti qazandı. Onu İvin belinə tuşladı.

– Reyçel, bura qədər! – detektiv çığırdı, – detonatorun pultunu bura at!

– Burax onu! – Reyçel snayperi ona tərəf döndərdi, digər əlində isə C4-ləri uzaqdan idarə edən pult saxlanılırdı, – Frenk, məni səni öldürməyə məcbur eləmə!

– Reyçel, sən məni belə yaxın məsafədən bu oyuncaqla vurmaq istəyirsən? – Teylor başı ilə snayperi işarə etdi, – bacaracaqsansa, buyur, vur.

– Rey, o, səni qorxutmaq istəyir, özünü itirmə! – boğazı Teylor tərəfindən sıxılan və göyərçintək çapalayan İv dedi.

– Frenk, mən səni vurmaq istəmirəm, – Reyçel bacısının sözlərini eşitməmişdi.

– Mən də səni, amma vəzifəmin tələblərinə uymalıyam. Sən isə cinayətkarsan. Axı niyə Reyçel?

– Frenk, sənə nəsə izah etməyin vaxtı deyil. Nə vaxtsa izah etsəm də, məni başa düşəcək deyilsən! İndi isə bizə mane olma!

– Ən azından cəhd eləyə bilərdin. Reyçel pultu at! Artıq gecdir. Hər şey bitib. Buradan çıxa bilməyəcəksiniz. Bitib, Reyçel! Bura qədər!

Reyçel Şilds tərəddüd etməyə başladı. Əynində qara dar kostyum vardı. Bacısı ilə demək olar ki, eyni geyinmişdilər və o artıq bu dar kombinezonda özünü narahat hiss etməyə başlayırdı. Heç verdiyi qərarlardan da o qədər əmin deyildi. Frenkin haqlı olduğunu da bilirdi, amma İvin gözlərindəki qəzəb ona yolundan dönməyə imkan vermirdi. Bir vaxt İndiana məhkəməsində hakim kimi fəaliyyət göstərən Aaron Keyn onların həyatını məhv etmişdi.

– Reyçel, əgər pultu atsan, hələ nəyisə düzəltmək üçün gec deyil, – Frenk dedi, – burax detonatoru.

– İnanma ona, Rey! Hər şey bitib! Biz bunu gözə alaraq bu yola başlamışıq, – İv quduz it tək çığırırdı, – bas, lənətə gələsi düyməni! Hamısını partlat! Onların yeri elə cəhənnəmdir!

Reyçel düyməni sıxdı. Endi Hovard gizlənən tərəfdə növbəti bomba partladı. Bombalar bir-birindən asılı ol-

madığından işləmə mexanizmləri eyni anda hərəkətə keçmirdi. Bu isə Teylor üçün son bir şans ola bilərdi. O, İvi divara çırpdı. Qaçaraq Reyçelın üzərinə atılıb yerə yıxdı. Reyçelin dirsəyindən vurduğu zərbədən sonra pultu saxlaya bilməyib ovucundan saldı. Teylor detonatorları idarə edən pultu götürüb cəld arxasını açdı. Oradakı naqilləri qopardı. Zərərsizləşdirilmiş pultu pəncərədən bayıra atdı. Yerdəki mikrofonu götürüb səs gücləndiricilərə qışqırdı:

– Danışır, detektiv Teylor! Qaçın!!! Qaçın!!!

"Getty House" bağçasında izdiham yenidən canlandı. Hər kəs çıxışa tərəf qaçmağa üz tutdu. Qışqırıqlar isə bu dəfə daha az idi. Görünür, çoxları belə vəziyyətdə qışqırmağın o qədər də düzgün seçim olmadığını anlamışdı. Teylor üzünü pəncərədən otağa çevirdi.

Növbəti atəş səsi. Bu snayper deyildi. İv onu döş qəfəsi ilə çiyin arası boşluqdan vurmuşdu. Teylor yerə sərildi. Tapançasını qaldırmaq istərkən Reyçel onun əlindən təpik vurub zərərsizləşdirdi.

– Axmaq, Teylor! Sən nə etdiyini bilmirsən! Axmaq! – İv yaralı Teylora bir neçə təpik ilişdirdi.

– Sakitləş, İv! – Reyçel bacısını geriyə itələdi, – sakitləş! O, vəzifəsini yerinə yetirirdi!

– Biz illərdir, bu planı qururuq! Sən nə danışırsan? Bizim bu günə gəlməyimizin səbəbi vəzifəsini düzgün yerinə yetirməyən şərəfsizdir.

– Frenk işini görürdü. Keyndən fərqli olaraq işini düz görürdü. İv, məqsəd elə Keyn kimilərə dərs vermək idi. Biz artıq uduzmuşuq. Bununla barışmaq lazımdır. Bura qədər, bacı.

– Amma intiqamımızı bu alçaqdan, məğlubiyyətimizin səbəbkarından ala bilərik!

– Yox! Onunla işin olmasın!

– Nədir? Bir həftəyə sənlə yatan alçaq məndən dəyərli oldu? Sənə onunla yat deyən mən deyildim ki?

Çətinliklə nəfəs alan Teylor bacıların mübahisəsini izləyir və müdaxilə etmirdi. Çıxaracağı təsadüfi səs belə onun başını bəlaya sala bilərdi. Həm indi nəsə fikirləşəcək vəziyyətdə deyildi. On-on beş dəqiqəyə qanaxmanı saxlamasa çox ciddi problemlər yaşayacaqdı.

– Sən ona yalnız oyuncaq kimi lazım idin. Öz məqsədləri üçün səndən istifadə edirdi. Axı niyə anlamırsan, Rey?! – İv divara bir neçə güllə sıxdı, tapançanı yenidən Teylor tərəfə çevirdi, – o da Keyn kimi bizi məhv etməyi düşünür.

– Yox, İv. Yox! – Reyçel tapançanı bacısına tərəfə döndərdi, – eləmə! Frenk bizə pis heç nə etməyib! Onun günahı yoxdur! Son dəfə deyirəm! Silahını aşağı sal.

– Bu alçaq polis sənin üçün məndən daha dəyərlidir artıq! Nə olub? Mənim başıma gələnlərdən sonra bu alçaq polis sənin üçün nə məna kəsb edə bilər axı? Hə, Reyçel?

– İv, mən bir ömür yanında olmuşam. İndi isə səndən yalnız bir şey üçün rica edirəm, Teyloru burax. Mən həyatımı, – Reyçelin gözləri parlayır, yaşla dolurdu, – mən həyatımı sənə həsr etmişəm. İntiqamını almaq üçün hər şeyimdən keçmişəm. Səndən istədiyim şey isə Frenki buraxmağındır. Sənə yalvarıram. Səndən istədiyim tək şey.

– Mənə həsr etmək? – deyəsən, İv bacısının sözlərinin yalnız bu hissəsini eşitmişdi, – hər şeyindən keçmisən, demək! Ay səni ucuz fahişə! İllərdir, mənə qarşı təxribat hazırlayırmışsan sən! Frenklə birləşib məni öldürmək barədə də danışmısan? Hə? Cavab ver, nankor!

– Yox, məni düz başa düşmədin.

– Onda, nə qədər ki hər ikinizi öldürməmişəm, məni başa sal! – bu vaxt onun gözü döşəmənin üzərində ekranı yanan telefona sataşdı. Bu Teylorun telefonu idi. İv götürərək gələn mesajı oxudu, – hə gözəl! Dörd dəqiqəyə bura basqın edəcəklərmiş. Aşağıdadırlar! Qoy, gəlsinlər!

O, çantasını götürərək oradan bir neçə qumbara çıxardı, otağın qapısını azacıq açıb bayıra baxdı. Bombaların hamısının qoruyucusunu qopardı, onları birinci mərtəbəyə düşən pilləkənlərə atdı. Aşağıdan bağırtı və ayaq səsləri gəldi. Ardıycan isə bir neçə partlayış!

– Mənim onları qarşılamağa hələ çox oyuncağım var. Qoy gəlsinlər! Şərəfsizlər! İndi isə sən, Frenk! – o, tam qəti şəkildə hər iki əliylə detektivi nişan aldı.

– İv, mən onu sevirəm! – Reyçel qışqırdı.

– Sevirsən? Bunu? Həyatımızı puç edənlərin təmsilçisini?

– Yalvarıram, İv!!!

– Yalvar. Yalvar, – İv gülümsədi, – sevginin gücüdür, səni yalvardan, Rey.

Teylor açılan atəşdən sonra kürəyi üstə döşəməyə dəydi və huşunu itirdi. Ona soyuq idi. Exolar altında qəribə səslər eşitsə də, onlara reaksiya verə bilmirdi.



# 41

## 2003

**– Qərar verildi. Müəmmalı şərtlər altında baş vermiş cinsi zorakılığa görə on səkkiz yaşı tamam olmamış Ceki Billips və Lyuk Dorvan şəxs başına yeddi aylıq həbs cəzasına məhkum olsunlar! – beləcə, hakim Aaron Keyn verdikti[71] təyin etdi.**

**– Bu, əldə edə biləcəyimiz ən yaxşı nəticədir, – vəkil Bridjet Şildsin qulağına pıçıldadı.**

**– Siz nə danışırsınız? Axı yeddi ay mənim qızımın bir ömürlük ləkəsi yanında heç nədir. Burada ədalət nədədir axı?**

– Sakitləşin, xanım Şilds. Dəlillər sizin xeyrinizə deyil. Hətta İvin onlarla könüllü sürətdə əlaqəyə girdiyini üzə çıxaran faktlar da var.

– Nə cürətlə belə şeylər deyirsiniz?

– Bunu verdikt deyir. Nə edə bilərəm ki?

Bu hadisədən üç ay sonra Bridjet Şilds dözə bilmədi. Övladları səhər yuxudan oyananda analarının onlarla dərman kapsulasını udaraq özünə qəsd etdiyini gördülər. Anaları qızlarını tərk etdikdən sonra həyat daha da çətinləşdi. Vəziyyət o dərəcəyə çatdı

[71] İng. Məhkəmə qərarı.

ki, gecələr iki gənc qızın evlərinə soxulmağa çalışanlar belə oldu. İv azğın oğlanlar tərəfindən müxtəlif ləqəblərlə çağırıldı. Bunlara qarşı heç nə edə bilməyən Reyçel isə ağlını itirdi. Təhsil, iş, bacısı, heç nə istədiyi kimi getmirdi.

Ancaq onlar analarının intihar məktubunda yazdıqlarını bir gün belə olsun unutmadılar. Orada isə bu sözlər əks olunurdu.

*Hər şeyin səbəbkarı hakim Keyndir.*

Aaron Keyn. Axı məhz bu insan ona qarşı törədilmiş cinayətin taleyini dəyişmişdi. Çoxları Keyni mələk hesab etsələr də, mer vəzifəsinə təyin olmamışdan qabaq etdikləri şeytanlıqlardan xəbərsiz idilər. O, rüşvət aldıqdan sonra dəlilləri saxtalaşdırmış, şahid və jürini əlinə ala bilmişdi. Məhz belə kirli işlərin pulu ilə özünə mələk maskası düzəltmiş, karyerasında irəliləmişdi. Ancaq Bridjet Şildsin ölümü Aaron Keynin həyatında yeni səhifə açdı. Təmiz və ağ bir səhifə.

Bəziləri vicdanın izini çox qeyri-adi hallarda tapır. Keyndə bu iz qadının intiharı ilə ortaya çıxmışdı. Bədbəxt hadisə sonrası o, çevrəsindəki qara təbiətli insanlarla yollarını ayırmış, özünü xeyirxahlığa tərəf çevirmişdi. Keyn xeyriyyə aksiyalarının aktiv təşkilatçısı və iştirakçısına çevrilmişdi. İndiananın məhkəmə sistemindəki çatışmazlıqları aradan qaldırmışdı. İvə qarşı törədilmiş haqsızlığın bir daha təkrarlanmaması üçün əlindən gələni əsirgəməmişdi. Reyçeli isə öz yanına əvvəlcə praktikant, daha sonra şəxsi assistent kimi işə götürmüşdü. O, bu hərəkətləri ilə vicdanı-

nın hayqırığını susdurmağa çalışsa da, daxilindən gələn dəhşətli səsin heç vaxt kəsilməyəcəyini bilirdi. Həqiqəti bilməsələr də, Reyçel və İv həmişə onları bu hala gətirən səbəbə, səbəbkara nifrət edəcəkdilər və belə də oldu.

Qızları saxlayan isə elə bu intiqam hissi idi. Onlar gecə-gündüz çiyin-çiyinə vuruşdular. Təslim olmayıb həyatla dirənməyə çalışdılar. İv Maykl Ceksonun cinsi zorakılıqda ittiham olunmasına qarşı qaldırılmış kompaniyaya qoşuldu. Mer Aaron Keynin Cekson üçün bu qədər canfəşanlıq etməsi onu daha da heyrətləndirir və qıcıqlandırırdı. Bu kimi digər xeyirxah əməllər bacıların qəzəbini daha da alovlandırırdı. Ancaq çarəsiz bacılar nə etməli olduqlarını bilmirdilər.

Bir günədək. Yeni ümid yanan günədək.

Gözlənilməyən bir anda isə Şon gəldi.

Onların heç gözləmədiyi bir vaxtda Şon gəldi. Məhz bundan sonra hər şey dəyişdi. Gecələrdən birində onların qapısı döyüldü və həyatlarında yeni qapı açıldı. Ümid işığı olaraq düşündükləri qapı.

– Bu qədər ildir harada idin? – Reyçel onunla ilk görüşlərində soruşdu.

– Çox şey var danışılası. Bridjet hanı?

Bu qısa dialoq onların bütün həyatını dəyişdi. Şon, İv və Reyçel birlikdə planlar qurmağa başladılar. Şon Şilds iki il sonra ailəsinin yanına geri qayıtmışdı. Onun İraqda öldüyü xəbəri ailəsinə çatsa da, əslində əsir düşmüş və uzun müddət ətraf mühitdən təcrid olunmuşdu. Sonra isə amerikan qoşunlarının İraq qüvvələrindən birinin qərərgahına basqın etməsi

ilə Şon və daha bir neçə ölmüş hesab olunan əsgər xilas olunmuşdu. Sevinc içində ölkəsinə dönən Şon burada baş verənləri gördükdən sonra isə sözün əsl mənasında dəhşətə gəldi.

Müharibədə qana susadığından hələ həmin gecə qızlarına qisas almalı olduqlarını dedi. Həyat yoldaşı onun bu həyatda geridə qalan ən böyük xəzinəsi idi. O, Keyni öldürməyi düşündüyü bir anda İvi başqa bir təklif irəli sürmüşdü. Onlar Keyn öldürməməli, İv saldığı vəziyyətə gətirməli idilər. Bədənini yox, ruhunu öldürməli idilər. Zərrə qədər də tələsmir, ideal plan barədə düşünürdülər.

Şon qayıdan ilk gecə qızlarıyla o bir neçə qərar qəbul etdilər. Birincisi, gərək, heç kəs Şonun qayıdışından xəbər tutmasın. İkincisi, İvi insanların təhqirlərindən xilas etmək lazım idi. Bunun üçünsə onlar İvin psixoloji travma sonrası iflic olduğu xəbərini yaydılar. Ataları elə həmin gecə İndiananı tərk etdi. Qızlar isə plana uyğun hərəkətə başladılar. Mütəmadi əlaqə saxlayan ailə ideal planın özül daşlarını atdı.

Reyçel bacısı ilə atasının hərəkətlərinə bəraət qazandıra bilməsə də, həyatda sahib olduğu tək qohumlarına qarşı gəlmək istəməzdi. Könülsüz də olsa, ailəsinin yanında dayanmalı idi. Hətta bir gün o, İvlə söhbət edib bacısını bu fikirlərdən döndərməyə də çalışmışdı.

– Bəs birdən biz belə etsək, nəticə necə olacaq? Sonra başımıza nə gələcək?

– Rey, nə fərqi var ki? Əsas odur, ananın qanı yerdə qalmayacaq. Biz isə həyatımızı alt-üst etmiş şəxsdən qisasımızı alacağıq. Bundan gözəl nə ola bilər axı?

– Qisas alandan sonra nə olacaq bəs? Həm qisas alırıqsa, niyə gedib onu öldürmürük ki?

– Reyçel, atanın da dediyini yadına sal, o, əsirlikdə olanda bəzən ölümün gözəl hədiyyə olduğunu düşünüb. Ona görə də biz Keynə bu xoşbəxtliyi yaşatmamalıyıq.

– İv, hər şeyi yenidən başlayıb köhnə səhifələri həyatımızdan silə bilərik. Sən, mən, ata.

– Yox! – bacısı özündən çıxaraq masaya yumruq vurdu.

– Yaxşı. Sakitləş, İv. İndi planda nə var?

– Atayla mən planı qururuq. Bizə qarışmaq əvəzinə isə sən alçaq Keynin yanında olub məlumat toplamağa davam et.

– Oldu, İv.

Bundan sonra bir neçə il Reyçellə ailəsi bu söhbətə qayıtmadılar. Hətta Reyçel onların bu söhbəti unutduqlarını belə düşünmüşdü. Əslən Kaliforniya ştatından olan Keyn mer vəzifəsinə yüksəldi. Onlar Los-Ancelesə köçdülər. Şon isə artıq üç ilə yaxın idi ki, "Yaşıl Əjdahalar" adlı çinli bandayla çalışırdı. O, kontrabanda işləri ilə məşğul olur. Suvenir, kolleksiyoner əsərləri adı ilə ölkəyə daxil olması əməliyyatlarında iştirak edirdi. Bəzən balaca bir heykəlin daxilində bir kiloya qədər ağ toz keçirilirdi və yaxud tamam fərqli məişət sahələrinə aid əşyalar. Pillələri uğurla qalxmağı bacaran Şon bandada özünə məxsus reputasiya yarada bilmişdi.

Onların bir neçə ilə bağlı saxladığı mövzu isə il yarım əvvəl yenidən açıldı. Reyçelin ən pis kabu-

su yenidən onu izləməyə başladı. O, bir gün evə qayıdarkən bacısı ilə atasını televizor qarşısında nəsə izləyərkən gördü. Bu Kortes qardaşlarının ad günü şənliyinin yazısı idi. Şonla İvin qarşısı notbuk, vərəqlər, müxtəlif rəngli qələmlərlə dolu idi.

– Burada nə baş verir? – Reyçel gülümsəyərək soruşdu

– Bura bax, – Şon pultla yazını bir az qabağa çəkdi. Orada Kortes qardaşları qonaqları ətrafına yığaraq bir-birlərinə sağlıq deyirdilər. *"Qardaşım, sən həmişə nömrə bir olmusan və bu mahnı kimi də həmişə nömrə bir olaraq qalacaqsan. Sən axı PİS nömrə birsən."* – mahnını eşidirsən?

– Hə, ata, Maykl Cekson oxuyur, – Reyçel çiyinlərini tərpətdi.

– Haqlısan, – İv hiyləgərcəsinə gülümsündü.

– Bəs sonra? Heç nə anlamıram.

– Deməli, Rey, bu mahnı nömrə birdir sözünü eşitdin.

– Aha.

– Bu mahnı, həqiqətən də, nömrə birdir. Üstəlik, bizim illərdən bəri üzərində işlədiyimiz planın əsası. Biz tapdıq, Rey. Tapdıq! – İv gülümsündü, – bu qardaşlar da nömrə birdirlər.

– Nəyi tapdınız? – qeyri-ixtiyari şəkildə Reyçel də gülərək soruşdu, nə nömrə biri?

Beləliklə, onlar "NÖMRƏ BİRLƏR" planının özülünü qoydular. Evin zirzəmisi əsl əməliyyat otağına çevrildi. Hazırlıqlar görüldü. Mer Aaron Keynin kabusunun ilk tikişləri atıldı. Qubernatorun qızının do-

ğum tarixi məlum olduqdan sonra isə onlar planın icrasına köklü şəkildə başladılar. Korteslər isə bu intiqam planının ilk qurbanları oldular.

Reyçel donurdu. Soyuq sümüklərinə işləyirdi. Həyatının sona çatdığını bilirdi. Bundan sonra nələr baş verəcəkdi? O və İv bundan xəbər tutmayacaqdılar. Onlar öz missiyalarını yerinə yetirmişdilər. Artıq bu dünyanı tərk eləməyin vaxtı gəlib çıxmışdı. O, son sözlərini Endi Hovarda dedikdən sonra əlavə etdi.

– Poet onu sevir...

# 42

## 6 noyabr

*Los-Angeles Times.*

***"NÖMRƏ BİRLƏR"dən sonra Mer istefa verir.***

*Dünən Los-Anceles merlərinin iqamətgahında, "Getty House"da tədbir faciə ilə nəticələnib. Mer Aaron Keynin təltifl ənmə mərasimində üst-üstə bir neçə partlayış baş verib. Üçü polis olmaqla yeddi nəfər dünyasını dəyişib. Çoxlu sayda xəsarət alan var. Cinayətin təşəbbüskarları Reyçel və İv Şilds bacıları olub. Qeyd edək ki, Reyçel Şilds uzun illər Aaron Keynin assistenti kimi çalışıb. LAPD rəsmilərinin verdiyi məlumatlara görə Şilds bacıları son iyirmi gündə baş verən "NÖMRƏ BİRLƏR" cinayətinə görə də məsuliyyət daşıyır. Dünənki mərasimdə isə onların hədəfi Maykl Ceksonun ən məşhur mahnısı hesab edilən Billie Jean nömrə biri olub. Bacılar qurbanlarını xüsusi sxemə əsasən seçirdilər. Maykl Ceksonun albomlarının buraxılış ili qurbanların təvəllüdü ilə üst-üstə düşür. Orijinal albomdakı mahnının nömrəsi və onun Ceksonun neçənci nömrə biri olması isə qurbanların uyğun olaraq doğum ayı və günü ilə eynidir. Məsələn, Billie Jean səksən ikinci il albomu olan "Thriller"ə daxildir. Mahnı məşhur albomun beşinci single'dır. Beşinci mahnı isə ilin beşinci ayı mayla cütləşir və qeyd etmək lazımdır ki, Billie Jean Maykl Ceksonun sayca dördüncü*

*nömrə bir mahnısıdır. Yəni Billie Jean cinayətkarının doğum tarixi belədir: 04.05.1982. Bu tarixdə çoxları dünyaya göz açıb, ancaq cinayətkarın hədəfi mer Klaiv Sanderlendin qızı Tara Sanderlend olub, lakin o xanımın yerində hər birimiz ola bilərdik. Gəzən bəzi şayiələrə görə Şilds bacılarının mer Aaron Keynə qarşı uzun illərdən bəri şəxsi ədavəti olub. Mer Keynin Reyçel Şildslə eşq macərası yaşadığını deyənlər də var. Ən maraqlı təsadüf isə Tara Sanderlendin doğum tarixinin Maykl Ceksonun ən məşhur mahnısı ilə üst-üstə düşməsidir. Dinə inananlar arasında artıq bunun Tanrı tərəfindən göndərilmiş bir işarə olduğunu deyənlər də var. Onların fikrinə görə əgər belədirsə, Aaron Keyn, həqiqətən də, bunlara layiq biri olub.*

*Mer Aaron Keyn isə bu səhər istefa verib. Açıqlama verməyən köhnə mer öz qısa nitqində yalnız bu cümləni deyib: Bağışla məni, Bridjet." Bridjet isə Şilds bacılarının anasının adıdır. Həmin qadın 2003-cü ildə yataq otağında ölü tapılıb. Ölüm səbəbi olaraq isə artıq dozada dərman qəbulu göstərilir. Mer Keynin məhz ondan üzr istəməsi isə şübhələri daha da artırır. Görəsən, bütün bu hadisələr arxasında gizlənən həqiqət nədir? İllər boyu Mələklər şəhərinin qəhrəmanı olan şəxsin keçmişində başqa hansı sirlər gizlənir?*

*Dünən onlarla insanın xilaskarı isə LAPD detektivləri Frenk Teylor və Endi Hovard olub. Teylor öz həyatını riskə ataraq bacıların əlindəki pultu onlardan ala bilib. Bununla da bombaların aktivləşməsinin qarşısını alıb. Sonra isə bacılarla mübarizəyə başlayıb və uğursuz olub. Xüsusi təyinatlılar həmin otağa daxil olanda artıq gec idi. İv və Reyçel Şilds xüsusi təyinatlılar tərəfindən zərərsizləşdirilib. Ağır yaralı Teylor isə dərhal xəstəxanaya çatdırılıb.*

Elizabeth Nikolz dəfələrlə gözdən keçirdiyi iki günlük məqalənin bundan sonrakı hissəsini oxuya bilməyib qəzeti bir kənara atdı. Əlləri ilə üzünü tutub ağlamağa başladı. Frenkin bu halını təsəvvür edə bilmirdi. Son üç gündə komada olan Frenkin vəziyyətində hələlik bir inkişaf hiss olunmamışdı. Cessika Mur başda olmaqla bütün polis idarəsi işçiləri və Teylorun yaxınları xəstəxananın qarşısında növbə qurmuşdular. Nikolz isə bir saniyə belə olsun xəstəxanadan ayrılmamışdı. Qəzetin köhnə nömrəsini oxuduqdan sonra vəziyyəti daha da korlanan Nikolz göz yaşlarına qərq olaraq qəlbində sevdiyi şəxs üçün dua etdi.

Lakin bəzən dua etmək kifayət etmirdi.



# Epiloq

**Endi Hovard dostunun qəbir abidəsinin yanında oturub gülümsündü. Əlini abidənin üzərində sürüşdürərək daşın tozunu götürdü.**

**– Hə, Frenk. Deməli, qoy mən başlayım.**

**Cavabında heç bir şey eşidilmədi. Hovard yenidən gülümsədi, cibindən fəxri medalı çıxarıb qəbir daşına yaxınlaşdırdı.**

– Dostum, sən çox şeydən xəbərsizsən. Vaxtımız da çoxdur. İndi sənə hər şeyi danışacağam. Reyçel Şilds və bacısı İv Şilds. Bütün işlərin səbəbkarları. Cinayətkarların planının özülü Korteslərin nömrə bir olduqlarını deməsi ilə qoyulub. Onların Bad mahnısına uyğun gəldiyini görən Reyçel Korteslərin "City Hall"da yerlərini dar edib. Onun iki tərəfli oyunu nəticəsində daxilən o qədər də təmiz olmayan Kortes qardaşları oğru adını qazanıblar. Amma məncə onların da üstü açılmamış sirləri var. Nə isə. Əkizlər işdən qovulduqdan sonra isə Reyçel onları necəsə "Yaşıl Əjdahalar"la görüşdürüb. Sonrasında isə Reyçel və İv planı həyata keçirməyə başlayıblar. Növbə ilə *"NÖMRƏ BİRLƏR"*ə uyğun insanlar öldürülüb. Günah əvvəlcə Korteslərin sonra isə Stivensin boynuna atılıb. Xoşbəxtlikdən, Stivens artıq yaxşı vəziyyətdədir.

Kamera yazıları barədə də məlumatlar yığmışıq. Reyçelin merin kabineti daxil, hər yerə girmə hüququ olub. “Los-Angeles City Hall”un qonşusu olan LAPD baş idarəsinin sisteminə girməkdə isə bacılara Neş kömək edib. İvin Reyçelin bacısı olduğundan xəbərsiz olan Neş qadınla eşq yaşayıb. Qadınlar isə bildiyin kimi çox təhlükəli varlıqlardır. Neş əvvəlcə sistemə daxil olaraq İvin bir neçə xahişini yerinə yetirib, bir müddət keçdikdən sonra şeytani planların nə olduğunu yavaş-yavaş anlamağa başlayıb. Hətta o, qubernator barədə İvin götürdüyü qeydləri də tapıb. Bundan ehtiyat edən İv isə onu ailəsi ilə şantaj etməyə başlayıb. Beləliklə, sistemi öz idarəsi altına almağı bacarıb. Neşin işə götürülməsinin də maraqlı tarixi var. Nevadada çalışan bir texniki təchizatçının Los-Ancelesə işə düzəlməsi təsadüfi deyil. Üstəlik də, Kanadadan Nevadaya köçmüş bir texniki təchizatçının. Bacılar bu iş üçün özlərinə nömrə bir axtarıblar və nəticədə ortaya Neş çıxıb. Onu işə götürən də Reyçel özü olub, lakin sonradan şübhələrin yaranmaması üçün İv Neşə Reyçelə təcavüz etmək əmrini verib. İşini bitirdikdən sonra isə Neş özünü atmalı idi, lakin bildiyin kimi mən onu xilas etdim. MOLE və digər şeylər isə heç vaxt mövcud olmayıb. Yox, köstəbək, əlbəttə ki, Reyçel idi. Digər tərəfdən də, Nurlan polis idarələrinin kiber-müdafilərini pulsuz yoxlamış oldu. Hə, mövzudan kənar da olsa, Nurlanı tanıdığımıza çox sevindim. Adını eşitmədiyim Azərbaycanın paytaxtının indi Bakı olduğunu bilirəm. Nurlan bizi qonaq çağırır ora. Bəlkə də, bir gün ora da yolumuz düşdü. Nə isə. Qayıdaq, əsas mövzuya.

Sonra isə işə biz girişdik. Vəziyyət daha da qəlizləşdi. Ancaq bir neçə şeyi gözdən qaçırmışıq. Rebekka Bilin gündəliyində adı çəkilən məşuqun kişi olması heç bir yerdə vurğulanmır. Rebekka isə cinsi əlaqədə kişiləri tərcih edib. Qadınla ilk dəfə əlaqədə olmasını isə gündəliyindən belə gizlədib. Özün başa düşürsən də, – Hovard pivəsindən bir neçə qurtum vurdu, – bundan sonra nələrin olduğunu isə xatırlayırsan. Karenn Keycin çantasının üzərindən Stivensə məxsus saç nümunələri tapılanda biz şübhələnməli idik. Axı bu qədər təmiz işləyən cinayətkar belə səhvlər buraxmaz, amma axmaqlıq etmişik. Razısan, Frenk? – cavabında yenə heç bir şey eşitməyən Hovard pivəni başına çəkdi, içib qurtardıqdan sonra ağzını sildi, – onun evində tapılan şəkillər və qəzetlərdən məqalələr isə İvin növbəti hiyləsi olub. Görünür, Reyçel Stivensə xidmətçi axtarmaq barədə kömək təklifi edib. Ya da başqa bir şey. Bunu öyrənə bilmədim. Stivens yaxalanan vaxt isə İv onun evində lövhəni doldurmaqla məşğul olub. İzabellaya İvin şəkli göstərildikdə onun məzəli önlüklü xidmətçi simasında evə girib çıxdığı fikri öz təsdiqini tapıb.

Təltifləndirmə mərasimində isə onlar M.J-in ən məşhur mahnısı ilə nöqtəni qoyacaqdılar. Reyçel merə qubernatora hədiyyə olaraq çin vazasını təklif edib. Sonra isə onu partlayıcı C4 ilə doldurub tədbir məkanına keçirib. Belə bir şeyi yoxlamaq heç kəsin ağlına gəlməyib. Nə də olsa Reyçel “Getty House” sakinlərinin və işçilərinin inandığı üzlərdən olub. Ancaq, mənə hələ də onların “Yaşıl Əjdahalar”la necə əlaqə yaratdığı maraqlıdır. Ora telefonun necə keçirildiyini bilmirəm. Üçüncü bir adamın onlara kömək

etdiyini bilirik, çünki Nurlanla Qebriel bacıların evini yoxlamağa getdikdə bir kişi ilə qarşılaşıblar. Həmin adam isə bizimkilərin dərsini nəyi var ki, verib. Nəticədə bütün dəlillərlə birlikdə Şildslərin yaşadığı ev havaya uçub, adam aradan çıxa bilib. Xarici görünüşünün təsviri bizimkilər tərəfindən verildikdən sonra onun axtarışına başlamışıq, amma, məncə, üçüncü şəxs bundan sonra hərəkətə keçməyəcək. Açığı, bu barədə düşünəcək halda da deyiləm, amma bacıların məqsədi yalnız merdən qisas almaq olmayıb. Onlar nəyisə dəyişmək istəyirdilər. Aaron Keyn ilə hadisədən bir gün sonra söhbət etmişdim. O, mənə bəzi şeyləri etiraf edib. İvə təcavüz edənlərdən biri polis akademiyasında təhsil alıb və layiqincə cəzalandırılmayıb. Ümumiyyətlə, İv Şildsin işinə çox barmaq arası baxılıb. Analarının ölümündən sonra isə Keyn vicdan əzabı çəkib və universitetitdə zorla oxuyan Reyçeli öz qanadı altına götürməyi, qızlara sahib çıxmağı özünə borc bilib. Eyni zamanda, maraqlısı odur ki, o, bacıları etdiklərinə görə zərrə qədər də olsa, qınamır. Biz Reyçel, İv və Frenk olan otağa daxil olanda qəzetlərdə yazılanların heç biri olmamışdı. Sən Frenk və İv qanlar içində yerdə yatırdınız. Reyçel isə əlində tapança başını sığallayırdı. O da yaralı idi. Vəziyyət də digərlərindin heç də yaxşı deyildi. Bizi görəndən sonra sakitcə mənə baxdı. Gözlərində kədər, əzab və qəzəb görürdüm. Amma bu parıltılarda sevgi çalarları da əks olunurdu. İvlə Frenk oradan çıxarıldıqdan sonra o, mənimlə tək qalmaq istədiyini dedi. Qaydalara görə belə şeyə izn verilməsə də, Riçmondun köməyi ilə mən Reyçelin son arzusunu reallaşdıra bildim.

Hovard növbəti pivə bankasını açıb bir neçə qurtum aldı.

– Həmin andan bir aydan artıq vaxt ötməsinə baxmayaraq hər şey yadımdadır. O, dedi ki, İv pis qız deyil. Gülümsəyirdi. Məndən ilk baxışdan xoşu gəlmirmiş sən demə. Sonra isə mənim və Frenk Teylorun tanıdığı ən yaxşı polislər olduğunu anlayıb. Kortes qardaşlarının *"NÖMRƏ BİRLƏR "* fikrini mənlə bölüşərək güldü. İvi vurmağa məcbur qaldığını dedi, çünki əks-halda vəziyyət daha da pisləşə bilərdi. Lakin bacıların duelində hər ikisi zərər çəkmiş, bir-birlərini vurmuşdular, ancaq Reyçel daha üstün tərəf olub. Nə qədər haqlı olduğunu bilməsəm də, dediyinə görə o, heç bir cinayəti törətməyib. Hər şeyi İv edib. Son cümləsi isə belə idi, – Hovard üzünü qəbir daşına tərəf çevirdi, – Frenkə de ki, Poeti oxusun, – kiçik bir fasilə ortalığa çökdü, – nə isə. Amma deyim ki, onun ölməyini istəmirdim. Nəbzi vurmasa da, qucağımda onu təcili yardım maşınına apardım, amma gec idi. Buradan çıxardığım ən böyük nəticə bilirsən nə oldu? – kiçik bir pauza, – bəzən günahsız insanlar başqalarının günahlarına bilərəkdən şərik olurlar. Reyçel də belə insanlardan idi. Nə isə. Bunları düşündükcə beynim daha da dumanlanır, cavabını tapa bilməyəcəyim suallar ortaya çıxır.

*"NÖMRƏ BİRLƏR"* əməliyyatında göstərdiyi xidmətə görə LAPD-dən üç nəfər mükafatlandırılıb. Bildiyin kimi biri mənəm, – Hovard boynundan asdığı medalı qaldıraraq işarə etdi, – ikincisi Frenk. Üçüncü isə sən. Sənsən, Stiv.

– Biz səni heç vaxt unutmamışıq, Stiv, – qəbirin digər tərəfində bayaqdan susan Teylor danışdı, –

mənim vəziyyətim bir az ağır idi, ona görə də gec gəldik, amma indi hər şey əladır.

– Frenk, bəsdir, çərənlədin. Stivin medalını ver. Onsuz da, mən səhərdən yoruram onu.

Qolu sarğılı olan Teylor medalı ona uzatdı. Hovard qəbirin yanında əli ilə kiçik bir çuxur qazdı. Ferrellin mükafatını ora atdıqdan sonra açılmamış pivə bankasını da onun yanına yerləşdirdi. Yenidən çuxurun üzərinə torpaq tökərək əşyaları qəbrin yanında basdırdı.

– Pivəni medalı bayram etməyə bir şey olsun deyə atıram, – Hovard güldü.

– Amma bax ha, Stiv, dozanı qaçırma, – Teylor dedi, – nə də olsa, sən polissən və həmişə elə olaraq qalacaqsan. Həmişə Hanna və övladlarının qəhrəmanı olan polis kimi qalacaqsan.

Gülüşdükdən Ferrellin şərəfinə pivələrini bitirdilər. Hər ikisi qəbir daşını öpdükdən sonra Hovard Teylora ayağa qalxmağa kömək etdi. Vəfat etmiş dostları ilə sağollaşdıqdan sonra detektivlər oradan ayrıldılar. Onların arxasınca qəbirstanlığa gəlmiş orta yaşlı, ağ saçlı və üzü çapıqlı şəxs Ferrellin məzarının üstünə gəlib, bir neçə saniyə qəbir daşını seyr etdikdən sonra gözlərində xırda bir parıltı əks olundu. Parıltı, hansı ki, onun son illər daşıdığı yükü üzərində daşıyırdı. Həmin parıltı ki, bundan sonra daha heç bir məna kəsb etməyəcək, heç nəyi dəyişməyəcəkdi.

O, SAY SAY SAY mahnısını pıçıltı ilə zümzümə edərək oradan uzaqlaşdı və daxilindən gələn bir qüvvənin təsiri ilə gülümsündü.




# Fərid Hüseynli
# Zamanın göz yaşları

2107. Bizdən çox uzaqda görünən bir gələcək. Çox fərqli bir mühitdə, qeyri-adi texnologiyaların mövcud olduğu bir dövr. Tək oxşarlıq isə insanların yenə də öz çirkin əməllərindən geri çəkilməmələridir. Məhz buna görə də insanlıq bəşəriyyətin sonunun astanasındadır. Bu böyük təhlükənin isə qarşısını yalnız bir nəfər ala bilər. Yalnız bu şəxs insanlığın ümid işığı ola bilər. Planetimizin tək ümidi olan Fred Cekson adlı bir gəncin zamana qarşı amansız mübarizəsi. Bu çətin tapşırığın öhdəsindən gəlməyə çalışarkən Fred Cekson daha hansı sürprizlərlə üzləşəcəyindən xəbərsizdir. Çünki hər şey düşündüyündən daha dərin və gözlənilməzdir...

Nyu-Yorkdan Marsel küçələrinə, Monakodan Sinqapura qədər uzanan nəfəs kəsən bir macəra. Vaxt irəliləyir. Keçən hər saniyə zamanın göz yaşlarıdır...